ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2020
№3/4 (57/58)

BAKI-2020

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırılі (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının
Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan
Respublikasının dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
İctimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2020
№3/4 (57/58)

BAKU-2020

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The socio-political, scientific-theoretical journal is published six times a year.

UOT 327: 140.8

Siyasi elmlər

# İRAN-İRAQ MÜHARIBƏSİ (1980-1988) HƏRBİ-SİYASİ VƏ İDEOLOJİ NƏTİCƏLƏR

**ELDAR ƏMİROV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent.*
*Azərbaycan Dillər Universiteti*

*E-mail: eldar.ado.85@mail.ru*

**Giriş**

1979-cu ildə İranda baş vermiş İslam İnqilabından sonra bu ölkənin xarici siyasətində kardinal dəyişiklər sürətlə özünü göstərməyə başladı. Baş verən transformasiyalar təkcə İran-Qərb münasibətlərinə deyil, həmçinin də Tehranın öz qonşuları ilə əlaqələrinə də sirayət etdi. İranın ənənəvi olaraq gərgin münasibətlərdə olduğu ərəb dövlətlərindən biri də İraqdır. Hələ Pəhləvi rejimi dövründən etibarən Tehranla Bağdad arasında münasibətlər kifayət qədər gərgin olmuşdur. Əsasən ərazi mübahisələrilə müşaiyət edilən gərginliyin ideoloji təməlində isə çoxəsrlik ərəb-fars qarşıdurması dayanırdı desək, səhv etmiş olmarıq. Həmçinin İran İraq ərazisini ənənvi olaraq özünün təsir dairəsi kimi nəzərdə keçirmişdir. Bu torpaqlar Səfəvilər və Əfşarlar zamanında da bu sülalələrin Osmanlı dövlətilə davamlı olaraq hərbi münaqişədə olduğu ərazilər sırasına aid idi. [2, s. 8-18].

XX əsrdə müstəqil İran və İraq dövlətləri formalaşdıqdan sonra isə tərəflər arasındakı bütün gərginliyə baxmayaraq problemlər heç zaman açıq və uzunmüddətli müharibə müstəvisinə keçməmişdir. Belə ki, 1960-cı illərdən başlayaraq, İran və İraq arasındakı münasibətlərdə mütəmadi olaraq ərazi və su problemləri özünü biruzə verirdi. Əsas münaqişəli məsələlərdən birini Şəttul-ərəb çayının suyundan istifadə problemi təşkil edirdi. Amerikanın hərbi və siyasi dəstəyilə 1969-cu ildə şah hakimiyyəti 1937-ci ildə imzalanmış və İraqın Şəttul-ərəb çayı üzərindəki birtərəfli nəzarətini özündə ehtiva edən müqavilədən çıxdı. İki il sonra isə Hörmüz boğazının yaxınlığında yerləşən Əbu Musa, Böyük və Kiçik Tobm adaları İranın nəzarətinə keçdi. Tərəflər arasında daha bir gərginlik 1978-ci ildə yarandı. Həmin vaxt İrandakı dini dairələrin lideri, inqilabın gələcək rəhbəri Ayətullah Xomeyni şahın tələbilə İraqın Nəcəf şəhərindən çıxarıldı. Şah hakimiyyəti onu İranın ictimai-siyasi sabitliyinə təhlükə olaraq görür, İraq hakimiyyətində dərhal tədbir görülməsini tələb edirdi. İraq bu tələbin qarşısında da geri çəkilmək məcburiyyətində qaldı.

**İranda İslam İnqilabı və onun İran-İraq müharibəsinin başlanmasına təsiri**

Şah rejiminin devrilməsindən və İran Xomeyni ideyalarının qələbəsindən sonra Tehran İslam İnqilabının ixracı siyasətini prioritet elan etdi. İranın başlıca hədəfləri sırasında şiə icmasının çoxluq təşkil etdiyi qonşu İraq xüsusilə vacib yerə malik idi. İranın şiə təşkilatları və din xadimlərinin vasitəsilə davamlı olaraq İraqın daxili işlərinə müdaxilə etməsi, İraq hakimiyyəti tərəfindən aqressiv qarşılanmışdır. Digər tərəfdən isə, Qərb ölkələrinin təhrikilə İraq İrana münasibətdə olduqca barışmaz mövqe tutmağa başlamışdı. Hərbi tədqiqatçı M.M.Slinkinin vurğuladığı kimi Qərb ölkələrinin və İsrailin İran-İraq münasibətlərindəki gərginliyi öz lehinə daha da dərinləşdirmək istiaqamətindəki ardıcıl fəaliyyəti nəticəsində ziddiyyətlər 1980-ci ildə genişmiqyaslı müharibənin alovlanması ilə nəticələndi. [1; s.67].

Müharibə ərəfəsində İraq rəhbəri Səddam Hüseyn İranın ölkə işlərinə müdaxiləsinə cavab olaraq nümayişkəranə şəkildə Xomeyninin son iqamətgahını uçurulmasına, onun nümayəndələrini iraqdan çıxarmağı və İraq hökumətinə müxalif hesab edilən, nüfuzlu şiə alimi Məhəmməd Baqir Sədrin həbs edilməsinə göstəriş verdi. 1979-cu ilin yay ayında tərəflərin diplomatik səyləri nəticəsində münasibətlər qismən normal vəziyyətə dönsədə, həmin ilin payızında İraqda şiələrin yenidən fəallaşması gərginliyi yenidən artırdı. Bağdad bu fəallaşmanın İranın təhriki baş verdiyini bildirdi. Cavab olaraq Səddam Xomeynini tənqid edərək, İranı Bağdadın daxili işlərinə kobud müdaxilədə ittiham etdi. Həmçinin o, İrandan şah zamanında ələ keçirdiyi üç ada üzərində hakimiyyətdən əl çəkməsini və İranda yaşayan milli azlıqlarla, o cümlədən ərəblərlə yaxşı davranmağı tələb etdi. [3;

s. 175-184].

Xomeyni də öz növbəsində bu ittihamları cavabsız qoymadı. Çıxışlarının birində o, Səddam Hüseyni Şah kimi özünün qeyri islami və qeyri insani simasını göstərməkdə ittiham etdi. Həmçinin o, bəyan etdi ki, Səddam müqəddəs Nəcəf elmi hövzəsinə qarşı hücuma keçmiş, C.Karterin razılığını əldə etmək üçün məzlum müsəlman xalqı ilə monqollar kimi qəddarcasına davranır. Səddam İslam alimləri ilə, ələlxüsus da Ayətullah Məhəmməd Baqir Sədr ilə Rzaxan və Məhəmmədrza Pəhləvinin alimlərlə davrandığı kimi edir. O bilməlidir ki, anti islami əməlləri ilə öz qəbrini və bəəs qeyri-qanuni və qeyri-insani qəbrini qazmışdır.

1979-cu ilin noyabr ayında Tehran Fars körfəzi hövzəsində yerləşən ərəb ölkələrində yaşayan şiə azlıqlarına hesablanmış radio təbliğatını gücləndirdi. Təbliğat əsasən ərəb ölkələrində mövcud rejimlərin tənqidi üzərində qurulmuşdu. İslam Respublikası bölgədə Tehrandakı rejiminə bənzər hakimiyyətin qurulmasına çağırış edir, şiə əhalisini mövcud iqtidara qarşı çıxmağa çağırırdı. İranın bu addımları şiə əhalisi arasında radikallığı əhəmiyyətli dərəcədə artırdı. Bunun müqabilində Körfəz ölkələrilə yanaşı, İraq da siyasi zorakılıqları artırmağa başladı. Kəskinləşən münasibətlər fonunda İraq rəsmlərinə qarşı, o cümlədən ölkənin baş nazirinin müavini Tariq Əzizə qarşı sui-qəsd həyata keçirildi. Bu hadisələrin arxasında İraqın "Hizbut-dəvət" partiyası dayanırdı. Cavab olaraq İraq hakimiyyəti ölkədə yaşayn bir qrup nüfuzlu şiə ruhanisini sürgünə göndərdi. Bəziləri isə qətlə yetirdi. Öldürülənlər arasında nüfuzlu şiə alimi Məhəmməd Baqir Sədri və onun bacısı da var idi. Öz növbəsində rəsmi Tehran İranın o zamankı baş naziri Qütbzadəyə qarşı sui-qəsdin həyata keçirilməsində İraqı ittiham etdi.

1980-cı ildə sərhəd qarşıdurmaları fonunda İran-İraq münasibətləri korlandı. Sentyabrın əvvələrində İraqın İranın iki kəndinə hücum etməsindən sonra, Səddam Hüseyn Tehrandan ərazi iddialarına son qoyulmasını tələb etdi. İranla İraq arasındakı ərazi münaqişələrini tənzimləyən 1975- ci il Əlcəzair müqaviləsinin məzmunu haqqında tərəflər arasında yenidən müzakirələr başladı. 17 sentyabrda Səddam 1975-ci il Əlcəzair müqaviləsini İran tərəfindən tanınmadığını əsas gətirərək, İraqın da bu müqaviləyə əməl etməyəcəyini bəyan etdi. İranın Səddamın bu iddiasını təkzib etməsinə baxmayaraq, 22 sentyabrda İraq təyyarələri İranın hava məkanını pozaraq, böyük şəhərləri, o cümlədən Tehranı bombardman etdilər. Digər tərəfdən də İraq İranın Xuzistan vilayətindəki neft mədənlərini ələ keçirmək istiqamətində genişmiqyaslı hücuma başladı. İraq düşünürdü ki, bu hücumlardan sonra İran onun daxili işlərinə qarışmayacaq, Fars körfəzi regionunda isə nisbi sakitlik yaranacaq. Həmçinin İran İraqla olan ərazi mübahisələrinə birdəfəlik son qoyacaq. İran ərazisində irəlilədikcə, Səddam düşünürdü ki, artıq öz hərbi məqsədlərinə nail olub. Müharibəni dayandırıb, atəşkəs elan etmək olar. Lakin hadisələr Səddam Hüseynin planlaşdırdığı kimi cərəyan etmədi. İran nəinki geri çəkilmədi, əksinə, İraq qoşunlarının işğal edilmiş ərazilərdən geri çəkilməyəcəyi ana qədər müharibəni davam etdirəcəyini bildirdi.

1981-ci ildə müharibənin ən qızğın fazası başlandı. İran həmin ilin payızında İraqı geri otuzduraraq, 1982-ci ilin mart ayından etibarən üstünlüyü aşikar şəkildə ələ aldı. Həmin ilin iyun ayında isə İraq ordusu öz sərhədlərinə doğru sıxışdırıldı. İyul ayından etibarən isə döyüşlər İraqın cənub rayonlarına keçdi.

İranda İslam İnqilabının baş verməsi və hakimiyyətə mənsub olan, Ayətullahların rəhbərlik etməsi, şiəliyin mövqelərinin güclənməsi təkcə İraq rəhbərliyini deyil, körfəzdəki digər sünni krallarını da narahat edirdi. Bu baxımdan İranın hərbi cəhətdən zəifləməsi onların hamısının maraqlarına cavab verirdi. Digər tərəfdən, İranın açıq şəkildə İslam inqilabı modelinin ixracına çalışması münasibətləri tamamilə dalana dirəyir, sülh prosesinə əngəl olurdu.

Əksəriyyəti şiələrdən ibarət olan İraq və Bəhreyn eləcə də Qatar, Dubay, Oman, Ərəbistan kimi ölkələrdə şiələrin fəallaşması, hər hansı bir inqilabın baş verəcəyi təhdidini gücləndirirdi. İranda inqilabın baş verməsi, həmçinin İran-İraq münaqişəsinin başlanması ilə Bəhreyn, Küveyt, Səudiyyə Ərəbistanı və İraq kimi ölkələrdə şiə icması əhəmiyyətli dərəcədə sıxışdırıldı, onların liderləri mühacirətə getmək məcburiyyətində qaldı. Bu cür amillər son nəticədə Körfəz ölkələrinin və ümumilikdə ərəb dünyasının İraqı açıq şəkildə dəstəkləməsilə nəticələnmişdi.

İraqın müharibənin ilk dövründə ciddi uğurlar əldə etməsinin başlıca səbəbləri kimi İran İnqilabından sonra Qərbin Tehrana hərbi yardımları dayandırmasını, neft satışına məhdiyyətlər tətbiq etməsini, əcnəbi hərbi məsləhətçilərin ölkədən getməsini, həmçinin yeni İran rəhbərliyinin islahatlara başlamasını göstərmək olar.

Bunun müqabilində İraq 1979-cu ildə hərbi büdcəsini iki milyard dollar artırmışdı. Bu səbəbdən İraq ordusu özünü körfəzin ən güclü ordusu hesab edirdi. 1980-ci ildə İranın12 milyard rezervi, İraqın

isə 345 milyard dollar rezervi var idi. Bundan əlavə Səddam düşünürdü ki, Qərbdən 20-30 milyard civarında faizsiz kredit və əvəzsiz yardımlar ala biləcək. Həmçinin İraq hökuməti planlaşdırırdı ki, Xuzestan neft təsisatlarını ələ keçirməklə, İranı həyatı resurslarından məhrum edəcək. İranın bu çətin durumundan istifadə edərək İraq həm də ərazi mübahisələrini birdəfəlik həll etməyə ümid bəsləyirdi.

1980-ci ilin iyulunda İranda hərbi çevriliş cəhdinin uğursuzluğa düçar olmasından sonra İraq və körfəzin digər ərəb ölkələri belə qənaətə gəldilər ki, xarici müdaxilə olmadan İrandakı rejimi devirmək cəhdləri əbəsdir. Bu amil 1980-1988-ci il İran-İraq müharibəsinin aktuallığına dair ərəb dünyasındakı bütün şübhələrə son qoydu və qanlı qarşıdurmanın başlanmasına sonuncu təkanı vermiş oldu.

Beləliklə də, sadalanan amilləri ümumiləşdirib deyə bilərik ki, İran-İraq müharibəsini şərtləndirən başlıca səbəblər aşağıdakılar idi:

1. İraq və körfəzin digər ərəb dövlətləri İrandakı İslam inqilabının nəticələrindən və İranın siyasi şiəlik ideyalarını qonşu ölkələrə ixrac etməsi siyasətindən narahatlıq keçiririrdi;

2. İraq Pəhləvi rejimi dövründə İranın nəzarətinə keçən ərazilərin qaytarılmasına ümid edir və Tehranın Qərblə münasibətlərinin korlanmasına əlverişli fürsət kimi baxırdı;

3. İran üzərində hərbi üstünlük əldə etməklə İraq körfəz regionunda ən güclü siyasi oyunçuya çevrilməyə ümid edirdi.

İraqın müharibə ərəfəsində münasibətlərin sabitləşdirilməsi üçün Tehrana qarşı irəli sürdüyü şərtlər də əslində Bağdadın həqiqi niyyətlərindən xəbər verirdi:

1. 1975-ci il Əlcəzair müqaviləsində Şəttul-ərəb çayı barəsində olan müddəalara yenidən baxılması

2. Kürd, bəluç və ərəb qəbilələrinə muxtariyyat hüququ verilsin.

3. Üç adadan İran hərbi qüvvələrinin çıxarılması.

Ümumilikdə hərbi ekspertlər İran-İraq müharibəsini 3 böyük mərhələyə ayırırlar- 1. 1980-1984-cü illər. 2. 1984-1984-cü illər. 3. 1987-1988-ci illər. [1; s. 161-162].

**Müharibənin hərbi-siyasi və ideoloji nəticələri:**

Tərəflər üçün dəyişkən uğurlarla müşayiət edilən 8 illik müharibə 1988-ci ildə hər hansı tərəfin həlledici üstünlük qazanmaması ilə başa çatdı. 20 avqust 1988-ci il tarixində tərəflər arasında əldə edilən sülh sazişi rəsmən qüvvəyə mindi.

Bölgənin iki böyük müsəlman ölkəsinin iqtisadiyyatına milyardlarla dollar həcmində zərər dəydi. Hesablamalara görə ümumilikdə müharibənin gedişində hər iki tərəfdən milyona qədər insan həlak olmuşdur. Doğrudur, müharibə nə İranda, nə də İraqda siyasi rejimlərin devrilməsinə gətirib çıxarmadı. Əksinə, Səddam Hüseyn rejimi bu müharibədən sonra daha radikallaşaraq, aqressiv xəttini davam etdirdi. 1991-cı ildə İraqın Küveytə hücumu bu xəttin bariz davamı idi. İrana gəlincə isə, bu müharibə Tehran rejimi üçün ciddi sınaq olsa da, xarici dövlətlərə güc ssenarisinin mənasızlığını göstərmiş oldu. Xomeyni və onun qurduğu sistem aldığı ciddi yaralara baxmayaraq ilk hərbi zərbədən sonra ayaqüstə dayanmağı bacardı. Bununla belə, İran-İraq müharibəsi Tehrana İslam inqilabı dəyərlərinin ixracı məsələsində daha ehtiyatlı mövqe tutmaq zərurətini başa salmış oldu. Doğrudur, sonrakı illərdə də İran bu siyasətindən əl çəkmədi, lakin artıq əvvəlkindən fərqli olaraq İraqa, eləcə də şiə icmasının yaşadığı digər körfəz ölkələrinə münasibətdə Tehran daha ehtiyatlı və uzunmüddətli vasitələrdən istifadəyə üstünülük verməyə başladı.

Bu da təsadüfi deyildi. Çünki, İranla müharibədən sonra İraqdakı şiə əhalisi ciddi təzyiqlərin və təqiblərin hədəfinə çevrildi. Sünni azlığı tərəfindən əsas fəaliyyət sahələrindən sıxışdırılan şiələr 2003-cü ilə qədər, yəni Səddam Hüseyn rejimi devrilənədək siyasi proseslərdən kənarda qaldı.

1920-ci ildən 2003-cü ildədək Amerika tərəfindən İraqda Səddam rejimi devrilənə qədər hakimiyyət əsasən sünnülərin əlində qalmışdır. Hətta 1971-1975-ci illər ərzində İraqdan xeyli sayda şiə mühacirətə getmək məcburiyyətində qalmışdır. [4; s. 19].

Suriya və İranda sürgün həyatı yaşayan şiələr öz vətənlərinə geri dönə bildilər. Səddam hakimiyyətdən devrildikdən sonra, İraq siyasi səhnəsinə kürdlər və şiələr aktiv şəkildə daxil olmağa başladılar. 2005-ci ildə keçirilən parlament seçkisində şiələr 275 kürsüdən 140-na sahib oldular. İbrahim Cəfəri yeni dövlət qurdu. 2005-ci ildə Konstitutusiya hazırlamaq üçün təyin olunan 55 nəfərdən 28-i şiə idi. [5; s. 175].

**Açar sözlər:** *İran-İraq müharibəsi, Səddam Hüseyn, Xomeyni, şiə əhalisi, Fars körfəzi, neft ehtiyatları.*

## ƏDƏBİYYAT SIYAHISI

*1. Слинкин М.М. Ирано-иракская война 1980-1988 гг. Симферополь, 2001.*

*2. Ушаков В.А. Иран и мусульманский. Москва, 1999.*

3. Doktor H. İlahi. *Xəlice Fars və məsaele an (Fars körfəzi və onun proplemləri). Tehran, 2011.*
4. *M.Parsadust. Nəqşe Sazmane Meləl der ceng İraq ve İran. Tehran, 1992.*
5. *Z.Müttəqizadə. Coğrafiyaye siyasi Şiəyan Məntəqeyi Xəlice Fars.Tehran 2005.*

**Амиров Эльдар Гурбан оглы,**
**Доктор философии по политическим наукам, доцент (Азербайджанский университет языков)**

## Ирано-иракская война (1980-1988 гг.): военно-политические и идеологические последствия

**РЕЗЮМЕ**

В статье анализируется военно-политические, а также идеологические причины и последствия ирано-иракской войны 1980-1988 годов. Особое внимание автор уделяет истоком ирано-иракского конфликта, которые начинаются еще со временем шахского режима Пехлеви и обостряются после исламской революции. В статье отмечается, что после исламской революции 1979 года в Иране, политика Тегерана по экспорту идей исламской революции привела к конфликту и противотечениям с соседними странами Персидского залива, где проживает многочисленная шиитская община. В случае с Ираком, где шииты составляют большинство населения страны, острые противоречие сторон в 1980 годы закончились крупномасштабным военным конфликтом унесшая жизни более миллиона человек.

Автор отмечает, что восьмилетняя война не принесла серьезного успеха ни одной из сторон, однако нанесла серьезный урон экономики Ирана и Ирака. Правда, по завершению конфликта Ирану пришлось серьезно подкорректировать свою политику относительно Ирака и смягчить тон общения с Багдадом. А также после войны с Ираком Тегеран начал отдавать предпочтение более осторожным, косвенным методам работы с шиитским населением соседних арабских стран.

До 2003 года, то есть свержения режима Саддама Гусейна шиитское большинство в Ираке находилось под серьезным давлением властей и несмотря на все попытки Ирана, ситуация в этом направлении оставалась безнадежной. Свержения Саддама открыло шиитом путь к властным структурам Ирака, а Ирану предоставилась возможность играть одну из ключевых ролей в политических процессах своего проблемного соседа.

**Ключевые слова:** *Ирано-иракская война, Саддам Хусейн, Хомейни, шиитское население, нефтяные запасы.*

**Amirov Eldar Gurban oglu**
**Doctor of Philosophy in Political Science, Associate Professor (Azerbaijan University of Languages)**

## Iran-Iraq War (1980-1988): military-political and ideological consequences

**SUMMARY**

The article analyzes the military-political as well as ideological reasons and consequences of the Iran-Iraq war of 1980-1988. The author pays special attention to the source of the Iranian-Iraqi conflict, which began during the time of the Shah's Pahlavi regime and intensified after the Islamic revolution. The article notes that after the 1979 Islamic revolution in Iran, Tehran's policy of exporting the ideas of the Islamic revolution led to conflict and countercurrents with neighboring countries of the Persian Gulf, where a large Shiite community lives. In the case of Iraq, where Shiites make up the majority of the country's population, the bitter conflict between the parties in the 1980s ended in a large-scale military conflict that claimed the lives of more than a million people.

The author notes that the eight-year war did not bring any serious success to either side, but caused serious damage to the economies of Iran and Iraq. True, after the end of the conflict, Iran had to seriously correct its policy towards Iraq and soften the tone of communication with Baghdad. And also after the war with Iraq, Tehran began to give preference to more cautious, indirect methods of working with the Shiite population of neighboring Arab countries.

Until 2003, that is, the overthrow of Saddam Hussein's regime, the Shiite majority in Iraq was under serious pressure from the authorities, and despite all attempts by Iran, the situation in this direction remained hopeless. The overthrow of Saddam opened the way for the Shiites to the power structures of Iraq, and Iran was given the opportunity to play one of the key roles in the political processes of its problematic neighbor.

**Key words:** *Iran-Iraq war, Saddam Hussein, Khomeini, Shiite population, oil reserves.*

УДК-327.8

# ИНФОРМАЦИОННОЕ ОРУЖИЕ КАК НОВОЕ СРЕДСТВО ВООРУЖЕННОЙ БОРЬБЫ

**ЭЛЬВИН ТАЛЫШИНСКИЙ**
*Заведующий кафедрой «Общественные науки» Бакинского Исламского Университета, доктор философии по политическим наукам*

*e.talishinski@inbox.ru*

Мы живем в эпоху, основанную на информации. Человеческая цивилизация, став информационной, создала для себя наиболее разрушительное оружие - информационное. Роль и значение информационного оружия постоянно растет, поскольку продолжает расти роль информационной инфраструктуры в современной цивилизации.

Если разобраться в происходящих сегодня общественных процессах, то можно понять, что противостояние государств уже давно перешло на информационную фазу. Эта война гораздо страшнее, ибо уничтожение здесь происходит благодаря информации. И если известно, откуда летят пули и снаряды, то информационные бомбы появляются неожиданно и в неизвестном месте, и иногда отразить такую атаку вообще бывает невозможно. Именно информационным потокам массы доверяют больше. И имея в руках такое оружие и хоть небольшое умение воздействовать на аудиторию, на массы можно завоевать весь мир.

Надо отметить, что информационное оружие, как правило, не используется для потери живой силы, однако в некоторых случаях и это не исключено. В этом смысле развитие технологии вывела нас, наконец-то, к бескровной войне и в то же время стала причиной создания исключительно эффективного оружия.
Это оружие уничтожает не население, оно выводит из строя государственный механизм. Информационно-компьютерная революция сегодня предоставляет очень широкие возможности влиять на власти и народы, манипулировать их сознанием и поведением людей даже на отдаленных пространствах. Имея в виду, что происходящий сегодня в мире процесс глобализации информационно-телекоммуникационных сетей со скоростью развивается, то следует предположить, что и в будущем именно информационным видам агрессии (информационным оружиям, компьютерным вирусам и т.д.) будет предоставлен большой приоритет. Здесь специалистам разного профиля следует уделить серьезное внимание этому вопросу, чтобы избежать наиболее негативных последствий этой борьбы для всего человечества.

Информация является общенаучным понятием, которая охватывает обмен сведениями и сигналами между живой и неживой природой, а также людьми и устройствами. Иными словами, информация — это сведения об объектах и явлениях окружающей среды. Параметры, свойство и состояние информации уменьшают степень неопределенности и неполноты знаний. В теории информационной войны следует различать две понятии - информация и данные. Данные в свою очередь, рассматриваются как признаки или записанные наблюдения, которые по какой-либо причине не используются, а только сохраняются. В том случае, если эти данные начинают использоваться для уменьшения неопределенности будущего, они превращаются в информацию. Поэтому можно утверждать, что информация становятся данными, которые актуализируются. Информация образует рядом с существующим полем реальности, так называемое информационное поле, вместе

с информационными потоками образует информационное пространство.

Информационное поле - это совокупность всего сосредоточенного в данном объеме пространства - времени информации, безотносительно к ее формам и состояниям, находящегося в отрыве, как от объекта отражения, так и от субъекта восприятия. Информационный поток представляет собой в общем смысле совокупность информации, которая перемещается в информационном пространстве по каналу коммуникации. [1, 399]

В организационно-техническом аспекте структуру информационного пространства составляет совокупность баз и банков данных, технологий их использования, информационно-телекоммуникационных систем, сетей, приложений и организационных структур, функционирующих на основе определенных принципов и по установленным правилам, обеспечивающим информационное взаимодействие пользователей, а также удовлетворение их информационных потребностей. То есть, информационное пространство - измерение противостояния, где оружием является информация и борьба ведется за целенаправленную смену индивидуального и общественного сознания. Сущность информационного пространства определяет известный ученый в области исследования информационных войн И. Панарин, как совокупность информационных ресурсов, систем формирования, распространения, использования и хранения информации, информационной инфраструктуры. [2, 275]

Политическая жизнь общества всегда разворачивается в пространстве и времени. Социальное пространство представляет собой разветвленную систему общественных связей, в которой фиксируется сосуществования огромного разнообразия социально-предметных объектов, событий с точки зрения их упорядоченности, насыщенности и степени охвата, выражает реальный процесс жизнедеятельности общества. Будучи вписанным в пространство биосферы и космос, социальное пространство расчленен на ряд подпространств, образующих систему, одним из структурообразующих элементов которой является политическое пространство. Он образуется всей совокупностью социальных субъектов, влияющих на систему государственного устройства. Каждый из них характеризуется наличием определенного местоположения социального субъекта, занимающегося политической деятельностью и превращается таким образом, в субъект политики среди таких же, как и он, субъектов. Исходя из этого, политическое пространство может быть определено как одно из основных понятий философии политического сознания, его категория, обозначающая часть социального пространства, параметры которой фиксируют место, направленность, глубину и протяженность влияния социальных субъектов на сложившуюся в обществе систему государственного устройства. [3, 57]

Политическое пространство выступает как своеобразная матрица, согласно которой воспроизводятся устоявшиеся в обществе политические отношения, отношения к системе государственного устройства, носителей государственной власти, закрепленные в обычаях, традициях и законах нормы поведения, достигнутый уровень политической культуры, системы ценностей. Как и социальное пространство в целом, политическое пространство имеет объективный характер. Это проявляется в том, что в любой момент существования и развития того или иного государственно организованного общества ему присуще наличие политических субъектов, которые по-разному относятся к сложившейся государственного устройства, политической власти. Политическое пространство, как и социальное пространство в целом, характеризуется одновременно непрерывностью и отрывочностью. Непрерывность находит свое выражение в том, что политическая деятельность является необходимым атрибутом каждого государственно организованного общества на всех этапах его исторического развития. А прерывистость проявляется, во-первых, в том, что политическая деятельность конкретного политического субъекта длится определенный период и врывается с прекращением его жизнедеятельности. Политическое пространство свойственно только

государственно организованным обществам.

Структура политического пространства состоит из специализированных полей, а специфика политического пространства раскрывается динамикой борьбы, которая разворачивается в каждом из этих полей. [4, 421]

Синтезируя понятие информационного и политического пространств можно вывести интегративное понятие информационно-политического пространства - совокупность субъектов и объектов информационно-политического действия и взаимодействия; собственно информации, предназначенной для использования субъектами информационно-политического взаимодействия; информационной инфраструктуры, которая обеспечивает возможность реализации обмена информацией между субъектами; общественных отношений, складывающихся в связи с формированием, передачей, распространением и хранением информации, обменом информацией внутри общества. [5, 75]

С учетом того, что сегодня стремительное и бурное развитие новых информационных технологий позволяет проводить широкомасштабные психологические операции и опасные атаки на компьютерные сети сформировался новый самостоятельный вид оружия - информационное оружие. Информационное оружие – это средства, используемые для воз-действия на разум противника, с тем чтобы заставить его подчиняться желаниям другой стороны. По объектам воздействия различают две основные формы информационного оружия:

1. Информационно-техническое оружие, которая в основном влияет на информационные ресурсы, информационную инфраструктуру вооруженных сил, или же государства в целом.

2. Информационно-психологическое оружие, которая влияет на морально-психологическое состояние человека, социальных и других групп населения, или же общества в целом.

С теоретической точки зрения можно выделить следующие виды информационного оружия:

- средства высокоточного местоопределения оборудования, излучающего в электромагнитном спектре, и его огневого поражения путем оперативного выявления отдельных элементов информационной системы управления, распознавания, наведения и огневого поражения;

- средства воздействия на компоненты радиоэлектронного оборудования и их энергопитание для временного или необратимого вывода из строя отдельных компонентов радиоэлектронных систем;

- средства воздействия на программный ресурс электронных управляющих модулей, обеспечивающие вывод их из строя либо изменение алгоритма их функционирования посредством использования специальных программных средств;

- средства воздействия на процесс передачи информации, которые предназначены для прекращения или дезорганизации функционирования подсистем обмена информацией за счет воздействия на среду растпространения сигналов и алгоритмы функционирования;

- средства пропаганды и дезинформации для внесения изменений в информацию систем управления, создание виртуальной картины обстановки, отличной от действительности, изменение системы ценностей человека, нанесение ущерба духовно-нравственной жизни населения противника;

- психотронное оружие, предназначенное для воздействия на психику и подсознание человека с целью снижения и подавления его воли, временного вывода из строя, зомбирования. [6, 73]

Современное информационное оружие - это вмешательство в системы представлений о мире, о человеке, о характерных чертах, путях дальнейшего развития всего человечества, а также о ценностях цивилизации. Современные информационно-коммуникационные технологии сегодня бесспорно расширенно и усиленно различными средствами влияют на общественное мнение и настроение. Путем таких средств эти технологии фундаментально управляют людьми, изменив вектора потоков общественной энергии спокойно направляют их в нужное русло. В таком случае, очевидно, что одним из главных задач информационной войны также является внедрение в подсознание

людей ложных представлений об окружающем мире, с помощью которых производится манипулирование общественным сознанием. Доминирующими здесь основными качествами для каждого общества, овладение которыми обеспечивает успех, выступает система традиционных ценностей, идеалов и мифов, на которых строится вся непрерывность и преемственность национальной и мировой культуры, а также такие чувства, как достоинство, возможность сохранения культурно-национальной самоидентификации.

Изменив столь важные для будущего общества ценности, традиционные национально-культурные стереотипы мышления новыми выдумками силы и успеха, «равных возможностей», «прав человека», «общечеловеческих ценностей» и т.п. порождает ощущение неустойчивости и растерянности, при котором еще более усиливается внушающее воздействие масскульта и рекламы. Уверенно можно сказать, что путем современных технологий средства массовой информации вторгаются в подсознательные структуры человека, активно используя безусловную символику, имеющую опору в глубинах подсознательного. Комбинация сознательных и подсознательных воздействий образует устойчивые доминантные очаги культурной фильтрации воспринимаемого, определяя видение мира и его оценку.

Благодаря современным технологиям революционные изменения в информационной сфере, такие как развитие информационных носителей и Интернета, позволяют многим участвовать в боевых действиях, даже не выходя на улицу. Быстрое развитие сетей превратило каждую автоматизированную систему в потенциальную цель вторжения. В информационную эпоху должна быть разработана совершенно новая концепция операций. Информация - это «обоюдоострый меч». В век информации информация является не только боевым оружием, но и объектом, который ищут воюющие стороны. Количество, качество и скорость передачи информационных ресурсов являются ключевыми элементами в превосходстве информации. Вот почему информация - это не просто новость, а информационное оружие относится не только к такому информационному оружию, как высокоточное оружие и оружие для радиоэлектронной борьбы. Самое эффективное оружие - это сама информация. [7]

В общем, мир не стоит на месте, технический прогресс вооружает современного человека не только все новыми, усовершенствованными средствами производства и коммуникации, но и средствами уничтожения самих себя и окружающих. Сегодня человечество достигло такого прогресса, что контролировать некоторые глобальные природные явления стало невозможным, экологическое оружие может искусственно создавать ураганы, бури, цунами. В условиях такой войны гибнет много людей, и если каждый из нас не задумается над такой проблемой, то в ближайшем времени человек может просто уничтожить себя.

Наряду с явными плюсами, которым человечество должно современным информационным технологиям, также информатизация общества привела ко многим необратимым процессам, которые негативно повлияли и продолжают влиять на общественную жизнь, уничтожая в первую очередь морально-духовные ценности человека, его сознание, разум и взаимопонимание. К сожалению такой темп развития современности может привести к деградации людей, к их неспособности мыслить, чувствовать, проявлять эмоции, то есть преобразует людей на машин. Научная фантастика неоднократно описывала такие процессы, и их последствиями, и сегодня мы на пороге того, что фантастика может стать реальностью.

## ЛИТЕРАТУРА И ИСТОЧНИКИ

*1. Прокофьев В.Ф. Тайное оружие информационной войны. М. СИНТЕГ, 1999 - 152с.*

*2. Панарин И. Н. Информационная война и мир / И. Н. Панарин, П. Г. Панарина. — М.: ОЛМА-ПРЕСС, 2003. — 384 с.*

*3. Воловик В. И. Философия политического сознания: монография / В. И. Воловик. — Запорожье: Просвіта, 2006. — 204 с.*

*4. Современные международные отношения. Учебник / Под. ред. А.В. Торкунова. — М.:*

«Российская политическая энциклопедия» (РОССПЭН), 1999. — 584 с.

5. Манойло А. В. Государственная информационная политика в условиях информационно-психологической войны / А. В. Манойло, А. И.Петренко, Д. П. Фролов. — 2-е изд., стереотип. — М.: Горячая линия—Телеком, 2009. — 541 с.

6. Информационные вызовы национальной и международной безопасности/ И.Ю.Алексеева и др. Под общ. ред. А.В.Федорова, В.Н.Цыгичко. – М.: ПИР-Центр, 2001. – 328 с.

7. Wei Jincheng. Military Forum column, Liberation Army Daily, June 25, 1996. https://fas.org/irp/world/china/docs/iw_wei.htm

**ТАЛЫШИНСКИЙ Э.Б.**

## ИНФОРМАЦИОННОЕ ОРУЖИЕ КАК НОВОЕ СРЕДСТВО ВООРУЖЕННОЙ БОРЬБЫ

В статье исследуются характерные черты и особенности нового вида оружия - информационного, которая становится более актуальной стремительным развитием современных информационных технологий. Сегодня мы живем в веке информации, где происходит информатизация всех сфер общества. В таких условиях постоянно растет роль и значение информационного оружия, поскольку продолжает расти роль информационной инфраструктуры в современной цивилизации. Дается понятие терминам информационное поле, информационное пространство, информационная война, делается вывод, что информатизация общества наряду с плюсами привела также необратимым процессам, которые негативно влияют на общественную жизнь, морально-духовные ценности человека, его сознание, разум и взаимопонимание.

**Ключевые слова:** *информация, информационное поле, информационное пространство, информационное оружие, информационно-техническое оружие, информационно-психологическое оружие.*

**TALISHINSKI E.B.**

## INFORMATION WEAPONS AS A NEW MEANS OF ARMED COMBAT

The article explores the characteristics and features of a new type of weapon - information, which is becoming more relevant with the rapid development of modern information technologies. Today we live in the information age, where the informatization of all spheres of society takes place. In such conditions, the role and importance of information weapons is constantly growing, since the role of information infrastructure in modern civilization continues to grow. The concept is given to the terms the information field, the information space, the information war, it is concluded that the informatization of society along with the pluses has also led to irreversible processes that negatively affect public life, moral and spiritual values of a person, his consciousness, mind and understanding.

**Key words:** *information, information field, information space, information weapon, information and technical weapon, information and psychological weapon.*

UOT 327: 140.8
327: 930.22
327

# QƏRBİN AZƏRBAYCANA QARŞI İNFORMASİYA MÜHARİBƏSİ

**NURƏDDİN MEHDİYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*

*E- mail: nuraddin_mehdiyev@yahoo.com*

**Giriş**

Azərbaycan Prezidenti İlham Əliyev CISCO şirkətinin rəhbərləri ilə videokonfransda deyib: "Müasir dünyada təhlükəsizlik bir nömrəli məsələdir və buraya enerji təhlükəsizliyi də daxildir. Bu səbəbdən kiberhücumlara qarşı müdafiənin bizim üçün əhəmiyyəti daha da artacaq." [2].

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə informasiya sahəsində milli təhlükəsizlik siyasətinin aspektləri barədə danışıb: "Bu gün münaqişələr artıq virtual məkana keçir, informasiya texnologiyalarının inkişafı cinayətlərin yeni növlərini yaradır. Azərbaycanda informasiya sahəsində təhlükəsizliyə milli təhlükəsizlik siyasətinin tərkib hissəsi kimi baxılır. 2004-cü ildə milli təhlükəsizlik haqqında qanun qəbul olunub və bu qanunda qeyd olunan məsələ də öz əksini tapıb." [3].

Azərbaycan Respublikasında kompüter-informasiya sahəsində ictimai təhlükəsizlik əməllərinə görə cinayət məsuliyyəti nəzərdə tutan 3-cü maddə cinayət məcəlləsinə əlavə edilmiş (2000), MTN-də (indiki DTX) onunla mübarizə bölməsi (2012) və Nazirlikdə İnformasiya Təhlükəsizlik İdarəsi yaradılmışdır.

Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanunun 7-ci (Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər) maddəsinin "İnformasiya sahəsində əsas təhdidlər" (7.9) bölməsində bildirilir:

7.9. İnformasiya sahəsində əsas təhdidlər aşağıdakılardır:

7.9.1. informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil olmağa maneələrin mövcudluğu;

7.9.2. informasiya azadlığı əleyhinə yönəlmiş qəsdlər;

7.9.3. dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər;

7.9.4. digər ölkələr tərəfindən informasiya təcavüzü, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin təhrif edilməsi;

7.9.5. informasiya sisteminə və ehtiyatlarına qarşı qəsdlər.

Həmin qanunun "Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması" maddəsində (maddə 20) bildirilir:

20.1. Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsidir.

20.2. Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır:

20.2.1. Azərbaycan Respublikasında informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;

20.2.2. dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanılması;

20.2.3. informasiya infrastrukturunun inkişaf etdirilməsi;

20.2.4. dövlət sirlərinin qorunmasının hüquqi mexanizmlərinin təkmilləşdirilməsi;

20.2.5. kibercinayətlərə qarşı mübarizə;

20.2.6. informasiya təhlükəsizliyinin və azadlığının təmin olunması [4].

***

CYBERO Kibertəhlükəsizlik Mərkəzinin məlumatlarına görə, 2019-cu ildə ".az" domenli saytlara 167 kiberhücum olub ki, bu da 2018-ci illə müqayisədə 88% çoxdur. Server sazlamalarının düzgün qurulmaması nəticəsində baş verən hücumların 45% Linux ƏS, 55% isə Win ƏS üzərində qurulmuş resurslar olub. Məlumatda

qeyd olunur ki, "Hücumların 63%-inin serverlərin boşluğundan istifadə olunaraq həyata keçirilməsini nəzərə alaraq CYBERO Kibertəhlükəsizlik Mərkəzi bir daha "shared hosting"istifadə edən şirkətləri diqqətli olmaları üçün xəbərdar edir." [5].

Azərbaycan ən çox qonşu ölkələr tərəfindən informasiya təhlükəsizliyi ilə üzləşir. Bunların başında Ermənistan, daha sonra Rusiya və İran gəlir. Qərb ölkələri, xüsusilə ABŞ, transmilli informasiya şirkətlərinin İKT sahəsində geniş imkanlarını nəzərə alsaq, onların bu istiqamətdə istənilən ölkə üçün böyük kibertəhlükə yarada biləcəklərini söyləmək olar. Əslində, kiberhücum müharibənin yeni forması olan "hibrid savaş" (hybrid warfare) kimi tanınır.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib ki, statistikaya görə, internetin geniş yayıldığı ölkələrdən və yaxud həmin ölkələrə aid olan hansısa İP ünvanlardan Azərbaycana müxtəlif hücumlar edilir və bu hücumların sayı ildən-ilə artır, coğrafiyası genişlənir: "Bunların sırasında bir qədər qəribə görsənsə də, ABŞ-dan başlamış Rusiya, Çin kimi ölkələri də saymaq olar. Bunun da səbəbi bu ölkələrdə internetin çox geniş şəkildə yayılması ilə bağlıdır. Ermənistandan da periodik olaraq kiberhücumlar olur. Ancaq yenə də bunların hamısı diqqət mərkəzində saxlanılır... Azərbaycanda dövlət şəbəkəsinin qorunması üçün xüsusi dövlət agentliyi yaradılıb. Eyni zamanda cəmiyyətin, biznes qurumların, fərdi şəxslərin internet təhlükəsizliyinin təmin edilməsi üçün bizim nazirliyin yanında Elektron Təhlükəsizlik Mərkəzi fəaliyyət göstərir. Bütün bunlar onu göstərir ki, Azərbaycanda informasiya təhlükəsizliyinə ciddi diqqət yetirilir." [6].

Ekspert Şəmsəddin Əliyev xarici kiberhücumlar barədə deyibdir: "Azərbaycanla bağlı bir sıra ölkələrin marağı ola bilər. Bu sırada Avropa dövlələrinin, Rusiyanın, ən əsası isə İran və Ermənistanın adını çəkə bilərik. Yəni, hər bir dövlətin inkişafında narahatçılıq keçirən ölkələr çoxdur. Onlar Azərbaycanın inkişafına qısqanclıqla yanaşırlar. Ancaq ən çox hansı ölkədən hücumun təşkil olunması haqqında ictimaiyyətə məlumat verilmir" [7].

"Kaspersky Lab" şirkətin vitse-prezidenti Anton Şinqaryov deyib ki, kiberhücum təhlükəsi hər bir ölkə üçün hər zaman var: "Sürətlə dəyişən dünyada hər şey əvvəlki kimi deyil. Bu təhlükə sərhəd tanımır. Azərbaycanda IT sahəsinə maraq böyükdür, ölkədə güclü proqramçılar var. Lakin onların bəziləri sənətin digər tərəfini seçir və kibercinayətkara çevrilir. Bu, hər bir ölkəyə xas olan problemdir. Bundan başqa, qonşularla siyasi-hərbi münaqişə şəraitində yaşayan ölkələrdə kiber-hücum riski yüksək olur. Biz bilirik ki, qonşuları ucbatından Azərbaycan asan olmayan geosiyasi şəraitdədir. Mən Dağlıq Qarabağ münaqişəsini nəzərdə tuturam. Bu baxımdan IT infrastrukturun qorunması Azərbaycan üçün olduqca önəmlidir. Bununla yanaşı, ölkənin güclü sənayesi və maliyyə sektoru var. Bu da potensial riskləri artırır."[8].

"Kasperski Laboratoriyası" şirkətinin Azərbaycan üzrə nümayəndəsi Müşfiq Məmmədov bildirib ki, "Azərbaycan ən çox kiberhücumlara məruz qalan ölkələrdən biridir. Çünki Azərbaycanda internet istifadəçiləri çoxdur və onlar olduqca fəaldırlar… Hətta adi cihazlardan - flaşkard, USB-dən istifadə edənlər belə bəsit təhlükəsizlik qaydalarına riayət etmədikləri üçün hücumlara məruz qalırlar." [7].

İnformasiya hücumları yalnız ölkələr tərəfindən deyil, həmçinin, müxtəlif terror, ekstremist və separatçı təşkilatlar tərəfindən də gerçəkləşdirilə bilər. Bəzən bir ölkənin kəşfiyyat qurumu, başqa bir ölkəyə hər hansı bir terror təşkilatının adından kiberhücum təşkil edə bilər. Lakin, əksər hallarda informasiya hücumunun hansı ölkədən və ya hansı istiqamətdən gəlməsini müəyyənləşdirmək qeyri-mümkün olur. Çünki bu hücumu həyata keçirən qruplar tamamilə başqa bir ölkənin bayrağı və ya başqa simvolundan istifadə etməklə də öz məqsədlərinə çata bilərlər. Əksər hallarda, bunu hər iki ölkənin münasibətlərini korlamaq məqsədilə də həyata keçirə bilərlər. İnformasiya hücumunun digər mürəkkəb xüsusiyyətlərindən biri də odur ki, o, gözlənilməz və istənilən zamanda həyata keçirilə bilər. Hücumun kim tərəfindən və nə zaman baş verəcəyini müəyyənləşdirmək çətin olduğu üçün, bu sahədə peşəkar kadrların olmasına və hər bir zaman döyüş hazırlığı durumunda olmağa ehtiyac vardır.

Müxtəlif ölkələrdə yaşayan və Azərbaycana düşmən mövqedə dayanan şəxslər Azərbaycanın maraqları ilə bağlı milli domen adlarını ələ keçirməklə virtual məkanda Azərbaycana qarşı informasiya müharibəsi aparırlar (Azərbaycana qarşı yayılan dezinformasiyalar, milli dəyərlərin saxtalaşdırılaraq təhrif edilməsi, informasiya blokadası, yəni Azərbaycana aid olmayan informasiyaların yerləşdirilməsi və s). Azərbaycan

kimi, digər ölkələr də kiberhücumların hədəfinə çevrilir. Mütəxəssislər bu kimi halların baş verməsinin səbəblərini kibermühitdə hüquqi əməkdaşlıqla bağlı problemlərin olmasında, istifadəçilərin anonimliyinin qorunmasında, proksi-serverdən istifadə olunmasında, şəbəkədə boşluqların olmasında, qlobal şəbəkədə nəzarət mexanizminin olmamasında, şəbəkə istifadəçilərinin sayının durmadan artmasında, avtomatlaşma, şəbəkədə zaman və məkandan asılılğın aradan qaldırılmasında və digər məsələlərdə görürlər. Problemlərin aradan qaldırılması informasiya cəmiyyəti quruculuğunda beynəlxalq əməkdaşlığı zəruri edir. Çünki heç bir ölkə təşbaşına bu problemlərin öhdəsindən gəlmək iqtidarında deyildir [9].

Dövlət rəsmilərinin və ekspertlərin informasiya təhlükəsizliyi barədə verdiyi məlumatların təhlili göstərir ki, Azərbaycana edilən kiberhücumlar Ermənistan, Rusiya, ABŞ, İran, Çin və digər ölkələrdən mütəmadi xarakter daşıyır. Azərbaycan bu hücumları dəf etmək üçün, öz təhlükəsizlik tədbirlərini gücləndirir və bir çox dövlətlərlə, beynəlxalq qurumlarla əməkdaşlıq edir.

Qərbdən Azərbaycana yönələn kiberhücumları aşağıdakı kimi səciyyələndirmək olar:

İnformasiya təhlükəsi yanlız müəyyən ölkələrin və ya qrupların həyata keçirdikləri kiber əməliyyatlarla məhdudlaşmır. Bu təhlükələr, dünyada geniş yayılan kompüter proqramları ilə də həyata keçirilir. Onlardan biri də Azəbaycanda və dünyanın bir çox ölkələrində yayılan Microsoft şirkətinin proqramlarıdır. Bu şirkətin ABŞ xüsusi xidmət orqanı MKİ ilə, xüsusən də, məlumat kəşfiyyatına cavabdeh olan Milli Təhlükəsizlik Agentliyi (NSA - National Security Agency) ilə əməkdaşlığı barədə daim mətbuata sızan məlumatlar vardır. Dəfələrlə şirkəti onda ittiham etmişlər ki, Windows əməliyyat sistemində MKİ-nin istifadəçilərin kompüterlərinə icazəsiz giriş əldə etməyə imkan verən gizli şifrələr mövcuddur. Zatən, NSA rəsmi olaraq yeni Microsoft Windows Vista əməliyyat sisteminin təhlükəsizliyinin hazırlanmasına yardım etdiyini açıqlamışdır. Buna görə də, Microsoft şirkəti özünün proqram təminatı kodlarını gizli saxlayır. Bu isə, Microsoft Windows proqramından istifadə edən dövlətlərin dövlət sirlərinin NSA tərəfindən mənimsənilməsi təhlükəsini gündəmə gətirir. Bu səbəbdən, Avropada artıq qapalı mənbəli proqramdan açıq mənbəli proqramlara (Open Source) üstünlük verilir. Linux əməliyyat sistemləri və ya Open Office proqramının ofis paketi Microsoft Office proqramını əvəz edir. 2007-ci ildə Avropa Komissiyası AB üzv ölkələrinə etibarlılıq və təhlükəsizlik baxımından önəmli olan açıq mənbəli proqram (Open Source) təminatına keçmək üçün tövsiyə verdi. Bir çox ölkələr də bu təşəbbüsə qoşuldular (Kuba, Venesuela və s). [1, 29-30].

Azərbaycan, "Microsoft" şirkəti ilə əməkdaşlıq əlaqələrini genişləndirir. Azərbaycan Təhsil Nazirliyi ilə "Microsoft" şirkətinin süni intellekt sahəsində əməkdaşlığa başlamasından bəhs edən "Microsoft-Azerbaijan" şirkətinin baş direktoru Qaçay Mirzəyev deyib: "Bizim qarşımızda duran əsas məsələ "süni intellektə Azərbaycan dilinin tanıtdırmasıdır. Bunun üçün bizə həm Azərbaycan, həm də ingilis dillərində minimum 3 mln. cümlə gərəkdir. Biz bunu edib, "Microsoft"ta təqdim edə bilsək, iki ay ərzində "Microsoft" süni intellekti Azərbaycan dilində tanınmasını təmin edəcək. Bu, o deməkdir ki, istənilən təhsil müəssisəsi, şirkət və dövlət qurumu süni intellektin imkanlarından yararlana biləcəklər." [10].

Prezidentin köməkçisi Şahmar Mövsümov "Microsoft" şirkətinin nümayəndələri ilə 16.06.2020 tarixində keçirilən videokonfrans zamanı bildirib ki, "Biz bu məsələdə də "Microsoft" şirkəti ilə əməkdaşlıq edirik. Biz "Microsoft" şirkətini daha da fəal olmağa çağırırıq. Hesab edirik ki, Azərbaycanın regionumuzda innovasiyaların mərkəzi olmaq üçün Silikon Vadisi kimi Abşeron Vadisini yaratmaq məqsədilə böyük potensialı var. Bu məsələdə biz "Microsoft" şirkətinin fəal iştirakını yüksək qiymətləndiririk." [11].

Göründüyü kimi, Azərbaycan hökuməti yaxın perspektivdə "Microsoft" şirkətiilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində maraqlıdır. Silikon Vadisi nədir? Ona bənzər Abşeron Vadisinin yaradılması ideyası nə qədər səmərəlidir?

Silikon Vadisi (Silicon Valley), ABŞ-da Şimali Kaliforniya bölgəsində yerləşən mərkəzi Santa Clara Vadisidir. Bölgəyə "silikon" adının verilməsinin əsas səbəbi, oranın geniş İKT və çip istehsalı mərkəzinə və İKT sahəsində dünyanın əsas bazarına çevrilməsidir. Minlərlə yüksək texnologiya və informasiya şirkətlərinin (Microsoft, Intel, Apple, Google, Facebook, Xerox, Oracle, Cisco Systems, Netflix, Elon Maskın şirkətləri, NASA ilə əməkdaşlıq edən və adını Kosmos, Mars ilə əlaqəli sınaqlar və layihələrlə dünyaya tanıdan SpaceX kosmik nəqliyyat şirkəti, elek-

trikli avtomobillər və elektrik enerjisi ilə işləyən ictimai nəqliyyat layihələri ilə dünyada özünə bir ad çıxarmış Tesla Motors və s) və elmi-tədqiqat mərkəzlərinin yerləşdiyi və dünyanın müxtəlif ölkələrindən intensiv beyin axınının davam etdiyi bu bölgə, dünyada müasir texnologiyanın mərkəzi hesab olunur [12]. Buna bənzər bir mərkəzin Abşeronda yaradılması həm Azərbaycanın bölgədə İKT mərkəzlərindən birinə çevrilməsinə, informasiya cəmiyyəti istiqamətində sürətlə inkişaf etməsinə, həm də İKT sahəsində böyük bir bazara çevrilməklə böyük iqtisadi gəlirlər əldə etməyə hesablanmışdır. Bu, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına və siyasi təsiretmə imkanlarının yüksəlməsinə səbəb ola bilər.

Lakin, Azərbaycanın informasiya təhlükəsizliyi siyasəti çoxvektorlu olduğu üçün, həmçinin, Avropa Şurası Konvensiyasına qoşulmuşdur. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə Azərbaycanda İSO standartlarının hazırlanıb tətbiq olunduğunu, Azərbaycanın İT sahəsində təhlükəsizliyə dair Avropa Şurası Konvensiyasına qoşulduğunu və NATO-nun bu sahədə öz təcrübəsini Azərbaycan ilə bölüşəcəyinə ümidvar olduğunu bildiribdir [3].

“Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz bildirib: “Xaricdə Azərbaycana olan maraqların artması ölkəmizə qarşı kiber hücumları da artırır. Bu, həmişə gözlənilən hadisədir. Ona görə də siravi istifadəçilər hazır olmalıdırlar. Eyni zamanda infrastruktur, kadr, həm də aparılan işlər cəhətdən dövlət qurumları da buna hazır olmalıdır… Həmçinin bununla bağlı müəyyən hüquqi baza da yaradılıb. Eyni zamanda kadrların hazırlanması istiqamətdə müəyyən addımlar atılıb. Amma Azərbaycanda kiber təhlükəsizlik istiqamətdə atılan addımları hələ tam mükəmməl hesab etmək olmaz. Kiberhücumlar zaman-zaman baş verir. Ona görə də aidiyyatı qurumlar nəticə çıxarmalı, daha ciddi addım atmalıdırlar... Nəzərə alaq ki, Azərbaycan kibercinayətkarlıqla bağlı Avropa Konvensiyasına qoşulub. Konsenvensiyanın tələblərinə uyğun olaraq qurumlarımız monitorinq apararaq hücumun hansı ölkədən gəldiyini müəyən edə bilirlər.” [7].

Qərb ölkələrinin bir çox siyasi qurumları mütəmadi olaraq Azərbaycana qarşı informasiya müharibəsi aparırlar. Azərbaycanın beynəlxalq aləmdə müstəqil siyasət aparması və Cənubi Qafqazda lider ölkəyə çevrilməsi, onları narahat edir. Bütün bu nailiyyətlərin mərkəzində ölkə Prezidenti İlham Əliyev dayandığı üçün, o, əsas hədəf seçilibdir.

Azərbaycana ən çox təzyiq edən informasiya mənbələri və onların saxta məlumatları aşağıdakılar:

1. “The New York Times” qəzetinə və ABŞ-ın siyasi-hərbi elitasında bir sıra anonim mənbələrə istinad edən mətbuat orqanları (İsrailin “İsrail24.info” və “Walla” nəşrləri, “Foreign Policy” jurnalı) mütəmadi şəkildə Azərbaycanda İsrail hərbi bazalarının və texnikasının yerləşdirilməsi, Pentaqonun casus peyklərinin İsrailin pilotsuz uçan aparatlarının Azərbaycandakı bazalardan uçduğu və İranın nüvə obyektlərinin foto-video çəkilişlərini apardığı, İranın hava hücumundan müdafiə sistemlərinin hazırlıq dərəcələrini yoxladığı, Azərbaycanın Hərbi Hava Qüvvələrinin dörd bazasının İsrailə verilməsi, İsrailin “Azərbaycan” hərbi aerodromunu alması və Azərbaycan ərazisindən İrana zərbə endiriləcəyi, “Stratfor” strateji proqnozlar mərkəzi isə, ABŞ bazalarının Azərbaycanda yerləşdirilməsinə dair müqavilənin olması ilə bağlı dezinformasiyalar yayırlar. Bu cür dezinformasiyalar Azərbaycanın öz qonşuları olan Rusiya və İran ilə münasibətlərinin korlanmasına hesablanıbdır. 2014-cü ildə Tehranda olan Azərbaycanın Müdafiə naziri Zakir Həsənov deyib: “Heç bir qüvvə Azərbaycan ərazisindən istifadə edərək qonşu ölkələrə hücum edə bilməz. Buna imkan verməyəcəyik. Bu, Azərbaycanın rəsmi siyasətidir və bunu beynəlxalq və regional strukturlarda açıq şəkildə bildirmişik.” [13].

2. “Vaşinqton Post” qəzetinin əməkdaşı jurnalist Bob Woodward “Fear: Trump in the White House” kitabında əsassız olaraq Prezident İlham Əliyevin 2017-ci ildə ABŞ-a səfəri zamanı Prezident Donald Trampa yanlış məlumat verməsi barədə iddia irəli sürübdür.

3. ABŞ-dakı “Freedom House” beynəlxalq hüquq-müdafiə təşkilatı 2019-cu il Siyasi hüquqlar və mülki azadlıqlara həsr olunan hesabatda qərəzli şəkildə Azərbaycanı Cənubi Qafqazda yeganə “azad olmayan” ölkə kimi qiymətləndirilib. “2019-cu il dünya ölkələrində azadlığın vəziyyəti haqqında” adlı hesabatda Azərbaycanın 11, Ermənistanın 51, Gürcüstanın isə 63 xal topladığını bildirilib [14].

4. İngiltərənin “The Guardian” qəzeti 2019-cu il yanvar ayında Prezident İlham Əliyevin ailəsi haqqında yalan və böhtan dolu məqalə çap etdirib-

dir [15].

5. Son illərdə Azərbaycana turist axınının 24 faiz artdığı, ölkəmizə gələn əcnəbi vətəndaşların sayının 2,7 milyon nəfəri ötdüyü, Azərbaycanın bir neçə beynəlxalq yarışlara və tədbirlərə ev sahibliyi etdiyi bir ərəfədə ABŞ Dövlət Departamenti 2018-ci il yanvarın 10-da heç bir əsas olmadan Azərbaycanın təhlükəlilik dərəcəsini 1-dən 2-yə qaldırıb və ABŞ vətəndaşlarını terrorizm təhlükəsi ilə əlaqədar Azərbaycana səyahətdə diqqətli olmağa çağrılıb [16].

6. ICIJ (International Consortium of Investigative Journalists), OCCRP ("The Organized Crime and Corruption Reporting Projekt") kimi qurumlar Azərbaycana qarşı informasiya müharibəsi yürüdürlər. Onların ABŞ hökuməti, Rokfeller (Rockefeller Brothers Fund and Rockefeller Family Fund) və Soros fondu tərəfindən maliyyələşdirildiyi barədə KİV-də kifayət qədər məlumatlar vardır. OCCRP təşkilatının Azərbaycanın əleyhinə olan məlumatlarının sürətlə dünya mediasında yayılması onu göstərir ki, bu təşkilatların arxasında böyük güclər dayanır. BBC, "Le Monde" və digər KİV-lərin Azərbaycana qarşı apardıqları informasiya müharibəsinin məzmununu yalnız insan hüquqları ilə bağlı məsələlər deyildir. Məsələn, onlar, Bakıda I Avropa Oyunları zamanı da Azərbaycana qarşı informasiya təxribatları həyata keçirmişlər.

Avropa Biriliyində Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzi (ESISC) kimi tanınan qurum, Soros Fondunun maliyyələşdirdiyi "İnsan Haqları Evi", Avropa Stabillik Təşəbbüsü (ESI), "Human Rights Watch", "Amnesty İnternational", "Açıq dialoq" və digər QHT-lərin arxasında dayanaraq, Azərbaycanın AB-nə daxil olmasına mane olur [16].

Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov "EurActiv" fondunun saytına verdiyi müsahibəsində deyib: "Biz Avropaya yaxın olduqca, daha çox tənqid eşidirik. Bir çox hallarda bu tənqidlər sünidir. Və biz bilirik ki, bu tənqidlərin arxasında kimlər dayanır. Biz Avropaya yaxın olmaqda maraqlıyıq, ancaq bəzi qüvvələr bu inkişafın, bu hərəkətin qabağını almaq istəyir." [19].

Bu siyasi qurumlar, əllərində olan informasiya imkanlarından istifadə edərək beynəlxalq aləmdə belə bir təəssürat yaratmaq istəyirlər ki, güya Azərbaycan iqtidarı destopik, antidemokratik, korrupsioner bir hakimiyyətdir. Onlar, bununla, Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq və ona daha çox təzyiq etmək imkanları əldə edirlər. Əslində, bu təzyiqlərin arxasında müəyyən siyasi və iqtisadi maraqlar dayanır. Bu maraqların başında göründüyü kimi, Azərbaycanın öz ərazisini qonşu dövlətlərə qarşı istifadə etməyə imkan verməməsidir. Bu həm də, Azərbaycanın öz milli maraqlarına cavab verən siyasətdir. Çünki İranda sosial-siyasi durumun gərginləşməsindən ilk növbədə İrandakı soydaşlarımız əziyyət çəkəcək və onların Azərbaycana kütləvi miqrasiyası, ölkədəki sabitliyi pozacaqdır. Prezident İlham Əliyevin müstəqil və merhiban qonşuluq siyasəti aparması, onun özünün bir çox qlobal dövlət və qurumların hədəfinə çevrilməsinə səbəb olubdur.

Prezident İlham Əliyev oktyabrın 4-də Brüsseldə Avropa Birliyinin iclasında deyib: "Azərbaycanda azadlıqların təmin olunması və demokratiyanın inkişafı məsələsinə gəldikdə, mən hər zaman həmkarlarımız və dostlarımıza məsələnin mahiyyətinə nəzər salmağı tövsiyə edirəm. Azərbaycan medianın kəskin hücumuna məruz qalmaqdadır. Bizim inkişafımıza sevinməyən və ya Azərbaycanda hökmranlıq etmək arzusunda olan müəyyən dairələr ölkəmizi gözdən salmağa çalışırlar. Onu totalitar, avtoritar, hüquqların tapdalandığı və azadlıqların pozulduğu bir ölkə kimi göstərməyə cəhd edirlər. Bu, bir tendensiyadır. Mən prezident seçildiyim gündən bu tendensiya bizim hökuməti müşayiət edir... Bunlardan biri erməni lobbisi və diasporudur ki, o, Qərbdə böyük siyasi, ictimai və media köklərinə malikdir. Qarayaxmanın böyük hissəsi onların payına düşür, ancaq təkcə onlar deyil. Müəyyən QHT-lər, bizdən istədiklərini əldə edə bilməyən müəyyən xarici dairələr və Azərbaycanın müstəqil siyasət yürütməsindən, başqalarının işlərinə qarışmamasından və başqalarının da bizim daxili işlərimizə qarışmasına imkan verməməsindən narazı olanlar da bu siyahıdadır. Burada müəyyən digər amillər də ola bilər, ancaq əsas məsələ ondan ibarətdir ki, bizə qarşı böhtan və dezinformasiya kampaniyası aparılır. Lakin mahiyyətə baxsanız görərsiniz ki, Azərbaycan demokratik ölkədir, biz 2001-ci ildən Avropa Şurasının üzvüyük, qanunvericiliyimiz demək olar ki, yüz faiz Avropa standartlarına uyğundur." [18].

**Nəticə**

1. Azərbaycanın beynəlxalq əlaqələrində və milli maraqlarının müdafiəsində İKT amili

mühüm əhəmiyyətə malikdir. İnternetin və informasiya cəmiyyəti inkişaf etdikcə, müxtəlif dövlət strukturlarının və bank sistemlərinin elektron məlumat və idarəetmə mərkəzlərinə, dövlət sirri olan informasiya mənbələrinə müdaxilə edən kiberhücumların sayı da artır və onlar, müasir dünya siyasətinə ciddi təsir göstərən amilə çevrilirlər. Buna görə də, kiberhücumlar nəinki İKT sahəsində zəif ölkələrə, hətta, bu sahədə çox irəlidə olan ölkələrə təhlükə təşkil edir. Azərbaycan da mütəmadi şəkildə müxtəlif istiqamətlərdən bu cür təhdidlərə məruz qalır. Əgər nəzərə alsaq ki, dünyada İKT və informasiya cəmiyyətinin inkişafı labüddür və artan xətt üzrə davam edir, o zaman, kiberhücumların və kibercinayətlərin də artan xətt üzrə inkişaf edəcəyini söyləyə bilərik. Çünki son dövrlərdə hakerlər artıq cinayətkar qruplar kimi deyil, informasiya cəmiyyətinin müasir ordusunu təşkil edən qruplar kimi səciyyələndirilir. Onlardan dövlətlərin kəşfiyyat orqanları digər dövlətlərə, fərdlərə, təşkilatlara hücum etmək məqsədilə istifadə edirlər.

2. Azərbaycan hər tərəfdən informasiya təhlükəsizliyi ilə üzləşir. Bunların başında Ermənistan, Rusiya, İran, Çin, Qərb ölkələri gəlir. Hər tərəfdən kiberhücumların intensiv xarakter daşıması onu göstərir ki, Azərbaycan bir dövlət kimi beynəlxalq aləmdə mühüm əhəmiyyətə malikdir. Böyük dövlətlərin hibrid savaşlarının mahiyyətində dayanan əsas məqsəd, Azərbaycanın strateji mövqeyi və enerji resurslarını nəzarət altına almaq və onu özündən asılı vəziyyətdə saxlamaqdır. Bunun üçün İKT-dan siyasi-psixoloji təzyiq vasitəsi kimi istifadə olunur. Lakin, Azərbaycan beynəlxalq əlaqələrində və milli maraqlarının müdafiəsində İKT amilinin önəmini nəzərə alaraq, bu sahədə perspektiv inkişaf strategiyasını formalaşdırır.

3. Azərbaycanın coğrafi mövqeyinin "İpək Yolu" və logistikada mühüm yer tutması, həmçinin, Cənubi Qafqazda və digər bölgələrdə bir sosial-mədəni mərkəzə çevrilməsi, Azərbaycanda İKT sahəsində yeni bazarın formalaşmasına şərait yaradır. Azərbaycanda belə bir bazarın və İKT mərkəzinin yaradılması, bir çox transmilli İKT şirkətlərinin maraqlarına cavab verir. Azərbaycan bundan istifadə edərək (kadr potensialını zənginləşdirmək, İKT məhsullarının istehsalını təşkil etmək və s), İKT sahəsində öz milli təhlükəsizliyini artıra bilər.

4. Azərbaycanın informasiya təhlükəsizliyi siyasəti çoxvektorludur. Azərbaycan İKT sahəsində ABŞ, İsrail və bir çox transmilli şirkətlərlə əməkdaşlıq edir, həmçinin, İT sahəsində təhlükəsizliyə dair Avropa Şurası Konvensiyasına qoşulmuşdur.

5. Bəzi Qərb ölkələrinin və siyasi qurumlarının Azərbaycana qarşı apardığı informasiya müharibəsində əsas məqsəd, Azərbaycan ilə qonşu Rusiya və İran arasında münasibətləri gərginləşdirən təxribat xarakterli məlumatlar yaymaq, bölgədə gərginlik yaratmaq və bu yolla bölgəyə daxil olmaqdır. Soros və digər onun kimi təxribatçılar Cənubi Qafqazda qarışıqlıq yaratmaq üçün, Azərbaycanın Prezidenti İlham Əliyevi hədəf seçiblər. Çünki o, onların bölgədə məqsədlərinin gerçəkləşməsinə mane olur. Onların bölgədə insan hüquqları və demokratiya bayrağı alıtında həyata keçirmək istədikləri siyasətin bariz nümunəsini, son onilliklərdə Ukraynada baş verən hadisələrin nəticələrində müşahidə etmək olar.

6. Azərbaycan hər tərəfdən informasiya müharibələrinin hədəfindədir. İKT inkişafı və gələcək inkişafın onunla bağlı olduğunu nəzərə alsaq deyə bilərik ki, yaxın gələcəkdə hibrid savaşlar daha da çoxalacaqdır. Azərbaycan bu durumdan çıxmaq üçün, bölgədə İKT-nın əsas mərkəzlərindən birinə çevrilməli, türkdilli ölkələrin birgə informasiya təhlükəsizliyini inkişaf etdirmək istiqamətində strateji planlar hazırlamalıdır.

**Açar sözlər:** *milli dövlətçilik, informasiya təhlükəsizliyi, Qərb, insan hüquqları, demokratiya, beynəlxalq münasibətlər.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Мартиросян С. Некоторые вопросы информационной безопасности республики Армения. 21-й ВЕК, № 2 (6), 2007. s. 26-42.*

*2. https://fins.az/az/biznes/237382/prezident-aciqladi-kiberhucumlara-qarsi-mudafie/*

*3. http://hafta.az/ermenistan-azerbaycana-virtual-dunyada-da-tecavuzkarliq-edir-15643-xeber.html*

*4. http://www.e-qanun.az/framework/5455*

*5. https://www.tvreal.az/news/az/35516/az-domenli-saytlara-ugurlu-kiberhucumlar-88-artib*

*6. https://lent.az/news/161866*

*7. http://www.movqe.az/news/sosial/79243.html*

*8. https://qaziler.az/news.php?id=48991#.XuaWINUzbIU*

*9. http://sdf.gov.az/development/uploads/qrant-*

*lar_uzre_meqale_eif-ritn-mqm-2-ikt-2-2013-7-3/hesabat/17-hesabat.pdf*

*10. https://ictinfo.az/microsoft-suni-intellekti-azərbaycan-dilində-taninmasini-təmin-edəcək*

*11. https://musavat.com/news/prezidentin-komekcisi-silikon-vadisi-kimi-abseron-vadisini-yaratmaq-ucun-boyuk-potensial-var_710487.html*

*12. https://www.mediaclick.com.tr/blog/silikon-vadisi-nedir*

*13. https://sputnik.az/azerbaijan/20191225/422711215/azerbaycanda-israil-bazalari-haqqinda-dezinformasiyanin-muellifi-kimdir.html*

*14. http://musavat.com/news/freedom-house-un-sert-hesabati-naraziliq*

*15. http://musavat.com/news/the-guardian-qezetinin-meqalesine-deputatlardan-sert-tepki_580095.html*

*16. https://www.bbc.com/azeri/azerbaijan-42646536*

*17. http://hurriyyet.org/arxiv_ardi/azrbaycana-qar-novbti-tzyiq-dalasnda-kreml-v-soros-izihttp://modern.az/az/news/22517/#gsc.tab=0*

*18. http://musavat.com/news/qerbden-gelen-tezyiqlerin-perdearxasi-demokratiya-oyunu-yoxsa_472930.html*

*19. http://musavat.com/news/qerbden-gelen-tezyiqlerin-perdearxasi-demokratiya-oyunu-yoxsa_472930.html*

**NURADDIN MEHDIYEV**
**PhD candidate, The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**
**E- mail: nuraddin_mehdiyev@yahoo.com**

## Information war of the West against Azerbaijan

**SUMMARY**

The article discusses issues of information security in Azerbaijan, especially the nature and essence of the information war waged by the West against Azerbaijan. Information is given on the methods and provocations employed in the information war waged by Western media and organizations against Azerbaijan, and the subsequent threat to national statehood. The principal reasons for this war waged in the name of human rights and democracy are described. Further, the article seeks to identify the main reasons for their activity in the information war by Armenia and the Armenian Diaspora in the West. The article also raises issues arising from the new stage of uncertainty in traditional international relations in the context of the modern information war.

**Keywords:** *national statehood, information security, the West, human rights, democracy, international relations.*

**НУРАДДИН МЕХТИЕВ**
**Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**
**E- mail: nuraddin_mehdiyev@yahoo.com**

## Информационная война Запада против Азербайджана

**РЕЗЮМЕ**

В статье рассматриваются вопросы информационной безопасности Азербайджана, в частности характер и суть направленной против Азербайджана информационной войны Запада, приводится информация о том, какие именно западные СМИ наиболее активны в этом отношении, а также какие методы и способы они используют в своей деятельности, создающей угрозу национальной государственности. Автором предпринята попытка раскрыть основные причины ведущейся под ширмой борьбы за права человека и демократию информационной войны Запада против Азербайджана, и установить основные причины активности Армении и армянской диаспоры в западных странах в этой информационной войне. В статье также рассматривается вопрос перехода на фоне современной информационной войны традиционных международных отношений на новый неопределенный этап.

**Ключевые слова:** *национальная государственность, информационная безопасность, Запад, права человека, демократия, международные отношения.*

UOT 33:007, 33:002, 330:002.6

# İqtisadiyyat

# RƏQƏMSAL İQTİSADİYYAT: TƏHLÜKƏSİZLİK PROBLEMİ VƏ ÖLÇÜ METODİKASI

**ƏVƏZ BAYRAMOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti.*
*İqtisad elmləri doktoru, professor*

*Email:A.Bayramov610@hotmail.com*
*avazbayramov61@gmail.com*

**GİRİŞ**

Ümümbəşəri inkişaf tarixinin müasir mərhələsində yeni keyfiyyət (sistemli) dəyişikliyinin yaxud yeni inkişaf dalğasının mahiyyət açıqlanması yönümündəki nəzəri – konseptual interpretasiyalar müxtəlifliyi ilə nəzər – diqqəti cəlb edir. İnkişaf kontekstində nə baş verir? sualına fərqli yanaşmalar irəli sürülmüşdür: “Dördüncü sənaye inqilabı”[21], “Maşınların ikinci erası”[13], “Üçüncü sənaye inqilabı”[20], “Altıncı texnoloji uklad”[4] və s. Bu yanaşmaların ümumi cəhəti ondan ibarətdir ki, cəmiyyət eləcə də qlobal miqyasda müşahidə edilən keyfiyyət yeniləşməsi prosesini birmənalı olaraq texnologiyanın inkişafı ilə əsaslandırılmasıdır.

Əvvəlki araşdırmalarımızda da bu qəbildən olan “biramilli” konseptual ümümləşdirmələri ideallaşmanın yüksək səviyyəsi kimi xarakterizə etmişdik. Amma... formalaşmaqda olan yeni “yaranış” – rəqəmsal iqtisadiyyat yuxarıda sadalananları toplu şəkildə özündə ehtiva etməkdədir. İqtisadiyyatın sistemli şəkildə rəqəmsal paradiqmaya keçidi prosesi 2010 – cu ildən başlayaraq xüsusi aktuallıq kəsb edir.

“Rəqəmsal iqtisadiyyat” termini ilk dəfə N.Neqroponte tərəfindən elmi dövriyyəyə daxil edilib:

“Klassik əmtəənin fiziki “libasda” (çəki, xammal, nəqliyyat) olan çatışmazlıqları yeni iqtisadiyyatın üstünlükləri (virtuallıq, qlobal səviyyədə ani olaraq yerdəyişmə, əmtəələrin çəkisinin olmaması və s.) ilə əvəz olunur”[6].

Fenomenin “ölçüləri” ilə bağlı problem bu gündə öz aktuallığını saxlayır. Araşdırmalarımız da göstərir ki, “rəqəmsal iqtisadiyyatla” əlaqədar yanaşma müxtəlifliyi təkcə empirik – faktoloji qiymətləndirmənin ölçü prosedurunda deyil, eləcə də onun nəzəri – metodoloji əsasları və konseptual məzmunluluğunda da geniş yayılmışdır. Bir sıra tədqiqatlarda [15] bu situasiyanın “qaranlıq” nüanslarını aradan qaldırmaq və nəzəri – konseptual təsəvvürün gerçəkliyə adekvatlığını təmin etmək yönümündə rəqəmsal iqtisadiyyatı iki qismə ayırmağı tövsiyyə edirlər:

“Birbaşa” yaxud xalis onlayn – biznes;

“Dolayısı ilə” yaxud qarışıq müəssisələrin rəqəmsal fəaliyyəti.

Funksional fəaliyyətin real məzmununu kompleks şəkildə anlamaq nöqteyi – nəzərindən qeyd edilən ikili struktur, müəyyən dövr üçün yararlı hesab oluna bilər. Əsas problem rəqəmsal iqtisadiyyatın uzunonilliklər ərzində qərarlaşmış konsept – dəyərlərə olan münasibətinin xarakteridir:

Rəqəmsal iqtisadiyyatı – kapitalsız kapitalizm, yəni “qeyri – maddi aktivlərin” yönəltdiyi iqtisadiyyat kimi də səciyyələndirirlər. Qlobal kapitalın parlaq nümayəndəsi B.Qeyts “qeyri – maddi aktivlərin” iqtisadiyyata müdaxiləsinin kütləviləşməsini müsbət qiymətləndirir. Qeyri – maddi aktivlərin iqtisadi fəaliyyətdə əsas xüsusiyyətlərini aşağıdakı kimi sıralamaq olar:

Bu aktivlərin maddi forması yoxdur və yalnız virtual məkanda fəaliyyət göstərir;

Maddi aktivlərdən fərqli olaraq əmtəə istehsalına ilkin yatırım kifayətedir və sonrakı istehsal prosesinə əlavə qoyuluşlar həyata keçirilmir;

Qeydi – maddi aktivlərə çəkilən xərclər geri qayıtmır. Yəni, ənənəvi qaydadan fərqli olaraq qoyulan investisiyanı nəyin hesabınasa (məsələn, maşın avadanlıq və s.) və onu satmaq yolu ilə geri qaytarmaq prinsipcə, mümkünsüzdür;

Digər aktivlərlə (qeyri – maddi) sinergetik bağlılıq formalaşa bilir;

Və nəhayət neqativ effekt verə bilmə ehtimalı mövcuddur ki, bundan da rəqiblər yararlana bilərlər.

B.Qeyts bu xüsusiyyətləri nə mənfi, nə müsbət qiymətləndirmir. Bir sözlə, sadəcə olaraq yeni keyfiyyət məzmunlu iqtisadi situasiya formalaşır.

Aparılan tədqiqatların bir çoxu [10] rəqəmsal iqtisadiyyatı təsəvvür edilə biləndən də mühüm hesab edirlər:

Müasir iqtisadiyyatın ən dinamik sektorudur;
Daimi olaraq iqtisadi artımı yönəldən innovasiyalar, drayverlər meydana çıxır.

Rəqəmsal iqtisadiyyat – sistem nöqteyi – nəzərindən mühüm əhəmiyyət kəsb edir (məsələn, maliyyə sektoru kimi); Amma, onun infrastrukturunun iqtisadi sistemin bütün komponentlərinə nüfuzu – böhran şəraitində əsl fəlakət doğura bilər;

Dinamiklik aspektindən ideal yaranış kimi təzahür edir. Rəqəmsal iqtisadiyyat – hegemonluq modelidir: şəhərlər "ağıllı", biznes "sıçrayışlı", işçilər – "çevik" , hökumət – qənaətcil və "intellektual" olmalıdır.

Eyni zamanda, rəqəmsal iqtisadiyyat – "yeni" istehlakın (kütləvi şəkildə) yaradılması, istehlakın bəşər tarixi boyu görünməmiş bir həcmdə artması yönümündə müstəsna əhəmiyyət kəsb edir.

"Pay" iqtisadiyyatı – "birgə istehlak iqtisadiyyatına" transfer olunur. İstehlak – cəmiyyət həyatının əsas prinsipinə çevrilir. Rəqəmsal transformasiya – istehlakın artıq tükənmiş artım potensialına yeni "can" verir. Buna görə də, təəccüblü deyildir ki, rəqəmsal iqtisadiyyatın əsas hədəfi iqtisadi effektin maksimumuna nail olmaqdır. Və bu da sonucda yeni istehlak dalğası yaradır.

**Təhlükəsizlik: problemin konseptual məzmunu...**

Rəqəmsal iqtisadiyyatın inkişafı konsteksində iqtisadi təhlükəsizliyin təminatı problemi - ən azı postsovet avrasiya ölkələrində - kəskin şəkildə aktuallaşmışdır. Təbii ki, söhbət yeni situasiyada milli iqtisadi təhlükəsizliyin təminatından, yeni məzmunlu risk və təhdidlərin proqnozlaşdırma imkanlarının araşdırılması (guya "köhnə" risk və təhdidlər proqnozlaşdırılırdı) və ertələnməsi (oxu:neytrallaşdırılması) istəyinin reallaşdırılmasından gedir. Rəqəmsallığın "bütün cəbhəboyu" hücuma keçdiyi bir dövrdə ayrıca götürülmüş bir ölkənin iqtisadi təhlükəsizliyi necə təmin edilməlidir? sualına verilən cavablar isə müxtəlifliyi ilə nəzər – diqqəti cəlb edir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təminatı:

İri biznesin sabitqədəmli (indiki dövrdə - kursiv Ə.B.) inkişafı ilə [19], yəni iqtisadi gücün azsaylı subyektlərdə təmərgüzləşməsi ilə;

Biznesin aparılması şəraiti (mühiti) ilə [16];

İctimai maliyyə nəzarətinin təşkili ilə [18], yəni ictimai kapital üzərində yaxud kapital üzərində ictimai nəzarət ilə;

İnstitutsional infrastrukturun adekvat inkişafı ilə;

həyata keçirilə bilər. Amma... necə?

Əgər, yeganə çıxış yolu yüksək texnologiyaya sahiblənməkdirsə, onda sadalananların praqmatik əhəmiyyətindən danışmağa ehtiyac olmayacaqdır.

İqtisadi təhlükəsizlik – sözün geniş mənasında, "... milli və beynəlxalq hüquq normaları, eləcə də milli və təsərrüfat ənənələri dəyərlərinə hörmət əsasında institutsional sistemin əsas iqtisadi subyektlərin mənafelərini qoruma qabiliyyətinə malik olmasıdır" [8].

Bu qəbildən olan yanaşmaların, çağdaş durumda elmi yük daşımadığı şübhəsizdir. Belə baxışlar hal – hazırda yalnız tarixi əhəmiyyət kəsb edirlər. Ona görə ki, ənənəvi olaraq, əsas diqqət prosesin (mühitin, layihənin) deyil, subyektin üzərində cəmləşir. İnkişaf prosesdir! Subyekt müəyyənliyi (prosesin yaxud inkişafın) inkar olunmur. Amma, əsas olan prosesin dayanıqlılıq trayektoriyasından kənara çıxmasıdır, hansısa subyektə xüsusi dövlət "qayğısı" göstərmək deyil. Digər tərəfdən, rəqəmsal iqtisadiyyat – struktur rakursundan şəbəkə iqtisadiyyatıdır. Prosesin getdiyi mühitin adekvatlığı üfiqi bağlılıqların dayanıqlılığını gücləndirməklə şəbəkə effektini əhəmiyyətli dərəcədə yüksəltmək iqtidarındadır. Başqa sözlə, subyektin "təhlükəsizliyi" anoxrizmdir və şəbəkənin dayanıqlığı ilə əvəz olunmalıdır. Yalnız bu halda, təsadüfi yaxud sistemdən kənar gedişləri önləmək, yalnız bu halda prosesin "yaradıcı mexanizminə" sistemlilik kefiyyəti əxz edən səbəbiyyət, struktur və funksional bağlılıqlarla "monolit" liyə nail olmaq mümkündür.

Fenomenlə bağlı bizim nəzər – diqqətimizi cəlb edən əsas problemlərdən biri kardinal yeniləşmə prosesində milli dövlətin yeri, rolu və funksiyalarının dəyişməsi prosesinin effektivliyi necə təmin olunacaqdır? sualdır. Məlumdur ki, rəqəmsal transformasiyada strateji seçim yaxud hansı rəqəmsal iqtisadiyyat lazımdır çoxluğundan aparılan seçim milli hökumət tərəfindən həyata keçirilir yaxud keçirilməlidir. Başqa sözlə, fenomen - əvvəldə də qeyd etdiyimiz kimi, qlobal universum səciyyəsi daşısa da, ona (rəqəmsal transformasiyaya) aparan yol – “yeganə” deyildir.

Seçimin milli spesifikaya adekvatlığı – əsas tələblər sırasındadır. Buna görə də, xarici ölkələrin bu sferadakı təcrübəsi yalnız problemin ümumi konturlarını anlamaq nöqteyi – nəzərindən yararlıdır. Rəqəmsal transformasiya idarəetmə və tənzimləmənin fundamental əsaslarının (uzun on illiklər ərzində formalaşmış) radikal formada dəyişməsini tələb edir:

İndustrial təsərrüfat tipində mühüm əhəmiyyət kəsb edən proqram – məqsədli yanaşma proqram – proqnostik yanaşma ilə əvəz olunur;

Şaquli istiqamət (ierarxiya) üfiqi istiqamətə (şəbəkə) çevrilir.

Məlumdur ki, qeyri-müəyyənliyin əhatə dairəsinin daralması, prosesin “görünən” hala gəlməsi, spontan qayda ilə paralel olaraq məqsədyönlü “yaradıcı mexanizmlərin” işə salınması və yekun olaraq risk və təhdidlərdən qorunma imkanlarının artması nöqteyi – nəzərindən proqram məqsədli yanaşma əvəz edilməzdir.

Hadisə və proseslərə münasibətdə “əvvəl” və “sonra” arasındakı məqsədyönlü bağlılığın formalaşdırılmasının başqa alternativi yoxdur. Postindustrial dövrdə milli dövlətin funksional müstəvidə məruz qaldığı məzmun dəyişikliyi,ələlxüsus rəqəmsal transformasiya situasiyasında daha kəskin xarakter almaqla proqram – proqnostik yanaşmanın ön plana çıxmasını qaçılmaz edir.

Amma, digər tərəfdən təsvir etdiyimiz dəyişikliyin məntiqi əsasları da olmamış deyildir. Belə ki, məqsəd konsepti bütün təfərrüfatı ilə birlikdə süni intellektdə yer alırsa, onda (rəqəmsal iqtisadiyyatın ifrat dinamikliyini nəzərə almaqla) diqqət mərkəzinə gələn və bu və ya digər dərəcədə qeyri – müəyyənliklə xarkaterizə olan şey – məqsədəçatma anından sonrakı dövrdə nələrin baş verə biləcəyinin bəribaşdan proqrozlaşdırılması və bunu konkret proqram formasında tərtibidir. Yəni, qeyd etdiyimiz yönümdə baş verən dəyişiklik sırf funksional səciyyə daşıyır.

Eyni zamanda, ierarxik quruluşun şəbəkə sisteminə transferi ümumiyyətlə, idarəetmə (təşkil, tənzimləmə) sisteminin fəlsəfəsini, funksional mahiyyətini kardinal şəkildə dəyişir. İerarxiya – cəmiyyətin formalaşdığı andan bugünə qədər idarəetmənin fundamental strukturu olaraq qalmaqdadır. Onun üfiqi istiqamətli şəbəkə sistemi konfiquasiyasına transferi iradəvi şəkildə, yəni direktiv göstərişlə yaxud parlament tərəfindən qəbul edilən hər hansısa bir qanunla baş tuta bilməz. Bunun üçün həm struktur, həm də funksional aspektdən formalaşmış situasiya yeni yaranışa immanent olmalı yaxud “sərhəd situasiyasında” (bifurkasiya) qərarlaşmalıdır.

**“Rəqəmsal” təhlükənin anatomiyası...**

Rəqəmsal iqtisadiyyatın doğurduğu təhdid və təhlükələr daha çox inkişaf etməkdə olan ölkələrdə təzahür edirlər. Rəqəmsallaşma ilə bağlı sözügedən ölkələr qrupunda (yeni imkanlardan istifadədə) problemli situasiyalar aşağıdakı hallarda yaranır:

Texnologiyanın nüfuz etmə (ölkədaxili və ölkələrarası əlaqələrdə) səviyyəsinin yetərsizliyi və istifadə bacarığının kifayətedici olmaması;

Resurs potensialının məhdudluğu, imkanların “yetərli olmaması, institutların qeyri – adekvatlığı, qarşılıqlı əlaqələrin problemli xarakteri;

Rəqəmsal şirkətlərin yüksək volatilliyi, marginallaşma;

Rəqəmsal texnologiylar sənaye istehsalını inkişaf etmiş ölkələrə “geri qaytara” bilərlər [2].

Sadalananlar 2000-ci ildən sonrakı dövrdə Qərb ölkələrində aparılan tədqiqatların nəticələrini özündə ehtiva edir. Yeri gəlmişkən qeyd edək ki, aşağı və orta gəlirli ölkələrdə rəqəmsal iqtisadiyyatın biznesə, məşğul əhaliyə və dövlət strukturlarına təsiri ehtimalı ətraflı şəkildə tədqiq edilməmişdir. Buna görə də, qeyd etdiyimiz ehtimalın pozitiv yaxud neqativ xassələri olduğunu qiymətləndirmək imkanı yoxdur.

Şübhə yoxdur ki, sosio-iqtisadi münasibətlər sis-

temini "daxildən mənimsəyən" və dəyişən rəqəmsal transformasiya – fasiləsiz innovasiya axınları doğurmaqla ictimai həyatın bütün sferalarında adekvat dəyişikliklərə səbəb olurlar. Və çox zaman da innovasiyalar müvafiq strukturları "qəflətən" yaxalayırlar.




**Şəkil 1. İnnovasiyanın rəqəmsal formatı: təsir istiqamətləri və təsirin xarakteri**

Rəqəmsal transformasiyanın çox saylı pozitiv təsirləri ilə yanaşı, fəsad doğuran nəticələri də kifayətqədər böyükdür.

İnsan→rəqəmsal innovativ bağlılıqda canlı sosial əlaqələrini və bağlılıqlarını itirir. O dərəcədə ki, neqativ təsirin nəticəsini canlı "sözün öldüyü" məqam kimi səciyyələndirirlər (J.Bodriar)[1].

Sxemdən də, göründüyü kimi, dövlətə təsir iki istiqamətli olur. Güclənmə yönümü Çində müşahidə edilməkdədir. Dövlət – hər şeyə və hər kəsə nəzarət etməkdə qərarlıdır. Məsələn, Çin "sosial inam krediti" adı altında ölkə əhalısinin hər birini nəzarətdə saxlamaq üçün xüsusi kompaniya başlatmışdır və s. Doğrudur, dövlətin yeri və rolunu daha da gücləndirməyə imkan yaradan texnologiyalar da ortalığa çıxa bilər. Lakin, rəqəmsal transformasiya – təbiəti etibari ilə qlobal məzmunludur və onun ayrı – ayrı ölkə yaxud region bölümündə (informasiya suverenliyini qorumaq üçün) məhdudlaşdırmaq yalnız qısa müddətli dövr ərzində effekt verə bilər. Perspektiv planda isə rəqəmsal dünya iqtisadiyyatı ilə bağlılığının qırılması və nəticə olaraq sistemin fiaskoya uğraması qaçılmaz olacaqdır.

Digər tərəfdən, milli dövlətlərin effektiv fəaliyyəti yalnız transformasiya dövründə baş tuta bilər. İqtisadiyyatda rəqəmsallaşma özəl sektorun kompetentsiyasıdır. Bazar iqtisadiyyatı şəraitində dövlət bu prosesdə özəl müəssisələrə yardımçı ola bilər yaxud dəstəkləyər. Prosesin dövlətin nəzarətində getməsi nonsensdir. Dövlət→vətəndaş və digər münasibətlərdə dövlət xidmətlərinin rəqəmsallaşması yaxud elektron hökumət, elektron dövlət və s. tipli yeniləşmələr dövlət tərəfindən həyata keçirilir. Amma, bunların rəqəmsal iqtisadiyyatla hər hansı bir funksional asılılığı yoxdur. İnformasiya təhlükəsizliyi – birbaşa dövlətin kompetensiyasındadır. Bunun bir sıra ünsürləri – məsələn, sənaye casusluğu – iqtisadi subyektlərin birbaşa marağında olan problemlərdəndir.

Bir sözlə, rəqəmsal paradiqma – dövlətin təsərrüfatçılıq modeli deyildir. Amma, müasir sosio-iqtisadi gerçəkliyə münasibətdə dövlətin davranış tərzi birmənalı olaraq adekvatlıq nümayiş etdirməlidir.

Rəqəmsal transformasiyanın dünyaya təsiri nöqteyi – nəzrindən iki yanaşma mövcuddur:

Qlobal "vahidləşmə" gerçəkləşəcək, vahid yaşayış standartları formalaşacaqdır;

C. Rifkin inamla qeyd edir ki: "... Bu əsrin (XXI əsri) sonuna qədər ənənəvi iqtisadi modellərin yerinə yeni, vahid internet – sisteminə qoşulmuş, əməkdaşlıq prinsipinə əsaslanan və bərpa edilən enerji mənbələrindən istifadə edən yeni dünya gələcək. Bu dünyada hər şey 3b printerlərdə istehsal olunacaq və təhsil – təhsil müəssisələrində deyil, onlayn kurslarda həyata keçiriləcəkdir.

2. Qlobal assimetriklik getdikcə dərinləşəcək və gələcək dünya makroregionlar formasında qərarlaşacaqdır. Başqa sözlə, rəqəmsal transformasiyanın böyük pessinqinə baxmayaraq, müxtəlif "dünyaların" birliyi formasında qlobal "vahidləşmə"nin gerçəkləşmə ehtimalı yoxdur [20]. Bəzi tədqiqatlarda rəqəmsal iqtisadiyyatı – "görünməyən" ikinci iqtisadiyyat kimi də xarakterizə edirlər.

Belə ki, biznes – proseslərin rəqəmsallaşması nəticəsində rəqəmsal texnologiyalar, ümumi iqtisadi mühitə paralel olan, yeni, "hiss edilməyən" strukturlar formalaşdırır [12]. Həqiqətən də, virtual məkanda baş verənlər və yeni yaranışlar real gerçəklikdə mövcud olmurlar, amma heç də həmişə ənənəvi iqtisadiyyata paralel şəkildə fəaliyyətdə olmurlar,

çox zaman, onunla (ənənəvi iqtisadiyyatla) yaxud onun “bətn”ində - birlikdə hərəkət edirlər. Buna görə də, rəqəmsal iqtisadiyyatı ənənəvi iqtisadiyyatla müqayisə edərkən, bu nüans gözardı edilməməlidir.

“Kölgə iqtisadiyyatının” da rəqəmsal transformasiyası baş verir, həm də yeni yanaşma və “modellərdən” istifadə əsasında onun hara-dasa, dayanıqlılığı da təmin edilir. Bu sferada aparılan çoxsaylı tədqiqatların incələnməsi əsasında araşdırma predmetini 3 qrupda qruplaşdırmaq olar:

Kibercinayətlər;

Elektron möhtəkirlik (dələduzluq);

Qeyri – leqal fəaliyyətdə iştirak [17];

Ən qəribəsi də odur ki, rəqəmsal transformasiya “kölgə” iqtisadiyyatının “effektiv” fəaliyyəti prizmasından daha əlverişli şərait yaradır.

Belə ki, rəqəmsal konstruktsiyada “kölgə iqtisadiyyatı”nı aşkarlamaq problemi xüsusilə çətinləşir.

Ənənəvi “kölgə iqtisadiyyatı”nın aşkarlanması yönümündə istifadə edilən ənənəvi metodlar rəqəmsal mühitdə yararsız hala düşürlər. Ona görə ki, “kölgə iqtisadiyyatı”na aid olan əməliyyatların böyük əksəriyyətinin rəsmi statistik uçotu aparılmır. Və, zatən bu heç mümkün də görünmür.

Rəqəmsal iqtisadi mühitdə “kölgə” – iqtisadiyyatın bütün sfera və sahələrində “yarana” bilər. Məsələn, “kölgə” bankçılıq – sürətlə artmaqdadır.

ABŞ-ın ipoteka bazarında “kölgə bankçılığın” xüsusi çəkisi 2007-ci ildə 30%-dən (böhran qabağı), 2015-ci ildə 50% - ə qədər yüksəlmiş – aztəminatlı borcalanlarda isə bu rəqəm daha yüksək olmuşdur – 75% [14].




**Şəkil 2. Rəqəmsal “kölgə iqtisadiyyatının funksional strukturu [23].**

Sxemdən göründüyü kimi, rəqəmsal “kölgə” iqtisadiyyatının funksional strukturu kifayətqədər sadədir. Lakin, əməliyyatların virtual məkanda aparılması qeyri – qanuni fəaliyyət üçün sanki bir “immunitet” yaradır. Əməliyyatların tezliyi, xərctutumun aşağı səviyyədə olması və anonimliyin qorunması rəqəmsal “kölgə” iqtisadiyyatına əlavə “üstünlüklər” əxz edir. Və, aydındır ki, institutsional nəzarətin yetərli səviyyədə qərarlaşmadığı bir situasiyada leqal iqtisadi proseslərin “kölgələşməsi” qaçılmaz olacaqdır. Amma... institutsional nəzarət mümkünmü? Yaxud, qeyri – standart və kreativ təfəkkürün hegemon olduğu rəqəmsal mühitdə standart yanaşmalarla “kölgə”nin əhatə dairəsini məhdudlaşdırmaq imkanları mövcuddurmu?

Bir sıra tədqiqatlarda [7], rəqəmsal “kölgə” iqtisadiyyatının dolayısı ilə qiymətləndirilməsinin üç istiqamətini təklif edirlər:

Rəqəmsal texnologiyaların yayılma səviyyəsinin qiymətələndirilməsi;

“Kölgə” əməliyyatlarına cəlb olunan əhalinin stimullarının qiymətləndirilməsi;

Rəqəmsal “kölgə” iqtisadiyyatının inkişafına maneə yarada biləcək amillərin qiymətləndirilməsi.

Və qeyd edirlər ki, rəqəmsal “kölgə” iqtisadiyyatı əvvəla, infliyasiya təziyiqinin əlavə mənbələrini yaradır; İkincisi, iqtisadiyyatın struktur təkmilləşdirilməsini çətinləşdirir; üçüncüsü, biznesə “yalançı”, qeyri – adekvat siqnallar ötürür; dördüncüsü, effektiv sosial siyasətə problemlər yaradır, investisiya iqliminə və dövlət tənzimlənməsi sisteminə neqativ təsir göstərir, vətəndaş→dövlət münasibətlərini deformasiyaya uğradır və s.

Rəqəmsal iqtisadiyyat şəraitində pulun (valyutanın) da rəqəmsallaşması baş verir. Pulun virtuallaşması tədiyyə vasitələrinin elektron daşıyıcılarının az qala kütləvi hal almasına gətirib çıxardır: kriptovalyutalar, elektron çek, maliyyə derivativləri, elektron tədiyyə və s. Virtual pulun “sahibi” yoxdur. Yəni, bu qəbildən olan pulun emissiyası heç bir ölkənin Mərkəzi Bankı ilə bağlı deyildir.

Pul münasibətləri prizmasından baş verən dəyişiklik son 100 ildə, ələlxüsus da İkinci Dünya Müharibəsindən sonrakı dövrdə ABŞ-ın qurduğu qlobal maliyyə düzəninə çox güclü təhdid doğurur.

Dünya ticarətinin 70% - ə qədəri ABŞ –ın valyutası – dollarla aparılır.

Hal-hazırda, digər bir narahatedici gerçəklik də mövcuddur. 2019 – cu ildə həm dövlət, həm də özəl sektorun birlikdə borcu qlobal Məcmu Məhsulun 230% - ni təşkil etmişdir (188trln.dol.). 2018 – ci il ilə müqayisədə 6 trln. dol. yaxud 3,2% artım baş vermişdir. Və, qlobal borcun 2/3 hissə özəl sektorun, 63 trln. dol. isə milli dövlətlərin payına düşür ki, bunun da, 23 trln.dolları ABŞ-a aiddir.

Yəni, 2026-cı ilə verilən proqnozu – 30 trln. dol. Nəzərə alsaq, ABŞ-da borcun adambaşına düşən hissəsi 69,7 min dol. Təşkil edir: Büdcədən borca xidmət – 600 mlrd.dol., büdcə defisiti – 1 trln. dol. civarındadır.

Araşdırmalar göstərir ki, son 12 ildə (2007 – 2019) ölkədə (ABŞ – da) ÜDM –un 1 dollar artımı 1,85 dol. Dövlət borcu hesabına baş vermişdir.

Şübhə yoxdur ki, rəqəmsal iqtisadiyyatın, qlobal miqyasda sistemli şəkildə qərarlaşması prosesinə paralel olaraq virtual pulların (rəqəmsal valyuta) dövriyyədə xüsusi çəkisi adekvat formada yüksələcəkdir. “Sahibsiz” valyutanın əsas rezerv valyuta statusunda (ABŞ dollarının yerinə) ortalığa çıxması – mahiyyət etibari ilə onilliklər ərzində Mərkəzi Bankların identik fəaliyyətinə uyğun şəkildə formalaşmış qlobal maliyyə düzəninin pozulması anlamına gəlir. 2008 – ci ilin qlobal maliyyə böhranı göstərdi ki, maliyyə sektoru problemli situasiyanın əhatə dairəsində qalmaqdadır. Maliyyə sferasının “əlahiddələşməsi”, “özündə şeyə” çevrilməsi, real sektorla bağlı olmayan süni artıma, möhtərik əməliyyatlarının görünməmiş dərəcədə yüksəlişinə gətirib çıxarmış və məntiqi yekun olaraq “sahibsiz” virtual valyutaların meydana çıxması ilə sonuclanmışdır.

İlk kriptovalyuta və blokçeyn (onun dövriyyə texnologiyası) 2008 – ci ildə - rəqəmsallaşmanın iqtisadiyyata əsaslı şəkildə müdaxiləsi nəticəsində yaradıldı. 10 il sonra – 2017 –ci ildə kriptovalyutaların sayı 30 – a çatdı. Paralel olaraq, şəbəkə maliyyələşməsi (kraudfandiq) və rəqəmsal valyuta birjası formalaşdı.

Artıq dünya kriptovalyuta bazarı formalaşmışdır. Bazarın 58,4%-i bitkoinin payına düşür. Hal – hazırda bitkoin 11,4 min ABŞ dolları dəyərindədir. Ən çox satışın həyata keçirildiyi “Binanse” birjasında artım müşahidə edilməkdədir. Eyni zamanda, əmanət vasitəsi kimi bitkoinə olan maraq getdikcə güclənməkdədir. Qlobal iqtisadi situasiya ilə bağlı qeyri – müəyyənliyin artması qeyd etdiyimiz təmayülün “oturuşması”na səbəb olmuşdur. Aydındır ki, rəqəmsal valyutanın qlobal iqtisadi dövriyyədə xüsusi çəkisinin yüksəlməsi, elə həmin miqyasda maliyyə münasibətlərinin tənzimlənməsi sisteminin məzmun və strukturca dəyişməsi zərurətini ortalığa qoyur. Qlobal maliyyə düzəninin yeni kriteriya əsasında yenidən tərtibi zərurəti yaranır. Əslində, nə baş verir? Apardığımız tədqiqatlara istinadla belə bir qənaətə gəlirik ki, qlobal kapitalla milli dövlətlər arasındakı qarşıdurma, sivil şəkildə baş versə də, son mərhələyə daxil olmuşdur.

Belə ki, 1960 – cı illərdən sonra kapitalın transmilliləşməsi və yekunda böyük iqtisadi gücə və geniş təsir zonasına malik olan TMK-ların meydana çıxması qlobal iqtisadi sistemdə, bu dövrə qədərki inkişaf mərhələsində əsas aktorlar kimi çıxış edən milli dövlətlərin nüfuzuna vurulan ilk böyük zərbə olmuşdur. Hətta, o dərəcədə ki, beynəlxalq hüquq sistemində TMK-lara milli – dövlətlərlə suveren hüquq bərabərliyi prinsipinin qəbulu yönümündə təkliflər irəli sürülmüşdür. Milli dövlətlərin erasının başa çatdığı haqqında müxtəlif yönümlü yanaşmalar ortalığa qoyulurdu. Bu günlərdə kriptovalyutalar (və digər virtual maliyyə alətləri) ilə bağlı baş verənləri qlobal kapitalın milli dövlətlərə yönəlik ikinci və yəqin ki, sonuncu zərbəsi hesab etmək olar.

**Rəqəmsal iqtisadiyyat: “iş vaxtı” problemi**

Rəqəmsal iqtisadiyyatda əməyin transformasiyası ilə bağlı olan mövcud baxışlar daha çox ideallaşma səciyyəsi daşıyır: “...Əsas cəhət (əməyin transformasiyasında – kursiv Ə.B.) iş vaxtının formalaşmasının çevikliyi ilə fərqlənən işçi qüvvəsinin artımı və natamam məşğulluğun qəbuludur” [9].

Əslində, “iş vaxtının formalaşmasının çevikliyi” əmək qanunvericiliyindən yan keçmək deməkdir. Belə ki, iş yerləri “özünü məşğulluq” səciyyəsi daşıyır: İşçi rəqəmsal platforma ilə “müqavilə” bağlayır. Və, bu qəbildən olan onlayn

– platformalarının sürətli artımı əmək hüququ və sosial təminat sferasında problemlər kompleksi doğurur. Digər tərəfdən, tam məşğulluğun mümkünsüz olduğu açıq mətnlə bəyan edilir. Proseslərin avtomatlaşdırılması, instrumental vasitələrdən istifadənin optimallaşdırılması, robot texnikasından geniş miqyaslı istifadə və bütün bunların süni intellekt tərəfindən təşkili, tənzimlənməsi və idarəedilməsi şəraitində işsizliyin xüsusi çəkisinin kifayətqədər böyük olması labüdləşir.

Rəqəmsal cəmiyyətdə işsizlik industrial dövrün işsizliyinin "təbii səviyyəsi" ilə heç bir müqayisəyə gəlməyən makrososial problemdir.

Təbii ki, rəqəmsal iqtisadiyyatın tam şəkildə (bütün təfərrüatı ilə) oturuşmadığı bir şəraitdə ehtimallı – deduktiv məntiqlə gəldiyimiz qənaətlər öngörmə xarakterlidir.

Əslində, klassik əmək bazarı fiaskoya uğrayır. Sosial - əmək münasibətlərinin hüquqi tənzimləmə sferası, norma və normativlər yararsız hala düşür. İşsizliyin kütləviləşməsi, işsizliyin "azad" şəkildə qərarlaşması ilə bahəm, iş vaxtı/asudə vaxt tənasüblüyü mənasızlaşır. İndustrial təsərrüfat tipində asudə vaxtın interval uzantısı keyfiyyətli, dayanıqlı inkişafın əsas ölçü vahidlərindən biri, bizim mövqeyimizə görə isə birincisi statusunda çıxış edir. Yüksək texnologiyaların tətbiqi, digər məsələlərlə yanaşı, iş vaxtının interval uzunluğunun azalmasına gətirib çıxarır. Düzdür, qeyd edilən sferada milli spesifika da əhəmiyyətli rol oynayır. Məsələn, eyni inkişaf kateqoriyasına aid olan ölkələrdə - İsveçdə iş həftəsi 36 saat, Yaponiyada 61 saat təşkil edir. Cənubi Koreyada isə iş vaxtı işçilər tərəfindən könüllü olaraq elə səviyyədə uzadılır ki, bunun qarşısını almaq üçün ölkə hökuməti xüsusi qərar qəbul edir. Yüksək texnologiyaların, daha yüksək keyfiyyət səviyyəsinə sahib olan rəqəmsal texnologiyaların sistemli tətbiqi, yuxarıda qeyd etdiyimiz kimi, iş vaxtı/asudə vaxt tənasüblüyünü ümumiyyətlə, heç bir məna daşımayan tənasüblüyə çevirir. Rəqəmsal iqtisadiyyatın sistemli qərarlaşması prosesi sürətləndikcə iqtisadi effektin maksimumlaşdırılmasına paralel olaraq canlı əməyin süni intellekt tərəfindən sıxışdırılması kütləviləşir və yekun olaraq, makrososial sabitliyin əsaslarını dağıdır.

Və bununla da öz "sonunu" hazırlayır: Virtual "iqtisadi insanın" yaratdığı süni intellekt onun özünü funksional fəaliyyət sferasından sıxışdırıb çıxarır: canlı – şüurlu varlıq cansız – şüurlu yaranışla əvəz olunur. Amma, mahiyyət dəyişmir. Yəni, süni intellektin dəyər tutumu "iqtisadi insanın" mahiyyətinə uyğun şəkildə formalaşdırılır. Bircə fərqlə: süni intellektin təkmilləşmə, kamilləşmə imkanları yalnız kənar təsirlə baş tuta bilir.

Göründüyü kimi, rəqəmsal iqtisadiyyatın sosial proyeksiyası konvensional sərhədsizlik nümayiş etdirir. Sosiumun – insan cəmiyyəti anlamının deformasiyaya uğraması ucbatından – fərdlərə, "təkcə"lərə bölünməsi prosesi daha da intensivləşir, sosial həmrəylik, sosial əməkdaşlıq anaxronizmə çevrilir, sosial kapitalın formalaşma potensialı "görünməz" hala gəlir, sosial təbəqləşmə dərinləşir, işsizlik kütləviləşir və yekun olaraq, azadlıq→sosial ədalət→ milli rifah – milli varlığın mövcudluq və inkişafının əsas təminatçısı olan fəaliyyət "magistralı" virtual eqoistin sərəncamına keçir. Və belə ssenarinin gerçəkləşdiyi bir şəraitdə sözügedən virtual "eqoistin" əcnəbi olub/olmamasının heç bir əhəmiyyəti qalmır.

Başqa sözlə, bugünkü dəyərlər sistemi, milli mənafe, milli dövlət, ictimai maraqlar və s. anlayışlar mənasızlaşırlar. Söz yox ki, rəqəmsal transdormasiya yeni iş yerlərinin açılmasını həyata keçirir, yeni ixtisaslar yaradır və s. Amma... bütün bunlar kütləvi deyil, individual səciyyə daşıyır.

**Ölçmə prosedur: metodiki yetərsizlik**

Rəqəmsal iqtisadiyyatdan əldə edilən faydanın, yaradılan dəyərin və ümumiyyətlə, rəqəmsallığın QMM – da xüsusi çəkisinin ölçü proseduru çoxsaylı çətinliklərlə (ələlxüsus, inkişaf etməkdə olan ölkələrə münasibətdə) "üz-üzədir".

Bu sferada mövcud olan statistik uçot- empirik müstəvidə tamqiymətli araşdırma aparmaq nöqteyi-nəzərindən yetərsizdir. Digər tərəfdən, rəqəmsal iqtisadiyyatın tam əhatəli tərifi mövcud deyildir. Yəni, nəyi yaxud nələri birmənalı olaraq rəqəmsal kateqoriyaya aid etmək olar ? təsbiti hələ ki, formalaşmamışdır. Bu nüans fenomenlə bağlı empirik – faktoloji informasiyanın natamamlığına, ölçmə aspektindən yanlışlıqlara yol verilməsinə və

gerçəkliyin adekvat formalı qiymətləndirilməsində xətaların geniş miqyas almasına səbəb olur. Söz yox ki, belə bir situasiyada rəqəmsal transformasiyanın iqtisadi reallığın antoloji səviyyələrinə təsiri imkanlarının konkret sərhədlərini görmək mümkünsüz hala gəlir. Məsələn, iqtisadi proses və hadisələrin "yaradıcı mexanizmləri" səviyyəsində rəqəmsallığın iştirak dərəcəsinin adekvat qiymətləndirilməsi empirik – faktoloji xarakterli məlumatların yetərli olmaması şəraitində mümkün deyildir. Buna görə də, nəzəri – konseptual qiymətləndirmə, özünün bütün təfsilatı ilə ehtimallı – deduktiv məntiqə və ideallaşdırma metoduna istinadla aparıla bilər.

Hal – hazırda ölkənin rəqəmsal iqtisadiyyata hazırlıq dərəcəsini qiymətləndirmək üçün çoxsaylı indekslərdən istifadə olunur: elektron biznesə hazırlıq indeksi; İKT inkişafı indeksi; şəbəkə hazırlığı indeksi; internetin inkişafı indeksi; Qlobal innovasiya indeksi; Rəqəmsal imkanlar indeksi və s.

Qiymətləndirmə prosesində ən çox istifadə olunan statistik ölçmə modelinin strukturu aşağıdakı şəkildə verilmişdir (Şəkil 3). Göründüyü kimi, ölçmə metodikası 3 sferanı əhatə edir: Məsrəflər (rəqəmsal konstruktsiyanın yaradılması xərcləri); kadr potensialı; infrastruktura.




**Şəkil 1. Rəqəmsal iqtisadiyyatın statistik ölçmə modeli [5]**

Ayrı – ayrı ölkələrin rəqəmsal iqtisadiyyat kontekstindən əldə etdikləri nəticələrin Rusiyanın "Ростех" şirkəti tərəfindən, 2016 – cı ildə aparılan kəmiyyətcə qiymətləndirilməsi maraqlı mənzərə ortalığa çıxarmışdır. Paradoksallıq ondan təzahür edir ki, postindustrial təsərrüfat tipinə aid və onun bugün üçün ən yüksək səviyyəsi olan rəqəmsal iqtisadiyyat "müxtəlif" dünyalara aid ölkələrdə qərarlaşmaqdadır. Yəni, bu prizmadan inkişaf etmiş ölkələrlə, inkişaf etməkdə olan və müxtəlif dövlət quruluşlu, təsərrüfat tipli, azadlıq, demokratiya və s. konsept-dəyərlərə müxtəlif yönümdə yanaşan ölkələrdə (əsasən, dünyanın iri iqtisadiyyatlarında) rəqəmsal yeniləşmə, demək olar ki, eyni templərlə formalaşmaqdadır. Hətta, teokratik dövlət olan Səudiyyə Ərəbistanı belə bu prosesdən kənarda deyildir. Qərbin anladığı formada demokratiyanın və söz azadlığının olmadığı, şəriətin yeganə normativ – hüquqi baza kimi çıxış etdiyi, ümmətçiliyin (oxu:sosio – mədəni identikliyin) hegemon mövqe tutduğu bir ölkədə rəqəmsal konstruktsiyanın qurulması və fəaliyyəti qərb ölkələri ilə identik məzmun kəsb edə bilərmi?

Əlbəttə, nəzəri prizmadan modernist paradiqmanın böhranı gerçəkdir. Lakin, təkamülçü – sinergetik və tarixi – genetik aspektləri göz ardına vurmaq prinsipcə, mümkünsüzdür.

Hesab edirik ki, yığcam şəkildə təsvir etdiyimiz paradoksallığın kökündə ölçmə prosedurunun qeyri – adekvatlığı dayanır.

**Cədvəl 1. Rəqəmsal iqtisadiyyatın artım tempinin dinamikası (iri iqtisadiyyatlar üzrə)[4]**

| Ölkələr | Ölkə kateqoriyası | İqtisadiyyatın tipi | Dövlət quruluşu | Rəqəmsal iqtisadiyyatın ÜDM-da payı(%) | |
|---|---|---|---|---|---|
| | | | | 2010 | 2016 |
| ABŞ | İnkişaf etmiş | Postindustrial | Respublika | 4,7 | 5,4 |
| Fransa | ----------- | ----------- | ----------- | 2,9 | 3,4 |
| Almaniya | ----------- | ----------- | ----------- | 3,0 | 4,0 |
| İtaliya | ----------- | ----------- | ----------- | 2,1 | 3,5 |
| Yaponiya | ----------- | ----------- | Monarxiya | 4,7 | 5,6 |
| Çin | İnkişaf etməkdə olan ölkə | İndustrial | Totalitar | 5,5 | 6,9 |
| Hindistan | ----------- | "Hibrid" | Respublika | 4,1 | 5,6 |
| Rusiya | ----------- | İndustrial | ----------- | 1,9 | 2,8 |
| Türkiyə | ----------- | ----------- | ----------- | 1,6 | 2,3 |
| Braziliya | ----------- | ----------- | ----------- | 2,2 | 2,4 |
| Səudiyyə Ərəbistanı | ----------- | Ənənəvi (dini) | Monarxiya (teokratiya) | 2,2 | 3,8 |

Analoji situasiya Avropa İttifaqının 2014 – cü ildən (blokdaxili) tətbiq etdiyi "Cəmiyyət və rəqəmsal iqtisadiyyat indeksi"nin hesablanma metodikasında da müşahidə edilməkdədir.

Rəqəmsallaşma prosesinin məhz onun doğurduğu və məhz ona xas olan effektin ölkə miqyasında ölçülməsi metodikası, dəqiqlikdən çox uzaq olmaqla yanaşı, subyektiv interpretasiyaya, ehtimal xarakterli müddəalara istinad edir: "Rəqəmsal iqtisadiyyatda"

iki, bir – birindən fərqli proses getməkdədir:

Biznes →istehlakçı, yeni rəqəmsal məhsul və xidmətlərin istehlakı (oxu:son istehlak);

Biznes→biznes yönümü; rəqəmsal məhsul və xidmətlərin biznesdə dövriyyəyə buraxılması;

Birinci halda, son effekti yaxud yeni yaradılmış "rəqəmsal" dəyəri, az və ya çox dərəcədə ölçmək mümkündür. O halda ki, həmin effektin statistik uçotu dəqiq aparılsın və paralel olaraq, bu istiqamətdə rəqəmsal "kölgə" iqtisadiyyatının yeri və rolu adekvat formada qiymələndirilsin və s.

İkinci formada isə (rəqəmsallaşmanın əsas effekti biznes→biznes əlaqələrində təzahür edir) qiymətləndirmənin adekvatlığı heç vaxt dəqiq olmur (ya şişirdilir (siyasi aspekt) ya da kiçildilir) və olması da zatən "mümkün" süzdür. Əks təqdirdə "rəqəmsal" rəqabətin əsas sütun dayaqlarından biri yararsız hala gələcəkdir.

Beləliklə, rəqəmsal transformasiya ilə bağlı ölkələrarası müqayisənin empirik "bazasının" gerçəkliyə adekvatlıq problemi təsəvvür ediləndən də aktualdır. Amma, nədən həqiqiliyi ciddi şübhə doğuran qiymətləndirmə metodikası populyar olaraq qalmaqdadır? Bizim fikirmizcə, qeyd edilən yönüm daha çox siyasi – iqtisadi səciyyə daşıyır.

Hesab edirik ki, araşdırmalarımızdan da, göründüyü kimi, ölçmə metodikasının gerçəkliyə adekvatlığını təmin etmək – həm metodoloji, həm də empirik – faktoloji anlamda əsas tələb kimi ortalığa qoyulmalıdır. Bu aspektdən:

Metodoloji anlamda eklektika gözlənilən effekti (dəqiqlik mənasında) verə bilməz. Mənaca identik prosesə fərqli metodoloji prinsiplərin "birlikdə" tətbiqi nəzəri dərketmədə fəsad törədir. Amma, prosesin (rəqəmsal transformasiya) ilkin başlanğıcında olması səbəbindən, yəni müəyyən zaman intervalında hansı yeniliklərə (cəmiyyət miqyasında) təkan verəcəyinin qeyri – müəyyən olması prizmasından metodoloji xolizm – yalnış deduktiv nəticələrə gətirib çıxara bilər.

Metodoloji individualizmlə bağlı da qəti əminlik yoxdur. Belə ki, insanın virtuallaşması, canlı əməyin "süni intellektlə" əvəzlənməsi, sözün bütün mənalarında metodoloji individualizmin anlama potensialını "tükədir".

Söz yox ki, metodoloji yetərsizlik ölçmə metodikasının əsaslarına neqativ təsir göstərməklə nəzəri və real gerçəklik arasındakı ziddiyyətlərin daha da dərinləşməsinə səbəb olur. Ölçmə metodikası da məhz bu ziddiyətlərin – gerçəklik kimi təzahür edən "tələ"sinə düşür...

Burda bizim məqsədimiz metodloji "reallığın" bütün nöqsan cəhətlərini araşdırmaq deyil, rəqəmsal transformasiyanın iqtisadiyyat üzərində proyeksiyasının doğurduğu gerçəkliyin kəmiyyətcə qiymətləndirilməsinin adekvatlığına nail olma imkanlarını aşkarlamaqdan ibarətdir.

Beləliklə, sözügedən proyeksiya iqtisadi sferada (məntiqi ardıcıllıqla) dörd mərhələdən ibarətdir:

Rəqəmsal sektor→rəqəmsal formatlı informasiya axınları→rəqəmsal texnologiyaların inteqrasiyası→ Rəqəmsal iqtisadiyyat.

Bu aspektdən ölçülməsi zəruri olanlar:

Rəqəmsal sektor - İKT ları, infrastruktur, internetə çıxış və s.

Rəqəmsal formatlı informasiya axınları - Virtual məkanda informasiya axınlarında rəqəmsal formatlı olan hissənin ölçülməsi;

Rəqəmsal texnologiyaların interpretasiyası – Rəqəmsal sistem bütövlüyü yaradan proses; süni intellektin "mövcudluğu"

Rəqəmsal iqtisadiyyat – 1. Rəqəmsal məhsul və xidmətlərin dəyəri;2) Yeni biznes – modellərin formalaşma tezliyi.

Söz yox ki, sadalananlar texnoloji yeniləşmə və rəqəmsal texnologiyaların yaranması/yaradılması prosesini əhatə edir. Sosio – iqtisadi və siyasi aspektlər, eləcə də normativ – hüquqi bazanın adekvatlığı məsələsi də transformasiyanın effektiv gedişi nöqteyi – nəzərindən mühüm rol oynayırlar. Lakin, ölçmə proseduru qeyd olunanları ehtiva etmir. Ölçmə - transformasiyanın proses olaraq və eləcə də, rəqəmsal iqtisadiyyatı "nəticə" statusunda kəmiyyətcə qiymətləndirməsini həyata keçirir. Yəni, kəmiyyətcə ölçülə bilənləri ölçür. İnanırıq ki, ölçmənin qeyd etdiyimiz strukturda aparılması daha məqsədəuyğundur.

**Yekun müddəalar**

Rəqəmsal transformasiyanın iqtisadi təhlükəsizliyə təsiri ilə bağlı aparılan elmi araşdırmalar birmənalı olaraq yalnız inkişaf

etməkdə olan ölkələrdə həyata keçirilir. Rəqəmsal iqtisadiyyatın artıq formalaşdığı inkişaf etmiş ölkələrdə, əsasən də, Qərb ölkələrində bu aspektdən diqqət mərkəzində tutulan problem- inkişafın dayanıqlılığı yaxud dayanıqlı inkişafın təhlükəsizliyidir. İndustrial təsərrüfat tipinə, xas olan "iqtisadi təhlükəsizlik" problemi, sırf praqmatik prizmadan çılpaq abstraksiya kimi qəbul edilir. Belə ki;

Rəqəmsal tranformasiya – "sərhəd" tanımayan, milli, dini, sivilizasiya müxtəlifliyini "anlamayan", praqmatik faydanın maksimumuna istiqamətlənən sistem dəyişikliyidir (iqtisadiyyatda). Qlobal məlumatlar bazasına çıxışı olmayan iqtisadiyyat – məhvə məhkumdur; Belə bir situasiyada milli dövlət - fəaliyyətinin effektivlik dərəcəsindən asılı olmayaraq, hadisələrin arxasınca "sürünmək" məcburiyyətindədir. Əks – yanaşma, ölkə iqtisadiyyatının rəqəmsal mühitdən təcridinə gətirib çıxaracaqdır.

Rəqəmsal iqtisadiyyat – sosio – iqtisadi mahiyyəti nöqteyi – nəzərindən milli səciyyə daşımır və zatən daşıması da prinsipcə, mümkünsüzdür. Nəinki milli dövlətlər, hətta transmilli kapital belə "rəqəmsal intellektdən" asılı vəziyyətə düşür. Belə bir situasiyada industrial eranın "törəməsi" olan iqtisadi təhlükəsizliyin milli mənafelərə adekvat formada təminatı imkanları yoxdur və ola da bilməz.

Rəqəmsal iqtisadiyyat – sistemlilik baxımından yeni yaranış olan "pay iqtisadiyyatını" doğurur ki, bu da öz növbəsində - inkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi – "birgə istehlak iqtisadiyyatını" indi və gələcəyin aparıcı iqtisadi sistemi keyfiyyətində ortalığa qoyur. Yəni, saysız – hesabsız elmi araşdırmaların həll etməyə çalışdığı "iqtisadi təhlükəsizlik" problemi iki istiqamətdə kardinal dəyişikliyə uğrayır:

Millilik beynəlxalqlıqla, qloballıqla əvəz olunur. Və, müvafiq olaraq, risk və təhdidlərin proqnozlaşdırılması, təsir imkanlarının neytrallaşdırılması ölkələrarası əməkdaşlığın "sıxlıq" dərəcəsindən funksional asılılığa düşür. Daha konkret şəkildə: təhlükəsizlik – yaradılması zəruri olan rəqəmsal dünya düzəninin səlahiyyətləri sırasına daxil edilir;

Rəqəmsal dövrün təhlükəsizlik problemi inkişafın dayanıqlılığı yaxud bu dayanıqlılığın təhlükəsizliyi kimi təzahür edir. Söhbət, dayanıqlı inkişaf – trayektoriyasının təhlükəsizlik sərhədlərini müəyyənləşdirməkdən gedir.

Dayanıqlı inkişafın əsas hədəfi "ekososioiqtisadi" effekt və onun dayanıqlı (oxu:təhlükəsiz) artımı – sözün bütün mənalarında – təhlükəsizliyin təminatı deməkdir.

"Rəqəmsal intellektin" hegemon olduğu təsərrüfatçılıq modelində inhisarçı mövqe rəqabət üstünlüklərinin əldə edilməsində mühüm rol oynayır. "Süni intellekt" – inhisarlaşmanı təbii yaranış kimi ortalığa qoyur.O dərəcədə "təbii" ki, antiinhisar tədbirləri yaxud inhisarçılıqla mübarizə "süni intellektin"özü ilə mübarizə anlamına gəlir. Hətta, qlobal səviyyəli razılaşmalar belə, inhisarçılığı azaltsa da, onu tam şəkildə aradan qaldıra bilmir. Belə şəraitdə "pay iqtisadiyyatı" bir tərəfin güclənməsinə, digər tərəfin isə daha aşağı səviyyəli fayda ilə keçinməsinə gətirib çıxarır ki, bu da ölkələr bölümündə assimmetrikliyin dərinləşməsinə, autsayder ölkələrdə (yəni,inhisarçı mövqeyi olmayan) inkişafın təhlükəsizliyinə pozitiv təsir göstərmir;

Nəhayət, rəqəmsal dünya iqtisadiyyatında ayrıca götürülmüş bir ölkə dayanıqlı inkişafın sistemli təhlükəsizliyinə yalnız o halda nail ola bilər ki, yüksək texnologiyalar sferasında liderlər qrupunda yer alsın.

Problemin mürəkkəblik dərəcəsini anlamaq üçün qeyd edək ki, bugün dünyada mövcud olan 210 ölkədən yalnız 12-i belə bir zirvəyə yüksələ bilmişlər (az və ya çox dərəcədə).

Müasir situasiyada yüksək texnologiyalara çıxışın özü belə böyük problemlərlə şərtlənir. Bu prizmadan məntiqi ardıcıllıqla həyata keçirilməsi zəruri olan keyfiyyət dəyişikliklərini gerçəkləşdirmək, mərhələlərarası keçidin rəvanlığına nail olmaq və bütün bunlarla bahəm makrosabitliyi qoruyub – saxlamaq tələb olunur. Bunun üçün də zəruri həcmdə resurs potensialı, intellektual aktiv və adekvat infrastrukturla təmin edilmiş şəbəkə sistemi lazımdır. Bir sözlə, təhlükəsizlik – istər klassik (iqtisadi), istərsə də müasir (inkişaf) anlamda – hücum strategiyası ilə təmin edilə bilər. Müdafiyə strategiyası effektivlik dərəcəsindən asılı olmayaraq, həm zaman, həm də məkan nöqteyi – nəzərindən məhdud çərçivəlidir. Həmçinin, müdafiə - dinami-

kada olan prosesin – inkişafın təminatında normativ dəyər – konseptlərə istinadla həyata keçirilir. Başqa sözlə, pozitiv müstəvidə meydana çıxan çağırışlara (risk və təhdidlərə), onların məzmun və mahiyyətinə adekvat formada deyil, statik mövqedən və "necə olmalıdır" tələbinə müvafiq reaksiya verir. Sürətli keyfiyyət dəyişikliklərinin baş verdiyi bir dönəmdə stereotip yanaşmalardan yararlanmaq fəsadlı situasiyalara birbaşa yardım etmək, dəstək vermək deməkdir.

**Açar sözlər:** *təhlükə,rəqəmsal, ölçmə, risk; təhdid, empiriya, qiymətləndirmə*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Бодрийяр Ж. Реквием по масс-медиа \\ Поэтика и политика.М:1999.стр.193*
2. *Бухт Р., Хикс Р. Определение, концепция и измерение цифровой экономики. // Вестник международных организаций, Т. 13, 2018№ 2.*
3. *Глазьев С. Великая цифровая революция: вызовы и перспективы для экономики XXI века (Экономика ). (Elekt resur) http//www.qlazev.ru*
4. *Годовой отчет «Ростех».2016.(elekt.resurs) www.Rostex.ru*
5. *Индикаторы цифровой экономики: Статистический сборник,М; ВШЭ-2020*
6. *Матвеев И.А. Электронная экономика: сущность и этапы развития // Управление экономическими системами: электронный научный журнал. – 2012, Вып.6 (46)*
7. *Розанова Н.М., Алтынов А.И. Цифровая теневая экономика как новая реальность современного мира // Вестник Института экономики Российской академии наук.2019.№5*
8. *Русецкая Э.А. Экономическая безопасность страны: Теоретико-методологический аспект// Национальные интересы.2006,№3,стр.48*
9. *Птицына С. Теория сетевого общества М. Кастельса: теоретикосоциологический анализ.(электронный ресурс),2019. https://cyberleninka.ru/*
10. *Срничек Н. Капитализм платформ.2018*
11. *Хаскел Дж., Вестлейк С. Капитализм без капитала: взлет нематериальной экономики. 2018*
12. *Arthur B.The second economy // Mckinsey Quarterly.2011:Elektron. Resurs: www.Mckinsey.com\business functions*
13. *Brynjolfsson. E., McAfee A. The second Machine age. N.Y.,2014, p.10*
14. *Buchak G., Matvos G. And others. Fintech, regulatory arbitrage and the rise of shadow banks\\Journal of Financial Economics.2018, Vol.130.p.454*
15. *David E. When Measuring The Digital Economy. Measure The (Creative) Destruction,2010*
16. *Demchenko I., Latsukh O. The Problem Of Unprofitable Activity Of Enterprises In Ukraine. Baltic Journal Of Economic Studies,Vol.4, №2,P.65*
17. *Gaspareniene, L., & Remeikiene, R. (2015). Digital Shadow Economy: a Critical Review of the Literature. Mediterranean Journal of Social \ Sciences:2015,Vol.6,№6,p.402*
18. *İmprovement of Public Financial Control in the Context of Ensuring Financial Security of the state\Meiss K.M. and others \\ Economic Annals-2017,Vol.168,№11-12, p.66*
19. *Jingles L."Towards a Political Theory of the Firm". Journal of Economic Perspectives, 2017, vol. 31(3), p.114*
20. *Rifkin J. The Third Industrial Revolution. NY: Palgrave Macmillan,*
21. *2011,p,12*
22. *Schwab K. The fourth industrial revolution/ Crown Business. N.Y., 2017, p.8*
23. *Wanjuu L., Le Roux P. Economic Institutions and Economic Growth: Empirical Evidence from the Economic Community of West African States// South African Journal of Economic and Management Sciences.2017, Vol.20,№1,p.160*
24. *Zorz M. Global black markets and the underground economy.2015,elekt.resurs www.helpnetsecurity.com*

# ЦИФРОВАЯ ЭКОНОМИКА: ПРОБЛЕМЫ БЕЗОПАСНОСТИ И МЕТОДОЛОГИЯ ИЗМЕРЕНИЙ

**Доктор экономических наук, профессор**
**Байрамов А.И.**
**Азербайджанский Государственный Экономический Университет**
**Почта: A.Bayramov610@hotmail.com**
**avazbayramov61@gmail.com**

**РЕЗЮМЕ**

В социально-экономической системе происходят адекватные изменения в соответствии с системным характером цифровой трансформации.

Цель этой статьи - предоставить методологию измерения этого качественного изменения и концептуальное обобщение потенциальных опасностей.

Методологический аппарат исследования составляют дедуктивный, системно-структурный подход, сравнительный подход.

В конце исследования даются возможности совершенствования методологии измерений с теоретико-методологической и эмпирико-фактической точек зрения и новая интерпретация современной теоретической платформы безопасности.

**Ключевые слова:** *опасность, цифровой, измерение, риск; угроза, эмпиризм, оценка*

# DIGITAL ECONOMY: SECURITY PROBLEMS AND MEASUREMENT METHODOLOGY

**Doctor of Economics, Professor A.I. Bayramov**
**Azerbaijan State Economic University**
**Email: A.Bayramov610@hotmail.com**
**avazbayramov61@gmail.com**

**SUMMARY**

Adequate changes are taking place in the socio-economic system in line with the systemic nature of digital transformation.

The purpose of this article is to provide a methodology for measuring this quality change and a conceptual generalization of potential hazards.

The methodological apparatus of the research is composed of deduction, system-structural approach, comparative approach.

At the end of the study, the possibilities of improving the measurement methodology from the theoretical-methodological and empirical-factual perspective and a new interpretation of the modern theoretical platform of safety are given.

**Keywords:** *danger, digital, measurement, risk; threat, empiricism, evaluation*

UOT: 338.1; 330.34/.35;
338.26/.27; 338.12;330.34; 330.35;

# İQTİSADİ İNKİŞAFA NƏZƏRİ YANAŞMALARIN TƏKAMÜLÜ

**VÜQAR BAYRAMOV**
*İqtisad üzrə fəlsəfə doktoru, dosent.*
*Azərbaycan Milli Elmlər Akademiyası*
*İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi*

*E-mail: bayramov.vuqar@gmail.com*
*bayramov.vuqar@hotmail.com*

**Giriş**

Klassik bazarın formalaşdığı dövrdən etibarən müasir dövr də daxil olmaqla dünya ölkələrinin əsas problemi inkişaf problemi olaraq qalmaqdadır. Məlumdur ki, industrializmə qədərki dövr – natural təsərrüfatın hökmran olduğu uzun tarixi zaman ərzində inkişaf nəinki funksional fəaliyyət trayektoriyası, hətta bir anlayış kimi mövcud olmamışdır. İqtisadi elminin yararlandığı "inkişaf" kateqoriyası sosioloqların "tərəqqi" anlayışının sinonimi kimi çıxış edir.

Tərəqqi ideyası – modernizmə məxsusdur. Modern paradiqması təkamül prosesində zaman axıcılığının yüksələn xətlə getdiyinə, tərəqqinin permanent səciyyə daşıdığına möhkəm inam bəsləyirdi. Amma 1960-ci illərdən sonra modern dəyərlərin, o cümlədən tərəqqi ideyasının böhranı baş verdi.

Tərəqqinin fasiləsiz olmadığı, diskret və sonlu olması və bütövlükdə modern dəyərlər sisteminin daha çox nəzəri əhəmiyyət daşıdığı aşkarlandı. Lakin aparıcı dünya ölkələrində cəmiyyət tipinin dəyişməsi və qlobal iqtisadi reallığın keyfiyyətcə əsaslı şəkildə yenilənməsinə baxmayaraq, inkişaf problemi yenidən aktuallaşdı.

Bütün bunlarla bahəm, bu günə qədər prosesin bütün məziyyətlərini sistemli şəkildə əhatə edə biləcək vahid, sinkretik inkişaf nəzəriyyəsi hələ də tam olaraq formalaşmamışdır. "Hətta inkişaf nədir?" sualına verilən cavabların əksəriyyəti birtərəfli səciyyə daşımaqdadır.

Fərqli anlayışlar olmasına baxmayaraq, inkişafla modernləşmə prosesinin eyniləşdirilməsi belə kütləvi hal almaqdadır.

**Nəzəri yanaşmaların müxtəlifliyi**

Bu sırada anlayışın iqtisadi interpretasiyası xüsusilə geniş əhatəli və biramilli variasiya müxtəlifliklərini özündə ehtiva edir.

İqtisadi inkişaf anlayışına verilən interpretasiyaları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) İnkişaf – nail olunan nəticədir. İqtisadi inkişaf – həyat şəraitinin yaxşılaşması, əhali tələbatının ödənilməsi, adambaşına düşən gəlirlərin artımıdır (Q.Murdal, X.Tomas, A.Kruqer və s.)

2) inkişaf - prosesin qanunauyğunluğu ilə müəyyənləşir. Onun mahiyyəti iqtisadi artım, müdaxilə, tsikl kontekstində formalaşır (Q.Klark və b.).

3) inkişaf – çoxölçülü prosesdir: istehsalın əsas amilinin dominantlığı şəraitində müxtəlif sahələrdə baş verən dəyişikliklər kompleksidir (P.Nureev, Q.Arndt).

4) inkişaf – qayda – xaos əvəzlənməsidir (V.Branski və b.)

Əksər variantlardan göründüyü kimi iqtisadi inkişaf "tərəqqi" anlayışının sərhədlərindən kənara çıxmır.

İqtisadi inkişafın kəmiyyət ölçüsü, mahiyyətcə elə iqtisadi artım deməkdir. Yaxud keyfiyyət aspektləri, keyfiyyətcə sistemli yeniləşmə yoxdursa, kəmiyyət çoxalması iqtisadi inkişafı əks etdirmir.

Müasir dövrdə iqtisadi inkişaf anlayışının interpretasiya müxtəlifliyi daha da dərinləşmiş, müxtəlif davranış hipotezlərinə istinadla bir-birindən əsaslı surətdə fərqlənən nəzəri konstruksiyalar formalaşdırılmışdır.

İqtisadi inkişafı iqtisadi artımla, rəqabət qabiliyyətliliyin yüksəlməsi ilə, sənaye siyasəti ilə, ətraf mühitin dayanıqlılığı ilə, əməkhaqqının artımı, təhsil səviyyəsinin yüksəlməsi ilə və s. eyniləşdirirlər.

Sırf iqtisadi inkişafla bağlı son dövrlərdə formalaşdırılmış konkret nəzəri konstruksiyaların sayı kifayət qədər çoxdur. (Bax: şək. 1)

**İqtisadi inkişaf nəzəriyyələri**

| Nəzəriyyələr | Əsas anlayışlar | İnkişafın məzmunu | Hərəkətverici qüvvələr | Üstünlükləri | Zəif cəhətləri | Tətbiqi spesifikası |
|---|---|---|---|---|---|---|
| İqtisadi baza nəzəriyyəsi (T.Mann, V.Leontyev və s.) | İxrac (əsas) sektor, idxal (qeyri-əsas) sektor | İstehsalın, gəlirin, yaxud məşğulluğun yüksək artımı | İxracın xarici tələbin dəyişikliyinə reaksiyası | Populyarlıq (ABŞ-da) proqnozlaşdırmanın sadəliyi | Uzunmüddətli dövr üçün yararsızdır | Xarici yönümlü strategiya-Daxili yönümlü strategiya |
| Xammal nəzəriyyəsi (X.Innis) | İxrac yönümlü sahələr | Uzun müddətli artım (İxrac hesabına) | Marketinq, xarici investisiyalar, ixrac məhsuluna tələb | İnkişafın perspektivlərini təsvir edir | Təsvir (deskritivizm) praqmatika anlamında yetərli deyil | İxrac ixtisaslaşması |
| Sektorlar nəzəriyyəsi (A.Fiker, K.Klark və s.) | Birinci, ikinci, üçüncü sektorlar | Əmək məhsuldarlığının və sektorların diversifikasiyasının yüksəlişi | -Tələbin elastikliyi (gəlirdən); -Birinci və ikinci sektorlarda əmək məhsuldarlığı; | Empirik təhlilin mümkünlüyü | Kriteriyaların ifrat dərəcədə ümumiləşdirilməsi | Struktur dəyişiklikləri |
| Artım qütbləri nəzəriyyəsi (F.Perri) | Sənaye sahələri | Iqtisadiyyatda struktur dəyişiklikləri | "Cəlb eləyən" sahələr artımın qütbləridir | Baza nəzəriyyəsi (inkişafın) kimi yayılması | Birtərəflilik - Anklavlıq | İqtisadi artım mərkəzləri stradegiyası |
| Regional təmərküzləşmə nəzəriyyəsi (Q.Mürdal, A.Xirxman) | Əmtəə və istehsal amilləri: -Sənaye sahələri; | Adambaşına düşən gəlirlərin artımı | - Əks-axın və yayılma effekti; - Polyarlıq effekti; | İnkişafın dinamikası | Ziddiyətlilik; birtərəflilik; | Əsas sahələrin müəyyənləşdirilməsi (birbaşa və əks-səda effektliyi əsasında |
| Neoklasik artım nəzəriyyəsi (R.Solon, T.Svan və s.) | Makro, yaxud iki sektorlu regional iqtisadiyyat | Adambaşına iqtisadi artım tempinin yüksəlməsi | Yığma yönəlilik | Model təklifə istinadla formalaşdırılır | Birtərəflilik | Azad ticarət, iqtisadi inteqrasiya |
| Regionlararası ticarət nəzəriyyəsi (G.Xakler, B. Olin ) | Qiymət, əmtəənin həcmi, istehsal amilləri | İstehsalçıların rifahının yüksəlməsi | Qiymət tənzimləyiciləri, "Qiymət-həcm" effekti | Əsas diqqət rifaha və qiymət effektinə yetirilir | İnkişaf dinamikası inkar olunur | Effektiv radikal idarəetmə |
| Əmtəə tsikli nəzəriyyəsi (R.,Vernen ) | Yeni, yetkin və standartlaşmış əmtəələr | Daima, yeni məhsulun istehsalı və yayılması | İnnovasiya prosesi | Populyar nəzəriyyədir | Texnoloji determinləri | İnnovasiya strategiyası |
| Sahibkarlıq nəzəriyyəsi (Y.Şumpeter) | Sahibkarlıq, sahibkarlıq funksiyası | İqtisadi sistemin şevikliyi və differsifikasiyanın yüksəlməsi | İnnovasiya prosesi | Dövrün tələbinə uyğundur | Tətbiqi çətindir | Əlverişli sənaye mühiti |
| Çevik ixtisaslaşma nəzəriyyəsi (F.Çarlz, C.Seytkin) | İstehsal rejimləri | İnnovasiya əsasında dayanıqlı artım | Tələbin dəyişməsi | Detallaşdırılmış təhsil | Məcmu effektə nadir hallarda toxunulur | Sənaye klasterləri |

**Şəkil 1. İqtisadi inkişaf nəzəriyyələrinin məzmun fərqliliyi.**

*Mənbə: E.Emil; Eduard J.Feser. Understanding Local Economic Development/ Putqers University, 1999.*

Qeyd edək ki, müasir elmi fikirdə iqtisadi artım və iqtisadi inkişafın üç əsas nəzəri cərəyanı mövcuddur:

1) Neoklassik istiqamət: iqtisadi artım – xalis iqtisadi mexanizmlər məcmusunun qarşılıqlı təsirindən doğur və süni şəkildə dvlət tərəfindən idarə edilə bilməz (M.Fidman; A.Marşall).

2) Yenikeynsçi istiqamət: iqtisadi artımın inteqrativ anlamından çıxış edir. Və, hesab olunur ki, artım (inkişaf) həm iqtisadi, həm də qeyri-iqtisadi amillər məcmusunun təsiri ilə bağlıdır (D.Tobina, S.Fudsino və s.).

3) Təkamülçü istiqamət: iqtisadi artım – milli iqtisadiyyatın fasiləsiz inkişafı və mürəkkəbləşməsinin məhsuludur.

Keynçi yanaşmaya görə inkişaf:

– Yüksək artım templərinin sinonimidir (iqtisadi artım mərhələlər modeli).

– İqtisadiyyatın əsas sahələrini əhatə edən dərin struktur dəyişikliklərdir (“Böyük təkan” modeli).

– Xarici maliyyələşmə mənbələrinin daxili mənbələr tərəfindən sıxışdırılması, idxal mallarının yerli məhsullarla əvəzlənməsi, xarici maliyyə asılılığının aradan qaldırılması üçün şəraitin yaradılmasıdır (ikidefisitli iqtisadi artım modeli).

Neoklassik yanaşmaya görə inkişaf:

– Ənənəvi və müasir iqtisadiyyat, industrializməqədərki və industrial, natural və bazar təsərrüfatları arasında dualizmin aradan qaldırılmasıdır (izafi əmək təklifi modeli).

– Hər bir ölkənin müqayisəli üstünlüklərinin beynəlxalq ticarətdə tam şəkildə istifadəsidir (müqayisəli üstünlüklər konsepsiyası)

İnstitutsional aspektdən inkişaf:

– Cəmiyyətin əksər üzvlərinin əsas tələbatlarının ödənilməsi dərəcəsinin yüksəlişidir (“Asiya dramı” modeli);

– Təkcə iqtisadi artım templərinin yüksəlməsi deyil, eyni zamanda insan kapitalına qoyulan investisiyaların artımı və yoxsulluğun aradan qaldırılmasıdır (insan kapitalı konsepsiyası);

Sol radikal yanaşmaya görə inkişaf:

– Qeyri-ekvivalent mübadilənin aradan qaldırılması imkanlarıdır (qeyri-ekvivalent mübadilə modeli).

– İnsan kapitalının daha effektli formada yığılması və iqtisadiyyatda praktiki realizasiya üçün zəruri şəraitin yaradılması prosesidir (Solou modeli, Menkyu modeli və s.).

– Təkcə sürətli urbanizasiyanın neqativ nəticələrinin ləğvi və kəndin kompleks inkişafı deyil, həmçinin kənd və şəhər arasındakı “uçurumun” azaldılması, bütövlükdə iqtisadiyyatın harmonik bütövləşməsi prosesidir (T.Peter modeli).

Müasir iqtisadi fikirdə Y.Şumpeter iqtisadi inkişaf nəzəriyyəsinin banisi hesab olunur. Y.Şumpeter, hələ keçən əsrin əvvəllərində iqtisadi artım və inkişaf anlayışlarının kəmiyyət → keyfiyyət rakursundan fərqli məzmun daşıdıqlarını ortalığa qoymuşdur. Fərqin məhz nədən ibarət olduğunu da dəqiq şəkildə ifadə etmişdir: nə qədər istəyirsiniz poçt faytonlarını ard-arda düzün – dəmiryolu əldə etməyəcəksiniz! İnkişaf prosesinin əsas hərəkətverici qüvvələri kimi sahibkarlıq və innovasiyalar səciyyələndirmişdir.(2;)

İqtisadi artım dövründə əmtəə və pul axınları müəyyən edilmiş qaydada qarşı-qarşıya gəlir, bir-birinə doğru hərəkət edirlər. Y.Şumpeter bu hərəkəti iqtisadi həyatın sirkulyar axını kimi qəbul edirdi. İqtisadi inkişaf – həmin axının rəvan gedişini pozmaqla yeni sənaye sahələrini meydana çıxarır (köhnə sahələrin fəaliyyətini dayandırır). Bununla belə, inkişaf fasiləsiz ola bilməz. Sadəcə olaraq, ona görə ki, yeni ideyalar hər gün yaranmırlar. İnkişaf, eləcə də innovasiya fasiləlidir. Məhz bu fasiləlilik (diskretlik) iqtisadi tsikllərin əsasında dayanır. Həmçinin sirkulyar axında dəyişikliklər yalnız kəmiyyət səciyyəli olurlar. Bu anlamda da, iqtisadi inkişafa tətbiqi məhduddur. Eyni zamanda keyfiyyət dəyişikliklərini, yaxud inkişaf prosesinin mövcudluğunu yalnız innovasiyalarla əlaqələndirmək qəbul oluna bilməz. Bu anlamda yenilik, inkişaf prosesinin məntiqi yekunu kimi meydana çıxan yeni yaranış, o halda öz təyinatına uyğun gələ bilər ki, o, sistemli səciyyə daşısın. Başqa sözlə, innovasiya öz-özlüyündə deyil, digər şərtlərlə qarşılıqlı bağlılıqda yeniliyi sistemli hala gətirə bilər.

Araşdırmalarımız göstərir ki, Y.Şumpeterin inkişaf nəzəriyyəsinin əsas məhdudiyyətləri və çatışmazlıqları sırasına aşağıdakılar aid edilə bilər:

1) Nəzəriyyənin çıxış nöqtəsi, mahiyyətcə özündə tarazlı vəziyyəti ehtiva edən “təsərrüfat dövriyyəsidir”. Məlumdur ki, tarazlıq – fiksiyadır

və onun statik şərhi, əslində, gerçək olanın yalnış qiymətləndirilməsi anlamını daşıyır;

2) Mənfəət və faiz yoxdur, istehsalçılar yalnız xərcləri ödəyirlər:

3) Təsərrüfat əlaqələri dəyişməzdir;

4) Tam şəkildə azad rəqabət mövcuddur:

5) istehsalın həcmi əvvəlki satışın nəticələrindən asılı olaraq müəyyən edilir;

6) Tələb=təklif bərabərliyi mövcuddur;

7) İqtisadiyyat hərəkətsizdir.

Aydındır ki, statik yanaşma milli iqtisadi inkişaf nəzəriyyəsinin real məzmunlu konseptual sxemini qurmaq prizmasından yetərli deyildir. İnkişaf – prosesdir, dinamikadır. Bu anlamda statik baxış həmin prosesin avtonom xarakterli çoxlu sayda kiçik hissəciklərə parçalanması, mahiyyətin ardıcıl surətdə dəyişən təzahür formaları rakursundan "açıqlanması" deməkdir ki, bu da heç bir halda gerçəkliyin adekvat təsviri səciyyəsini daşıya bilməz.

Statik yanaşma ifrat dinamizmi ilə seçilən inkişaf prosesini ayrı-ayrı "avtonom" hissəciklərə (zaman kəsiklərinə) bölür ki, belə bir "bölgü" bəri başdan apriori olaraq bir sıra məhdudiyyət şərtlərinin tətbiqi zəruriliyini doğurur. Yəni inkişafın proses olma etibarı ilə konseptual "sərhədləri" gerçəkliyin mahiyyət özəlliklərindən deyil, nəzəri təxəyyülün əqli-nəticələrindən qaynaqlanmaqla formalaşır. Daha konkret ifadə ilə, bu halda, söhbət həqiqi mahiyyətdə təzahür edən inkişafdan daha çox onun nəzəri proyeksiyasından gedir.

Yeni keynsçi yanaşmalarda əsas vurğu texniki-iqtisadi parametrlərin dəyişməsi üzərinə düşür. Neoklassika hesab edir ki, bu halda sosial-iqtisadi şərtlər kompleksi nəzər-diqqətdən kənarda qalır: iqtisadi inkişaf ekzogen deyil, endogen resurslara istinad etməlidir. Eyni zamanda qeyd etmək lazımdır ki, hər iki cərəyan arasında əhəmiyyətli fərqlərə baxmayaraq, metodoloji-baza çox oxşardır. Bu aspektdən institutsionalizm, sözün həqiqi mənasında, mahiyyətcə fərqli məzmun daşıyır. Məhz institutsional müstəvidə aparılan tədqiqatlar göstərdi ki, inkişaf – təkcə iqtisadi alt-sistemi deyil, eyni zamanda qeyri-iqtisadi olanların geniş spektrini (o cümlədən formal və qeyri-formal institutları, mədəniyyəti, dəyərlər sistemini və s.) özündə ehtiva edir. Əks-təqdirdə, tamqiymətli inkişafdan danışmaq mümkün olmazdı. İnkişaf aspektindən qarşılıqlı bağlılığı Hayaminin sxemindən əyani şəkildə görmək olar. (şəkil 2.)




**Şəkil 2. İqtisadi inkişaf üçün zəruri olan sistem bağlılığı**

*Mənbə: Y.Hayami. Development Economics: From the to wealh of nation. Oxford. 1997; p.11*

Beləliklə, sosio-iqtisadi inkişaf (elə onun dayanıqlılığı problemi də) – ekzogen təsirlərə verilən reaksiyalar seriyasının ardıcıllığı ilə deyil, endogen məzmunlu və özünütəşkil xarakteri daşıyan aktların məcmusu formatında reallaşır. İqtisadi inkişaf problematikasına təkamül paradiqması çərçivəsində yanaşma prosesə daha çox "təbiilik" görüntüsü verməsi aspektindən diqqət cəlb edir. Məlumdur ki, həm inkişaf, həm də təkamül (sosio-iqtisadi anlamda) iqtisadi hərəkətin təzahür formalarıdır. Hər ikisi üçün də eyni olan xassə geriyə dönüşün yoxluğudur. Yəni bu proseslərin məntiqi sonluğu kimi ortalığa çıxan yeni yaranışlar heç bir halda əvvəlki vəziyyətlərinə qayıda bilməzlər.

**Təkamülçü-sinergetik paradiqmanın mahiyyət özəllikləri**

Təkamülçü inkişaf iqtisadi sistemin strukturu və sistemdaxili qarşılıqlı əlaqələrinin kəmiyyət-keyfiyyət xarakteristikasının çoxpilləli və məqsədyönlü dəyişməsi prosesidir. Və bu mənada iqtisadi artımın klassik-ənənəvi yozumunu inkar edir. Belə ki, ənənəvi anlamda iqtisadi artım cari inkişaf prosesinin konkret intervalında baş verir və tənəzzüllə əvəzlənir (tsiklik formada). İqtisadi artım konsepsiyaları (C.Kuznes, R,Solou, U.Rostou və s.) bir qayda olaraq, kəmiyyət parametrlərinin artımı, yaxud azalmasının, yaxud onların müxtəlif nisbətli kombinasiyasının iqtisadi sistemdə keyfiyyət yeniləşməsinə təsirinin təsvirini verilər. Yəni həm zaman, həm də funksional aspektdən

məhdudiyyətlər mövcuddur və bu anlamda təkamül prosesinin yalnız bir pilləsini ehtiva edə bilirlər. Başqa ifadə ilə, təkamülçü inkişaf prosesinə bütövlükdə deyil, yalnız fraqmentar aspektdən yanaşırlar. Sübut etməyə ehtiyac yoxdur ki, bir pillə çərçivəsində yeniləşmə prosesinə təsir kafi qiymətləndirilə bilməz. Təkamül prosesinin tədrici, fasiləsiz və kumilyativ proses halında olmasını nəzərə alarıqsa, onda yuxarıda qeyd etdiyimiz amilin rolunun o qədər də həlledici olmadığını görə bilərik.

Sinergetik paradiqma (İ.Priqojin, İ.Moiseyeva və s.) "artım nöqtələrini" aşağıdakı ardıcıllıqla sıralayır:

– Gələcəyə münasibətdə təkamül prosesinin determinasiya amillərinin öyrənilməsi;

– Gələcəyin birmənalılıqdan azad olduğunun, "müxtəlif" gələcəklərin gerçəkliyinin qəbulu;

– Sosio-iqtisadi sistemin inkişaf yollarının (attraktor) tədqiqi;

– Elementlərin müxtəlifliyinin, çoxsəviyyəli bazar şəraitinin yaradılmasının konstruktiv rolunun qəbul edilməsi;

– Gələcəyin, yaxud gələcəkdən idarəetmə imkanlarının tədqiqi;

– Zamana qənaət rejiminin tətbiqi və sosio-iqtisadi sistemin təkamül prosesinin sürətlənməsi.

Nəzəri baxışların müasir mərhələsində (S.Uinter, V.Maevski, C.Xocson və s.) problematika ilə bağlı aşağıdakılara diqqət yetirilməsi məqsədəuyğun hesab edilir. (şəkil 3)

Sineqretik yanaşma, açıq sistemlərin inkişafı prosesində iki tipin olduğunu qeyd edir: Adaptasiya və bifurkasiya!

N.Moiseev yazır ki, açıq sistemlərin tarixi inkişaf prosesi onların kəmiyyət xassələrinin dəyişməsinin "sakit" mərhələlərinin sistemin strukturunun keyfiyyətcə mürəkkəbləşməsinə səbəb olan "inqilabi" dəyişikliklər mərhələləri ilə növbələşməsi prosesidir.(4;44) Yəni adaptasiya prosesləri, tez, ya gec, məntiqi zərurətlə bifurkasiya nöqtəsinə (sərhəd situasiyasına) gətirib çıxarır. Sonrakı mərhələdə, yəni sistemin bifurkasiya nöqtəsindən sonra nəyin alınacağı, yaxud alınmayacağı məsələsi isə açıq qalır. Eyni zamanda, bu aspekt çox geniş diapozonı əhatə edir: arzu edilənlərlə onun tam əksinin reallaşması mümkündür. Hansı variantın alınacağı isə xarici təsirin yaratdığı təsadüflərdən asılıdır. Başqa sözlə, sosio-iqtisadi sistemin spesifikası əsaslı hesab olunmur və təbii sistemlərlə (təkamül inkişaf rakursundan) eyniləşdirilir. Hər iki sistem arasında qeyd edilən aspektdən, müəyyən oxşarlıqların mövcudluğu heç bir şübhə doğurmur. Amma hər hansı bir məqamla bağlı tam şəkildə üst-üstə düşmə, prinsipcə qəbul edilə bilməz. Təbii sistemlərdən fərqli olaraq, sosio-iqtisadi sistem – məqsədi olan sistemdir və subyektiv aspektin həlledici əhəmiyyəti vardır. Yəni ən azı proses – məqsədyönlü tənzimlənəndir (təbii sistemlərdə belə xassə mövcud deyildir). Mahiyyətcə fərqli olanların yalnız "sistem" adlandırıldıqlarına görə eyni məxrəcə gətirilməsi, əlbəttə də ki, məqsədəuyğun hesab edilə bilməz.




**Şəkil 3. Təkamülçü inkişaf prosesinin tədqiqi metodikası: müqayisəli qiymətləndirmə**

Təkamülçü-sinergetik paradiqma uzunmüddətli iqtisadi inkişafın əsas qanunauyğunluqları sırasına aşağıdakıları aid edir:

– İqtisadi konyunkturanın uzun dalğalarının növbələşməsindəki qeyri-bərabərlik (dalğanın uzunluğu aspektindən);

– Dünya iqtisadiyyatının mütəmadi olaraq böhrana məruz qalması iqtisadi artım amillərin nisbətini, sistemin, strukturu və sistemdaxili qarşılıqlı əlaqələri kardinal şəkildə dəyişikliyə uğradan texnoloji

irəliləyişlərlə bağlıdır;

– Texniki-iqtisadi inkişafın natarazlığı;

– İnkişaf trayektoriyasının, texnologiyaların yayılması və dəyişməsinin qeyri-xəttiliyi;

– Texniki-iqtisadi inkişafın müvafiq istiqamətinin həyat tsiklinin başlanğıcında texnoloji trayektoriyanın qeyri-müəyyənliyi və alternativliyi (rəqabətin zəifləməsi, inhisarın yaranması);

– Texnologiyanın təkamül tsiklinin fazaları arasında "uçurumun" mövcudluğu (innovasiya və investisiya institutlarının vəziyyətindən asılı olaraq, aradan qaldırma imkanının olması).

Sözügedən paradiqma hesab edir ki, inkişaf (təkamül) qlobal miqyaslı və obyektiv prosesdir və bu proses universal xarakterlidir, labüddür, qaçılmazdır.

İnkişafın, bir proses olmaq etibarı ilə tsiklik xarakter daşıması bazarın fəaliyyət mexanizminin məntiqi nəticəsi olmaqla müasir dövrdə xüsusi aktuallıq kəsb etməkdədir. Belə ki, bir tərəfdən, dünyanın inkişaf səviyyəsi yüksək olan regionlarında cəmiyyətin tip dəyişkənliyi (industrial eradan postindustrial sistemə keçid), digər tərəfdən, qloballaşma prosesinin doğurduğu "yeni bərabərsizlik" tsikl və iqtisadi dalğalarla bağlı problematikanın miqyasca genişlənməsinə gətirib çıxarmışdır. Bu mövzu, əslində, yeni bir şey deyildir. İnkişafın tsikliyi problemi son 200 illik tarixi dönəmdə araşdırma problemi olaraq qalmaqdadır (K.Marks, C.Keyns, N.Kondratyev, C.Kuznes, A.Toffler, S.Cevons, T.Maltus və s.).

İqtisadiyyatda tsiklik dəyişmələrin səbəbləri müxtəlif məzmunda interpretasiya olunur. Bununla belə, dəyişmələrə bu və ya digər şəkildə təsir göstərmə iqtidarında olanlar sırasına aşağıdakılar aid edilir:

1) iqlim dəyişikliyi;

2) qeyri-müəyyənlik;

3) psixoloji səhvlər;

4) yeni texnika və texnologiya (tərəqqi anlamında);

5) ümumi istehsal artıqlığı;

6) bank əməliyyatları, pul axınlarının hərəkət mexanizmi;

7) sair.

**İqtisadi tsikllərin tip müxtəlifliyi**

**Cədvəl 1.**

| Tsikllər | Tsiklin zaman intervalı | Müəllifi | Spesifik xüsusiyyətləri |
|---|---|---|---|
| 11. Qısa müddətli | 2-4 il | Kitçin | Ehtiyatlar – ÜDM-un dəyişməsi; inflyasiya, məşğulluq; biznes tsiklləri |
| 2. Orta müddətli | 7-12 il | Juqlyar | İnvestisiya tsikli – ÜDM dəyişməsi; inflyasiya, məşğulluq. |
| 3. Uzun müddətli | 16–25 il | S.Kuznes | Gəlir, immiqrasiya, yaşayış binalarının tikintisi, məcmu tələb; |
| 4. Çox uzun müddətli | 40-60 il | N.Kondratyev | Texniki-texnoloji tərəqqi; struktur dəyişikliklər |
| 5. Dalğa xarakterli | 200 il | Forrester | Enerji və materiallar: |
| 6. Uzun dalğa | 1000-2000 il | A.Toffler | Sivilizasiyanın inkişafı |

Kondratyev tsiklləri ("uzun dalğalar") inkişaf problematikası nöqteyi-nəzərindən böyük diqqət cəlb edir.(5;)

N.Kondratyev "uzun dalğaların" (Böyük tsikllərin) qanunauyğunluğunu fərqləndirirdi:

1) "Yüksəklik dalğasının" əvvəlində (başlanğıcında) iqtisadiyyatda dərin keyfiyyət dəyişiklikləri baş verir: əhəmiyyətli texniki-texnoloji kəşflər, bunun əsasında növbəti elmi-texniki tərəqqi və yeni texnologiyaların tətbiqi; Ticarətin və pul dövriyyəsinin təkamülü;

2) Sosial təlatümlər: müharibələr, inqilablar və s. (Böyük tsikllərin yüksələn dalğaları şəraitində).

3) "Enən (enişə doğru) dalğalar" şəraitində aqrar sferada durğunluq yaranır;

4) "Yüksələn dalğa" – böhran və depressiyaların zamanca uzunluğunu qısaldır; iqtisadi canlanma və iqtisadi artıma dəstək verir; "Enən dalğa" – isə əks istiqamətdə təsir göstərir, iqtisadi inkişaf imkanlarını azaldır.

Və qeyd olunur ki, "uzun dalğaların" başlıca səbəbi əsas kapitalın passiv hissəsinin kütləvi şəkildə yeniləşməsidir.

**İnkişafın model identifikasiyası**

İqtisadi inkişafın model identifikasiyasının idxal → ixrac yönümləri üzərində proyeksiyası bir çox hallarda birmənalı konseptual məzmunda təqdim olunur. O mənada ki, idxaləvəzetmə və ixracatyönümlü modellər əks-qütblülük aspektindən fərqləndirilirlər.

**İqtisadi inkişafın model identifikasiyası: strateji yönümlülük**

**Cədvəl 2.**

| Əsas kateqoriyalar | İdxaləvəzetmə strategiyası | İxracatyönümlü strategiya |
|---|---|---|
| 1. Məqsəd | Milli təkrar istehsal prosesinin bütövlüyü və təhlükəsizliyi | Milli təkrar istehsal prosesinin effektivliyi, xarici əməliyyatlardan uduşun maksimumlaşdırılması |
| 2. Dünya iqtisadiyyatına inteqrasiya | Selektiv inteqrasiya | Strateji inteqrasiya |
| 3. İnkişafın təhlükəsizliyinin təminatı | Proteksionizm, tarif və qeyri-tarif tənzimlənmə, məhdudiyyətlər sistemi | – Beynəlxalq rəqabət qabiliyyətliliyin yüksəldilməsi;<br>– Azad ticarət; |
| 4. Bazar yönümlülüyü | Daxili bazar | – Dünya bazarı |
| 5. Əsas istinad nöqtəsi | İqtisadiyyatın diversifikasiyası | – Xarici tələbin həcmi |
| 6. Əsas hədəf | İdxal asılılığının minimuma endirilməsi | Dünya bazarında maksimum pay əldə edilməsi |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

Tarixi-xronoloji aspektdən yanaşdıqda görmək olar ki, idxaləvəzetmə modeli 1950-60-cı illərdə, ixracyönümlülük isə 1980-ci illərdən sonra populyarlıq qazanmışlar.

Yönüm fərqliliklərinə baxmayaraq, hər iki model üçün əsas məsələ sənayeləşmə məsələsidir. Sadəcə olaraq, sənayeləşmə prosesinin idxaləvəzetmə modelində daxili tələbə istinadla həyata keçirilməsi istənilir, ixracyönümlülükdə isə xarici tələbə (ixracın strukturunun dəyişməsi: xammaldan emal sənayesi məhsullarına keçid) adekvat olan yanaşma sərgilənir. Yeri gəlmişkən, qeyd edək ki, bəzi araşdırmalarda bu sıraya üçüncü modeli də daxil edirlər (innovasiyaya yönümlü model).(6;292) İnnovasiyaların mühüm əhəmiyyət kəsb etdiyi şübhəsizdir. Lakin onu əvvəlki iki modellə bir sıraya qoymaq düzgün deyildir. O, həmin iki model kimi özü özündə mövcud olan deyil, əksər inkişaf modellərinin funksional məzmununda yer alandır. Bu aspektin mövcudluğu və inkişaf səviyyəsi inkişaf modellərini oxşar məzmuna gətirən, yəni universal "örtüyə" bürüyən əsas amildir.

İnkişafın irxracyönümlü, yoxsa idxaləvəzetmə modelinin tətbiqi ilə əksər tədqiqatçılar tərəfindən dəstəklənən seçim birincinin üzərinə düşür. Və bu seçimin əsaslandırma tipi də qəbul olunandır: xarici bazarlara çıxış olmadan idxaləvəzetmə modeli uzunmüddətli dövr üçün effektiv deyildir. Bu deyimin məntiqi prizmadan yalnış olmadığı aydındır. Lakin:

1) Uzunmüddətli dövr deyəndə hansı uzunluqda zaman intervalı nəzərdə tutulur: Əgər söhbət bu gün yaranmış, mövcud olan və ölkənin gələcəyi (uzunmüddətli dövrü) üçün əsas təhlükə mənbəyi kimi çıxış edən problemli situasiyanın aradan qaldırılması zəruriliyindən gedirsə, onda bizi, qısa və orta dövr daha çox maraqlandırmalıdır;

2) Xarici bazarlarda (emal sənayesi məhsulları üzrə) vakansiya, "boş" nişa yoxdur. Ölkənin həmin bazarlarda rəqabətqabiliyyətliliyinin əsas amili ucuz işçi qüvvəsidir. (Cənub-şərqi Asiya ölkələri kimi).

3) Bu amil – əhalinin süni yoxsulluq rejimini yaradan və dəstəkləyən amildir. Və bu da nəinki siyasi-etik anlamda, eləcə də effektivlik nöqteyi-nəzərindən problematikdir; Həmçinin nəzərə alınmalıdır ki, müasir dövrdə rəqabət üstünlüyü – ucuz işçi qüvvəsinə deyil, işçi qüvvəsinin ixtisas səviyyəsinə, məhsuldarlığına və innovativliyinə istinadla formalaşır.

4) İşçi qüvvəsinin ucuzluğu uzunmüddətli dövr üçün keçərli deyildir. İqtisadi prosesin gedişində "ucuzluq" tədricən aradan qalxır. Əks-təqdirdə işçi qüvvəsinin təkrar istehsalı prosesində problemli situasiyaların meydana çıxması qaçılmaz olacaqdır.




**Şəkil 4. Klark-Fişer modeli**

Beləliklə, digər şərtlərin dəyişmədiyi təqdirdə ixracyönümlülük də ixaləvəzetmə kimi, uzunmüddətli dövr üçün "yararsız" hala düşür.

Müasir situasiyanın sistemli təhlili, amillər kompleksinin bu günə formalaşmış kombinasiyasına istinadla birmənalı olaraq inkişafın indiki mərhələsində

daxili bazara istiqamətlənmə daha prioritet səslənir. Yəni:

– Daxili bazarın ekstensiv böyüməsi (regional inteqrasiya vasitəsi ilə).

– Məcmu tələbin artımı, eləcə də infrastrukturun inkişafı hesabına bazarın intensiv genişlənməsi;

– Əks-inhisarlaşma, siyasətinin (xarici bazarlar istisna olmaqla) radikal formada tətbiqi;

Geoiqtisadi yanaşma prizmasından inkişaf modelləri ilə iqtisadiyyatın sektorları arasında birbaşa bağlılıq mövcuddur. Belə modellər sektor dəyişikliyinin (aqrar→sənaye→xidmət) ardıcıllığını özündə ehtiva edir. Məsələn, Klark-Fişer modeli bu anlamda daha çox populyarlıq qazanmışdır.

Bu model – ümumiqtisadi inkişaf prosesində yeni iş yerlərinin yaradılması aspektindən iqtisadiyyatın müxtəlif sektorlarının əhəmiyyətlilik dərəcəsinin dinamikasının nəzəri cəhətdən əsaslandırır.

**Açar sözlər:** *inkişaf, təkamül, sinergetika, artım, tsikl, keyfiyyət.*

### ƏDƏBIYYAT SİYAHISI

*1. E.Emil; E.J.Feser. Understanding Local Economic Development/Putqers University. 1999*

*2. И.Шумпетер. Теория економического развития. М; Прогресс; 1982*

*3. Y.Hayami. Development Economics: From the poverty to wealth of Nation. Oxford; 1997. p.11*

*4. Н.Н.Моисеев. Человек и неосфера. М:1990; с.44*

*5. Н.Д.Кондратьев. Суздальские письма. — М.: Экономика, 2004. — 879 с*

*6. П.Р.Кругман; Международная экономика. 5-е издание. СПб, 2003, с.292*

### EVOLUTION OF THEORETICAL APPROACHES TO ECONOMIC DEVELOPMENT

**Bayramov Vugar Avtandil oglu,**
**Doctor of Philosophy in Economics, Associate Professor.**
**Institute of Economics of the Azerbaijan National Academy of Sciences, Leading researcher**

**SUMMARY**

The article examines the etymology of the development phenomenon and the conceptual views of various theoretical currents in chronological order, and comprehensively analyzes the methodological basis. The research process is based entirely on the use of a pragmatic method. The main purpose of the article is to adequately explain the teleological meaning of the concept of development and to reveal the analogy between the methods of substantiation of theoretical diversity.

**Keywords:** *development, evolution, synergetics, growth, cycle, quality.*

### ЭВОЛЮЦИЯ ТЕОРЕТИЧЕСКИХ ПОДХОДОВ К ЭКОНОМИЧЕСКОМУ РАЗВИТИЮ

**Байрамов Вугар Автандил оглы,**
**Доктор философских наук, доцент.**
**Институт экономики Национальной Академии Наук Азербайджана,**
**Ведущий исследователь**

В статье исследуются этимология феномена развития и концептуальные представления различных теоретических течений в хронологическом порядке, всесторонне анализируются методологические основы. Процесс исследования полностью основан на использовании прагматического метода. Основная цель статьи - адекватно объяснить телеологический смысл концепции развития и выявить аналогию между методами обоснования теоретического разнообразия.

**Ключевые слова:** *развитие, эволюция, синергетика, рост, цикл, качество.*

UOT: 336.225.1: 657.6.012.16

# İQTİSADİYYATDA ŞƏFFAFLIĞIN ARTIRILMASINDA VƏ HESABATLILIĞIN DÜRÜSTLÜYÜNÜN TƏMİN EDİLMƏSİNDƏ AUDİT FUNKSİYALARININ ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

**KAMRAN ABBASOV**
*Azərbaycan Kooperasiya Universitetinin dissertantı*

*E-mail: abbasov.kamran.m@gmail.com*

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra iqtisadi inkişaf modelinin formalaşdırılması və gücləndirilməsi istiqamtində davamlı işlər görülmüşdür. Bu sahədə dövlətin təkmilləşdirilmiş iqtisadi siyasəti hazırlanmış və müasir dövrün tələbləri də nəzərə alınmaqla, daim zəruri tədbirlərin görülməsi diqqət mərkəzində saxlanılır. İqtisadiyyatın səmərəliliyinin artırılması, iqtisadi sistemin işləkliyinin və şəffaflığının təmin olunması vacib məsələlər kimi xarakterizə edilirlər. Məhz bu məsələlərin maksimum tələb olunan səviyyədə həyata keçirilməsi mühasibatlıq işlərinin və hesabatlarının dürüstlüyünə imkan verən qanunvericilik bazasının formalaşdırılması, maliyyə hesabatlarının şəffaflığı üçün əsaslı zəminin yaradılması, vergi sisteminin mütərəqqi və şəffaf olmasının nəticəsində ölkəmizdə iqtisadi proseslərin səmərəliliyi ildən-ilə artmaqdadır. Şübhəsiz bu proseslərdə, ilk növbədə iqtisadiyyatda şəffaflığın əhəmiyyətli səviyyədə artımında auditin müstəsna rolu vardır. Akademik Z.Ə.Səmədzadə hesab edir ki: “Son dövrlər ölkəmizdə keçirilən iqtisadi islahatlar, yenidənqurma və quruculuq işləri, hesabatlılıq və şəffaflıq sahəsində aparılan işlərin əhəmiyyəti artıb. Azərbaycanda iqtisadi islahatların yeni mərhələsinin başlanması ilə gərgin işlər aparılıb. Strateji yol xəritəsi mühüm fundamental sənəddir, iqtisadi inkişafın, sosial həyatın bütün sahələrini əhatə edir. Azərbaycanda dövlət nəzarət sistemi uğurla davam etdirilir, sistemin təkmilləşdirilməsi istiqamətində cəsarətli addımlar atılır. Strateji yol xəritəsi hesabatlılıq və şəffaflıq tədbirlərinə olan diqqəti özündə ehtiva edir” [1]. Hesab edirik ki, bu fikirlərdə yer almış müddəalar müasir dövrümüzün iqtisadi inkişaf proseslərində auditin roluna və onun funksiyalarına daha böyük zərurətin, ehtiyacın olduğunu özündə əks etdirən əsaslandırılmış ifadəsidir. Məhz iqtisadi proseslərin və ölkədəki maliyyə resurslarından istifadənin şəffaflığının təmin olunması nəticəsində daha geniş mənbələrə malik vergiqoyma bazalarının müəyyənləşdirilməsi, iqtisadiyyatda səmərəlilik göstəricilərinin dürüstlüyünə əlverişli şəraitin yaradılması, iqtisadi fəaliyyət subyektlərinin işlərində şəffaflığın maksimum prioritetliyə çevrilməsi proseslərinin sürətlənməsi diqqət çəkir. Ölkənin müxtəlif iqtisadiyyat sahələrində, həmçinin iqtisadi islahatların dərinləşdiyi bir şəraitdə, milli iqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətində aparılan tədbirlərin əhatəsinin genişləndiyi bir dövrdə audit sisteminin və audit fəaliyyətinin gücləndirilməsi mühüm amillərdən biri kimi qiymətləndirilir.

Hələ, müstəqilliyin bərpasından sonrakı ilk dövrlərdə iqtisadiyyatın prioritet sahələrinin inkişaf etdirilməsində və ölkənin iqtisadi siyasətində şəffaflıq amili və təhlükəsizlik məsələləri ön plana çıxmışdır. O dövrdə “kölgə iqtisadiyyatı” məsələləri milli iqtisadi təhlükəsizlik üçün ciddi qorxu və təhlükə yaratmışdı, vergidən yayınmalar həddindən çox idi, əksər kiçik və orta müəssisələrdə mühasibatlıq işləri belə təşkil olunmamışdı, uçot məsələlərinə münasibətdə intizamsızlıq hökm sürürdü. Belə bir dövrdə ulu öndər Heydər Əliyev

ölkə iqtisadiyyatının potensialının gücləndirilməsi, iqtisadi siyasətdə şəffaflığın təmin olunması və iqtisadi təhlükəsizlik amillərinin prioritetliyinə diqqətin artırılmasnı vacib hesab etmişdir. Belə ki: "Müstəqil Azərbaycan dövlətinin banisi ulu öndərimiz Heydər Əliyevin dövlət quruculuğu siyasətində şəffaflığın artırılması daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur. Hələ yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtdığı ilk vaxtlar dövlətin iqtisadi və siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların mülkiyyət hüquqları əleyhinə cinayətlər, maliyyə-kredit fırıldaqları və iqtisadi xarakterli başqa pozuntular çoxalaraq, cəmiyyəyt üçün təhlükəli bir həddə gəlib çatdığı bir dönəmdə ulu öndər 1993-cü il dekbarın 8-də keçirilən müşavirədə çıxış edərkən demişdir: "Respublikamız ağır bir dövr keçirir, iqtisadiyyat böhran vəziyyətindədir. Maliyyə bizim üçün əsaslı bir sahədir. Əgər bu sahədə işləyən şəxslər ayrı-ayrı kooperativlərin, assosiasiyaların, şirkətlərin mənafeyini, yaxud da onlarla əlaqəli olaraq öz şəxsi mənafelərini ölkənin, xalqın, dövlətin mənafeyindən üstün tutursa və cürbəcür qeyri-qanuni yollarla gedirlərsə, bütün bunlar dəhşət doğurur və bir daha sübut edir ki, son illərdə respublika iqtisadiyyatının, çox mühüm sahə olan maliyyənin dağılmasının, böhran halına düşməsinin səbəbləri də birinci növbədə buradadır" [2]. Sonrakı illərdə ölkə iqtisadiyyatının sabitləşdirilməsi, makroiqtisadi və makromaliyyə sabitliyinin təmin olunması vəzifələrinin reallaşdırılmasında konseptual yanaşmaların ulu öndərin bu tarixi fikirləri və dedikləri ilə bilavasitə bağlı olduğunun şahidiyik. İqtisadiyyatın müxtəlif sahələrində şəffaflığın təmin olunması üçün audit institutunun inkişaf etdirilməsinə böyük önəm verilmiş, ölkədə auditor fəaliyyətinin qanunvericilik bazası gücləndirilmiş, auditorların qərəzsiz və müstəqil fəaliyyəti üçün tələb olunan şərait yaradılmışdır. Korporativ idarəetmə sistemində, müəssisə və təşkilatlarda audit xidmətlərinin və şöbələrinin yaradılması prosesləri ön plana keçmişdir. Belə ki, 16 sentyabr 1994-cü ildə "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin qanunla auditor xidmətinin təşkili, audit institunun formalaşdırılması və inkişaf etdirilməsi, audit fəaliyyətinin həyata keçirilməsi ilə bağlı proseslərin hüquqi baxımdan tənzimlənməsi istiqamətində mühüm addımlar atılmış, audit xidməti üzrə sahibkarlıq fəaliyyətinin təşkili ilə hüquqi əsaslar təmin olunmuş, təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə uyğun olaraq, maliyyə-təsərrüfat sahəsində digər xidmətlərin göstərilməsində auditor xidmətinin rolu və funksiyaları müəyyənləşdirilmiş, auditor xidmətinin bir tərəfdən sərbəst auditor və ya auditor təşkilatı, digər tərəfdən isə sifarişçi arasında bağlanmış və yoxlamanın məzmununu, aparılması müddətlərini, məsləhət xidmətlərinin həcmini, ödəniş məbləği və qaydasını, eləcə də tərəflərin məsuliyyətini nəzərdə tutan müqavilə əsasında göstərilməsi mexanizmləri hüquqi əsaslarla tənzimlənmiş və ölkədə audit institutunun inkişaf etdirilməsi üçün zəruri hüquqi baza yaradılmışdır [3].

Auditor xidməti və fəaliyyəti maksimum qərəzsiz prisipləri, obyektiv yanaşmaları özündə ehtiva edir. Auditor tərəflərin maraqlarını yox, mühasibat uçotu və maliyyə intizamı prinsiplərini, meyarlarını, bunlarla bağlı qanunvericiliyin tələblərini, normativ aktları əsas götürməlidir. Auditor prinsipial olaraq qanundan kənar heç bir hala yol verməməli və bunun üçün şərait yaratmamalıdır. Dünya təcrübəsində də audit institunun inkişaf etdirilməsi və peşəkarlıq standartlarının qərəzsiz olması vacib baza şərtləri kimi qəbul olunmuşdur. Bunlar öz əksini 1977-ci il 17-26 oktyabrda qəbul olunmuş Nəzarətin Rəhbərlik Prinsiplərinin Lima Bəyannaməsində tapmışdır [4]. Bu bəyannamənin qəbulundan sonra dünya səviyyəsində auditin ümumi fəaliyyət prinsipləri onun müxtəlif formaları üzrə standartlar toplusu hazırlanmış, onların təkmilləşdirilməsi təmin edilmiş və ümumilikdə beynəlxalq təcrübədə, dünya ölkələrində iqtisadi proseslərdə şəffaflıq və hesabatlılıq prinsiplərinə önəm xeyli artmış, firma və müəssisələrdə şəffaflığın gücləndirilməsi, nəzarət prinsiplərinin mühümlüyü daha çox diqqət mərkəzinə düşmüş və audit xidmətinin əhəmiyyəti yüksəlmişdir.

Qeyd edək ki, ölkəmizdə şəffaflığın

artırılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində konseptual yanaşmalar formalaşdırılmışdır, bunlarla bağlı olaraq dövlət səviyyəsində zəruri tədbirlər görülmüş və Milli Strategiya işlənib hazırlanmış, təsdiq edilmişdir. Belə ki, ölkə Prezidentinin 28 iyun 2007-ci il tarixli sərəncamı ilə bu barədə müvafiq tapşırıqlar verilmiş və "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" təsdiq olunmuşdur [5]. Bu strategiyada mühüm məsələlər sırasında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın və məsuliyyətin yüksəldilməsi, korrupsiyaya qarşı mübarizədə beynəlxalq təcrübənin təmin olunması, iqtisadiyyatın inkişafı, maksimum əlverişli biznes şəraitinin yaradılması və xarici investorlar üçün cəlbedici mühitin formalaşdırılması yer almışdır. Bu məqsədlə, müəssisə və təşkilatların, o cümlədən dövlət strukturlarının və orqanların şəffaf şəraitdə işləmələrinin vacibliyi, audit təhlillərinin aparılması və nəzarət sisteminin gücləndirilməsi vacib hesab olunmuşdur. "Audit xidmətinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq audit standartlarının tam tətbiqinə keçilməsi, daxili audit xidmətinin və auditorların fəaliyyətinə dair nəzarət sistemlərinin təkmilləşdirilməsi üzrə tədbirlər nəzərdə tutulur. Audit təşkilatlarının korrupsiyaya qarşı mübarizə aparan orqanlarla əməkdaşlığının gücləndirilməsi və onların korrupsiyaya qarşı mübarizə sahəsində məsuliyyətlərinin artırılması istiqamətində tədbirlərin görülməsi təmin olunacaqdır" [6]. Audit təşkilatlarının səmərəli fəaliyyət göstərməsi, bu istiqamətdə beynəlxalq təcrübədən daha fəal şəkildə istifadə olunması, audit təhlillərinin və yanaşmalarının dövrün tələbləri səviyyəsinə qaldırılması, normativ hüquqi aktların yenilənməsi, bu proseslərdə ictimai təşkilatların, o cümlədən qeyri-hökumət təşkilatlarının fəal iştirakının təmin olunması, iqtisadi subyektlərin illik hesabatların dürüstlüyünə nail olunması və onların dərc edilməsi, korrupsiyaya və mütəşəkkil iqtisadi cinayətə rəvac verən boşluqların və halların aradan qaldırılması, maliyyə resurslarından istifadə proseslərində nəzarət mexanizmlərinin və müvafiq strukturların fəaliyyətinin təkmilləşdirilməsi, məmur–vətəndaş təmaslarının minimuma endirilməsi, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və s. daha çox vacib hesab olunur. İqtisadi sahədə, özəlləşdirmə və sahibkarlığın inkişafına yönəldilən maliyyə resurslarından, investisiyalardan səmərəli istifadə edilməsi məsələlərinin nəzarətdə saxlanılması tələb edilir. Eyni zamanda, maliyyə axınlarının hərəkətinin izlənməsi, onlardan təyinatı üzrə istifadə edilməsinə məsul orqanların, müəssisə və təşkilatların fəaliyyətlərində təşəbbüskarlığın artırılması və şəffaflığın təmin edilməsi məsələləri diqqət çəkir. Aktual məsələlərdən biri də dövlət satınalmaları ilə bağlı keçirilən tenderlərin şəffaflığının təmin olunması və tender komissiyalarının fəaliyyətində şəffaflığın maksimum prioritet kimi qəbul edilməsidir.

İqtisadi siyasətdə və iqtisadi fəaliyyət subyektlərinin işində hesabatlılığın təmin olunması və şəffaflığın gücləndirilməsi vacib amillərdən hesab olunur. Buna görə də hər bir dövlət ölkədə audit standartlarının hazırlayaraq qəbul etməli və audit institutunun inkişaf etdirilməsi üçün tələb olunan işləri sistemli və ardıcıl şəkildə həyata keçirməlidir. Bu məqsədlə, audit institutunun əsas mexanizmlərinin və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, bunlarla bağlı prosesləri tənzimləyən metodiki yanaşmalar və üslubların hazırlanması, vacib normativ hüquqi aktların işlənməsi tədbirləri görülməlidir. Digər tərəfdən, əvvəldə bildirdiyimiz kimi iqtisadi fəaliyyət prosesləri iştirakçılarının maliyyə hesabatlarında və mühasibat üçotu sənədlərində şəffaflıq əsas prinsiplərdən biri kimi qiymətləndirilməlidir [7]. Maliyyə və iqtisadi sahələrdə dövlətin strateji maraqları olduğundan maksimum şəffaflığın və dürüstlüyün təmin olunmasında auditdən səmərəli istifadənin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi reallaşdırılmalıdır. Maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasında, bütün səviyyələrdə və ölkə regionlarında maliyyə vəsaitlərindən təyinatı üzrə istifadənin səmərəli nəzarət mexanizminin formalaşdırılmasında audit xidmətinin funksiyalarından istifadə edilməsi mümkündür və dünya təcrüəsindən yanaşdıqda, audit institutunun vasitəsilə dövlətin qarşısında duran bir sıra strateji vəzifələrin reallaşdırılmasında, dövlətin həyata keçirdiyi vacib funksiyaların, o cümlədən maliyyə resurslarının yığılması, ehtiyatlarının toplanması və onların yenidən bölüşdürlməsi

proseslərində mühüm nəzarət mexanizmlərini təmin etmək mümkündür. Bu proseslərdə korrupsiyanın və rüşvətxorluğun yaranmasına mane olan şəffaf mühitin formalaşdırılması vacib şərtlərdəndir. Ölkə Prezidenti İlham Əliyevə görə: "Korrupsiya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılmalıdır. Bizim korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmağa böyük siyasi iradəmiz var" [8]. Bu siyasi iradənin güc mənbəyi ölkədə həyata keçirilən ədalətli və şəffaf dövlət iqtisadi siyasəti və onun təşkilində ortaya qoyulan səmərəli fəaliyyət mexanizmləridir. Beynəlxalq təcrübədən yanaşdıqda istənilən bir ölkədə şəffaflığı yüksək olan maliyyə bazarları və maliyyə institutu formalaşdırılarsa, bu halda iqtisadiyyatın səmərəliliyini təmin etmək üçün əlavə imkanlar yaranar, eyni zamanda, iqtisadiyyatın məhsuldarlığı, bu proseslərin iştirakçılarının qarşılıqlı maraqlarının təmin edilməsi istiqamətində real zəmin formalaşdırılar.

Şəffaflıq olmadığı halda iqtisadi cinayətlərin artması gözlənilən bir prosesdir, bu isə sosial-iqtisadi gərginliyi artırmaqla yanaşı, həm də qeyd etdiyimiz kimi korrupsiyaya və rüşvətxorluq hallarının artmasına gətirib çıxarar. Korrupsiya ölkə və cəmiyyət üçün çox təhlükəli bir bəladır və bunun qarşısı sistemli şəkildə alınmazsa, "kölgə iqtisadiyyatı" daha da geniş yayılar, ölkə əhalisinin yaşayış səviyyəsinin pisləşməsi baş verər və dövlət vəsaitlərindən istifadənin səmərəliliyi xeyli azalar. Bu amillər baxımından, "kölgə iqtisadiyyatı"nın azaldılması proseslərində audit sisteminin səmərəli fəaliyyəti önəmli rol oynaya bilər və belə olduğu təqdirdə audit institutunun inkişafının sürətləndirilməsi üçün daha geniş perspektivlər açılacar [9]. Göstərilən amillər isə islahatlar və şəffaflığın artırılmasına təkan verməklə, eyni zamanda iqtisadi inkişafın dayanıqlılığına və dinamikliyinə əlavə imakanlar yaradır. "Azərbaycanda həyata keçirilən müasir iqtisadi islahatların və demokratik dövlət quruculuğunun əsas atributlarından biri sosial-iqtisadi həyatın bütün sahələrində şəffaflığın təmin olunmasıdır. Şəffaflığın artırılması və səmərəli nəzarət sisteminin yaradılması iqtisadi inkişaf təminatının vacib şərtlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir" [10]. Bunlarla bağlı strateji məsələlər və hədəflər, eyni zamanda maliyyə bazarının şəffaflığının artırılması məsələləri, ölkənin maliyyə bazarının dayanıqlılığının gücləndirilməsi, maliyyə xidmətlərinin strukturunun genişləndirilməsi ilə bağlı prioritetlər ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir [11].

## NƏTİCƏ

Qarşıda duran strateji məsələlər sırasında, bir çox vacib mexanizmlərin hazırlanması və reallaşdırılması ilə bərabər, audit institutunun fəaliyyətinin maksimum genişləndirilməsi, audit xidmətlərinin səmərəliliyinin artırılması və iqtisadiyyatda şəffaflığın, həmçinin hesabatlılığın dürüstlüyünün təmin olunmasında audit funksiyalarının rolunun obyektiv qiymətləndirilməsi təmin olunmalıdır. Bunlarla bağlı olaraq, bir sıra məsələlər daha çox diqqət mərkəzində saxlanılmalı və tədbirlərin görülməsi təmin edilməlidir:

–iqtisadiyyatda şəffaflığın artırılması və hesabatlılığın dürüstlüyünün qorunmasının qanunvericilik bazası daha da gücləndirilməli və bununla bağlı beynəlxalq təcrübə əsas götürlməlidir;

–iqtisadiyyatda şəffaflığın artırılmasında və hesabatlılığın dürüstlüyünün təmin olunmasında audit funksiyalarının rolunun qiymətləndirilməsi daim diqqət mərkəzində saxlanılmalı və bununla bağlı konseptual yanaşmalar formalaşdırılmalıdır;

–ölkədə "kölgə iqtisadiyyatı"nın qarşısının alınması, korrupsiya hallarının və rüşvətxorluğun minimuma endirilıməsi məqsədilə iqtisadi fəaliyyət subyektlərinin işində audit nəzarətinin gücləndirilməsi, audit institutunun inkişaf etdirilməsinə diqqətin artırılması təmin olunmalıdır və s.

**Açar sözlər:** *iqtisadiyyatda şəffaflıq, iqtisadiyyatda hesabatlılıq, audit funksiyaları, audit institutu, iqtisadiyyatda şəffaflığın artırılması, iqtisadiyyatda hesabatlılığın gücləndirilməsi, maliyyə intizamı, audit xidməti.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Səmədzadə Z.Ə. Auditin rolu və şəffaflığın əhəmiyyəti barədə. 24.10.2017. http://www.samedzade.az/az/pages/13/information/153.*

2. *Novruzov V.T. Heydər Əliyevin iqtisadi siyasətində şəffafliq amili və təhlükəsizlik siyasəti yeni mərhələdə. http://www.respublica-news.az/images/pdf/2020.05.08.pdf.*

3. *Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 sentyabr 1994-cü il, № 882.*

4. *Лимская Декларация Руководящих Принципов Контроля. Лима, 17-26 октября 1977 года. http://www.iia-ru.ru.*

5. *Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 28 iyul 2007-ci il, № 2292.*

6. *Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli strategiya. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli 2292 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.*

7. *Novruzov V.T. İqtisadi siyasətdə şəffaflıq amili. Azərbaycan.-01.09.2010.-S.4. http://www.anl.az/down/meqale/azerbaycan/2010/avqust/129645.htm.*

8. *Maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir. 22.10.2015. http://www.azerbaijan-news.az.*

9. *"Kölgə iqtisadiyyatı"nın azaldılması audit sistemi üçün perspektivlər açacaq. 21 fevral 2019-cu il. https://vergiler.az/news/taxes/1112.html.*

10. *İslahatlar və şəffaflığın artırılması iqtisadi inkişafı təmin edir. 20 may 2020. https://ikisahil.az/post/islahatlar-ve-sheffafligin-artirilmasi-iqtisadi-inkishafi-temin-edir.*

11. *Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq olunmuşdur.*


## РЕЗЮМЕ

### Оценка роли аудиторских функций в обеспечении повышении прозрачности и достоверности отчетности в экономике


В статье исследованы оценка роли аудиторских функций в обеспечении повышении прозрачности и достоверности отчетности в экономике. С этой целью анализирована сущность аудиторских функций и их влияние на улучшение прозрачности. Раскрыты основные преимущества достоверности отчетности в обеспечении эффективности экономической деятельности. Отмечена важность улучшения финансовой дисциплины и эффективное использование финансовых ресурсов в экономических процессах. Подготовлены предложения и рекомендации по оценке роли аудиторских функций в обеспечении повышении прозрачности и достоверности отчетности в экономике.



**Ключевые слова:** *прозрачность в экономике, отчетность в экономике, функции аудита, институт аудита, повышение прозрачности в экономике, усиление отчетности в экономике, финансовая дисциплина, аудиторские услуги.*


## SUMMARY

### Assessing the role of audit functions in improving transparency and accountability in the economy


The assessment of the role of audit functions in ensuring increased transparency and reliability of reporting in the economy is investigated in the article. The essence of audit functions and their impact on improving transparency are analyzed for this purpose. The main advantages of reliability of reporting in ensuring efficiency of economic activity are disclosed. The importance of improving financial discipline and effective use of financial resources in economic processes is analized then. Proposals and recommendations to assess the role of audit functions in improving transparency and accountability in the economy are given in the end of the article.



**Key words:** *transparency in economy, reporting in the economy, audit functions, institution of audit, increasing transparency in the economy, strengthening reporting in the economy, financial discipline, audit services.*

UOT: 334.7: 332.02

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFI VƏ BİZNESİN STİMULLAŞDIRILMASINDA DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**RƏŞAD QARAYEV**
*Gəncə Dövlət Universitetinin doktorantı*

*E- mail: reshad.garaev@gmail.com*

Müasir şəraitdə, xüsusilə Covid–19 pandemiyasının təsirindən yaranan yeni bir dövrdə Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi məsələləri və biznes mühitinin stimullaşdırılması ilə bağlı suallar və məsələlər aktuallığı ilə diqqət çəkməkdədir. Xüsusilə, biznesin stimullaşdırılması istiqamətində dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, bununla bağlı proseslərin adekvatlığının qiymətləndirilməsi, yeni şəraitdən ortaya çıxan tələblərə uyğun olaraq daha təsirli dövlət dəstəyi mexanizmlərinin inkişaf etdirilməsi vacib şərtlərdəndir.

Qeyd etmək lazımdır ki, son onillikdə sahibkarlığın inkişaf etdirilməsi daim diqqət mərkəzində olmuşdur. Dövlət tərəfindən nəinki ölkənin mərkəzi şəhərlərində, eyni zamanda regionlarda sahibkarlığın inkişafının intensivləşdirilməsinə imkan verən infrastruktur şəbəkəsi formalaşdırılmış, əsas etibarlı ilə sahibkarlığın dayanıqlı inkişafı və biznes proseslərin stimullaşdırılması tədbirləri görülmüş, dövlət dəstəyi mexanizmləri müəyyənləşdirilmişdir. Bunlara növbətiləri aid etmək olar: 1) sahibkarlığın inkişafını dövlət tərəfindən yüksək dəstəyin olması və dövlətin iqtisadi siyasətində bunun nəzərə alınması; 2) sahibkarlıq subyektlərinin fəaliyyətinə yersiz müdaxilələrin aradan qaldırılması və yoxlamaların minimuma endirilməsi və ya tamamilə dayandırılması; 3) sahibkarlıq və biznes subyektlərinə güzəştli kreditlərin verilməsi, onların maliyyə təminatlarının gücləndirilməsinə münbit şəraitin yaradılması; 4) regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştlərinin müəyyənləşdirilməsi və ya vergilərdən azad olunması; 5) sahibkarlıq subyektlərinin fəaliyyətlərinin səmərəli təşkili üçün investisiya-innovasiya mühitinin cəlbediciliyinin artırılması; 6) sahibkarlığın müxtəlif növlərinin və formalarının stimullaşdırılması tədbirlərinin görülməsi; 7) gənclərin və qadınların sahibkarlığa marağın artırılmasının stimullaşdırılması; 8) mikro, kiçik və orta sahibkarlıq subyektlrəinin fəaliyyətinin tənizmlənməsi tədbirlərinin görülməsi; 9) kiçik və orta sahibkarlıq sahəsində institutsional tədbirlərin aparılması və mərkəzi idarəetmə strukturunun yaradılması; 10) sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin təsnifatlaşdırılması məsələlərə yeni yanaşmaların və meyarların təmin olunması; 11) mikro, kiçik və orta sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyət iştirakçılarına çevrilməsi proseslərinə diqqətin artırılması və bu sahədə ixracın stimullaşdırıllması və s. Bütün bunlar sahibkarlığın inkişafına müsbət təsir göstərmiş və bu istiqamətdə daha uğurlu nəticələrin əldə edilməsinə şərait yaratmışdır. “Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistem şəkildə həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilmişdir. Bu strateji xəttin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Sahibkarlığa dövlət maliyyə köməkliyi mexanizmi yaradılmış, bu mənbə kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsinin mühüm real mənbəyi kimi çıxış edir. Dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır” [1]. Eyni zamanda, Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti sayəsində, qeyd etdiyimiz kimi güzəştli maliyyələşdirmə mexanizmləri hazırlanmış və tətbiq olunmuşdur.

Nəticədə müxtəlif sahibkarlıq sahələrində start-tap layihələrinin hazırlanması və reallaşdırılması, aqroparkların və aqrar-sənaye parklarının yaradılması prosesləri sürətləndirilmiş, regionlarda istehsal və emal sahələrinin infrastrukturu gücləndirilmiş, onların inkişaf etdirilməsi prosesləri daha intensiv xarakter almışdır. Müasir heyvandarlıq kompleksləri istismara verilmiş, logistika mərkəzləri yaradılmış, yüksək texnologiyalar əsaslı kənd təsərrüfatı, meyvə və tərəvəz məhsullarının emalı müəssisələri şəbəkəsinin formalaşdırılması təmin olunmuşdur. Bütün bunlar regionlarda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, məşğulluğunun gücləndirilməsinə, daha dayanıqlı və layiqli iş yerlərinin yaradılmasına, mövcud sosial-iqtisadi problemlərin həllində yeni potensialın formalaşdırılmasına imkan vermişdir. Sənaye məhsullarının istehsalının genişləndirilməsi və xüsusilə, ixracyönlü rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması, milli brendlərin yaradılması baxımından sənaye məhəllələrinin və sənaye parklarının rolu artmaqdadır. Bir sözlə, artıq sahibkarlığın inkişafı ölkədə biznes mühitinin daha əlverişli mərhələyə keçməsində, biznesin stimullaşdırılmasına önəmli rol oynamaqdadır və bu proseslərdə dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi həlledici amil kimi qiymətləndirilməlidir.

Sahibkarlığın inkişafının intensivləşdirilməsi hesabına ölkə iqtisadiyyatının daha məhsuldar əlavə dəyər yaradan mənbələrinin formalaşdırılması, maliyyə və vergiqoyma bazalarının genişləndirilməsi, büdcənin gəlirlər hissəsinin neft fondu transferləri hesabına formalaşdırılması səviyyəsinin azaldılması, ölkədə iqtisadi artımın dinamikliyinin təmin olunması tədbirləri reallaşdırılmaqdadır. Digər tərəfdən, yeni texnologiyaların tətbiqi sayəsində istehsal proseslərinin məhsuldarlığı və səmərəliliyi maksimum artırılmaqdadır. Bütün bunlar dövlətin sahibkarlığın inkişafına olan yüksək dəstəyi və bu istiqamətdə davamlı dövlət iqtisadi siyasətinin olması ilə bilavasitə bağlıdır. "Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın inkişafı üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektlərin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsi uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqda sahibkarlığın inkişafına güclü təkan verir" [2]. Bundan əlavə, Azərbaycan beynəlxalq səviyyədə islahatçı ölkə kimi diqqət mərkəzinə düşümüşdür və təsadüfi deyildir ki, "Doing Business 2020" hesabatında 190 ölkə içərisində 34-cü yeri tutmuşdur. Maralqıdır ki, Azərbaycan dünya səviyyəsində 20 ən islahatçı ölkələr içərisindədir və bütün bunlar dövlətin sahibkarlığa, biznes mühitinin inkişafına göstərdiyi balanslı iqtisadi siyasətin, prioritetliyin və tətbiq etdiyi dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin ifadəsidir. 2019-ci il ərzində Sahibkarlığın İnkişaf Fondu vasitəsilə sahibkarlıq subyektlərinə 450 milyon manat həcmində güzəştli kreditlər verilmişdir. Bunların içərisində 857 kiçik və orta həcmli layihələr də yer almışdır və bu layihələrin 74 %-i aqrar sektorun, başqa sözlə ölkə regionlarında fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektinin payına düşmüşdür. Dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi artıq dünya səviyyəsində qeyd olunmaqdadır və bununla əlaqədar ölkənin iqtisadçı alimlərinin də müvaviq qiymətləndirilmələri və fikirləri vardır. AMEA İqtisadiyyat İnstitutunun elmi şurasında sahibkarlığın inkişaf meyillərinin müzakirəsində qeyd olunmuşdur ki: "Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkarlığın rolunun artırılması, xüsusilə kiçik və orta biznesin əsas hərəkətverici amilə çevrilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların prioritet istiqamətlərindəndir. Ölkə Prezidenti bəyan edib ki, Azərbaycan iqtisadi inkişaf, cidi islahatlar yolundadır, islahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır" [3].

Hesab edirik ki, sahibkarlığın inkişafına daha güclü təkan verilməsi, sahibkarlıq və biznes subyektlərinin fəallığının artırılması proseslərində özəl bankların rolu artırılmalı, tətbiq olunan dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi təmin edilməli və bu mexanizmlərin daha çox mikro, kiçik və orta sahibkarlıq subyektlərinə şamil edilməsinin prioritetliyi ön plana çıxarılmalıdır. Eyni zamanda, bu qeyd olunan proseslərin daha da sürətləndirilməsi, səmərəliliyinin artırılması üçün iqtisadiyyatda inhisarçılığın səviyyəsinin azaldılması tədbirləri görülməli, kölgə iqtisadiyaytına qarşı mübarizə gücləndirilməli, iqtisadi proseslərin şəffaflığı xeyli artırılmalıdır. Məhz belə olduğu təqdirdə kiçik və orta sahibkarlığın ölkənin iqtisadi inkişafının sürətləndirilməsinə və milli iqtisadiyyatın

dayanıqlılığının artırılmasına töhfəsi daha çox ola bilər, bu isə ümumilikdə ölkə iqtisadiyyatının inkişafına yeni və güclü təkan verər. "Ölkəmizdə yaradılan biznes mühiti, siyasi və makroiqtisadi sabitlik Azərbaycanın regiondakı xüsusi rolunu fərqləndirir. Bu baxımdan ölkəmizin hər bir vətəndaşının, sahibkarlığa meylli olan hər bir şəxsin öz potensialının reallaşdırılması üçün şərait yaradır. Bu gün yalnız iş yeri tapmaq deyil, eləcə də iş yeri yaratmağa çalışan hər bir vətəndaşımız üçün dövlət tərəfindən bir sıra alətlər, tədbirlər vasitəsilə müvafiq qanunvericiliyin tətbiqi yolu ilə dəstək verilir. Onun nəticəsində hazırda kiçik və orta sahibkarlığın payı ÜDM-də 60 %-dir, büdcədə isə 50 %-dən bir qədər azdır" [4]. Amma, iqtisadçı ekspertlər və alimlərin fikirlərindən çıxış etsək, qeyd etmək lazımdır ki, ölkədə kiçik və orta sahibkarlığın gücünün daha da artırılması vacibdir və elə bir şərait yaradılmalıdır ki, ölkədə istehsal olunan məhsulun azı 70%-i kiçik və orta sahibkarlıq hesabına formalaşdırılmış olsun, bu halda özəl sektorun rolu və payı ölkə iqtisadiyyatında daha əhəmiyyətli səviyyədə artar [5]. Son illərdə ölkəmizdə sahibkarlığın inkişafında biznes mühitinin stimullaşdırılmasına əlavə imkanlar yaratmış və dövlət dəstəyi mexanizmlərinin fəal tətbiqi hesbına mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında rolu və payı artmışdır.

Cədvəl 1-də 2015-2018-ci illərdə Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri müqayisəli şəkildə təhlil olunmuşdur.

Cədvəl 1-in təhlilinə baxsaq görərik ki, 2015-2018-ci illərdə Azərbaycanda kiçik və orta sahibkarlıq, o cümlədən 2018-ci ildən başlayaraq mikrosahibkarlıq tərəfindən yaradılan əlavə dəyərin həcmi 2,63 dəfə artmış və 2018-ci ilin yekununda 9, 8 mlrd. manat təşkil etmişdir, əlavə dəyərdə payı isə həmin dövrdə 7,5 %-dən 13,4 %-dək, qeyri-neft sektorunda 10,9 %-dən 23,5 %-dək yüksəlmişdir.

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi bilavasitə biznes mühitinin yaxşılaşdırılması ilə əlaqəlidir və bu halda, iqtisadi islahatların dərinləşdirilməsi, ölkə səviyyəsində sahibkarlığın dövlət tənizmlənməsi mexanizmlərindən daha səmərəli istifadə olunması imkanları artır. Başqa sözlə, sahibkalığın stimullaşdırılması,

**Cədvəl 1**
**Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri (2015-2018-ci illər)**

| S/s | Göstəricilər | 2015 | | | 2016 | | | 2017 | | | | 2018 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | O cümlədən: | | Cəmi | O cümlədən: | | Cəmi | O cümlədən: | | Cəmi | O cümlədən | | |
| | | | Kiçik | Orta | | Kiçik | Orta | | Kiçik | Orta | | mikro | kiçik | orta |
| 01 | Yaradılmış əlavə dəyər, mln. manat | 3734,8 | 2932,5 | 802,3 | 3587,2 | 2928,0 | 659,2 | 3807,6 | 3051,9 | 755,7 | 9836,6 | 4467,8 | 1235,5 | 4133,3 |
| 02 | İşçilərin sayı, min nəfər | 284,0 | 87,6 | 196,4 | 281,0 | 100,9 | 180,1 | 290,1 | 101,9 | 188,2 | 283,4 | 35,0 | 76,1 | 172,4 |
| 03 | Orta aylıq nominal əmək haqqı, manat | 373,7 | 350,1 | 386,1 | 338,6 | 322,2 | 349,1 | 352,8 | 331,5 | 365,9 | 445,3 | 294,9 | 373,5 | 517,1 |
| 04 | Dövriyyə, mln. manat | 6122,1 | 4718,4 | 1403,7 | 5831,4 | 4666,1 | 1165,1 | 6269,6 | 4884,7 | 1384,9 | 17401,6 | 7082,9 | 2282,0 | 8036,0 |
| 05 | Əlavə dəyərdə payı, % | 7,5 | 5,9 | 1,6 | 6,4 | 5,2 | 1,2 | 5,9 | 4,7 | 1,2 | 13,4 | 6,1 | 1,7 | 5,6 |
| | qeyri-neft sektoru üzrə payı, % | 10,9 | 8,6 | 2,3 | 9,9 | 8,1 | 1,8 | 9,5 | 7,6 | 1,9 | 23,5 | 10,7 | 3,0 | 9,8 |
| 06 | İşçilərin sayı, % | 18,7 | 5,8 | 12,9 | 20,4 | 7,3 | 13,1 | 20,8 | 7,3 | 13,5 | 42,9 | 5,3 | 11,5 | 26,1 |
| | qeyri-neft sektoru üzrə payı, % | 19,1 | 5,9 | 13,2 | 20,9 | 7,5 | 13,4 | 21,3 | 7,5 | 13,8 | 45,0 | 5,6 | 12,1 | 27,3 |
| 07 | İllik dövriyyə, % | 11,9 | 9,2 | 2,7 | 6,6 | 5,3 | 1,3 | 6,0 | 4,7 | 1,3 | 20,9 | 8,5 | 2,7 | 9,6 |
| | qeyri-neft sektoru üzrə payı, % | 18,8 | 14,5 | 4,3 | 9,0 | 7,2 | 1,8 | 8,6 | 6,7 | 1,9 | 37,7 | 15,4 | 4,9 | 17,4 |

*Qeyd: Cədvəl ARDSK-nın məlumatları əsasında hazırlanmışdır. http://stat.gov.az.*

müxtəlif dövlət dəstəyi mexanizmlərinin işlənib hazırlanması və tətbiq edilməsi, yerli istehsalın genişləndirilməsi tədbirlərinin görülməsi, ixracyönlü məhsulların istehsalının motivasiyalaşdırılması və qeyri-neft ixracına görə stimullaşdırıcı mexanizmlərin müəyyənləşdirilməsi diqqət çəkir. Dövlət tərəfindən bütün bu istiqamətlərdə yeni yanaşmalar təmin edilməkdədir. Nəticədə Azərbaycan üçün və onun iqtisadiyyatının mövcud ehtiyatlarının reallaşdırılması baxımından yeni istiqamətlər formalaşıb. “Bu istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracının genişləndirilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun təmin edilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və “kölgə iqtisadiyyatı”nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Azərbaycanda koronavirus pandemiyası şəraitində onun iqtisadiyyata təsiri nəzərə alınaraq dərhal çevik dəstək proqramları həyata keçirilib və sahibkarların dəstəklənməsi istiqamətində yeni alətlər təqdim edilib. Bu alətlərə maddi dəstək, vergi güzəştləri və tətilləri, güzəştli kreditlərin verilməsi mexanizmlərinin təkmilləşdirilməsi aiddir” [6].

Qeyd olunan tədirlərin və dövlət dəstəyi mexanizmlərin ardıcıl şəkildə həyata keçirilməsi kiçik və orta sahibkarlığın inkişafında xüsusi önəm kəsb etmişdir və pandemiya şəraitində iş yerlərinin saxlanılması baxımından dövlət dəstəyi mexanizmlərinin əhəmiyyətli rolu vardır. Bir çox sahələrdə fəaliyyətin məhdudlaşdırılması, bəzi sahibkarlıq fəaliyyəti sektorlarında isə ümumiyyətlə, fəaliyyətin dayandırılması (məsələn, turizm sektoru və s.) nəticəsində sahibkarlıq subyektlərinə dövlət dəstəyinin göstərilməsi, o cümlədən maliyyə və maddi dəstəklərin edilməsi ölkəmizdə sahibkarlığın inkişafına və onun sabitliyinin qorunmasına yönəldilən strateji dəstək tədbirləri kimi qiymətləndirilməlidir. “Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşması istiqamətində islahatlar aparılmaqdadır. Azərbaycanda son illər həyata keçirilən iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etidirilməsinin və institusional islahatları əhatə edir. Makroiqtisadi sabitlik və infrastrukturun inkişafını dəstəkləməklə, dövlət biznes şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verməyə bundan sonra da davam edəcək. Bu strateji yol xəritəsində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı 11 sektoru əhatə edən konseptual məsələlərdə öz əksini tapıb” [7, s. 139]. Məhz həmin strateji hədəflərin icra proseslərinin sürətləndirilməsi hesabına ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi və bütövlükdə milli iqtisadiyyatın neftdən asılılığının azaldılması prosesləri maksimum intensivləşdirilməkdədir. Kiçik və orta sahibkarlıq səviyyəsində strateji hədəflər konkret olaraq ölkə Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə verilmişdir. [8]. Digər tərəfdən, Azərbaycanda sahibkarlığın inkişafının intensivləşdirilməsi məqsədilə tədbirlər reallaşdırılmışdır və ölkə Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tərkibində publik hüquqi şəxs statuslu “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi” təşkil olunmuşdur [9].

## NƏTİCƏ

Beləliklə, Azərbaycanda sahibkarlığın inkişafında biznesin stimullaşdırılmasında dövlət dəstəyi mexanizmlərində səmərəliliyin artırılması tədbirlərinin yaxın illərdə daha da genişlənəcəyini proqnozlaşdırmaq mümkündür və bunun üçün bir qrup məsələlər əsas arqumentlər kimi baxıla bilər:

–ölkəmizdə sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması və sahibkarlıq subyektlərinə dövlət dəstəyinin sistemli şəkildə göstərilməsi məsələlərinə konseptual səviyyədə yanaşma təmin olunmuşdur;

–sahibkarlığın inkişafında biznesin stimullaşdırılmasının səmərəliliyinin təmin edilməsi məqsədilə dövlət dəstəyi mexanizmlərinin maksimum ünvanlı olmasının vacibliyi diqqət mərkəzində saxlanılmalıdır;

–sahibkarlıq fəaliyyətində mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rolunu və funksiyalarını nəzərə almaqla, daha təsirili dövlət dəstəyi mexanizmlərinin müəyyənləşdirilməsi təmin olunmalıdır və s.

**Açar sözlər:** *sahibkarlıq, biznesin stimullaşdırılması, dövlət dəstəyi mexanizmləri, sahibkarlığın inkişaf problemləri, strateji yol xəritəsi, biznes mühitinin yaxşılaşdırılması istiqamətləri, sahibkarlığın inkiaşfında dövlətin rolu, biznesin stimullaşdırılmasında dövlət dəstəyi.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Sahibkarlığın inkişafı. https://azerbaijan.az/related-information/139.*

2. *Sahibkarlığın inkişafı iqtisadi artımın təminatıdır. 15.11.2019. http://www.azerbaijan-news.az/view-177540/sahibkarligin-inkisafi-iqtisadi-artimin-teminatidir.*

3. *AMEA İqtisadiyyat İnstitutunda Azərbaycanda sahibkarlığın inkişafı meyilləri müzakirə olunub. 2020. http://economics.com.az/index.php/tedbirler/kreativ-iqtisadiyyat-klubu/item/1829-amea-izhtisadiyyat-institutunda-azaerbaydzanda-sahibkarl-zhh-n-inkishaf-meyillaeri-muzakirae-olunub.html.*

4. *Kiçik və orta sahibkarlığın inkişafı iqtisadiyyata yeni təkan verir. 2020.02.11. https://www.movqe.az/news/iqtisadiyyat/152266.html.*

5. *Azərbaycanda "Gənclərin sahibkarlıq fəaliyyətinə dəstək" layihəsi icra olunmağa başlayıb. 26/11/2018. https://eu4business.eu/az/news/azrbaycanda-gnclrin-sahibkarliq-faliyytin-dstk-layihsi-icra-olunmaga-baslayib.*

6. *Sahibkarlığın stimullaşdırılması, yerli istehsala dəstək, iqtisadi hədəflər. 7 iyul 2020. https://vergiler.az/news/taxes/9390.html.*

7. *Zeynalov M.H. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafı meyilləri // İİ AMEA, "Xəbərlər", 2017, №04, s.138-146.*

8. *Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

9. *Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezdentinin Fərmanı, Bakı şəhəri, 28 dekabr 2017-ci il.*


## РЕЗЮМЕ
## ОЦЕНКА ЭФФЕКТИВНОСТИ МЕХАНИЗМОВ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ И СТИМУЛИРОВАНИЯ БИЗНЕСА В РАЗВИТИИ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ


В статье исследована оценка эффективности механизмов государственной поддержки и стимулирования бизнеса в развитии предпринимательства Азербайджана. С этой целью раскрыта сущность и значимость развития предпринимательства в экономических процессах страны. Обоснована необходимость существенного стимулирования бизнес-среды. Отмечена необходимость усиления механизмов государственной поддержки по повышению эффективности предпринимательства и бизнес-процессов. Подготовлены рекомендации и даны предложения по оценке эффективности механизмов государственной поддержки и стимулированию бизнеса в развитии предпринимательства Азербайджана.



**Ключевые слова:** *предпринимательство, стимулирование бизнеса, механизмы государственной поддержки, проблемы развития предпринимательства, стратегическая дорожная карта, направления улучшения бизнес-среды, роль государства в развитии предпринимательства, государственная поддержка стимулирования бизнеса.*


## SUMMARY
## EVALUATION OF EFFECTIVENESS OF MECHANISMS OF STATE SUPPORT AND BUSINESS STIMULATION IN ENTREPRENEURSHIP DEVELOPMENT OF AZERBAIJAN


The effectiveness of mechanisms of state support and stimulation of business in the development of Azerbaijan's entrepreneurship is investigated in the article. The essence and significance of the development of entrepreneurship in the economic processes of the country are considered for this purpose. The need to significantly stimulate the business environment is justified. The importance to strengthen state support mechanisms to increase the efficiency of entrepreneurship and business processes is analized too. Recommendations and proposals to assess the effectiveness of state support mechanisms and stimulate business in the development of Azerbaijan's entrepreneurship are given in the end of the article.



**Key words:** *entrepreneurship, business stimulation, mechanisms of state support, problems of entrepreneurship development, strategic road map, directions of business environment improvement, role of the state in entrepreneurship development, state support of business stimulation.*

UOT: 330.322: 330.341

# AZƏRBAYCANDA İNVESTİSİYA POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ VƏ İNFRASTRUKTURUN YARADILMASI PROBLEMLƏRİ

**ELNURƏ MƏMMƏDOVA**
*Azərbaycan Kooperasiya Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru*

*E-mail: mamedova.el@inbox.ru*

Müasir dövrdə investisiya potensialının gücləndirilməsi və bununla bağlı problemlərin həll edilməsi məsələləri kifayət qədər mürəkkəbləşmişdir. Son onilliklərdə qlobal səviyyədə baş verən ciddi problemlər və böhranlar, xüsusilə maliyyə böhranı, hazırda davam edən Covid – 19 pandemiyasının mənfi təsiri də investisiya potensialının gücləndirilməsini məhdudlaşdıran və ləngidən əsas amillərdəndir. Dünya səviyyəsində iqtisadi fəaliyyət sahələrinin əhəmiyyətli hissəsinin, xüsusilə xidmət sektorunun fəaliyyətindəki məhdudiyyətlər, ölkələrarası kapital axınının və investisiya hərəkətinin səmərəliliyindəki problemlər yeni bir şərait formalaşdırmışdır. İnvestisiya fəaliyyəti daha çox dünyanın iqtisadi inteqrasiya baxımından nisbətən çevik fəaliyyət mexanizmlərinə və əməkdaşlıq əlaqələrinə malik ölkələrdən ibarət regionlarda, konfliktlərin və müharibələrin olmadığı ölkə qruplarında intensivdir və bütün bunlar təbii qəbul edilməlidir. Risklərin məhdudlaşdırılması və yatırılan investisiyaların səmərəli hərəkətinə, onların qorunmasına lazım olan zəmanətlərin verilməsi, uzunmüddətli dövrü əhatə edən investisiya yönəldilməsi mexanimzlərinin olması vacib şərtlərdəndir.

Başqa bir mühüm məsələ isə investisiya potensialının gücləndirilməsində mühüm əhəmiyyət kəsb edən investisiya potensialının infrastrukturunun yaradılması problemidir. İnvestisiya potensialının yaradılması və inkişaf etdirilməsi üçün beynəlxalq maliyyə qurumları və investisiyaların fəal cəlbində maraqlı olan ölkələr arasında optimal fəaliyyət mexanizmlərinin və əməkdaşlıq formalatlarının işlək alətləri olmalıdır [1]. Eyni zamanda, yeni tələblər və çağırışlar kontekstində, həmçinin əvvəldə bildirdiyimiz kimi, dünyada baş verən iqtisadi, maliyyə böhranlarının mənfi təsirinin hələ də davam etdiyi bir şəraitdə, iqtisadi inkişaf proseslərinin sabitliyinin və məhsuldarlığının təmin olunması, daha çevik iqtisadi mexanizmlərin hazırlanaraq iqtisadi sistemə daxil edilməsi, investisiyaların intensivliyinə imkan verən maliyyə sisteminin formalaşdırılması, maliyyə xidmətləri bazarının təşkili, maliyyə resurslarından və investisiyalardan istifadədə maksimum şəffaflığın yaradılması, bu sahədə olan hesabatların dürüstlüyünün təmin edilməsi, qanunvericilik aktlarının təkmilləşdirilməsi, yeni işlək və stimullaşdırıcı qanunların hazırlanması, investisiyaların cəlbi istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsi vacib məsələlər kimi xarakterizə olunurlar.

Qeyd edək ki, ölkədə investisiya mühitinə təsir edən amillərin sistemli şəkildə öyrənilməsi, dəyərləndirilməsi və milli maraqlardan çıxış etməklə, investisiya potensialının işlək modelinin yaradılması daha çox səmərə verə bilər. Belə ki, investisiya potensialının gücləndirilməsi problemlərinin həlli üçün zəriri işlər təşkil olunmalı, mövcud problemlərin mahiyyəti açıqlanmaqla onların həlli istiqamətində kompleks və sistemli tədbirlər görülməlidir. Belə olduğu təqdirdə, investisiyaların təmərküzləşdirilməsi və onlardan istifadə mexanizmlərinin səmərəliliyinin təmin edilməsi məsələlərinə daha çox önəm verilməlidir [2]. Dünya təcrübəsindən yanaşdıqda, iqtisadiyyatın bu və ya digər sahəsinə investisiyaların cəlb edilməsi üçün müvafiq infrastrukturun formalaşdırılması və inkişaf etdirilməsi tələb olunur. Məsələn, ağır sənaye sahələrinin inkişaf etdirilməsi məqsədilə daha yüksək texnologiyaların cəlb edilməsi, xərclərin optimallaşdırılması, məhsuldar istehsal güclərinin istismara verilməsi, bu məqsədlərlə daha çox birbaşa xarici investisiyaların cəlb edilməsi tələb olunur.

Digər tərəfdən, investisiya mühitinin

səmərəliliyinin yüksəldilməsi və investisiya fəallığının artırılması bütövlükdə milli iqtisadiyyatına müsbət təsir göstərməklə bərabər, paralel olaraq maliyyə bazarının dinamikliyinə, daha geniş spektrdə maliyyə-kredit xidmətlərinin formalaşdırılmasında, maliyyə-investisiya siyasətinin dövrün çağırışlarına uyğunlaşdırılmasında önəmli rol oynayır. Ölkə iqtisadiyyatının daha məhsuldar artım mənbələrinin və əlavə dəyər potensialının gücləndirilməsi, iqtisadi fəallığın yüksəldilməsi, iqtisadi inkişaf hədəflərinə çatmağın təmin olunması məsələlərində də investisiya potensialının artırılmasının strateji əhəmiyyəti vardır. Bütün hallarda ölkədə müasir reallıqları nəzərə alan və dünya təcrübəsinə uyğunlaşdırılan dövlət investisiya siyasəti formalaşdırılmalı, investisiya mühitinin cəlbedici olması üçün zəruri tədbirlər həyata keçirilməlidir [3, c.62,]. Milli iqtisadiyyatın dayanıqlılığının yüksəldilməsi və ölkə iqtisadiyyatının artım tempinin reallaşdırılması baxımından investisiya potensialının gücləndiirlməsinə imkan verən investisiya mexanizmlərinin hazırlanması və həyata keçirilməsi üçün davamlı tədbirlər görülməli, müvafiq infrastruktura yaradılmalıdır [4, c.6,]. Bu infrastruktura daxil olan istehsal obyektləri, digər mühüm elementlər ciddi şəkildə dəyərləndirilməli və bununla da ortada olan reallıqlardan, iqtisadi və təbii resurslardan, səmərəli istifadənin təmin edilməsi etimalı daha da artar.

Azərbaycanda investisiya potensialının gücləndirilməsi, bu məqsədlə daha sistemli tədbirlərin görülməsi imkanları yüksək qiymətləndirilir. Belə ki: “Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması, həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Yaradılan əlverişli biznes və investisiya mühiti Azərbaycanın beynəlxalq səviyyədə etibarlı tərəfdaş kimi tanınmasına və ölkəmizə investisiya qoyuluşunun cəlbediciliyinin artırılmasına imkan verir. Azərbaycanda ixracın və investisiyaların təşviqi fondu xarici investorlara və ölkəmizə sərmayə yatırmaq istəyənlərə əsaslandırılmış investisiya layihələrinin təqdir olunmasına da yüksək diqqət yetirilir” [5]. İnvestisiya siyasətinə, investisiya mühitinin cəlbediciliyinə bu cür yanaşmalar nəticəsində son onilliklərdə iqtisadiyyatın müxtəlif sahələrinin mövcud potensialının reallaşdırılması istiqamətlərində daha yüksək hədəflərə çatmaq üçün geniş miqyaslı tədbirlər həyata keçirilir, məqsədli dövlət proqramları reallaşdırılır, konsepsiyalar və strategiyalar formalaşdırılır. Digər tərəfdən, ölkədə investisiya fəallığının gücləndirilməsi, investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi proseslərini sürətləndirmək mümkündür. İnvestisiya mühitinin əlverişli olması və cəlbediciliyinin artması isə iqtisadiyyatın müxtəlif sahələrinin potensialının reallaşdırılmasına şərait yaradar [6]. İqtisadiyyatın manevrlik imkanlarının obyektiv şəkildə qiymətləndirilməsi, müxtəlif iqtisadiyyat sahələrinin investisiya mühitinin cəlbediciliyinin yüksəldilməsi və bunlarla əlaqədar lazım olan tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. İnvestisiya resurslarının təmərküzləşdirilməsi, ondan istifadənin dövlət tənzimlənməsi mexanizmlərinin işlənib hazırlanması, tətbiq alətlərinin maksimum səmərəli olması məqsədilə bu sahədəki problemlərin dərindən öyrənilməsinin təmin edilməsi, investisiyaların cəlbinə mane olan halların aradan qaldırılması diqqət mərkəzində saxlanılmalıdır. “İnvestisiyaların cəlb olunması və səmərəli istifadə edilməsi problemlərinin həlli konseptual, sistemli metodoloji yanaşma olmadan, bazar iqtisadiyyatının qurulduğu Azərbaycanda investisiya proseslərinin xüsusiyyətlərinə baxılmadan qeyri-mümkündür. Eyni zamanda, dövlətin investisiya siyasəti və investisiya strategiyası üzrə perspektiv nəzəri müddəaların və elmi cəhətdən əsaslandırılmış metodikaların işlənib hazırlanması, əlverişli investisiya mühitinin formalaşdırılması ölkənin inkişafının iqtisadi əsaslarının möhkəmləndirilməsi üçün ilkin şərtlərinin yaradılmasının zəruri şərti hesab olunur” [7, s. 25].

Qeyd edək ki, son 15-20 il ərzində Azərbaycanda xarici investisiyaların daha intensiv cəlb edilməsi mühitinin yaradılması, qanunvericiliyin və mövcud ölkə qanunlarının təkmilləşdirilməsi, sahibkarlıq subyektlərində və biznes sahələrində əsassız yoxlamaların dayandırılması, bürokratiyanın minimuma endirilməsi, iş adamlarının və xarici investorların stimullaşdırılması, motivasiyaların artırılması tədbirlərinin görülməsi öz müsbət nəticələrini verməkdədir. Belə ki, iqtisadiyyatın müxtəlif sahələrinə bütün mənbələrdən cəlb olunan investisiyaların ümumi həcmi 280-290 mlrd. ABŞ dolları həcmində qiymətləndirilir. Diqqəti cəlb edən məqamlardan biri də ondan ibarətdir ki, ölkə iqtisadiyyatına yönəldilən investisiyaların 50 %-dən




**Şəkil 1. Azərbaycanda bütün mənbələr üzrə iqtisadiyyata yönəldilən investisiyalar, 2010-2019-cu illər, mlrd. ABŞ dolları (ARSDK-nın məlumatlarına görə hazırlanmışdır – https://www.stat.gov.az/).**

çoxu xarici investisiyaların payına düşür və ildən-ilə bu investisiyaların strukturunda qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin xüsusi çəkisi artmaqdadır.

Əgər, bütün mənbələr üzrə Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların 2010-2019-cu illərdə təhlilinə nəzər salsaq görərik ki, bu dövr ərzində investisiyaların cəlbi heç də stabil xarakter daşımamışdır. Məsələn, 2010-2014-cü illərdə ölkəyə investisiyaların cəlbi və ümumilikdə investisiya qoyuluşu hər il artım nümayiş etdirmiş, 2014-cü ildə pik səviyyəsinə çataraq 30 mlrd. ABŞ dollarına yaxın həcmdə qeydə alınmışdır, lakin sonrakı illərdə kəskin azalmalar baş vermişdir. (bax: şəkil 1).

Bunun əsas səbəbi dünya bazarlarında enerjidaşıyıcıların, ilk növbədə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi, dünyada investisiya resurslarının hərəkətində məhdudiyyətlərin artması, dinamikliyin azalması və s. bu kimi amillərdən ibarətdir. Eyni zamanda, Azərbaycanda investisiyaların azalmasına səbəb olan amilləri də daha konkret qabartmaq mümkündür. Bunlara neft ixracından ölkəyə daxil olan valyuta resurslarının əhəmiyyətli səviyyədə azalması, milli valyutanın ikiqat devalvasiyası, maliyyə-kredit sistemindəki qeyri-sabitlik, makroiqtisadi və makromaliyyə silkələnmələrini aid etmək olar. Bütün bunlar dövlət səviyyəsində investisiyaların cəlbi və hərəkətinin strateji aspektlərinin ciddi şəkildə nəzərə alınmasını və daha təsirli tədbirlərin görülməsini zəruri edir. Bu məqsədlərlə ölkədə investisiyalardan səmərəli istifadə edilməsinə müvafiq olaraq şəraitin və infrastrukturun yaradılması təmin edilməli, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələlərinə mütləq şəkildə strateji yanaşmalar müəyyənləşdirilməli, investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi mexanizmləri işlənib hazırlanmalı, potensial və intizamlı investorlar üçün motivasiyalar artırılmalı, vergi güzəştləri verilməlidir. Xüsusilə, birbaşa investisiyaların cəlbi maksimum həvəsləndirilməlidir. “2000-2017-ci illər dövründə ölkənin qeyri-neft sektoruna toplam 10,9 mlrd. ABŞ dolları məbləğində birbaşa xarici investisiyalar daxil olub və bu həmin dövrdə qeyri-neft sektorunda yaradılan ümumi ÜDM-in 3,3 %-i qədərdir. İnvestorlar üçün daha həssas olan məsələlər, xüsusilə, dövlət idarəetməsində şəffaflığın və hesabatlılığın artırılması, korrupsiy6anın aradan qaldırılması, iqtisadi azadlıqların genişləndirilməsi təmin edilməlidir” [8].

Növbəti illərdə ölkəmizdə iqtisadiyyatın maksimum diversifikasiyalaşdırılması, eyni zamanda Covid – 19 pandemiyasından yaranan ciddi problemlərin həll edilməsi istiqamətində daha məhsuldar iqtisadi mexanizmlərin hazırlanması və həyata keçirilməsi baxımından maliyyə resurslarına, daxili və xarici investisiyalara tələbat xeyli artacaqdır. Digər tərəfdən, əksər iqtisadiyyat sahələrinin fəaliyyətində yaranan

qeyri-sabitlik və məhdudiyyətlər, xidmət sektorunun iflis vəziyyətə düşməsi ölkə iqtisadiyyatının manevrlik qabiliyyətinin yüksəldilməsi və iqtisadi fəallığın bərpa edilməsi istiqamətində əlavə tədbirlərin görülməsini vacib edir. Hər tərəfdən qlobal təhdidlərin artması və iqtisadi imkanların gücləndirilməsinə mane olan daxili və xarici amillərin fəallaşması, dünya ölkələri arasında inteqrativ əlaqələrin qlobal böhranlar nəticəsində xeyli deformasiyalara uğraması investisiya siyasətinə və dövlət tərəfindən tətbiq olunan investisiya strategiyasına təsir göstərməkdədir. Eyni zamanda, müasir reallıqlar baxımından investisiya potensialının gücləndirilməsi üçün daha səmərəli mexanizmlərin işlənməsi, mövcud problemlərin həlli yollarının müəyyənləşdirilməsi tələb olunur.

Azərbaycanda yaxın və uzaq iqtisadi inkişaf perspektivləri və hədəfləri əsas götürülməklə, investisiya potensialının gücləndirilməsi və infrastrukturunun yaradılması problemlərinin həlli yolları müəyyənləşdirilməlidir. Digər tərəfdən, ölkənin investisiya siyasətinin priortiet vəzifələri sırasında qeyri-neft sektoru sahələrinə investisiyaların cəlb edilməsi problemlərinin həlli ilə bağlı məsələlərə daha çox yer verilməlidir:

–investisiyaların cəlbi, onlardan istifadənin səmərəliliyinin artırlması, bütövlükdə ölkədə investisiya potensialının gücləndirilməsi və bunlarla əlaqədar olaraq müvafiq, həm də dünya standartlarına uyğun şəkildə infrastrukturun yaradılması problemləri həll edilməlidir;

–ölkənin neftqaz sektoru ilə yanaşı, qeyri-neft sektorunun müxtəlif sahələrinə birbaşa xarici investisiyaların cəlb edilməsi məqsədilə beynəlxalq səviyyədə potensial investorlarla və investisiya kompaniyaları ilə səmərəli əməkdaşlıq əlaqələri yaradılmalı, onların ölkəmizə fəal şəkildə gəlmələri məqsədilə əlverişli investisiya mühiti təşkil edilməli, cəlbedici vergi güzəştləri müəyyənləşdirilməlidir;

–dövlət-özəl sektor formatında investisiyaların təşviqi və cəlbi istiqamətində daha çox fayda verə biləcək əməkdaşlığın təmin edilməsi diqqət mərkəzində saxlanılmalı, investisiyaların səmərəli hərəkətinə mane yarada biləcək halların aradan qaldırılması tədbirləri görülməli, bu proseslərdə maksimum şəffaflıq təmin olunmalı, hüquqi mexanizmlərin işləkliyi və stimullaşdırıcı xüsusiyyətləri ön plana çəkilməlidir və s.

**Açar sözlər:** *investisiya potensialı, investisiya mühitinin cəlbediciliyi, investisiya potensialının gücləndirilməsi, investisiya potensialı infrastrukturu, dövlətin investisiya siyasəti, birbaşa xarici investisiyalar, investisiya potensialının gücləndirilməsi problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Ocampo J.A. Capital Market Liberalization, Globalization, and the IMF // Capital Market Liberalization and Development. New York: Oxford University Press, 2008, p. 76-100.*

*2. Голещихин О.С. Прямые иностранные инвестиции и экономическое развитие // Российское предпринимательство. – 2012. – Том 13. – № 24. – с. 21-26.*

*3. Седаш Т.Н., Бирюков А.В. Использование зарубежного опыта для повышения конкурентоспособности и инвестиционной привлекательности российских регионов // Финансы и кредит. – 2013. №38 (566), – с. 59-65.*

*4. Афонцев С.А. Мировая экономика в поисках новой модели роста // Мировая экономика и международные отношения – 2014. № 2, – с. 3–12.*

*5. Azərbaycanın investisiya mühiti dünyada yüksək qiymətləndirilir. 2020. http://xalqqazeti.com/az/news/33873.*

*6. Azərbaycan Respublikasının investisiya mühiti haqqında. https://www.economy.gov.az/article/azerbaycan-respublikasinin-investisiya-muhiti-haqqinda/21336#.*

*7. Vəliməmmədov M.Ş. Azərbaycanda investisiya mühiti və dövlət tənzimlənməsinin müasir vəziyyəti // Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı, Volume 4, Number 4/İl 4, Say 4, 2017.–s. 25-34.*

*8. Mehdiyev A. Azərbaycana birbaşa xarici investisiyalar: mövcud durum və problemlər. 26.10.2018. https://fed.az/az/investisiya/azerbaycana-birbasa-xarici-investisiyalar-movcud-durum-ve-problemler-meqale-40060.*

**РЕЗЮМЕ**

**Проблемы создания инфраструктуры и усиления инвестиционного потенциала в Азербайджане**

В статье исследованы проблемы создания инфраструктуры и усиления инвестиционного потенциала в Азербайджане. С этой целью анализирована сущность процессов формирования инвестиционного потенциала с учетом новых вызовов и трансформаций. Исследована важность создания высокотехнологичной инфраструктуры по обеспечению инвестиционной привлекательности и мотивации потенциальных инвесторов. Рассмотрено совершенствование существующих механизмов по ведению инвестиционной деятельности и формированию инвестиционного потенциала в стране. Отмечена необходимость усиления международного сотрудничества по привлечению прямых инвестиций в ненефтяной секторы экономики. Анализирована динамика инвестиционных вложений в экономику по всем источникам за последние годы. Подготовлены предложения и рекомендации по проблемам создания инфраструктуры и усиления инвестиционного потенциала в Азербайджане.


**Ключевые слова:** *инвестиционный потенциал, привлекательность инвестиционной среды, усиление инвестиционного потенциала, инфраструктура инвестиционного потенциала, инвестиционная политика государства, прямые иностранные инвестиции, проблемы усиления инвестиционного потенциала.*


**SUMMARY**

**Problems of creating infrastructure and strengthening investment potential in Azerbaijan**

The problems of creating infrastructure and strengthening of investment potential in Azerbaijan are investigated in the article. The essence of processes of investment potential formation taking into account new challenges and transformations is analyzed for this purpose. The importance of creating high-tech infrastructure to ensure investment attractiveness and motivation of potential investors is investigated too. The improvement of the existing mechanisms for investment activities and the formation of investment potential in the country are considered. The need to strengthening international cooperation to attract direct investment in non-oil sectors of the economy is noted. The dynamics of investment investments in the economy by all sources in recent years is analyzed then. Proposals and recommendations on the problems of creating infrastructure and strengthening of investment potential in Azerbaijan are given in the end of the article.


**Key words:** *investment potential, attractiveness of investment environment, strengthening of investment potential, infrastructure of investment potential, investment policy of the state, foreign direct investment, problems of strengthening of investment potential.*

UOT: 338.431:004

# AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİNİN QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

**GÜLSÜM BƏDİRZADƏ**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

*E-mail: gulya_xaliqova@mail.ru*

Son illərdə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qlobal iqtisadi çağırışlara uyğun olaraq milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, onun rəqabətqabiliyyətinin artırılması və dayanıqlılığının yüksəldilməsi istiqamətində strateji hədəflərin reallaşdırılması prosesləri gedir. Perspektiv iqtisadiyyat sahələri üzrə yaxın və uzunmüddətli dövrü əhatə edən prioritet vəzifələrin və hədəflərin reallaşdırılması hesabına ölkə iqtisadiyyatının yeni inkişaf mərhələsinə transferi kifayət qədər aktuallığı ilə fərqlənir. Başlıca məqsəd iqtisadiyyatın neft və qaz amilindən asılılığının aşağı salınması, məhsuldar və çoxşaxəli vergiqoyma bazasına malik olan qeyri-neft sektoru sahələrinin inkişafının intensivləşdirilməsi, ölkənin valyuta ehtiyatlarının gücləndirilməsində və büdcə gəlirlərinin mənbələrinin genişləndirilməsində daha etibarlı və dayanıqlı iqtisadi mexanizmlərin və fəaliyyət istiqamətlərinin təmin olunmasıdır. Bütün bunlar xeyli mürəkkəb məsələlərdir və qoyulan problemlər üzrə daha dərin araşdırılmaları şərtləndirir, problemlərin mahiyyətinin açıqlanması və bunların əsasında fəaliyyət strategiyasının formalaşdırılması mühüm önəm kəsb edir, eyni zamanda işlək qanunların olmasını şərtləndirir.

Bir məsələ də xüsusi yanaşmanı tələb edir, bu iqtisadiyyatın bütün sahələrinin yeni texnologiyalara, xüsusilə informasiya-kommunikasiya texnologiyalarına (İKT) olan tələbatın ildən-ilə artması, iqtisadiyyatın rəqəmsallaşması, elektron xidmətlərin çeşidinin və həcminin genişlənməsi, bunlarla əlaqəli iqtisadiyyat sahələrinin yeni imkanlarının formalaşması ilə bağlıdır. Məlumdur ki, bu istiqamətdə müəyyənləşdirilən məqsəd və vəzifələr, strateji hədəflər ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır [1]. Artıq ölkədə mərkəzi dövlət və idarəetmə strukturlarında, regionlarda, özəl subyektlərdə İKT-dən səmərəli istifadə edilməsində əhəmiyyətli irəliləyişlər diqqət çəkir. İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən aqrar sahədə İKT-dən istifadənin maksimum səmərəli təşkili və təkmilləşdirilməsi bir sıra məsələlərin daha çox diqqət mərkəzində saxlanılmasını və mütləq şəkildə nəzərə alınmasını tələb edir. Bu – qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi ilə bilavasitə bağlıdır. Aqrar sahənin inkişafının və dayanıqlı olmasının mürəkkəb xüsusiyyətlərindən yanaşdıqda, həmin sahədə qanunların və qanunvericilik aktlarının əsas etibarı ilə stimullaşdırıcı və yönəldici xarakterdə olması mühüm əhəmiyyət kəsb edir. Qanunlar aqrar sahibkarların və bu sahəyə investsiya yatıranların – investorların maraqlarını və məhsuldar şəkildə fəaliyyət göstərmək üçün tələb olunan xüsusi halları maksimum özündə ehtiva etməlidir və əvvəldə qeyd etdiyimiz kimi onların maksimum işlək olması vacibdir.

Ölkəmizdə qanunvericilik aktlarının səmərəli olması sahəsində, qanunvericilik təşəbbüslərinin dəyərləndirilməsi istiqamətində müstəqillik illərində müəyyən təcrübə toplanmışdır və bu məsələlər aqrar sahədən də yan keçməmişdir.

Azərbaycanda neft strategiyasının icrasına başlanıldığı dövrdən iqtisadiyyatın müxtəlif sahələrində köklü islahatlara start verilmişdir və bununla bağlı olaraq aqrar sahədə aparılan islahatlar yüksək sosial-iqtisadi səmərəliliyi ilə fərqlənmişdir. Ölkəmizin kənd təsərrüfatı regionlarının və aqrar təsərrüfatların məhsuldar fəaliyyət göstərməsi üçün dövlət tərəfindən müvafiq istehsal və kommersiya infrastrukturunun, aqrar sahənin maddi-texniki bazasının yaradılımasına ardıcıl şəkildə və planlaşdırılmış formada əsas kapitalın yatırılması, müxtəlif mənbələrdən, o cümlədən xaricdən investisiyaların cəlb edilməsi təmin edilmişdir. Aqrar sahənin elmi əsaslarla və müasir texnologiyalar üzərindən idarə edilməsinə, xidmətlər göstərilməsinə daha çox önəm verilməkdədir. Müxtəlif istiqamətlərdə İKT mexanizmlərinin fəal şəkildə tətbiq edilməsi və elektron xidmətlərin göstərilməsi də bu qəbildəndir.

Qeyd edək ki, mühüm ərzaq məhsullarının istehsalının stimullaşdırılmasında və onun emal sahələrinin formalaşdırılmasında aqrar sahənin önəmli rolu vardır. Xüsusilə, bu istiqamətdə təsərrüfat subyektlərinin fəaliyyətinin tənzimlənməsi və motivasiyalaşdırılması üçün güclü qanunvericilik bazasının formalaşdırılması vacib şərtlərdəndir. Məsələn, ölkəmizdə heç də sirr deyildir ki, əsas ərzaq xammalı – ərzaq buğdasının istehsalı və tədarükündə müəyyən problemlər hələ də qalmaqdadır və ərzaq buğdasının zəruri ehtiyatlarının formalaşdırılması və tələbatın tam olaraq ödənilməsi üçün idxaldan asılılıq qalmaqdadır. Buna görə də taxıl istehsalının maksimum səmərəli təşkilinə və ehtiyatlarının yaradılmasına ciddi zərurət vardır. 16 iyun 2000-ci il "Taxıl haqqında Azərbaycan Respublikasının Qanunu"nda taxıl istehsalının, tədarükünün və bazarının təşkilinin, taxılın və taxıl emalı məhsullarının keyfiyyətinin idarə edilməsinin hüquqi əsasları müəyyənləşdirilmişdir [2]. Qanunun 7.2 maddəsində taxılçılığın və toxumçuluğun elmi təminatı, taxıl proqramlarının hazırlanması və dövlət taxıl fondunun yaradılması kimi vacib məsələlər diqqət mərkəzində saxlanılmışdır. Bu proseslərdə kifayət qədərə mürəkkəb məsələlər vardır. Məsələn, taxıl məhsullarının istehsalı və tədarükü ilə yanaşı, onların saxlanılması, daşınması, idxal və ixracının səmərəli təşkili, taxıl məhsullarının keyfiyyətinə və məqsədli istifadəsinə nəzarətin təşkili tələb olunur. Hesab edirik ki, bu proseslərdə müasir İKT alətlərinin və rəqəmsallaşma mexanizmlərinin geniş tətbiqi səmərəli nəticələrə gətirib çıxarar, itkiləri azaldar və ölkəmizdə taxıl ehtiyatlarının daha uzunmüddətli dövr üçün etibarlı şəkildə yaradılmasını təmin edər. Kənd təsərrüfatı subyektlərinin və aqrar müəssisələrin fəaliyyətinin təşkilində müxtəlif xidmətlərdən istifadə olunması istiqamətindəki problemlərin tənzimlənməsində 23 oktyabr 2004-cü il tarixli "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının əhəmiyyətini qeyd etmək olar [3]. Bu Sərəncamda aqrar sahədə texniki vasitələrdən və digər zəruri avadanlıqlardan istifadənin təminatında beynəlxalq təcrübənin fəal şəkildə öyrənilməsi və tətbiq edilməsi, son nəticədə isə, istehsalçıların vacib kənd təsərrüfatı texnikası ilə təchizat səviyyəsinin yüksəldilməsi, daha keyfiyyətli məhsulun yetişdirilməsi və onun itkisiz yığılmasının təmin edilməsi problemləri tənzimlənmiş, müvafiq tapşırıqlar verilmiş, mexanizmlər müəyyənləşdirilmişdir. Digər mühüm bir məsələ isə min bir əziyyətlə yetişdirilən kənd təsərrüfatı və aqrar məhsulların vaxtında, minimum itkilərlə son istehlakçılara çatdırılması, operativ şəkildə yerli, regional və milli bazarlara bərabər, dünya bazarına çıxarılması, ixrac potensialının formalaşdırılması ilə bağlıdır. Bu baxımdan, elektron vasitələrdən, o cümlədən elektron ticarətdən bəhrələnməklə, daha çox müştəri kontingentinin formalaşdırılması, əlaqələrin yaradılması və alqı-satqı əməliyyatlarının həcminin artırılmasının hüquqi mexanizmlərinin müəyyənləşdirilməsi tələb olunurdu. 10 may 2005-ci il tarixli "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə elektron ticarətin və yeni texnologiyaların tətbiqində hüquqi baza yaradılmışdır [4].

Qeyd edək ki, aqrar sahənin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsində, idarəetmə orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində, xüsusilə bu sahədə informasi-

ya-kommunikasiya texnologiyalarının tətbiqi vasitəsilə məhsuldarlığın artırılmasında böyük ehtiyatların olduğu məlumdur. Uzun illər ərzində bu sahədə formalaşmış ənənəvi yanaşmalar və mexanizmlərin yüksək texnologiyalar əsasında və elmi yanaşma ilə təkmilləşdirilməsi, daha doğrusu modernləşdirilməsi, yeni xidmətlərin yaradılması, texnologiyaların hazırlanması və tətbiq eilməsi daha yüksək nəticələrin əldə edilməsinə imkan verir. Bu strateji vəzifələr baxımından ölkə Prezidentinin 16 aprel 2014-cü il tarixli "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanında bir çox mühüm müddəalar, hüquqi əsaslar yer almışdır [5]. Həmin fərmanla Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələrinin, aqroparkların yaradılması, beynəlxalq təcrübəyə uyğun olaraq, aqrar sahənin dövlət tərəfindən dəstəklənməsində şəffaflığın və hesabatlılığın təmin olunması məqsədilə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin təşkili qərara alınmışdır. Bundan əlavə, bu sektorda özəlləşdirilmənin intensivləşdirilməsi, heyvandarlığın inkişaf etdirilməsi məqsədilə məlumat bazasının yaradılması nəzərdə tutulmuşdur. Eyni zamanda, məhz bu Fərmanla aqrar sahədə yeni texnologiyaların tətbiqinin intensivləşdirilməsi və müvafiq ölkə qanunlarının hazırlanaraq qəbul edilməsi üzrə zəruri tapşırıqlar verilmişdir. Aqrar sahədə reallaşdırılan təsirli tədbirlər İKT texnologiyalarının daha geniş şəkildə tətbiqinə münbit şərait yaratmışdır [6]. Digər tərəfdən, kənd təsərrüfatı sahələrində və bütövlükdə aqrar sektorda fəaliyyət istiqamətlərinin şaxələndirilməsi, dünya təcrübəsində özünü doğrultmuş fəaliyyət formalarının təşkilində motivasiyanın artırılması üçün yeni qanunlar qəbul olunmuşdur. Məsələn, 14 iyun 2016-cı il tarixində qəbul olunmuş "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının qanunu buna misal ola bilər [7]. Bu qanunun qəbul edilməsi ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarının birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliklərinin yaradılmasına, onların arasında maddi və sosial tələbatların müştərək şəkildə formalaşdırılmasına hüquqi əsaslar yaradılmışdır. Bunlarla bərabər, İKT-nin geniş imkanlarından bəhrələnməklə kooperasiya hərəkatı iştirakçılarının maksimum səmərəli fəaliyyətinin təmin edilməsi imkanlarını qeyd etmək olar.

Məlumdur ki, dünya təcrübəsindən yanaşdıqda İKT-nin inkişafının sürətləndirilməsinin və informasiya cəmiyyətinin inkişaf etdirilməsi əksər dünya ölkələrində prioritet və strateji vəzifələr kimi qiymətləndirilir. Bunun əsas səbəbi dünya səviyyəsində iqtisadi proseslərin, o cümlədən aqrar sahənin fəaliyyətinin müxtəlif istiqamətlərində İKT mexanizmlərinin və alətlərinin fəal şəkildə istifadə edilməsi nəticəsində səmərəliliyin maksimum yüksəldilməsi və proqnozlaşdırılan göstəricilərə nail olmağın təmin edilməsidir. Ölkə Prezidentinin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı"nda informasiya cəmiyyətinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı hüquqi mexanizmlər və əsaslar müəyyənləşdirilmiş, eyni zamanda geniş şəkildə zəruri tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdır [8]. Bu proqramda İKT infrastrukturunun cari və gələcək tələbatı nəzərə alınmaqla inkişaf etdirilməsi, onun əsasında keyfiyyətli xidmətlər göstərilməsi və onlara çıxış imkanlarının təmin olunması, tranzit informasiya dəhlizlərinin yaradılması, beynəlxalq internet magistrallarına alternativ və yüksək sürətli birləşmələrin təşkili nəzərdə tutulmuşdur və keçən dövr ərzində göstərilən tədbirlərin əhəmiyyətli hissəsinin reallaşdırılmasını göstərmək mümkündür. Eyni zamanda, elmtutumlu və yüksək texnoloji məhsulların istehsalının artırılması, milli brendlər formasında dünya bazarlarına çıxarılması məsələləri də vacib şərtlərdəndir. Bir sözlə, ölkəmizdə iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə İKT-dən istifadənin daha çox fəallaşdırılması və elektron xidmətlərin çeşidinin genişləndirilməsi müasir dövrün mühüm vəzifələri kimi xarakterizə olunurlar. Bu görülən tədbirlər sahəsində ölkəmizin aqrar sahəsinə xarici investorların marağının artırılması və cəlb ediləcək investisiyaların həcminin yüksəldilməsi mümkündür, başqa sözlə, aqrar sektorda İKT

mexanizmlərinin tətbiqinin genişləndirilməsi sayəsində əlavə dəyərin yeni mənbələrinin formalaşdırılması da baş verəcəkdir. Həmin tədbirlərin daha səmərəli təşkilində ölkə Prezidentinin 22 may 2018-ci il tarixli Fərmanı ilə yaradılmasına başlanılmış Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin rolunu da qeyd etmək olar [9]. Burada məqsədli tədqiqatların aparılması, aqrar sahədə İKT-nin tətbiqi vasitəsilə müxtəlif investisiya-innovasiya layihələrinin, proqramların və strategiyaların hazırlanması istiqamətində daha çox işlərin görülməsi mümkündür. Mütəxəssislərin aqrar sahə subyektləri ilə əməkdaşlığının təşkilində, mövcud problemlərin mahiyyətinin açıqlanması baxımından da bu Mərkəzin fəaliyyətinin faydalı olması potensialı vardır. Təsadüfi deyildir ki, məhz bu kimi müxtəlif qurumların və mərkəzlərin təşkili, fəaliyyətlərinin genişlənməsi sayəsində aqrar sektorda müasir texnologiyaların tətbiqi daha çox diqqət mərkəzindədir [10]. Digər tərəfdən, AR Nazirlər Kabinetinin 21 yanvar 2019-cu il tarixli "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 467 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Qərarı ilə aqrar sektorda idarəetmə orqanlarının inkişafında və modernləşdirilməsində İKT mexanizmlərindən istifadənin vacib olaraq qiymətləndirilməsi də, bu sahədəki işlərin sürətləndirilməsinə imkan vermişdir [11]. Bunlarla bərabər, ölkə Prezidentinin 21 may 2019-cu il tarixli "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Fərmanı ilə yeni və mühüm mərkəzi dövlət qurumunun prioritet vəzifələri, funksiyaları və hüquqları müəyyənləşdirilmişdir [12]. Bu kimi tədbirlərin sistemli şəkildə reallaşdırılması, idarəetmə və xidmət strukturlarının hüquqi bazasının gücləndirilməsi, hüquqi aktların beynəlxalq standartlar səviyyəsinə qaldırılması, dövlət dəstəyi mexanizmlərinin fəal şəkildə tətbiqinin hüquqi əsaslarının yaradılması, aqrar sahə subyektlərinin fəaliyyətinin genişləndirilməsinə mane olan baryerlərin aradan qaldırılması işlərində hüquqi elementlərin rolunun artırılması təqdirəlayiq amillər və yanaşmalar kimi xarakterizə oluna bilər. Həm də, elektron xidmətlərin hesabına görülən tədbirlərin şəffaflığının yüksəldilməsi, operativliyin təmin olunması, müraciətlərin qısa zaman kəsiyində işlənməsi, sənədlərin qəbulu və qərarların qəbul edilməsi reallaşdırılır [13]. Məsələn, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində ümumilikdə sistemin inteqrasiyası və mövcud funksionallığın təmin olunması məqsədilə daha çox şəffaflığa və operativliyə nail olmaq mümkündür [14].

Son dövrlərdə aqrar sahədə olan fəaliyyətin daha güvənli və etibarlı şəkildə təşkili problemləri də çoxalmışdır. Qlobal təhdidlər, fors-major hadisələr, yanğınlar və digər hallarla bağlı sahibkarlıq subyektlərinin itkilərinin ən azından müəyyən hissəsinin kompensasiya edilməsinin müxtəlif mənbələri və mexanizmləri mühüm əhəmiyyət kəsb edir. Bu problemlər aqrar sahə üçün də kifayət qədər xarakterikdir və xüsusilə, İKT mexanizmlərinin tətbiqinə investisiyalar yatıran, yüksək texnologiyalar gətirən investorların kapitalının və fəaliyyətinin sığortalanması vacib məsələlərdəndir. Bütün bunlar nəzərə alınmaqla, 19 avqust 2019-cu ildə qəbul olunan "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunun əhəmiyyətini qeyd etmək lazımıdır [15]. Bu qanun İKT-nin aqrar sahədə tətbiqi proseslərində risklərin müştərək sığorta mexanizmi ilə bağlı mühüm məsələləri tənzimləyir, eyni zamanda, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati aspektlərini müəyyənləşdirir.

Beləliklə, yaxın illərdə aqrar sahədə İKT-nin tətbiqində daha təsirli tədbirlərin görüləcəyini və bu istiqamətdə səmərəliliyin artacağını proqnozlaşdırmaq mümkündür. Bununla əlaqəli olaraq, hesab edirik ki, İKT-nin qanunvericilik bazasının gücləndirilməsi, mövcud qanunların, hüquqi aktların və mexanizmlərin daha da təkmilləşdirilməsi, yeni qanunların hazırlanması və qəbul edilməsi prosesləri intensiv olaraq qalacaqdır və bunlarla bağlı bir sıra məsələlərə daha çox diqqət yönəldilməlidir:

– Azərbaycanda aqrar sahənin inkişafında və dünya təcrübəsinin daha geniş surətdə bu sahəyə tətbiqində nəzərdə tutulan tədbirlərin

səmərəliliyinin təmin olunmasında İKT-nin rolu ilbəil artmaqda davam edəcəkdir;

– aqrar sahədə İKT-nin tətbiqinin sistemli və kompleks təşkili mexanizmləri hazırlanmalı və bunun üçün müvafiq İKT infrastrukturunun yaradılması, xüsusilə regionlarda fəaliyyət sahələrinin və xidmətlərin elektronlaşdırılması, rəqəmsal mexanizmlərdən istifadənin genişləndirilməsi təmin olunmalıdır və s.

**Açar sözlər:** *aqrar sahə, informasiya-kommunikasiya texnologiyaları, aqrar sahədə elektronlaşdırma, aqrar sahədə rəqəmsallaşma, aqrar sahədə İKT, İKT-nin qanunvericilik bazası, aqrar sahədə İKT-nin hüquqi bazası.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*2. Taxıl haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 iyun 2000-ci il, № 898-IQ.*

*3. Aqrar Bölmədə Lizinqin Genişləndirilməsi Sahəsində Əlavə Tədbirlər Haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 23 oktyabr 2004-cü il, № 468.*

*4. Elektron ticarət haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 10 may 2005-ci il, № 908-IIQ.*

*5. Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı Bakı şəhəri, 16 aprel 2014-cü il, № 152.*

*6. Aqrar sahədə tətbiq edilən informasiya-kommunikasiya texnologiyaları nümayiş olunacaq. 19.05.2015. http://www.ictnews.az/read-36848-news-1.html.*

*7. Kənd təsərrüfatı kooperasiyası haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 14 iyun 2016-cı il, № 270-VQ.*

*8. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2016-cı il Sərəncamı ilə təsdiq edilmişdir.*

*9. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 22 may 2018-ci il, № 89.*

*10. Aqrar sektorda müasir texnologiyaların tətbiqi diqqət mərkəzindədir. 01.09.2018. http://www.movqe.az/news/layihe/121289.html.*

*11. Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 467 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə AR Nazirlər Kabinetinin Qərarı. Bakı şəhəri, 21 yanvar 2019-cu il.*

*12. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 21 may 2019-cu il, № 701.*

*13. Elektron xidmətlər. https://www.agro.gov.az/az/ekt/elektron-xidmetler.*

*14. EKTİS-də sistemin inteqrasiyası və mövcud funksionallığı. https://www.agro.gov.az/az/ekt/ektis-de-sistemin-inteqrasiyasi-ve-moevcud-funksiyonal-ligi.*

*15. Aqrar sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. 19 avqust 2019.*

**РЕЗЮМЕ**

**Совершенствование законодательной базы в применении информационно-коммуникационных технологий в аграрной сфере Азербайджана**

В статье исследованы вопросы и проблемы совершенствования законодательной базы применения информационно-коммуникационных технологий в аграрной сфере Азербайджана. С этой целью анализирована сущность и влияние юридической базы на ускорение, а так же стимулирование применения ИКТ в аграрной сфере в стране. Рассмотрены основные

проблемы электронизации процессов и деятельности субъектов в аграрной сфере. Обоснована необходимость ускорения применения цифровизации в аграрной сфере. Отмечена важность всестороннего применения ИКТ в аграрной сфере страны и необходимость совершенствования законодательной базы, способствующей интенсификации применения ИКТ в данной отрасли. Подготовлены предложения и рекомендации по проблемам совершенствования законодательной базы в применении информационно-коммуникационных технологий в аграрной сфере Азербайджана.

**Ключевые слова:** *аграрная сфера, информационно-коммуникационные технологии, электронизация в аграрной сфере, цифровизация в аграрной сфере, ИКТ в аграрной сфере, законодательная база ИКТ, юридическая база ИКТ в аграрной сфере.*

**SUMMARY**

**Improvement of the legislative framework in the application of information and communication technologies in the agricultural sector of Azerbaijan**

The issues and problems of improving the legislative framework in the application of information and communication technologies in the agricultural sector of Azerbaijan are investigated in the article. The essence and influence of the legal framework on acceleration and stimulation of the use of ICT in the agricultural sphere of the country are analyzed for this purpose. The main problems of electronic processes and activities of subjects in the agricultural sphere are considered. The need to accelerate the application of digitalization in the agricultural sector is justified then. The importance of the full application of ICT in the agricultural sphere of the country and the need to improve the legislative framework that contributes to the intensification of the use of ICT in this sector is investigated too. Proposals and recommendations on the problems of improving the legislative framework in the application of information and communication technologies in the agricultural sector of Azerbaijan are given in the end of the article.

**Key words:** *agrarian sphere, information and communication technologies, electronisation in the agrarian sphere, digitalization in the agrarian sphere, ICT in the agrarian sphere, the legislative base of ICT, the legal base of ICT in the agrarian sphere.*

UOT: 336.641:368.07

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ SIĞORTA SİSTEMİNİN TƏNZİMLƏNMƏSİ VƏ GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**HEYDƏR AĞAYEV**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

*E-mail: agayevheyder.r@gmail.com*

İqisadi sistemin səmərəliliyi və məhsuldar fəaliyyət göstərməsi bir çox amillərdən bilavasitə asılıdır. Bu sırada əhəmiyyətli rolu olan məsələlərdən biri də sığorta mexanizmidir və sığorta vasitəsilə iqtisadi proseslərin iştirakçıların üzləşdikləri risklərin əhəmiyyətli hissəsinin sığortalanması, ortaya çıxa biləcək itkilərin, hadisələrin nəticəsində yaranacaq zərərlərin kompensasiya edilməsi mümkündür. Bundan başqa, sığortanın olması sahibkarlıq və biznes subyektlərinin, kapital və əmlak sahiblərinin daha etibarlı şəkildə fəaliyyət göstərmələrini təmin edir, istehsal və kommersiya əməliyyatlarının genişləndirilməsinə şərait yaradır, əlavə investisiyaların yatırılmasını mümkünləşdirir və s. Dünya təcrübəsində bu kimi məsələlər daim diqqət mərkəzindədir və iqtisadi fəaliyyətin sığortalanması, sığorta alətlərindən fəal istifadə edilməsi və bu mexanizmə güclü şəkildə önəm göstərilməsi mütləq şərtlərdəndir. Eyni zamanda, sığorta sisteminin səmərəli formada tənzimlənməsi, dövlət və aidiyyətli mərkəzi strukturlar tərəfindən zəruri addımların atılması, sığorta sisteminin dinamik inkişafına və məhsuldar fəaliyyətinə mane olan baryerlərin aradan qaldırılması məsələləri aktuallığı ilə ön plana çıxırlar. Hələ, XX əsrin II yarısından başlayaraq ABŞ və digər aparıcı dünya dövlətlərində sığorta alətlərindən istifadənin genişləndirilməsi, bununla bağlı məsələlərdə ştatlar və federal səviyyədə vəzifələrin və məsuliyyətin bölüşdürülməsi, qanunla müəyyənləşdirilməsi məsələlərinə dövlət səviyyəsində yüksək səviyyədə baxılmışdır. Əsas tənzimləmə məsələləri kimi sığortanın təşkilində, idarə olunmasında və tənzimlənməsində hansı orqanın və inzibati aparatın formalaşdırılması mühüm sual və problem kimi götürülmüşdür. Bundan əlavə, sığorta sisteminin tənzimlənməsinin istehlak bazarlarına və bilavasitə istehlakçılara təsirinin dərindən öyrənilərək nəzərə alınması və sığorta xidmətlərinin formalaşdırılmasında bununla bağlı halların təsirinin daha optimal ölçülməsi və qiymətləndirilməsi vacib hesab edilmişdir. Bunlarla bərabər, sığorta sisteminin tənzimlənməsi siyasətində maliyyə bazarının mühüm seqmentlərindən biri kimi, bu tənzimləmə mexanizmlərinin maliyyə axınlarının hərəkətinə və səmərəliliyinə təsiri də diqqət mərkəzində saxlanılmalıdır [1, s. 182]. Sığorta institutunun işləkliyi və səmərəliliyi, ilk növbədə bu sistemin strukturunun, idarəetmə pillələrinin, mərkəzi və regional bölmələrinin, digər analoji qurumlarla qarşılıqlı fəaliyyət əlaqələrinin hansı səviyyədə formalaşdırılmasından, hüquqi bazanın səviyyəsindən və dövrün tələblərinin, çağırışlarının maksimum düzgün qiymətləndirilməsindən bilavasitə asılı olduğunu da qeyd etmək mümkündür. L.S.Kimballa görə: “Sığorta sisteminin əsas fəaliyyət prinsipləri sığorta şirkətlərinin səmərəli işləmələri üçün təminat verməlidir, bundan başqa, sığorta şirkətlərinin daxili strukturu optimal olmalı, real istehlak bazarının tələblərinə söykənməlidir” [2]. Hər hansı bir sığorta xidmətinin hazırlanması və bazara çıxarılması tədbirləri dərindən öyrənilməli, araşdırılmalı və əsaslandırılmış qərarlar qəbul olunmalıdır. Sığorta şirkətinin xidmətləri diversifikasiyalaşdırılmalı və bu şirkətin maliyyə sabitliyinə təsir edəcək təhlükələrin və risklərin dəyərləndirilməsi vacibdir. Əks halda dövlət tərəfindən reallaşdırılan məqsədli proqramlar, aparılan iqtisadi islahatlar şəraitində sığorta sisteminin ona aid olan

mühüm funksiyalarını tam olar reallaşdırmaqda çətinliklərlə üzləşməsi qaçılmaz bir prosesə çevrilə bilər.

Qeyd edəki ki, sığorta şirkətləri əsas etibarı ilə müxtəlif dünya ölkələrində iri investisiya kompaniyaları statusunda fəaliyyət göstərirlər, eyni zamanda, müxtəlif sahələrə və layihələrə investisiyalar yönəldirlər, özlərinin də təşəbbüskarları olduqları bir sıra inkişaf və investisiya layihələrində iştirak edirlər, maliyyə risklərinə məruz qalırlar və bunlara baxmayaraq, bütün hallarda sığorta şirkətləri həm də bu proseslərin digər iştirakçılarının kapital və əmlaklarının sığortalanmasını həyata keçirməklə, onların sabit və güvənli şəkildə fəaliyyətlərinin təminatçısı kimi çıxış edirlər. Başqa sözlə, sığorta iqtisadi inkişaf proseslərində özünün müxtəlif formaları ilə müxtəlif hüquqi və fiziki şəxslərin daha sabit fəaliyyət göstərmək potensialını artırmaqla bərabər, bu subyektlərin müxtəlif risklərdən qorunması təmin edir. Bu amillər əsas götürülməklə, sığorta sisteminin gücləndirilməsi üçün dövlət tərəfindən davamlı tədbirlər görülməli və sistemli tənzimlənmə mexanizmləri işlənib hazırlanmalı, sığorta şirkətlərinin fəaliyyətində səmərəliliyə ciddi önəm verilməli, sığorta şirkətlərinin maliyyə sabitliyi ilə bağlı əlavə dəstəkləyici mexanizmlər müəyyənləşdirilməlidir. Belə ki, sığorta sistemində qeyri-sabitlik, sığorta şirkətlərinin maliyyə bazarlarında passivliyi bütövlükdə ölkədə makroiqtisadi və makromaliyyə sabitliyi üçün arzuolunan hal deyildir [3]. Bazar iqtisadiyyatı proseslərində və xüsusilə maliyyə bazarında baş verən hadisələrin maksimum sığortalanması, dəyən zərərlərin qarşılanması mexanizmlərinin olması, müxtəlif çevik və işlək sığorta xidmətlərinin göstərilməsi, son nəticədə iqtisadi inkişafın dinamikliyinə əsaslı zəmin yaradır və iqtisadi fəallığı əhəmiyyətli səviyyədə artırmağa imkan verir. Dövlət tərəfindən sığorta sisteminin fəaliyyət mexanizmlərinin güclü olmasına imkan verən qanunvericilik bazasının hazırlanması və bu sahəyə konseptual yanaşmaların təmin edilməsi mühüm şərtlər kimi dəyərləndirilməlidir. Bundan əlavə, sığorta sisteminin fəaliyyət mexanizmlərinin və tətbiq olunan praktiki alətlərinin müasir qlobal sığorta çağırışlarına uyğun şəkildə tənizmlənməsi tədbirləri görülməlidir [4].

Son onilliklərdə iqtisadi islahatların dünya səviyyəsində dərinləşməsi, 2008-ci ilin sonlarından başalayaraq dünya maliyyə böhranının mənfi təsirindən yaranan yeni tələblərin və çağırışların ortaya çıxması sığorta bazarına və sığorta sisteminə də ciddi təsir göstərmişdir. Digər tərəfdən isə, cəmiyyətin və iqtisadiyyatın bütün sahələrində sığorta xidmətlərinə, eyni zamanda, qeyd etmək lazımdır ki, müasir və fərqli sığorta xidmətlərinə tələb yüksəlmişdir. Sığorta sisteminin çevikliyi və sığorta xidmətlərinin əlaçtanlığı problemləri qabarmışdır, yəni əvvəlki formada və ənənəvi sığorta xidmətlərinin əhəmiyyətli hissəsinin təkmilləşdirilmələrə və modernləşdirilmələrə ehtiyacı açıq-aydın görünür və tələb olunur. Buna görə də, sığorta bazarı maliyyə bazarının vacib seqmenti kimi daim ciddi nəzarətdə saxlanılmalı və dövlət tərəfindən vacib olan tənzimləmə tədbirləri reallaşdırılmalıdır [5]. Başqa bir məqam son illərdə sığorta xidmətlərinin elektron formada daha çox tələbatın artması və bu kimi sığorta alətlərinin çevikliyi ilə bağlıdır. Sığorta sisteminin şəffaflığının yüksəldilməsi, onun idarəetmə strukturlarının dövrün çağırışlarına uyğun olaraq optimallaşdırılması, ölkənin mərkəzi şəhərləri və hissələri ilə yanaşı, bu xidmətlərin digər regionlarda, uzaq rayonlarda əlçatan olmasına imkan verən müvafiq infrastrukturun yaradılması və bunların hesabına sığorta xidmətlərinin əlçatanlığına imkan verilməsi mühüm əhəmiyyət kəsb edir. Bu proseslərin rəqəmsal texnologiyaların və elektron sığorta xidmətlərin hesabına daha səmərəli təşkilinə, geniş tətbiqnə imkan verər [6, s. 39]. İqtisadi islahatlar prosesində, iqtisadi fəallığın artdığı bir şəraitində sığortanın daha yüksək önəm kəsb etməsi, eyni zamanda yüni sığorta xidmətlərinə zərurətin yaranması məsələlərində rəqəmsal texnologiyalardan və mexanizmlərdən istifadə sayəsində daha yüksək nəticələrin əldə edilməsi mümkündür. Digər tərəfdən, sığorta sistemində və sığorta bazarında rəqəmsal mexanizmlərin və alətlərin fəal tətbiqi şəffaflığın artırılmasına, bu sahəyə daha çox investisiyaların cəlb ediməsi üçün münbir şərsaitin yaradılmasına imkan verər. Sığorta bazarının iştirakçılarının və sığorta siteminin subyektləri rəqəmsallaşmaya keçməklə özlərinin fəaliyyətinin maksimum səmərəli olmasında əlavə potensial əldə etmiş olarlar [7, s. 35].

Azərbaycanda da iqtisadi islahatların

sürətləndirilməsi, iqtisadi inkişaf modelinin yeni mərhələyə və səviyyəyə qaldırılması, bunlarla bağlı olaraq strateji hədəflərin qarşıya qoyulması və hazırda onların reallaşdırılması baxımından, maliyyə bazarının sabitliyi, xüsusilə sığorta xidmətlərinin səmərəliliyi və çevikliyi mühüm məsələlər kimi xarakterizə edilirlər. Ölkə iqtisadiyyatının bütün sahələrində islahatlar ildən-ilə daha da dərinləşməkdədir və iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, onun sabitliyinin maksimum dayanıqlı olması məsələləri də ön plana çıxmışdır. İ.e.d. V.Qasımlı belə hesab edir ki: "Ən böyük uğurumuz cənab Prezidentin rəhbərliyilə ölkədə yaradılmış ictimai-siyasi sabitlik, makroiqtisadi sabitlik, sosial rifah və dayanıqlı iqtisadi artımdır. Hazırda Azərbaycan dünyanın ən islhatçı və sabit ölkələri sırasındadır. Biznes islahatları təklifi, inqilabi sosial paket tələbi, idarəetmə islahatları institutların səmərəliliyini çoxaltmaqla, dünya bazarlarında neftin əlverişli qiymətləri və qeyri-neft sektoruna yatırılan sərmayənin böyüməsi şəraitində iqtisadi artım sürətlənir" [8]. Hesab edirik ki, bu proseslərdə sığorta sistemi və sığorta xidmətləri strateji sabitləşdirici maliyyə seqmentlərindən biri kimi qiymətləndirilməlidir. Qeyri-neft sektoru sahələrinin inkişafının dayanıqlı olmasında, kiçik və orta biznes subyektlərinin güvənli formada fəaliyyət göstərmələrində, əmlak bazarının ölkə əhalisinin iqtisadi fəallığının artırılmasında rolunun gücləndirilməsində, yeni iş yerlərinn yaradılmasında sığortanın əhəmiyyəti kifayət qədər artmaqdadır. Xidmət sektorunun genişlənməsində, ticarət əməliyyatlarının artmasında və müxtəlif fəaliyyat istiqamətləri üzrə fəllığın yüksəlməsində sığorta vacib amillərdən hesab olunur. İlk növbədə, əvvəldə bildirdiyimiz kimi qeyri-neft sektorunda rəqabətqabliyyətli daxili istehsal sahələrinin genişləndirilməsi, eyni zamanda, dövlət tərəfindən bu proseslərin dəstəklənməsi tədbirləri sırasında sığorta sisteminin təkmilləşdirilməsi, bunlarla əlaqəli olaraq vacib tənzimləmə tədbirlərinin görülməsi sürətləndirilməkdədir. Məsələn, aqrar sahədə fəaliyyətin şaxələndirilməsi və stimullaşdırlması, bu sahənin qeyri-neft sektorunda rolunun artırılması üçün sığorta xidmətlərinin təşkilinin və tənzimlənməsinin yeni qanunvericilik bazası formalaşdırılmışdır [9]. Eyni zamanda, dünya təcrübəsindən yanaşmaqla, sığorta bazarının dinamikliyinin təmin edilməsi bazar iştirakçılarının maraqlarının balanslaşdırılması məsələlərinə diqqət artırlmaqdadır. Belə ki: "Azərbaycanın iqtisadi potensialının reallaşdırılması çoxsaylı risklərlə, – həm təbii və texnogen fəlakətlərlə, həm də cəmiyyətin təsərrüfat və sosial həyatına xas olan risklərlə, habelə riskləri standart idarəetmə sxemlərində nəzərdə tutulmayan digər risklərlə xarakterizə olunan yeni iqtisadi şəraitdə uzunmüddətli milli siyasətin həyata keçirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Sığorta bazarı alqı-satqı obyekti kimi sığorta müdafiəsinin çıxış etdiyi, buna tələb və təklifin formalaşdığı xüsusi sosial-iqtisadi mühit, iqtisadi münasibətlərin müəyyən bir hissəsidir" [10, s. 31].

Ölkəmizdə maliyyə bazarının sabitləşməsi və dayanıqlılığının artırılması nöqteyi-nəzərindən sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi və əlçatanlığının təmin olunması da mühüm şərtlərdən hesab olunur. Bunlarla bağlı strateji yanaşmalar və hədəflər, ümumilikdə sığorta şirkətlərinin və sığorta fəaliyyətinin rolunun gücləndirilməsi üzrə strateji hədəflər öz əksini strateji yol xəritəsində – ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə tapmışdır [11]. Artıq bu istiqmaətdə görülən tədbirlər müəyyən mənada öz təsirini göstərməkdədir. Belə ki, aparılan tədbirlər və sığorta xidmətlərinin strukturunun genişləndirilməsi nəticəsində ölkənin sığorta sisteminin dayanıqlılığı güclənməkdə və aktivləri yüksəlməkdədir. 2019-cu ilin yekununa görə, ölkə ÜDM-də sığorta sektorunun xüsusi çəkisi 2 %-ə bərabərdir. Sığorta sektorunun aktivləri isə 13,3 % yüksələrək 1,4 mlrd. səviyyəsində qeydə alınmışdır [12]. Bütün bunlar dövlət tərəfindən sığorta sisteminin ardıcıl şəkildə yüksək səviyyədə tənzimlənməsinin və zəruri tədbirlərin görülməsinin nəticəsində reallaşmışdır. "Sığorta bazarlarının dövlət tənizmlənməsi sistemlərinin tətbiqi birmənalı olaraq, bu sistemlərin əsasında məhz maliyyə tənzimlənməsi alətlərindən istifadə edilməsinin durduğunu çox aydın bir şəkildə sübut edir. Davamlı iqtisadi inkişaf şəraitində sığorta sahəsində həyata keçirilən yeni islahatların əsas qayəsi və vəzifələri, hər şeydən öncə milli sığorta sisteminin möhkəmləndirilməsi və onun maliyyə xidmətlərinin inkişaf etdirilməsindən

ibarətdir. Yeni şəraitdə sığorta seqmentinin təşkili prinsiplərində əsaslı dəyişkiliklər edilməsi, sığorta bazarının strukturlaşması, sığorta seqmentində inhisarın aradan qaldırılması və s. mühüm əhəmiyyət daşıyır" [13, s. 6]. Belə ki, iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi proseslərinin məhsuldarlığının və səmərəliliyinin yüksəldilməsi, bu proseslərdəki risklərin minimuma endirilməsi məqsədilə, sığorta fəaliyyətindən istifadə imkanlarının reallaşdırılması strateji əhəmiyyəti ilə fərqlənir və bu amillər baxımından həmin proseslərin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin onların səmərəliliyinin maksimum artırılması tədbirləirinin görülməsi vacib şərtlərdəndir [14]. Eyni zamanda, ölkəmizdə iqtisadi islahatların daha səmərəli olması və bu islahatların sosial-iqtisadi nəticələrinin ölkə və əhalinin gəlirlərinə, yaşayış səviyyəsinə təsirinin artırılması strateji vəzifələr kimi çoxfunksiyalı yanaşmanı tələb edir. Bu sırada mühüm məsələlərdən biri də maliyyə bazarının dinamikliyi və sığorta sisteminin işləkliyidir. "Maliyyə bazarlarının inkişaf etdirilməsi ilə bütövlükdə milli iqtisadiyyatın digər sektorlarının inkişafının sürətləndirilməsi daha da intensivləşir. Bu proseslərdə sığorta sistemi vacib amillərdən və mühüm maliyyə alətlərindən biri kimi diqqət çəkir" [15]. Qeyd olunan amillər, sığorta sisteminin tənzimlənməsi və gücləndirilməsi məsələlərində fəallığın daha da artırılmasını şərtləndirir.

Yaxın perspektivdə Azərbaycanda iqtisadi islahatların maksimum sürətləndirilməsinə tələb artacaqdır. Belə bir şəraitidə sığorta sisteminin tənzimlənməsi və onun nmövcud mexanizmlərinin gücləndirilməsi üçün bir sıra amillərə və problemlərə konseptual yanaşmalar təmin olunmalıdır:

–ilk növbədə, hesab edirik ki, Azərbaycanda sığorta fəaliyyəti və sığorta şirkətlərinin maliyyə sabitliyi ilə bağlı məsələləri tənzimləyən qanunvericilik bazası müasir iqtisadi islahatların şərtlərinə və dünya səviyyəli çağırışlarına uyğun olaraq təkmilləşdirilməlidir;

–ölkənin sığorta sisteminin dayanıqlılığının artırılması və bu sahəyə yönəldilən kapitalın, investisiyaların stimullaşdırılması tədbirləri görülməlidir;

–hazırkı sığorta fəaliyyəti ilə bağlı normativlərin, sığorta haqlarının yığılması və sığorta ödənişlərinin edilməsi ilə bağlı nisbətin obyektiv reallıqlar əsasında baxılması və tənzimlənməsi vacibdir və s.

**Açar sözlər:** *iqtisadi islahatlar şəraiti, sığorta sistemi, sığorta sisteminin tənzimlənməsi, sığorta sisteminin güclənməsi, sığorta bazarı, maliyyə xidmətləri bazarı, sığorta sisteminin gücləndirilməsi tədbirləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Robert, W. Klein Principles for Insurance Regulation: An Evaluation of Current Practices and Potential Reforms // The Geneva Papers on Risk and Insurance - Issues and Practice volume 37, 2012-p.175-199.*

*2. Kimball, Spencer L., "The Purpose of Insurance Regulation: A Preliminary Inquiry in the Theory of Insurance Law" (1961). Minnesota Law Review. 2324. https://scholarship.law.umn.edu/mlr/2324.*

*3. Fabiana, Gómez, Jorge Ponce. Systemic Risk and Insurance Regulation // Risks 2018, 6(3), 74; https://doi.org/10.3390/risks6030074.*

*4. Martin, F. Grace and Robert W. Klein. The Future of Insurance Regulation: An Introduction https://www.brookings.edu/wp-content/uploads/2016/07/futureofinsuranceregulation_chapter.pdf.*

*5. Баринов Э.А. Страховой рынок как сегмент финансового рынка ЕС // Ученые записки Российской Академии предпринимательства, Т.19, 2020. № 1, – с.111-117.*

*6. Горулев Д.А. Влияние цифровых трансформаций на экономику, финансовый и страховой рынок // Страховое дело 12 (321), 2019, с.36-48*

*7. Ахвледиани Ю.Т. Страховая индустрия на финансовом рынке в условиях цифровизации. // Страховое дело, 2019. (315), – с. 33-37.*

*8. Vüsal Qasımlı: "Azərbaycan dünyanın ən islahatçı və sabit ölkələri sırasındadır". 14 Yanvar 2020. https://iqtisadiislahat.org/news/vusal_qasimli_azerbaycan_dunyanin_en_islahatci_ve_sabit_olkeleri_sirasindadir-877/.*

*9. Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezi-*

*dentinin Sərəncamı. – Bakı, 19 sentyabr 2018-ci il.*

10. *İbrahimov K.M. Azərbaycanın sığorta bazarı: trendlər və inkişafın yeni çağırışları. // İPƏK YOLU, – 2020. No.2, – s.31-42*

11. *Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. –59 s.*

12. *Sığorta sektorunun aktivləri 1,4 milyard manata çatıb. 28 iyun 2019. https://vergiler.az/news/economy/2731.html.*

13. *Ataşov B.X., Ələkbərov Ə.Ə., Xudiyev N.N. "Sığorta işi". Ali məktəblər üçün dərslik. Bakı, 2018, "Kooperasiya" nəşriyyatı, 416 s.*

14. *İbrahimov K.M. Azərbaycanda sığorta sisteminin mövcud vəziyyəti və sığorta şirkətlərində maliyyə sabitliyi problemləri // "Audit" Jurnalı, cild 19, –2018. №2, – s.49-57.*

15. *Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt, 2018, – 376 s.*

**РЕЗЮМЕ**

**Вопросы регулирования и усиления системы страхования в Азербайджане в условиях экономических реформ**

В статье исследованы вопросы регулирования и усиления системы страхования в Азербайджане в условиях экономических реформ. С этой целью анализирована сущность и основные проблемы системы страхования. Рассмотрено мультипликативное влияние страхования на усиление стабильности проводимых экономических реформ в стране. Отмечена необходимость применения системы страхования в условиях глобальных угроз и нестабильности. Обоснована важность расширения перечня страховых услуг и совершенствования системы страхования в стране. Анализированы основные факторы, влияющие на финансовую стабильность страховых компаний и повышение их активности в ускорении экономических реформ. Подготовлены предложения и рекомендации по вопросам регулирования и усиления системы страхования в Азербайджане в условиях экономических реформ.

**Ключевые слова:** *условия экономических реформ, система страхования, регулирование системы страхования, усиление системы страхования, страховой рынок, рынок финансовых услуг, мероприятия по усилению системы страхования.*

**SUMMARY**

**Issues of regulation and strengthening of the insurance system in Azerbaijan in the context of economic reforms**

The issues of regulation and strengthening of the insurance system in Azerbaijan in the context of economic reforms are investigated in the article. The essence and main problems of the insurance system are analyzed for this purpose. The multiplier influence of insurance on strengthening the stability of the current economic reforms in the country is considered too. The need to apply the insurance system in the face of global threats and instability is underlined. The importance of expanding the list of insurance services and improving the insurance system in the country is justified. The main factors influencing financial stability of insurance companies and increasing their activity in acceleration of economic reforms are analyzed then. Proposals and recommendations on the regulation and strengthening of the insurance system in Azerbaijan in the context of economic reforms are given in the end of the article.

**Key words:** *conditions of economic reforms, insurance system, regulation of the insurance system, strengthening of the insurance system, insurance market, financial services market, measures to strengthen of insurance system.*

UOT: 330.341.1

# POSTPANDEMİYA ŞƏRAİTİNDƏ İNNOVATİK SAHİBKARLIĞIN BİLİK RESURSLARI ƏSASINDA İNKİŞAFININ STRATEJİ ASPEKTLƏRİ

**KƏNAN VƏKİLOV**
*Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru*

*E-mail: kanan.vekilov@mail.ru*

Müasir şəraitdə iqtisadi inkişaf proseslərinin daha məhsuldar və səmərəli təşkili problemləri kifayət qədər qabarıq olaraq ortaya çıxmışdır. İqtisadiyyatın bütün sahələrinin yeni yanaşmalar tələb etməsinin bir səbəbi də texnologiyaların inkişafının dərinləşməsi, bilik iqtisadiyyatının ön plana çıxması, iqtisadiyyatın elm və texnologiyalar tutumlu əlavə dəyər yaradan sahələrinin əhəmiyyətinin prioritetliyidir. Bu proseslərdə innovatik sahibkarlıq strateji fəaliyyət istiqaməti kimi xüsusi yanaşmaları və tənzimləmələri tələb edir. Bundan başqa, hər bir ölkənin iqtisadi sisteminin, iqtisadi fəaliyyət sahələrinin innovasiya-sahibkarlıq yanaşmalarının qarşılıqlı əlaqədə və təsir dairəsində baxılması prosesləri də müşahidə edilməkdədir. Bu cür yanaşmanın başlıca səbəbləri sırasında iqtisadi resursların, o cümlədən təbii resursların daha səmərəli konsolidasiyasında, bunlarla bağlı emal və xidmət sahələrinin yaradılmasında biliklərin, intellektual resursların, innovatik yanaşmaların xüsusi önəmi vardır. Artıq ənənəvi və uzun dövr ərzində səmərəli olan iqtisadi yanaşmaların və sahibkarlıq formalarının, biznes mexanizmlərinin dərin olaraq deformasiyaya uğramaları yeni forma və tənzimləmə üsullarını tələb edir. Dövlət və özəl sahibkarlıq subyektləri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və bununla bağlı məqsədli proqramların, strategiyaların işlənib hazırlanması məsələlərində sahibkarlıq fəaliyyəti ilə bilik resurslarının qarşılıqlı tətbiq və bəhrələnmək amillərindən daha məhsuldar istifadə olunması, bu sahədə innovatik sahibkarlığın inkişaf etməsi vacibliyi ilə diqqət çəkir. Tədqiqatçılar E.Süleymanov və X.İbrahimova innovasiyaların və innovatik sahibkarlığın roluna dair qeyd edirlər ki: "Rəqabət gücünü artıran ən önəmli vasitə innovasiyadır. Çünki innovasiya məhsuldarlığı artırır. Bu səbəblə innovasiya ölkələr üçün iqtisadi inkişafın və rifahının yüksəlişinin açarıdır. Universitet – sənaye əməkdaşlığı, ölkə sənayesi, elmi və texnoloji tədqiqatların nəticəsi, satılan məhsulun və ya xidmətin nəticələri, yeni və ya təkmilləşdirilmiş istehsal və ya paylanma üsulu və ya innovativ xidmət üsulu, müasir dünya bazarlarında həlledici rol oynayır. İqtisadi böyümə və ya iqtisadi inkişaf baxımından, innovasiya və innovasiya prosesi iqtisasdiyyata bu gün lokal və ya makro formalarda təsir göstərir" [1].

Başqa bir amil, COVİD – 19 pandemiyasının yaratdığı reallıqlarla əlaqəlidir və bu şəraitdə innovatik sahibkarlığın bilik resursları əsasında inkişafının strateji aspektlərinin təkmilləşdirilməsi və postpandemiya dövrü də daxil olmaqla uzunmüddətli perspektivlərin obyektiv olaraq qiymətləndirilməsi, səmərəli fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, mövcud iqtisadi mexanizmlərin, idarəetmə formalarının yenilənməsi üçün əlavə tədbirlərin görülməsi aktuallığı ilə fərqlənir. Ölkə ərazisində bütün sahələrdə karantin rejiminin tətbiq olunması, məhdudiyyətlərin məcburi şəkildə bir vasitə kimi istifadə edilməsi iqtisadi fəaliyyətin qısa zaman kəsiyində məhsuldarlığının artırılması problemlərinin daha səmərəli həlli yollarının müəyyənləşdirilməsini vacib edir [2]. Başqa sözlə, iqtisadiyyat sahələrinin maksimum səmərəli və məhsuldar olması üçün müasir biliklərdən istifadə genişləndirilməli, texnologiyalar yenilənməli, elm və texnologiyalar tutumlu iqtisadiyyat sahələrinin, o cümlədən bilik iqtisadiyyatının inkişaf etdirilməsi, rəqəmsal mexanizmlərin və elektron formada fəaliyyətin daha geniş tətbiq olunması dövrüdür. Belə ki, COVİD

– 19 pandemiyasınn iqtisadi proseslərə güclü təsiri vardır və bunlar davam etməkdədir [3]. Buna görə də sonrakı mərhələlərdə biliklərə söykənmiş iqtisadi fəaliyyətin dərinləşməsi bir zərurət kimi ortaya çıxıb və intellektual resursların müxtəlif iqtisadiyyat sahələrində reallaşdırılması tədbirləri ardıcıl və sistemli şəkildə görülməlidir. Ölkəmizdə pandemiyanın iqtisadiyyata mənfi təsirinin azaldılması istiqamətində Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən hazırlanmış və təsdiq edilmiş tədbirlər planı vardır [4]. Amma, bu tədbirlərin reallaşdırılması proseslərində hansı forma və metodların uyğunluğu, səmərəli ola bilməsi başqa bir məsələdir.

Hazırkı şəraitdə baş verən hadisələr, artan qlobal problemlər, dünya enerji və səhm bazarlarında müşahidə olunan kəskin dalğalanmalar, ölkədə əhalinin yaşayış səviyyəsinə və məşğulluq məsələlərinə dəyən zərbələr, sahibkarlıq və biznes subyektlərinin fəaliyyəti ilə bağlı ortaya çıxan çətinliklər innovatik yanaşmalara tələbatı artırır. Azərbaycan hökumətinin bu sahədə xüsusi qərar qəbul etməsinin də bir səbəbi məhz bunlarla bağlıdır [5]. COVİD – 19 pandemiyası ilə bağlı yaranan yeni situasiya və mürəkkəb vəziyyət dünyanın bütün ölkələri üçün xarakterikdir. Belə ki, pandemiya qlobal iqtisadi vəziyyətə də ciddi olaraq mənfi təsir göstərmişdir və bundan sonra da göstərəcəkdir. Qlobal kapital və maliyyə hərəkətlərindəki məhdudiyyətlər, dünya ticarətinin həcminin azalması artıq reallıqdır [6]. Koronavirus pandemiyasının qlobal kontekstdən təsirinə diqqət yetirdikdə real təhlükələrin və təhdidlərin ölkəmizin milli iqtisadiyyatına təsirindən yan keçəcəyini gözləmək qeyri-mümkündür. Bu baxımdan Azərbaycan iqtisadiyyatının pandemiya və postpandemiya dövründəki reallıqları diqqətlə araşdırılmalı, obyektiv olaraq qiymətləndirilməli və zəruri tədbirlər görülməlidir [7].

Qeyd edək ki, pandemiya və xüsusilə postpandemiya şəraitində milli iqtisadiyyatın inkişafının daha dayanıqlı olması, yeni artım mənbələrinin formalaşdırılması, ixrac potensialının artırılması, bütövlükdə ölkə iqtisadiyyatının səmərəliliyinin təmin edilməsi məqsədilə innovatik sahibkarlığın inkişafının modelləşdirilməsi, ilk növbədə bilik resursları əsasında onun inkişafının strateji aspektlərinin müəyyənləşdirilməsi böyük səmərə verə bilər. Belə olan halda hazırkı iqtisadi mexanizmlərin və alətlərin təkmilləşdirilməsi, innovatik sahibkarlığın rolunun artırılması sayəsində iqtisadi fəallığın və iqtisadi artımın gücləndirilməsi mümkündür. Sahibkarlıq və innovasiya amillərinin sintezindən baxdıqda, müvafiq innovasiya infrastrukturunun yaradılması, etibarlı maliyyə təminatının təşkili sayəsində innovatik sahibkarlığın fəaliyyətinin genişləndirilməsi və ölkə iqtisadiyyatının bütövlükdə innovatik inkişafının yeni mərhələyə qaldırılmasını reallaşdırmaq olar. Dövlət və özəl sahibkarlıq subyektlərinin biliklərə əsaslanmış innovatik sahibkarlıq fəaliyyəti sahələrinin təşkili istiqamətində əməkdaşlığı da mühüm əhəmiyyət kəsb edir. Dövlət vəsaitləri hesabına yaradılan və istismara verilən innovasiya və bilik iqtisadiyyatı infrastrukturları səmərə verməli, son nəticədə gəlir gətirməli, yeni iş yerləri yaratmalı və əlavə dəyər formalaşdırmalıdırlar. Bu amillər baxımından sahibkarlıq və innovasiya fəaliyyətinin maliyyə mexanizmlərinin təkmil olması həlledici əhəmiyyət kəsb edir. Sahibkarlar maliyyə təminatı ilə bərabər yenilikləri və müasir bilikləri dərindən mənimsəməlidirlər. “Hər bir müəssisə zaman keçdikcə inkişaf etdiyi üçün sahibkar təşkilati inkişafın müəyyən mərhələsində liderə və menecerə çevrilir və buna görə də sahibkarın idarəetmə bilik və bacarıqlarına sahib olması çox vacib məsələdir” [8].

İnnovasiyaların işlənməsi və tətbiqinin səmərəli şəkildə reallaşdırılması məsələlərində sahibkarlıq sektorunun rolunun artırılması məqsədilə bu istiqamətdə daha geniş miqyaslı tədbirlərin görülməsi vacibdir. Məsələn, konseptual yanaşmada ölkəmizdə hazırda icra olunan strateji yol xəritlərində startapların, kiçik və orta sahibkarların biznes bacarıqların artmasına xüsusi yer verildiyini iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsi, o cümlədən yüksək texnologiyaların dinamik inkiaşfından ötrü dövlət tərəfindən mühüm addımlar atılır. Bir sıra universitetlərdə biznes inkibatorlar yaradılmış və innovativ inkişafın sirləri mənimsənilməkdədir [9]. Eyni zamanda, innovativ iqtisadiyyatın qurulması və inkişaf etdirilməsi baxımından sahibkarların maarifləndirilməsi və motivasiyalaşdırılması məsələləri də diqqət mərkəzində yer almışdır. Maraqlıdır ki, bu əsas da fəaliyyət istiqamətləri özündə sahibkarlıq eko sisteminin transformasiyası bazasında bilik əsaslı və innovativ iqtisadiyyatı ehtiva edir. Bunlar hesab

edirik ki, kifayət qədər gərəkli və vaxtında ortaya qoyulan aktual suallar və məsələlərdir. Belə ki, son 20 il ərzində elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan müəssisələrin sektorlar üzrə bölgüsündən yanaşdıqda, bu istiqamətli fəaliyyət sahələrində sahibkarlıq sektorunun payı önəmli yer tutmamışdır. Əgər 2001-ci ildə sahibkarlıq sektorunun payı elmi-tədqiqat fəaliyyətində 14 % olmuşdursa, bu göstərici 2019-cu ildə cəmisi 4 % təşkil etmişdir. Bu dövr ərzində universitetlərdə elmi-tədqiqatlara önəm verilməsinin yüksəlməsini də müşahidə etmək mümkündür. Bütün hallarda hələ ki, elmi-tədqiqatların təşkilində və bununla bağlı tədbirlərin reallaşdırılmasında dövlət sektorunun payı yüksək olaraq qalmış və 66-67 % səviyyəsində qeydə alınmışdır (şəkil 1).







**Şəkil 1. Elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan müəssisələrin sektorlar üzrə bölgüsü, 2001 və 2019-cu illər, %-lə (ARDSK-nin məlimatları üzrə hazırlanmışdır. www.stat.gov.az).**

Qeyd edək ki, dünya təcrübəsinə nəzər salsaq, yaradıcı mühitin formalaşdırılması, texnologiyaların əhəmiyyətli inkişafına imkan verən mexanizmlərin yaradılması, innovatik sahibkarlığın səmərəli təşkili hesabına ixtiraçıların, həmçinin elmi-texniki yeniliklərin tətbiqi ilə məşğul olan alim-tədqiqatçıların əldə etdikləri nailiyyətlərin və nəticələrin ardıcıl şəkildə istehsal və kommersiya proseslərində tətbiq edilməsi məsələləri maksimum diqqət mərkəzində saxlanılır, zəruri investisiyalar yönəldilir və xüsusilə dərin biliklərə əsaslanmış iqtisadi fəaliyyət sahələrinin yaradılması üçün səylər göstərilir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi buna bariz nümunə ola bilər. Yaponiyada ixtiraçı nəsillərin yetişməsi və dəqiq texnologiyalar, cihazqayırma, robotlar sahəsində dünyada ən yüksək nailiyyətlərin əldə olunması üçün dövlət tərəfindən bütün lazım gələn iqtisadi dəstək, o cümlədən maliyyə dəstəyi təmin olunur. Yüksək texnologiyaların işlənməsi, yeni innovasiya ideyalarının mənimsənilməsi və tətbiqinin təşkili üçün elmi-texniki parklar, elmi-texniki və innovasiya şəhərcikləri, infrastruktur şəbəkələri yaradılır və onların səmərəli fəaliyyəti üçün dövlət dəstəyi mexanizmləri tətbiq edilir. Ümumiyyətlə, Yaponiyada universitet tələbələri, texnologiya sahəsində istedadı olan məktəblilər, bu sahədə öz biznesini qurmaq istəyənlər daim diqqət mərkəzində saxlanılır [10]. Bizə görə, Azərbaycanda da innovatik sahibkarlığın inkişafına daha güclü təkanın verilməsi və güzəştlərin ayrılması vacibdir, çünki ölkəmizdə istedadlı, kifayət qədər intellektə və dərin biliklərə malik gənclər və yeniyetmələr nəsli yetişməkdədir. Digər tərəfdən, elmi-texniki fəaliyyətin modelləşdirilməsi, postpandemiya şəraitində innovatik sahibkarlığın inkişafına daha geniş yer verilməsi zəmanəmizin obyektiv çağırışı kimi formalaşmışdır. "Ekspertlərin rəyinə görə, Azərbaycan hazırda iqtisadiyyatın sənaye inkişafı fazasına daxil olmuşdur. Lakin biz növbəti mərhələ, sənaye cəmiyyəti haqqında fikirləşməliyik – bu, innovasiyaların və texnologiyaların inkişafı dövrüdür. Ölkənin coğrafi mövqeyi Azərbaycanın perspektivdə regionun servis – texnoloji mərkəz kimi yüksək texnoloji istehsalı inkişaf etdirməyə imkan verir. İnnovasiya iqtisadiyyatının cövhəri olan rəqabətqabiliyyətli texnologiyalar öz-özündən yaranmır. Bu, elmi tədqiqatın mürəkkəb və məsrəfli eksperimentlərindən və nəhayət alimlərin ideya ruhundan qaynaqlanan çox çətin başa gələn məhsuldur" [11]. Burada öz əksini

tapmış amillər düşüncələrə səbəb olur, belə ki, ölkəmizdə həmin səviyyənin yaradılması üçün hələ böyük həcmli işlər görülməlidir, başlıcası isə alim və tədqiqatçılarımızın ideya ruhlarının yüksək səviyyədə olması üçün onların səmərəli fəaliyyətinə müvafiq şərait yaradılmalı, stimullaşdırma və motivasiyalaşdırma mexanizmləri tətbiq edilməlidir. Alimlərin əməyi və ortaya qoyduğu elmi nəticələr, onların səmərəsi obyektiv və ədalətli şəkildə qiymətləndirilməlidir ki, onlar bu istiqamətdə daha böyük həvəslə və səmərəli fəaliyyət göstərsinlər.

Dövlətin innovasiya siyasətində və bilik iqtisadiyyatının əsasında innovatik sahibkarlığın gücləndirilməsi istiqamətində fəaliyyət mexanizmlərinin işləkliyi və məhsuldarlığı təmin olunmalıdır. İnnovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı və tətbiqi ilə bərabər, elm və təhsilin, elmtutumlu cəmiyyətin davamlı inkişafının bərqərar edilməsinə yönəldilməlidir. Dünya təcrübəsində universitetlərin elmi mərkəzləri sahibkarlıq institutu kimi formalaşmış və təhsilin elmi innovasiya əsasında qurulmasına böyük üstünlük verilmişdir [12].

## NƏTİCƏ

Hazırda pandemiya şəraitinin kəskin fazasındayıq, ancaq hesab edirik ki, müəyyən vaxtdan sonra bu proseslər səngiyəcəkdir və nəhayət, postpandemiya dövrü başlayacaqdır. Pandemiyanın təsirindən əhəmiyyətli səviyyədə deformasiyalara uğramış iqtisadi fəaliyyət sahələrinin və idarəetmə sistemlərinin maksimum təkmilləşdirilməsi, yenilərinin yaradılması lazım gələcəkdir. Bunlar müəyyən konseptual baxışlara və hədəflərə söykənməlidir. Ölkəmizdə postpandemiya şəraitində innovatik sahibkarlığın bilik resursları əsasında inkişafının strateji aspektləri baxımından bir qrup məsələlər və problemlər narahatçılıq doğurur:

– Azərbaycanda milli innovasiya sisteminin təşkili başa çatdırılmalı və dünya təcrübəsinə uyğun gəlməklə bərabər, milli iqtisadi inkişaf xüsusiyyətlərini özündə əks etdirən işlək innovasiya sisteminin yaradılması başa çatdırılmalıdır;

– ölkə universitetlərinin, elmi-tədqiqat müəssisələrinin, investisiya fondlarının və maliyyə-kredit təşkilatlarının, innovatik fəaliyyət subyektlərinin birgə əməkdaşlığının və səmərəli fəaliyyətinə imkan verən innovasiya zonalarının, bilik iqtisadiyyatı mexanizmlərinin tətbiqi prosesləri sürətləndirilməlidir;

– bilik iqtisadiyyatının əhatəsinin genişləndirilməsi və bu sahədə əhəmiyyətli uğurlar əldə etmiş şirkətlərlə əməkdaşlığın yaradılması, eyni zamanda ölkəmizdə bilik resursları əsaslı innovatik sahibkarlığın inkişaf etdirilməsi üçün məqsədli dövlət proqramlarının, özəl investisiya-innovasiya layihələrinin işlənib hazırlanması və reallaşdırılması tədbirləri görülməlidir.

**Açar sözlər:** *innovasiya sahibkarlığı, elmi-tədqiqat müəssisələri, texnoloji tərəqqi, elmtutumlu iqtisadiyyat, innovasiya zonaları, ali təhsil müəssisələri, postpandemiya şəraiti.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Süleymanov E., İbrahimova X. Azərbaycan timsalında innovasiyaların iqtisadi inkişafa təsiri. https://www.researchgate.net.*

*2. Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı. Bakı: – 19 iyun 2020-ci il № 207.*

*3. COVID 19 pandemiyasının dünya iqtisadiyyatına təsiri. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. [Elektron resurs] / 08.04.2020. URL: https://iqtisadiislahat.org/store//media/2020/Aprel/08042020_covid_dunya.pdf.*

*4. Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan Respublikasının iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı Tədbirlər Planı. [Elektron resurs] / 2020. URL: https://www2.deloitte.com/az/az/pages/tax/articles/pandemiyadan-z.html.*

*5. Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı: – 19 mart 2020-ci il.*

*6. Koronavirus qlobal iqtisadi vəziyyətə çox ciddi təsir edəcək. İMF, [Elektron resurs] / 2020. URL: https://www.tvreal.az/news/az/42165/imf-koronavirus-qlobal-iqtisadi-veziyyete-chox-ciddi-tesir-edecek.*

*7. Koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına təsiri. [Elektron resurs] / 25 Mart*

2020. URL: http://www.aztv.az/az/news/6138/koronavirus-pandemiyasinin-azerbaycan-iqtisadiyyatina-tesiri-markvideokonfransmark.

8. Sahibkarliq və innovasiya: maliyyə vəsaitlərinin müvəffəqiyyətlə cəlb edilməsi üçün istiqamətverici amillər. 2020. https://www.culturepartnership.eu/az/publishing/crossovers-and-fundraising/part-1.

9. İnnovasiya ekosistemi və ali təhsil. 19 oktyabr 2017. https://aztehsil.com/news/3772-nnovasiya-ekosistemi-v-ali-thsil.html.

10. Yaponiyalı ixtiraçı gənclərə "Texnologiya və sahibkarlıq" mövzusunda seminar keçirib. 09.10.2018. https://azertag.az/xeber/Yaponiyali_ixtirachi_genclere_Texnologiya_ve_sahibkarliq_movzusunda_seminar_kechirib-1202513.

11. Valehov C. Biliklər iqtisadiyyatı və innovasiya. http://www.anl.az/down/meqale/az_muellimi/2010/iyun/124407.htm.

12. İnnovasiya əsaslı iqtisadi inkişaf: sahibkarlıq, təhsil və elm" Aprel 25, 2018. http://ask.org.az/teqvim/innovasiya-sasli-iqtisadi-inkisaf-sahibkarliq-t-hsil-v-elm/.

**Резюме**

**СТРАТЕГИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ ИННОВАЦИОННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА НА ОСНОВЕ РЕСУРСОВ ЗНАНИЙ В УСЛОВИЯХ ПОСТПАНДЕМИИ**

В статье исследованы стратегические аспекты развития инновационного предпринимательства на основе ресурсов знаний в условиях постпандемии. С этой целью раскрыта сущность и эффективность инновационного предпринимательства. Оценена стратегическая роль ресурсов знаний в повышении продуктивности инновационного предпринимательства в нынешних условиях. Рассмотрена важность обеспечения эффективной деятельности научно-исследовательских организаций и университетов по освоению новых идей и их применения. Отмечена необходимость усиления интегративной деятельности ВУЗ-ов, научно-исследовательских организаций, инвестиционных фондов и технологических фирм с целью углубления процессов развития инновационного предпринимательства. Анализировано распределение результатов предприятий, занимающихся научно-исследовательской деятельностью по разным секторам экономики Азербайджана. Даны рекомендации и предложения по стратегическим аспектам развития инновационного предпринимательства на основе ресурсов знаний в условиях постпандемии.

**Ключевые слова:** *инновационное предпринимательство, научно-исследовательские предприятия, технологический прогресс, наукоемкая экономика, инновационные зоны, высшие учебные заведения, постпандемические условия.*

**Summary**

**STRATEGIC ASPECTS OF THE DEVELOPMENT OF INNOVATIVE ENTREPRENEURSHIP BASED ON KNOWLEDGE RESOURCES IN POST-PANDEMIC CONDITIONS**

The strategic aspects of the development of innovative entrepreneurship based on knowledge resources in post-pandemic conditions are explored in the article. The essence and effectiveness of innovative entrepreneurship is investigated for this purpose. The strategic role of knowledge resources in increasing the productivity of innovative entrepreneurship in the current conditions is analyzed. The importance of ensuring the effective work of research organizations and universities in creating new ideas and their application is considered then. The need to strengthen the integrative activities of universities, research organizations, investment funds and technology firms in order to deepen the processes of developing innovative entrepreneurship is considered too. The distribution of results of enterprises engaged in research activities in different sectors of the economy of Azerbaijan is analyzed. Recommendations and proposals on strategic aspects of the development of innovative entrepreneurship based on knowledge resources in post-pandemic conditions are given in the end of the article.

**Key words:** *innovative entrepreneurship, research enterprises, technological progress, knowledge-intensive economy, innovation zones, higher educational institutions, post-pandemic conditions.*

UOT 338.43
39.71.07

# AQRAR SAHƏDƏ İQTİSADİ İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARININ ARAŞDIRILMASI, TƏDBİQİ VƏ ÖYRƏNİLMƏSİ

**VÜQAR KƏRİMLİ**
*AMEA Iqtisadiyyat institutu, böyük elmi işçi.*
*İqtisad üzrə fəlsəfə doktoru*

*Email: kerimli.vugar79@ gmail.com*

## Giriş

Respublikamızın bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün tədbirlər sistemimdə aqrar sahənin idarə edilməsinin yeni iqtisadi münasibətlərə uyğumlaşdırılması və təkmilləşdirilməsi mühüm məsələlərdən biridir. Çünki burada böyük maliyyə, maddi, əmək və elmi potensial cəmlənmişdir, onlardan səmərəli istifadə insanların rifah halının yaxşılaşdırılmasının mühüm şərtidir.

Aqrar sahənin idarə edilməsi toplumda fəaliyyət göstərən əsas iqtisadi qanunla müəyyənləşir. Aqrar sahənin idarə edilməsi dedikdə toplumun maddi tələbatının ödənilməsi məqsədilə istehsal və qeyri-istehsal sahələrində məhsul istehlak etmək və xidmətlər göstərmək üçün onların müəyyən üsul və metodlarla fəaliyyətinin istiqamətləndirilməsi və əlaqələndirilməsi kimi başa düşülür. İdarəetmə təsərrüfat müxanizminin əsas həlqələrindən biridir. Məlumdur ki, mülkiyyət formaları dəyişildikcə aqrar sahədə idarəetmə mexanizmləridə dəyişilmişdir. Uzun illər aqrar sahənin idarə edilməsi sistemi onun inkişaf meyilləri və cəmiyyətimizin tələbatı ilə əlaqədar bir neçə dəfə yeniləşdirilmiş, təkmilləşdirilmiş və bunun nəticəsi olaraq yüksək son nəticəyə çatmaq və məsuliyyətin dahada gücləndirilməsinə yönəldilmişdir. Hal hazırda isə qeyri-neft sektorunun, həmçinin aqrar sahənin inkişafının əsas prioritet istiqamətləri müəyyən edilməklə yanaşı aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi, ehtiyyatlardan istifadəni yaxşılaşdırmaq, istehsalı artırmaq, səmərəliliyi yüksəlmək məsələlərinə istiqamətləndirilir.

İnkişaf etmiş ölkələrin təcrübələrindən belə qənaətə gəlmək olur ki, daima dəyişən iqtisadi münasibət və təlabatlara cavab verməsi üçün aqrar sahə səmərəli idarəetmə sisteminə malik olmalıdır. Təbii ki, aqrar sahənim kompleks inkişafını zəruri edən elementlər həlqəsi mürəkkəb olduğundan hətta istehsal-bölgü-mübadilə prosesinin təkmilolması aqrar sahə üçün nəzərdə tutulan hədəflərə çatmağa imkan vermir. Ona görə ki, resursların, istehsalın, işçilərin düzgün idarə edilməsi çox mürəkkəbdir. Hesab edirəm ki, Aqrar sahənin iqtisadi idarəetmə mexanizmlərinin araşdırılması və öyrənilməsi zamanın tələbidir və onun tədqiq edilməsinə ciddi ehtiyac vardır.

### Aqrar sahədə iqtisadi idarəetmə mexanizmlərinin formalaşdırılması xüsusiyyətləri

İqtisadi idarəetmə mexanizminin əsas məqsədi özündə müəyyən ölçüləri və əsas amilləri əks etməklə qarşılıqlı əlaqəli bir sistemi ifadə edir. Deməli İqtisadi idarəetmə mexanizmi məqsədli bir mexanizmdir və obyektiv məzmun elementlərinə malikdir. [1,s.39]. Vurğulamaq istəyirəm ki, idarəetmə müəyyən münasibətlər sistemini əhatə edir. Onun müəyyən xüsusiyyətləri, prinsipləri və vasitələri vardır. Bu mənada idarəetmə münasibətləri idarəetmə funksiyalarını həyata keçirmək üçün yaranan münasibətlərdir. Qeyd olunanlar iqtisadi sistemə xas olan mexanizm vasitəsilə tənzimlənir. Eyni zamanda idarəetmə obyektiv iqtisadi qanunların tələblərinə uyğun həyata keçirilən bir

prosesdir. Aqrar sahədə idarəetmə dedikdə iqtisadi prosesləri tənzimləyən obyektiv qanunları bilməklə iqtisadi mexanizmi hərəkətə gətirməklə ölkənin ərzaq təhlükəsizliyini təmin etmək və xarici iqtisadi fəaliyyəti qurmaq və s. fəaliyyət məcmusu başa düşülür.

Aqrar sahədə idarəetmə mexanizminə onun obyekt və subyektləri daxildir. İdarəetmənin obyekti bütövlükdə iqtisadiyyat, yəni ASK-lar, kooperativlər, müəssisələr və s. daxildir. İdarəetmənin subyektləri dedikdə isə idarəetmə orqanları başa düşülür.

Respublikamızda aqrar sahənin sürətli inkişafını təmin etmək üçün infrastrukturanın inkişafı üçün bir idarəetmə sisteminin elementi kimi zəif həyata keçirilir bu da öz növbəsində müasir bazar tələblərinə uyğunluğu baxımından geridə qalır. Bu amil ASK-ların idarəetmə mexanizmlərinin effektivliyini aşağı salacaq. Buna görə obyektiv və subyektiv səbəblərə görə ölkəmizdə aqrar –sənaye komplekslərinin düşdükləri bu günkü böhran əməli tədbirlər görülmədiyindən dərinləşərək tənəzzülə uğramışdır.

Aqrar sahənin idarəetmə strukturlarında dəyişikliklərin edilməsinə ehtiyac var belə ki, bir – birini təkrar edən strukturlar ləğv edilməlidir, cəmiyyəti və iqtisadiyyatı mərkəzləşdirmə proselərinə tədricən hazırlıqlı vəziyyətə gətirmək lazımdır. [7,s.120]

**Beynəlxalq təcrübənin öyrənilməsi**

Təbii ki, iqtisadi əlaqələrin əsasını mənafelər və maraqlar təşkil edir. Respublikamıza gəlir mənbəyi kimi baxan ölkəliərin maraq dairəsi indiki şəraitdə təbiidir. Çünki hər bir dövlət ilk növbədə iqtisadi-siyasi əlaqələrinin öz mənafeləri əsasında qurulmasında maraqlıdır. Bu halda istənilən ölkə üçün başqa inkişaf etmiş ölkələrin təsirinə düşmək ehtimalı böyükdür. Bu halın baş verməməsi üçün dövlət düşünülmüş inkişaf istiqaməti, modeli seçmək zəruridir. İqtisadi əlaqələri bir sistem olaraq qəbul etsək xarici investisiyaların rolu danılmazdır.

Təbii və geopolitik amilləri nəzərə alsaq, Respublikamız dünya ölkələri ilə səmərəli iqtisadi əlaqələrin qurulması üçün xüsusu bir ölkədi, bundan da səmərəli istifadə olunmalıdır. Xəzər dənizi və Avropa ölkələrinə çıxış üçün nəqliyyat sisteminin, Qara dəniz ölkələrinin və ipək yolunun bərpasını misal olaraq göstərə bilərik. Xarici əlaqələr milli iqtisadi mənafelərə söykəndikdə səmərəli olur. Qeyd olunanları nəzərə alaraq söyləmək olar ki, uğurlu aqrar islahatların aparılması üçün beynəlxalq təcrübəni öyrənmək vacibdir.[8,s.200].

İsraildə torpaq dövlətin mülkiyyətidir və kənd təsərrüfatı ilə məşğul olmaq istəyənlər uzunmüddətli - 49, 99 illiyə icarəyə verilir. Sahibkarlar hər il torpaq vergisi ödəyir və məhsul istehsal etməkdə sərbəstdirlər. Torpaq ərazilərinin satışı qadağandır lakin, icarədar başqasının icarəsinə torpaq ərazilərini verə bilər. İcarə müddəti bitdikdən sonra dövlət torpaq əarazisini geri ala və ya icarə müddətini uzada bilər.

Təsərrüfatçılığın 2 forması mövcuddur: kibuslar və maşavalavır, kooperativlərə də üstünlük verilir. Kibuslar kollektiv təsərrüfatçılığa, maşavalavr isə kooperativ təsərrüfatçılığına əsaslanır. Dövlət təsərrüfatlara yardım və köməkliklər göstərir. Dövlət istənilən kənd təsərrüfatı məhsulu istehsalı üçün təsərrüfat sahiblərinə sifarişlər verir. İsraildə təsərrüfatçılıq sisteminin yüksək səviyyədə təşkil olunmasının nəticəsidir ki, ölkə kənd təsərrüfatı məhsullarına olan tələbatını demək olarkı tam ödəyir, hətta istehsal olunan məhsulun 20%-dən çoxunu ixrac edir. Düşünürəm ki, İsrailin təcrübəsindən yararlanmaqla ölkəmizdədə səmərəli təsərrüfatların inkişafına nail olmaq olar. Son illər respublikamızda üzümçülüyün inkişaf etməsini nəzəzə alsaq Fransanın təcrübəsinə diqqət yetirmək vacibdir. Fransada əkinə yararlı torpaqların əhəmiyyətli hissəsi sahibkarların əlindədir. Əsas təsərrüfat forması kimi fermerlər və kooperativlərdir. Sahibkarlar istədikləri kənd təsərüfatı məhsullarını istehsal etməkdə sərbəstdirlər, ancaq dövlət sifarişləridə qəbul edirlər.

Fransada üzümçülük ən gəlirli və populyar sahələrdən biri hesab olunur. Üzümçülüklə əsasən sahibkarlar məşğul olurlar və bu zaman məhsulun kəmiyyəti ilə yanaşı keyfiyyətədə xüsusi diqqət yetirilir. Çünkü keyfiyyətli məhsul daha rəqabətqabiliyyətli olur.

Çin Xalq respublikasının aqrar sahədə apardığı islahatlar təcrübəsində təqdirəlayiqdir, belə ki, burada islahatlar daima dərinləşir və təkmilləşdirilir.

Çində torpaqlar dövlətin mülkiyyətindədir.

Almaniyanın aqrar sahədə prioritet istiqaməti şərq torpaqlarının ətraf mühitinin qorunmasını təmin edən, Avropa bazarlarında rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulu istehsal edən və müasir müəssələr yaratmaqdan ibarət oldu. Almaniyada kooperativlər özlərinin "Rayfayzen" adlanan ittifaqda birləşib və idarəolunma formasına görə 3 növə ayrılır: federal, regional, yerli. Burada dünyanın müxtəlif ölkələrində filialı olan 2.654 kooperativ birliyi fəaliyyət göstərir.

Bizdə bu təcrübədən istifadə edərək respublikamızda kənd təsərrüfatı istehsal edən koperativlər yaradıla və rəqabətqabiliyyətli məhsul istehsal oluna bilər.

**Aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi yollarının araşdırılması**

Dünya ölkələrinin təcrübəsindən belə qənaətə gəlmək olarkı dövlət iqtisadiyyatın inkişafında katalizator və biznesin inkişafına təsiretmə vasitəsi ola bilər. Hazırda bazar iqtisadiyyatı inkişaf yolu keçmiş ölkələrin inkişaf modelləri dövlətin nədərəcədə müdaxilə edəcəyi ilə müəyyən olunur. Ölkəmiz bazar iqtisadiyyatında mövqeyi, təsir etmə səviyyəsi, bu səviyyənin həd və hüdudu əvvəllərdə hazırdada nəzəri metodoloji məna kəsb etməklə iqtisadçılar arasında fikir ayrılığına səbəb olmuşdur. Dövlətin iqtisadi funksiyalarının güclənməsi zəruridir,bazar iqtisadiyyatı dövlətin iqtisadi metod və üsullarla idarə etməsinin gücləndirilməsidir. [7,s.200]

İqtisadçıların inkişaf etmiş ölkələrin inkişaf modellərinə nəzər saldıqda anlaşılır ki, Azərbaycanın iqtisadi inkişafının öz çətinliyi, xüsusiyyəti var. Bu mənada araşdırma göstərir ki, aqrar sahənin inkişafının tənzimlənməsimdə dövlətin iştirakı zəruridir, digər tərəfdən istehlak mallarının, ərzaq məhsullarının yaradılması ilə şərtlənir. Buna görədə dövlət aqrar sahənin inkişafını tənzimləməlidir. Araşdırmadan belə qənaətə gəlmək olar ki, dövlətin daxili bazara təşkiledici təsiri aşağıdakı kimidir.

Dövlət iqtisadiyyatı yüksək səviyyədə inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının alıcısı kimi çıxış edir, bazarın strukturuna birbaşa təsir göstərir eyni zamanda bazarın fəaliyyətini yeni təşkilati formasını müəyyən edir. Sahibkarlara maddi yardım göstərilməsi, kreditlərin verilməsi, müxtəlif dotasiyalar dövlət tərəfindən həyata keçirilir.

İnkişaf etmiş dövlətlərdə kənd təsərrüfatının səmərəli inkişafını, müstəqil təsərrüfat subyektlərini təmin etmək üçün rentabelli sahənin müxtəlif vasitələrlə müdafiə edir. Ümumiqtisadi sahələr üzrə inkişafında ölkənin beynəlxalq bazarlarda vəziyyətini göstərən dövlət tənzimləyiciləri məxsus cəhətlər mövcuddur. Aqrar sahənin tənzimlənməsinin başlıca vəzifəsi başqa sahələrlə qeyri bərabər vəziyyətdə olduqda ona yardım göstərməkdən ibarətdir. İstənilən şəraitdə bu qeyri bərabərliyin xarakteri qorunub saxlanılır, bu aqrar sahənin xüsusiyyətləri ilə bağlıdır. Ancaq tənzimlənmənin istiqamətləri müxtəlifdir. O, kənd təsərrüfatı məhsullarının istehsalı və satışını stimullaşdırır, ya da onun antiböhran tənzimləyicisi kimi çıxış edir. Araşdırma göstərir ki, tənzimləmə üzrə qanunların mühüm əhəmiyyəti vardır. Qeyd olunan qanunlar ali qanunverici orqan tərəfindən qəbul olunur və istehsalın tənzimlənməsi üzrə aktlar orada öz əksini tapır. İnkişaf etmiş ölkələrin əksəriyyətində dövlətin aqrar siyasətinin müxtəlif mexanizmlər vasitəsilə məhsulların istehsalını və satışının tənzimlənməsi olmuşdur bununda əksər hissəsi dövlət təhsisatlarının üzərinə düşmüşdür. Bəzi məhsulların bazar tənzimlənməsi formalarında biridə marketinq nizamnaməsidir. Marketinq nizamnamələrinin mənası nizamnamənin fəaliyyət zonası daxilində məhsulun keyfiyyəti üzrə diferensiyası ilə bu və ya digər məhsula vahid qiymətin qoyulmasıdır. Bu istehlakçıların mənafeini nəzərə almaqla fermerlərin gəlirlə təmin olunmasını göstərir. Praktikada gəlirlərin tənzimlənməsində 2 mexanizmdən istifadə edilir: tədarük və girov əməliyyatları vasitəsilə bazar qiymətlərinin saxlanılması. Girov məbləği ən kiçik təmin olunmuş qiyməti özündə əks etdirir. Sahibkarlar bunun əsasında öz məhsullarını sata bilir. Tədarük isə 2 formada dövlət tərəfindən müəyyən edilir məhsulun birbaşa və məcburi tədarükü formasında həyata keçirilir. Sonuncu tədbiq olunanda fermer məhsula çəkdiyi xərcdən imtina edir. Dövlət girov və tədarük əməliyyatlarını həyata keçirərkən xammal üzrə

daxili bazara təsir göstərir. Qiymət əmələ gəlməsinə dövlət birbaşa eyni vaxtda təsir göstərir. Yəni fermer minimum təminat verilmiş qiymət funksiyasını yerinə yetirir. Lakin dövlətin bilavasitə müdaxiləsi yalnız kənd təsərrüfatı xammalı bazarı üçün xarakterikdir. Məhsul satışı zamanı belə müdaxilə dolayı mahiyyət daşıyır. İnkişaf etmiş ölkələrdə elmi-texniki inkişaf da tənzimlənmənin mühüm sahəsi kimi çıxış edir. [5,s.80]

Ətraf mühitin qorunması üzrə fəaliyyətin tənzimlənməsində dövlə müxtəlif formalarda iştirak edir. Onlar aşağıdakılardır: xüsusi dövlət standartlar və kefiyyətə nəzarət xidməti tərəfindən həyata keçirilən dövlət nəzarəti; ekoloji təmiz məhsulların stimullaşdırılması; kompensasiya verməklə torpaq ehtiyatlarının dondurulmasını nəzərdə tutan torpaqların məhsuldarlığının yüksəldilməsi üzrə dövlət proqramı. İstehsalın dövlət tənzimlənməsinə diqqət yetirilsə də o, heç vaxt direktiv xarakteri almamalıdır. Tənzimlənmənin məqsədi bazar mexanizmini qorumaq, əlverişsiz bazar nəticələrini yumşaltmaqdan ibarətdir. Onu deməyə əsas verir ki, aqrar sahədə tənzimlənmə istehsalın təmin olunmasına kömək edir. Müəyyən ölkələrdə istehsalın plana uyğun dövlət tənzimlənməsi sahəsindəki təcrübə bizim ölkədə istifadə edilə bilər. Dövlət tənzimlənməsində fiskal siyasət xüsusi yer tutur. Bu siyasətin əsas məqsədi kredit və vergi qoyma mexanizmi vasitəsilə inkişaf etmıkdə olan sahələri təmin etməkdən ibarətdir. Vurğulamaq istəyirəm ki, müəssisələrdə qiymətqoyma fiskal funksiyaların yerinə yetirilməsinə deyil, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəlməlidir. [6,s.220] Dünya təcrübəsinə əsaslanaraq söyləmək istərdim ki, aqrar sahənin tənzimlənməsində dövlətin rolu və əhəmiyyəti getdikcə artır. Bu tənzimləmə strateji əhəmiyyətli ərzaq və kənd təsərrüfatı məhsullarının istehsalında aqrar işçiləri maddi cəhətdən maraqlandırmalı, məhsullara müəyyən olunmuş qaydada sifariş verməlidir. [2,s.103].

Aqrar istehsalın dövlət tənzimlənməsinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi məqsədəuyğundur:

- kəndin sosial inkişafı
- təsərrüfatlarda qiymətlərin tənzimlənməsi
- əmtəə istehsalçılarının maraqlarının qorunması

ASK-larda aşağıdakı mülahizələrə diqqət yetirikməlidir:

- bazarın öz özünü tənzimləməsi ilə ona dövlətin təsiri ilə əlaqələndirmək
- iqtisadi dəyişikliklərin tədricən aparılması
- makroiqtisadi mexanizmlərinin aqrar bazara təsiri, ASK-ların iqtisadi qurumlarda rolu

Aqrar sahədə bazar subyektlərinə aşağıdakıları aid etmək olar: bazarın subyektini müəyyən edən bazarın növləri, bazar subyektlərinin təsiredici amilləri və s. Bunları daha geniş başa düşmək üçün makroiqtisadi və infrasruktur amilləri ilə yanaşı bazar mexanizmlərinin dövlət tənzimlənməsinin canlandırılması vacibdir. Hazırki aqrar islahatların həyata keçirildiyi şəraitdə istehsalın sabitliyinə və onun davamlı inkişafına nail olmaq üçün dövlət tənzimləməli və bu iqtisadi mexanizm kimi fəaliyyət göstərməlidir. Fikrimcə, tənzimlənin hüquqi əsası kimi yeni hüquqi qanunlarin qəbul edilməsinə ehtiyac var və tənzimlənmənin əsas istiqamətləri bu qanunla təsbit olunmalıdır. Kənd təsərrüfatı spesifik sahə olduğu üçün daha çox investisiya tələb edən istehsal sahəsidir. Aqrar sahədə islahatlar apararkən xarici investorların vəsaitlərindən istifadə edilməsi məqsədə uyğundur, ancaq əsas vəsait daxili mənbələr hesabına əldə edilməlidir. İstehsalın tənzimlənməsi təsərrüfat fəaliyyətinin pozulmasının qarşısını almaq zərurətindən yaranır. Aqrar sahədə istehsalın tənzimlənməsinin əsas məqsədi dövlətin maraqlarının qorunması və təminatının həyata keçirilməsindən ibarətdir. [4,s.150].

**Aqrar sahənin idarəedilməsində xarici iqtisadi əlaqələr.**

Bu bir həqiqətdir ki, istənilən ölkə öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz. İndiki şəraitdə ölkəmizin xarici iqtisadi əlaqələrinin formalaşması və inkişaf etməsi onun strateji istiqamətlərdə həyəta keçirilməsi vacibdir. Xarici ölkələrdə olduğu kimi, bizdə də bazar münasibətlərinin formalaşmasında içtimai əmək bölgüsünün inkişafı ilə bağlıdır. İctimai əmək bölgüsünün mühüm forması olaraq beynəlxalq əmək bölgüsünün həyəta keçirilməsi beynəlxalq aləmdə əmək ilə bağlı fəaliyyətinin ixtisaslaşdırılmasının və kooperasiyalaşdırılmasının göstəricisidir. Dünya

bazarında əmtəələr müxtəlif ölkələrdə milli əməkləri məcmə əməyin hissəsi kimi başa düşülür və nəticə olaraq milli əmək orta dünya əməyinə nisbətdə çıxış edir. Bazarlara satış məqsədi ilə çıxarılan əmtəələrə çəkilən xərclər orta dünya bazar xərclərindən aşağı olarsa o, iqtisadi səmərə vermiş olur. Əmtəənin dəyəri və kefiyyətinin standartlarla uyğun olması onun dünya bazarında qiymətini müəyyən edir. Aqrar sahədə istehsal olunmuş məhsulların hamısı beynəlxalq mübadilə obyekti ola bilmir. Bu onunla əlaqədardır ki, bazarda rəqabətə dözümlü, aşağı xərcli və istehlak keyfiyyətinə malik məhsullar beynəlxalq mübadilə obyektinə çevrilə bilir. Qeyd olunanları nəzərə alsaq belə nəticəyə gəlmək olar ki, ixrac olunacaq məhsulları istehsal edən zaman qabaqcıl texnologiyalardan istifadə etmək lazımdır. Müəyyən məhsulları məhdudlaşdırmaq üçün dövlət gömrük tariflərini yüksəltməlidir və yaxud yüksək kvota tədbiq etməlidir. Respublikamızın xarici bazarının formalaşdırılması üçün 1-cisi, iqtisadiyyatımız dünya təsərrüfat mexanizminə inteqrasiya olunmalıdır; 2-cisi, milli valyuta kursunun xarici valyutalara nisbətən süni formada aşağı salınması deyil, dünya bazarlarına rəqabət qabiliyyətli məhsullar çıxarmaqla təmin edilməlidir; 3-cüsü, ixrac-idxal əməliyyatı zərərli təsirlərdən qorunmalıdır. Vergi xarici iqtisadi əlaqələrin idarə edilməsində mühüm yer tutur. Belə ki, kənd təsərrüfatı spesifik sahədir və özünə məxsus xüsusiyyətlərə malikdir. Ölkələr öz aqrar sektorlarına uyğun xarici siyasətlərini həyata keçirirlər. Respublikamızda beynəlxalq qanunlara əməl edib düzgün gömrük vergi siyasətinin həyata keçirilməsi xarici ticarətinsəmərəliliyi artırır. Bəzi mallara yüksək vergi dərəcələri təyin edilməlidir, yalnız müasir texnologiyaları vergidən azad etmək lazımdır. Digər əsas məsələlərdən biridə aqrar sahədə daxili və xarici bazarı öyrənən, proqnozlaşdıran müasir tələblərə cavab verən operativ informasiya sistemi yaradılmalıdır, mütəmadi olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər informasiya ilə təmin edilməlidirlər. Belə bir təminat dünyanın bir çox ölkələrində var, bu yolla istehsal və idxal olunacaq məhsulların qabaqcadan miqdarları proqnozlaşdırılır. Düşünürəm ki, qeyd olunan tədbir xarici iqtisadi fəaliyyətin effektivliyini xeyli artırmış olur. Beynəlxalq təcrübə belə deməyə əsas verir ki, texnoloji təçkilati amillər bazar iqtisadiyyatının təsiri nəticəsində formalaşır və inkişaf edir. İstehsal olunmuş məhsulun qiyməti, keyfiyyəti, miqdarı, daşınmaları şərtləri hər iki tərəf üçün əlverişli olduqda sahələr arası əlaqələr yaranır və bu iqtisadi inteqrasiya xarakteri daşıyır. [3,s.347]

Kənd təsərrüfatı istehsalının mövsümlüyü, onun təbii iqlim şəraitindən asıllığı məsulun davamlılığının və əmtəəlik səviyyəsinin yüksək olmaması satış bazarında güclü rəqabət şəraitində fəaliyyət göstərməsi fermerlərə öz məhsullarından həmişə lazımi mənfəət əldə etməyə imkan verən qiymətdə və həcmdə satmağa imkan vermir. Xarici iqtisadi əlaqələrimizi araşdırarkən barter üsulunun və dünya bazarındakı qiymətlərin tətbiq olunması prinsiplərinə uyğun hazırlznması vacib məsələlərdəndir.

**Nəticə**

Ölkədə aqrar sahənin inkişafı, onun müəyyən sahələrinin müntəzəm olaraq inkişaf etdirilməsi üçün müəyyən vəzifələr qoymuşdur. Etiraf etmək lazımdır ki, respublikamızda aqrar sahənin inkişafı onun potensiyalından aşağı səviyyədədir, bunun üçün onun yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir. Bu baxımdan Aqrar sahədə iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi yollarının araşdırılması, tədbiqi və öyrənilməsi istiqamətində aparılan araşdırmalar bir sıra nəticələr ortaya çıxarmışdır. Əldə olunmuş nəticələri aşağıdakı kimi ifadə etmək olar:

- kənd təsərrüfatı məhsullarının hərəkəti və xammalın təlabatçıya istehsal məqsədi ilə çatdırılması üçün mexanizmlər yaradılmalıdır.
- bazarın idarəetmə rıçaqlarını təkmilləşdirmək.
- əmtəə istehsalçıların maraqlarını qorumaq.
- müasir informasiya texnologiyalarından geniş istifadə etmək.
- aqrar sahədə iqtisadi idarəetmə mexanizmlərini müasir tələblərə uyğun olaraq təkmilləşdirmək.

**Açar sözlər:** *iqtisadiyyat, bazar, idarəetmə, mexanizmlər, təkmilləşdirmə, istehsal, aqrar sahə.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı -2003, 315 s.*

2. *Kərimli V.B. Aqrar sahədə strateji menecment. Bakı-2018,150 s.*

3. *İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı-2016, 653 s.*

4. *Əhmədov İ.V. Kənd təsərrüfatının idarəedilməsi. Bakı-2006, 880 s.*

5. *Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarəedilməsi. Bakı-2010, 450 s.*

6. *Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Bakı-2006. 468 s.*

7. *Мутладзе Р.Г. Менеджмент в агропромышленном комплексе. Москва-2011, 382 с.*

8. *Qurbanzadə A.A. Aqrar strukturun regional inkişaf modeli. Bakı-2004. 438 s.*

**д.ф.э. В.Б. Керимли**
**Старший научный сотрудник ИЭ НАНА**

### РЕЗЮМЕ

В статье исследуются пути совершенствования механизмов управления экономикой, что является одним из важнейших вопросов развития аграрного сектора в условиях современной рыночной экономики. Одним из основных условий является изучение экономики в аграрном секторе и ее способности удовлетворять и регулировать все требования рыночной экономики с учетом специфики управления. Это факторы, которые напрямую влияют на дальнейшее улучшение деловой среды в условиях рыночных отношений, ускорение социально-экономического развития и всестороннее формирование тех, кто участвует в управлении общим производством.

**Ключевые слова:** *экономика, рынок, управление, механизмы, совершенствование, производство, аграрный сектор.*

**PhD. V.B.Kerimli**
**Head scientist of EU ANSA**

### SUMMARY

The article examines and studies ways to improve economic management mechanisms, which is one of the most important issues for the development of the agricultural sector in a modern market economy. One of the main conditions is the study of the economy in the agricultural sector and its ability to meet and regulate all the requirements of a market economy, taking into account the specific features of management. These are the factors that directly affect the further improvement of the business environment in the conditions of market relations, the acceleration of socio-economic development and the comprehensive formation of those involved in the management of overall production.

**Key words:** *economy, market, management, mechanisms, improvement, production, agrarian sector.*

UOT 94(470) "19..."

# Tarix

**HÜSEYN HÜSEYNLİ**
*Bakı Dövlət Universitetinin Tarix fakültəsinin müəllimi. Tarix üzrə fəlsəfə doktoru*
*E-mail: huseyn.huseynli@bsu.edu.az*

**FƏRHAD AYDINLI**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dissertantı*
*E-mail: farhad.aydinli@bsu.edu.az*

## TÜRKİYƏ-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNDƏ RUSİYA AMİLİ (etnosiyasi proseslər kontekstində)

Cənubi Qafqazın Qara dənizlə həmsərhəd olan yeganə ölkəsi Gürcüstan Azərbaycan və Orta Asiya ölkələrini Qərblə birləşdirən mühüm coğrafi mövqeyə malikdir. Bu mövqeyi səbəbilə Türkiyənin Cənubi Qafqaz, hətta Avrasiya strategiyasındakı açarıdır. Xəzərin enerji ehtiyatlarının beynəlxalq bazarlara çatdırılmasında əhəmiyyətli yerə sahib olan Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəmərinin, eyni zamanda Bakı-Ərzurum, Cənubi Qaz Dəhlizinin, Bakı-Tbilisi-Qars dərmiryolu xəttinin keçdiyi yol üzərində yerləşməsi Gürcüstanı Türkiyə baxımından daha da əhəmiyyətli edir. Türkiyə-Gürcüstan münasibətlərini təhlil etdiyimiz zaman prosesləri 3 dövrə bölə bilərik:

1. Müstəqillikdən 2003-cü ilə qədər;
2. Qızılgül inqilabından Saakaşvili hakimiyyətinin sonuna qədər;
3. 2013-cü ildən sonrakı dövr.

SSRİ-nin dağılması beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklərin baş verməsinə səbəb oldu ki, Cənubi Qafqaz regionu da bu proseslərin mərkəzində yer aldı. Yeni Dünya nizamının formalaşması, xüsusilə 1991-ci ildən sonra Qafqaz regionu regional güclərin xarici siyasi kursunda əsas yer tutmağa başladı. Bu nöqteyi-nəzərdən Türkiyənin regionda olan maraqları, Xəzərin enerji ehtiyatlarının Avropaya daşınmasında önəmli olan Gürcüstanla münasibətləri daha da əhəmiyyətli edir. 9 aprel 1991-ci ildə müstəqilliyini elan edən Gürcüstanı 16 dekabr 1991-ci ildə tanıyan ilk dövlət Türkiyə oldu [1, 127]. Dövrün Xarici işlər naziri Hikmət Çətinin 21 may 1992-ci ildə Tbilisini ziyarət etməsi ilə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasına dair protokol imzalandı [2]. Müstəqilliyin ilk illərində daxildə davam edən etnosiyasi münaqişələr Gürcüstanın inkişafını ləngidirdi. Hələ Zviad Qamsaxurdiyanın prezidentliyi dövründə ölkənin muxtar vilayətləri-Acarıstan, Abxaziya və Cənubi Osetiyada mərkəzdən qaçma meylləri güclənmiş və ölkədə siyasi pərakəndəlik artmışdı. Radikal və milliyətçi olan Qamsaxurdiyanın "Gürcüstan gürcülər üçündür" [3, 133] şüarı, ölkədə bütün siyasi partiyaların fəaliyyətini məhdudlaşdırması separatist qüvvələri daha da hiddətləndirirdi. Təsadüfi deyildir ki, 1991-ci ilin sentyabr ayında ölkədə fövqəladə vəziyyət elan edilmiş, ixtişaşların davam etməsi nəticəsində 1992-ci ilin yanvarında ölkədən qaçması ilə hakimiyyət hərbi şuranın əlinə keçmiş, mart ayında isə şuranın rəhbərliyinə Eduard Şevardnadze gətirilmişdir. O, qısa zamanda Cənubi Osetiyada münaqişəni dayandırmağa nail olur, lakin Abxaziyada proseslər tam əks formada cərəyan edir, bu dövrdən etibarən region tamamilə nəzarətdən çıxır. Etnik münaqişələrin dərinləşməsi Gürcüstanı 1993-cü ildə MDB-yə daxil olmağa vadar edir, eyni zamanda Rusiya ilə yaxınlaşma siyasətinin həyata keçirilməsinə səbəb olur. Nəticədə 1993-cü ildə rus hərbi qüvvələri Gürcüstana göndərilir, Qara dəniz limanlarını da əhatə edən 4 hərbi bazada 20 mindən artıq həbçi xidmət etməyə başlayır.

Onun dövründə hadisələrin gedişində nisbi sakitçilik yaransa da, müxalif qüvvələrin hakimiyyətə təzyiqi və milliyətçi şüarlar etnosiyasi problemləri yenidən alovlandırdı. Regionu öz nüfuz dairəsi hesab edən Rusiya lokal münaqişələrdən istifadə edərək bəzi tədbirlərə əl atdı. Bunlar viza müraciəti və Qafqaz ölkələrində, xüsusən də Gürcüstanda olan etnik azlıqların Rusiyaya birləşməsi üçün qaydaların hazırlanması idi. 5 dekabr 2000-ci ildə Moskva

hökuməti Gürcüstan vətəndaşlarına viza tətbiq etdi. Abxaziya və Cənubi Osetiya xalqlarının vizasız getmək hüququnun saxlanması isə Gürcüstanın suveren siyasətinə açıq şəkildə təhdid demək idi. Digər bir məsələ, 28 iyun 2001-ci ildə Rusiya Federasiyası Dumasında qəbul edilmiş "Rusiya Federasiyasına qəbul və onun tərkibində yeni subyektlərin yaradılması haqqında" qanun layihəsi xarici dövlətin və ya onun bir hissəsinin Rusiyaya birləşməsini asanlaşdırdı. Moskva çətin vəziyyətə düşdükdə və ya bölgədəki ölkələrin özbaşına siyasətləri ortaya çıxdığı zaman etnik azlıqları necə istifadə edəcəyi mesajını verirdi. Bu qanun layihəsi bir çox problem sahəsinə, xüsusən Abxaziya və Cənubi Osetiyaya aid idi. Bundan əlavə, 31 may 2002-ci il tarixli Vətəndaşlıq Qanununda Rusiya vətəndaşı olmaq istəyənlərin keçmiş vətəndaşlığından imtina etmələri nəticəsində qəbul edilməsi Rusiyanın bölgəyə necə həssas davrandığının göstərirdi [4, 46]. Digər tərəfdən də Şevardnadzenin istefasına qədər keçən müddətdə Türkiyənin diqqəti Şimali Kiprdə cərəyan edən hadisələrdə və Avropa İttifaqı ilə danışıqlarda, daxildə isə İstanbulda baş verən terror hadisələrinə qarışmışdı.

Beləliklə, Gürcüstanda genişlənən rüşvətxorluq, eləcə də separatist bölgələrdə idarəçilyin tamamilə zəifləməsi və 2003-cü ildə keçirilən parlament seçkilərindəki saxtakarlıq Mixeil Saakaşvilnin rəhbərliyi ilə Məxməri inqilab və ya Qızılgül inqilabına gətirib çıxardı. Vaxtilə Qamsaxurdiyanın dediyi kimi: düşmənlərimizə güllə ilə deyil, güllər ilə cavab verməliyik ifadəsi öz əksini tapdı [5, 418].

Türkiyə 4 yanvar 2004-cü ildə 96% səs çoxluğu ilə prezident seçilən Saakaşvili ilə yaxın münasibət qurmağın yollarını axtarmağa başladı. Saakaşvilinin seçkiqabağı təbliğat-təşviqat kampaniyası Soros Fondu, digər beynəlxalq fondlar və ABŞ tərəfindən də dəstəklənirdi. Əslində Vaşinqtonun gözləntisi belə idi; Orta Asiya və Qafqaz dövlətlərinin başında qərbyönümlü siyasətçilər olmalıdır. Bununla da Moskvaya qarşı güclü müqavimət göstərməklə Xəzərdəki enerji ehtiyatlarına nəzarət etmək olardı. Şübhəsiz ki, bu məsələdə ABŞ-a ən böyük dəstək bölgədə marağı olan Türkiyə olmalı idi [6, 3].

Saakaşvilinin hakimiyyətə gəlişindən sonra gürcü xalqına iki əsas vədi var idi. Birincisi, Gürcüstanın ərazi bütövlüyünü təmin etməklə Cənubi Osetiya, Acarıstan və Abxaziya problemlərini həlli, ikincisi, Gürcüstanın NATO-ya üzv olacağı vədi idi. [7, 151].

Hakimiyyət dəyişikliyindən sonra Türkiyə-Gürcüstan münasibətlərinə mənfi təsir edə biləcək hadisələrdən biri də etnik münaqişələrin yenidən alovlanması idi. İlk olaraq, Acarıstan Muxtar Respublikasının rəhbəri Aslan Abaşidze Saakaşvilinin hakimiyyətini tanımadığını bəyan etdi. 28 mart 2004-cü ildə keçirilən parlament seçkisi ərəfəsində bölgəyə səfər edən Saakaşvilini Batumiyə daxil olmağa icazə vermədi. Prezident isə Acarıstana iqtisadi embarqo tətbiq etməklə cavab verdi. ABŞ və Rusiyanın vasitəçiliyi ilə bir müddət gərginlik dayandırılsa da, iki tərəf arasındakı problem üst səviyyədə idi. Bütün bu hadisələr davam edərkən Abaşidze də Qars müqaviləsinin 6-cı maddəsinə əsasən Türkiyənin "qarant-dövlət" olduğunu və bölgədəki gərginliyin bitirilməsi üçün Türkiyəyə müraciət etdi. Bu xəbərlərin Türkiyə mətbuatında da yayılması Türkiyənin Rusiya ilə qarşı-qarşıya gəlməsi demək idi. Əslində isə Qars müqaviləsində Türkiyənin belə bir müdaxilə haqqının olduğu göstərilmirdi [8, 487]. Məsələyə dərhal reaksiya verən Xarici işlər naziri Abdullah Gül vəziyyəti Gürcüstanın daxili məsələsi kimi qiymətləndirdi. Tbilisi hökuməti Türkiyənin bu diplomatik üslubunu olduqca müsbət qarşıladı və ikitərəfli əlaqələrin əhəmiyyətli olduğunu qeyd etdi [9, 230]. Abaşidzenin 5 may 2004-cü ildə Rusiyanın sabiq Xarici işlər naziri İqor İvanovla birlikdə Batumini tərk edərək Moskvaya getməsi ilə münaqişəyə son qoyuldu [10, 99].

Türkiyənin Acarıstan münaqişəsindəki mövqeyi Türkiyə-Gürcüstan münasibətlərinin inkişaf dinamikasına əhəmiyyətli təsir göstərdi. 20 may 2004-cü ildə Saakaşvili Türkiyəni ziyarət etdi. Bakı-Tbilisi-Ceyhan neft boru xətti və Bakı-Tbilisi-Ərzurum təbii-qaz kəmərinin əhəmiyyətindən bəhs edərək Türkiyəni yaxın tərəfdaş adlandırdı. 2005-ci ilin oktyabrında baş nazir Zurab Noqaydelinin Türkiyəyə səfəri zamanı 90 günlük turist vizasının qüvvəyə minməsini nəzərdə tutan müqavilə imzalandı. Batumidə 25 may 2007-ci ildə yeni hava limanı istismara verildi [11, 20]. Türk hava yolları tərəfindən Batumi daxili xətt məntəqəsi olaraq istifadəyə başlandı. Türkiyə vətəndaşları pasport istifadə etmədən yalnız şəxsiyyət vəsiqələri ilə Batumiyə hava yolu ilə gedərək, oradan da quru nəqliyyat vasitələri ilə Türkiyənin şərq və cənub-şərq vilayətlərinə gedə bilərdi. Beləliklə, dünyanın çox az ölkələri arasında olan bu sistemin Cənubi

Qafqaz kimi qeyri-sabit və rəqabətin çox olduğu bölgədə tətbiqi təqdirəlayiq idi. Ümumiyyətlə Qızılgül inqilabından sonra Türkiyə-Gürcüstan münasibətlərində yeni dövrün başladığını qeyd edə bilərik. 1999-cu il ATƏT-in İstanbul sammitində qəbul edilən qərarların məntiqi nəticəsi artıq bu dövrdən etibarən özünü göstərməyə başladı. Təsadüfi deyildir ki, 2005-ci ildə Gürcüstanın Milli Təhlükəsizlik Konsepsiyasında artıq Türkiyə önəmli tərəfdaş adlandırılır, eləcə də 2007-ci ildən sonra Türkiyə Gürcüstanın ən böyük ticarət ortağı statusundadır. Son statistik məlumatlara nəzər salsaq, görərik ki, Türkiyə Gürcüstanın ixracatında 7.9%, idxalında isə 17.2%-lik paya malikdir. Eyni zamanda bu münasibətlər yalnız iqtisadi deyil, həmçinin hərbi-siyasi dəstək fonunda da davam etdirilib. Təkcə 2005-2008-ci illərdə Türkiyə Gürcüstana 8 milyon dollar dəyərində hərbi yardım edib.

Saakaşvilinin "uğurlu" Acarıstan siyasəti onu Abxaziya və Cənubi Osetiyada da təkrarlaya biləcəyinə inandırmışdı. Əslində Acarıstan siyasətini uğur hesab etmək düzgün olmazdı, çünki Acarıstan idarəçiliyi heç bir dönəmdə müstəqil dövlət qurmaq niyyətində olmamışdır. Abxaziya və Cənubi Osetiyada isə vəziyyət tamamilə başqa idi. Etnik münaqişələrin nizamlanmasında Türkiyə və Rusiya amillərini də hesaba qatmaq vacib idi. Bu çərçivədə 12 avqust 2004-cü ildə Tbilisiyə səfər edən baş nazir R.T.Ərdoğan Abxaziya və Cənubi Osetiya kimi problemlərin həllində öz üzərinə düşən köməkliyi edəcəyini qeyd etdi. Ərdoğan Abxaziyada 70 min, Türkiyədə isə 300 min abxazın yaşadığını və bunun məsələnin həlli üçün körpü ola biləcəyini və Türkiyənin vasitəçilik edə biləcəyini qeyd etdi. Gürcüstan rəhbərliyinin bu məsələyə müsbət yanaşmaması ilə heç bir siyasi addım atılmadı. Türkiyə abxazların Rusiyanın idarəçiliyinə tərk edilməsi yerinə, vasitəçilik edərək məsələnin həlli tövsiyəsini Saakaşvili rədd etdi. Gürcüstan hökümətinin Abxaziyanı təcrid siyasəti ilə tabe etmək səyləri də nəticə vermədi. Çətin vəziyyətdə qalan abxazlar kütləvi şəkildə rus pasportları alaraq Gürcüstandan ayrılmaq niyyətlərini sərt şəkildə ortaya qoydular. Qərbyönümlü siyasətilə qonşu Rusiyanı təhrik edən Tbilisi höküməti, qonşusunun daxili işlərinə müdaxilə etməsinə səbəb oldu. Gürcüstan Daxili İşlər Nazirliyin 27 sentyabr 2006-cı ildə 4 Rusiya hərbi kəşfiyyatçısını casusluq ittihamı ilə həbs etməsi iki ölkə arasındakı münasibətləri daha da gərginləşdirdi [12, 103]. Rusiyanın sərt reaksiyasından sonra Tbilisi höküməti geri addım ataraq 4 rus zabitini ATƏT-ə təhvil verdi. Ancaq Rusiyanın geri addım atmaması böhranı daha da dərinləşdirdi. Rusiya üçün lazımi zəmin yaranmışdı. RF Nəqliyyat Nazirliyi Gürcüstanla hava, dəmir yolu, quru və dəniz nəqliyyatını kəsdi [13].

Saakaşvili 2008-ci ilin yanvarında Gürcüstanda keçirilən prezident seçkilərində yenidən qalib gəldi. Rusiyadan gələn ilk rəsmi açıqlama isə seçkilərin şəffaf olmadığı iddiaları idi. Saakaşvilinin 2008-ci ilin mart ayında ABŞ-a rəsmi səfəri müharibədən əvvəlki mühüm hadisələrdən biri idi. C.Buşun mətbuat konfransında ABŞ-ın Cənubi Osetiya və Abxaziya problemlərinin həllində Gürcüstana dəstəyini vurğulaması rus-gürcü münasibətlərinin qırılma nöqtəsi hesab olunur. Mart ayında bu ziyarətə cavab olaraq Cənubi Osetiya və Abxaziya parlamentariləri Rusiya dumasından müstəqilliklərini tanımağı tələb etdilər. Bu tələbə Putinin; "Rusiyanın Cənubi Osetiya və Abxaziya xalqlarına və bölgədə yaşayan Rusiya vətəndaşlarına dəstəyi getdikcə daha da artacaq" deməsi ABŞ-ın Gürcüstana verdiyi dəstəyə cavab idi [14, 189].

Gürcüstanda etnosiyasi münaqişənin alovlanmasının təkcə regional deyil, qlobal müstəvidə də təsirlər var idi. Belə ki, Serbiyadan müstəqillik tələb edən Kosovo, ABŞ-ın dəstəyi ilə 2008-ci ilin fevralında müstəqilliyini elan etdi. Rusiya bu qərara sərt reaksiya verdi. Həmçinin, NATO-nun 2008-ci ilin aprelində keçirilən Buxarest sammitində Ukrayna və Gürcüstanın üzvlük məsələsinin gündəmə gəlməsi Rusiya üçün böyük problem kimi qəbul edildi [15]. Bu konteksdə Rusiyanın Cənubi Osetiya ilə cavabı sərt oldu. Hadisələri qısaca nəzərdən keçirək.

Cənubi Osetiyada da hadisələr Abxaziyadan fərqli deyildi. Müstəqillik arzusunu tez-tez dilə gətirən prezident Eduard Kokoytı hətta brifinqlərin birində Şimali Osetiya ilə birləşməyin də mümkün variant olacağını qeyd etmişdi. Lakin Saakaşvilinin Cənubi Osetiyaya "milli-mədəni muxtariyyət" təklifinin də rədd edilməsi Gürcüstanın Sxinvaliyə daxil olması ilə müharibəyə çevrildi. 8 avqust 2008-ci ildə başlayan müharibəyə Rusiyanın da daxil olması tarixə "beş günlük müharibə" adı ilə daxil oldu və Gürcüstan ərazisinin parçalanmasına gətirib

çıxardı. Ankara hökuməti baş verənləri narahatlıqla qarşılasa da, müharibəyə qarşı konkret addım atmadı və ehtiyyatla hərəkət etməyi üstün tutdu. Bunun əsas səbəblərini araşdırsaq, ilk növbədə Rusiya ilə münasibətlərin əhəmiyyəti qeyd edilməlidir. Ruslar Türkiyənin ən əhəmiyyətli təbii qaz təminatçısıdır. Bu məzmunda Türkiyə, əhəmiyyətli bir ticarət ortağı olan Rusiyanı qarşısına almaq istəməmişdir. Türkiyənin "strateji ortağı" Gürcüstana hər hansı bir hərbi yardımı və ya Tbilisi rəhbərliyinə dəstək ifadəsi, Rusiyanı qarşısına almasına səbəb olardı. Belə bir fürsəti belə düşünmək istəməyən Ankara hökuməti bu müharibə zamanı və ondan sonrakı müddətdə də diplomatik siyasət aparmalı oldu. Lakin Qərb tərəfindən də təzyiqlər davam edirdi. Ankaranın dilemma içində qalmasının ən vacib səbəblərindən biri, şübhəsiz ki, Montre Boğazlar Konvensiyası idi. Müharibə zamanı Montre Boğazlar Müqaviləsi yenidən gündəmə gəldi və Türkiyə, ABŞ ilə Rusiya arasında sanki məngənəyə alındı. ABŞ-ın müharibə əsnasında iki ədəd tibbi avadanlıqlarla təchiz olunmuş gəmisini Gürcüstana kömək üçün boğazlardan keçirmək istəməsi, ancaq Türkiyənin ABŞ-ın təzyiqlərinə baxmayaraq bu keçidə Montre gərəyi icazə verməməsi, tərəfləri qarşı-qarşıya gətirdi [16, 65]. Bundan əlavə, NATO gəmilərinin Boğazları keçərək Gürcüstana daxil olması nəticəsində, Türkiyə yük maşınları 2008-ci ilin sentyabr ayında Rusiyanın gömrük qapılarında embarqo ilə üzləşdi. Rusiya sanki NATO gəmilərinə keçid haqqının tanınmaması üçün Türkiyəyə göz dağı verdi. Göründüyü kimi, bu gəmilərin Boğazdan keçməsi həm Montrenin pozulması, həm də Ankara üçün Rusiya ilə üz-üzə qalmaq demək idi. Şərtlər bu şəkildə təzahür etmiş ikən Türkiyə öz maraqlarını düşünərək realist bir siyasət izlədi və Boğazlar məsələsini müzakirə mövzusu belə etməyərək bu prosesi soyuqqanlılıqla idarə etdi. Lakin Türkiyənin bu siyasəti Gürcüstan torpaqlarının parçalanmasının qarşısını ala bilmədi. Rusiya 26 Avqust 2008-ci ildə Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanıdı[17, 9]. Kosovonun müəyyən mənada tanınmasına cavab olaraq, Moskva dolayı yolla Gürcüstanın Aİ və NATO üzvlüyünə mane oldu.

Bütün bunlara baxmayaraq Türkiyə Gürcüstanla Rusiya arasında yaranan problemin nizamlanması üçün mühüm addımlar ataraq "Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması" təşəbbüsü ilə çıxış etdi [18, 275]. Bu təşəbbüsün Rusiyanı qane etməsini XİN Sergey Lavrov da təsdiq etdi: "Qafqaz problemi çərçivəsində biz Türkiyənin bu prosesi həll etmək təşəbbüsünü bəyənirik. Ankaranın yeni bir əməkdaş-lıq platforma formalaşdırılması təklifini müzakirə etdik. Bunu dəstəkləyirik. Bu sahədə mexanizm formalaşdırılması ilə bağlı görülən işləri alqışlayırıq və təbii ki, bu məqsədlə zəruri şərtlərin təmin edilməsinə ehtiyac duyulur. Cənubi Osetiyaya qarşı müdaxilənin mənfi nəticələrinin həll edilməsi vacibdir. Lakin tərəfdaşlarımızla qarşılıqlı əməkdaşlıq və razılaşma əldə edilməli olması fikrini qəbul edirik. Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması haqqında, nazirlər və mütəxəssislərin iştirakı bu mövzuda görüşlərin davam etdirlməsinə qərar verdik. Hətta Rusiya XİN-i Ankaranın "NATO-dakı öhdəliklərini yerinə yetirməklə yanaşı bizimlə də çox yaxından əməkdaşlıq etməsi" və "Türkiyənin bizimlə münasibətinə NATO-nu qarışdırmaması" kimi fikirləri ilə Türkiyənin bu cür mövqeyini alqışladı. Türkiyənin Gürcüstan probleminin həllində bu cür təşəbbüslə çıxış etməsi NATO tərəfindən də dəstəkləndi. Onu da qeyd etmək lazımdır ki, bu vaxta qədər Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının tam detalları açıqlanmayıb. Ancaq Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bu məsələ barədə danışarkən bildirib ki, Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması ASEAN tipli bir qurum kimi nəzərdən keçirilir. Onun sözlərinə görə, Ankaranın irəli sürdüyü təşəbbüs ikimərhələli prosesi nəzərdə tutur. Birinci mərhələdə iştirakçı Türkiyə və Rusiyanın təminat hüququ altında bölgə dövlətlərinin - Azərbaycan, Gürcüstan, Ermənistan - əməkdaşlıq imkanlarının araşdırılacağı platforması yaradılır, ikinci mərhələdə isə bu mexanizmlər formalaşdıqdan sonra qərarların qəbulu təşəbbüsü bu üç ölkənin ixtiyarına verilir [19, 158].

Göründüyü kimi XXI əsrin əvvəlləri Gürcüstan üçün böyük fəlakətlərə gətirib çıxardı. Qərbə hərtərəfli inteqrasiyası Gürcüstanın ərazi bütövlüyünün pozulması ilə nəticələndi. Bundan sonrakı illər ölkə hakimiyyətini daha ehtiyyatlı addımlar atmağa və etnosiyasi problemləri daha mülayim yollarla həll etməyə vadar edir. Təbii ki, bu problemlərin həllində Rusiya və Türkiyənin maraqlarının nəzərə alınması da ölkənin ərazi bütövlüyünün bərpasına şərait yaradacaq.

**Açar sözlər:** *Türkiyə, Gürcüstan, Rusiya, Saakaşvili, Abxaziya, Cənubi Osetiya*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Demirağ, Yelda, "Bağımsızlıktan Kadife Devrime Türkiye-Gürcistan İlişkileri", Uluslararası İlişkiler, Cilt 2, Sayı 7 (Güz 2005), s. 155.*

2. *http://www.mfa.gov.tr/relations-between-turkey-and-georgia.en.mfa*

3. *James Hughes, Gwendolyn Sasse. Ethnicity and Territory in the Former Soviet Union: Regions in Conflict, p. 272*

4. *Buszynski, Leszek, "Russia and the Commonwealth of Independent States in 2002, Going Seperate Ways", Asian Survey, CHt 43, No I, 2003.*

5. *SARIKAYA, Gül; ÇOBAN, Fatma, (Yayına Hazırlayanlar), (2014), V. Karadeniz Uluslararası Sempozyumu "Tarihi ve Güncel Siyasal Konular: Görüşler & Öneriler" 6-7 Aralık 2012, Karadeniz Stratejik Araştırma ve Uygulama Merkezi, Ankara.*

6. *Bahturidze, Zeynab, (2011), "Направление Внешнеполитического Курса Грузии при Президенте Саакашвили", Современные исследования социальных проблем, No:3, Cilt:7.*

7. *Treisman, Daniel, The Return: Russia's Journey from Gorbachev to Medvedev, Free Press, New York, 2011.*

8. *Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorum-lar. 3 ciltte. Cilt 3: 2001-2012/Editör: Baskın Oran. İstanbul: İletişim yayınları, 2013, 885 s.*

9. *Kamer Kasım, Soğuk Savaş Sonrası Kafkasya, USAK Yayınları, Ankara, 2009.*

10. *Nilgün Atıcı Köktaşı. Saakaşvili dönemi Gürcistan: İç ve Dış Politika Üzerine Bir Değerlendirme. https://www.ardahan.edu.tr/iibf-dergi/arsiv/2/07.pdf*

11. *https://www.deik.org.tr/uploads/gurcistan-ulke-bulteni.pdf*

12. *Kelkitli, F. (Kış 2008). "Russian Foreign Policy in South Caucasus Under Putin", Perceptions: Journal Of International Affairs.*

13. *https://kafkassam.com/soguk-savas-sonrasi-gurcistandaki-guc-mucadelesi.html*

14. *Robert H. Donaldson ve Joseph L. Nogee, The Foreign Policy of Russia: Changing Systems, Enduring Interests, M.E. Sharpe, New York, 2009.*

15. *https://insamer.com/tr/guney-osetya-ve-abhazya-sorunu_1557.html*

16. *Kırdar, Seda (2008). Conflict Resolution in Georgia: An Analysis Applying the Intractable Conflict Theory and the Governmental Politics Model. Perceptions.*

17. *Jim Nichol. Russia-Georgia conflict in August 2008: Context and implications for U.S. interests (March 3, 2009).*

18. *Balcı A. Türkiye dış politikası: ilkeler, aktörler, uygulamalar. İstanbul: Çınar Matbaacılık və Yayıncılık, 2013, 344 s.*

19. *Hüseyn Hüseynli. NATO-nun Cənubi Qafqaza doğru genişlənmə siyasətində Türkiyənin rolu// "Tarix və onun problemləri". Nəzəri, elmi, metodik jurnal. Bakı, 2017, №2, s.152-158.*


**Российский фактор в турецко-грузинских отношениях**
**(в контексте этнополитических процессов)**


Начало 21 века привело к большим бедствиям для Грузии. Всесторонняя интеграция с Западом привела к нарушению территориальной целостности Грузии. Последующие годы заставили правительство пойти на более осторожные шаги и более мягко решать этнополитический проблемы. Конечно, учет интересов России и Турции в решении этих проблем также создаст условия для восстановления территориальной целостности страны.



**Ключевые слова:** *Турция, Грузия, Россия, Саакашвили, Абхазия, Южная Осетия.*


**The Russian factor in**
**Turkish-Georgian relations**
**(in the context of ethnopolitical processes)**


The beginning of the 21st century has led to great disasters for Georgia. Comprehensive integration into the West has resulted in the violation of Georgia's territorial integrity. The following years forced the government to take more cautious steps and solve ethno-political problems in a more gentle way. Of course, taking into account the interests of Russia and Turkey in solving these problems will also create conditions for the restoration of the country's territorial integrity.



**Key words:** *Turkey, Georgia, Russia, Saakashvili, Abkhazia, South Ossetia.*

UOT 930

# XVIII ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏKİ ŞƏHƏRİNİN DAXİLİ TİCARƏTİ HAQQINDA

**NURANƏ MAZANOVA**
*Azərbaycan Universiteti İctimai fənlər kafedrasının doktorantı*

*E-mail: qasimova.nurane@mail.ru*

Şəkidə XVIII əsrin sonu XX əsrin əvvəllərində daxili ticarətin inkişaf etməsi Cənubi Qafqazda geniş ticarət əlaqələrinin mövcud olduğunu göstərir. Bu dövrdə ticarət əlaqələrinin Azərbaycanda yüksək səviyyədə olması istər orta əsrlərdə və istərsə də bəhs olunan dövrdə Azərbaycanda olmuş səyyahların əsərlərində, habelə tarixi mənbələrdə bu və ya digər şəkildə təsvir olunmuşdur.

Nadir şah Əfşarın yaratdığı Böyük Əfşar dövləti süqut etdikdən sonra Şimali Azərbaycan ərazisində meydana gələn güclü xanlıqlardan biri də Şəki xanlığı oldu. Xanlıq dövründə Şəkinin daxili ticarəti nisbətən zəif inkişaf etmişdi. Bu əhalinin istehsal fəaliyyətinin keyfiyyətcə yekcins olması ilə bağlı olmuşdur. İstehsahın ən başlıca məqsədi istehsalçıların özlərinin və yuxarı zümrənin istehlak tələbatını ödəməkdən ibarət idi. Bu baxımdan xanlıqda mübadilə prosesi hələ bütövlükdə müntəzəm ictimai təzahurə çevrilə bilmirdi. [1, s.246].

Daxili ticarətdə sənətkarların böyük rolu olmuşdur. Həm vüsətinə, həm də quruluşuna görə şəhər ticarəti əsasən sənətkarlıq səciyyəsi daşıyırdı. Əhalinin sosial strukturunda “üçüncü zümrə” nümayəndələri hesab olunan tacirlər və sənətkarların xüsusi yeri var idi. Şəki əyalətində tacirlər öz kapitalına görə üç qrupa bölünürdü. Birinci qrupa daxil olan tacirlər əsasən iri tacirlər idi. Onlar Rusiya və İranla ticarət edir, xəzinəyə pul və mustamira adlanan taxıl vergisi ödəyirdilər. Bu tacirlər əsasən taxıl və ipək ticarəti ilə məşğul olurdular. İkinci qrup tacirlər xəzinəyə pul vergisi verir və mustamira adlanan taxıl vergisi ödəyirdilər. Digər əyalətlərlə ticarət aparan bu tacirlərin sayı o qədər də çoxluq təşkil etmirdi. Üçüncü qrup tacirlər əyalətin özündə ticarətlə məşğul olan adamlar idi. Onlar Nuxa tacirlərindən müxtəlif mallar alır və satırdılar. Nəhayət, xırda ticarətlə məşğul olan alverçilər və sənətkarlar da var idi. [2, s. 47-48].

Bu dövrd ə Şəki xanı İsmayıl xanın xəzinəsinə təkcə ipəyin alqı-satqısı üçün istifadə olunan mizandan alınan vergi 2 7 000 rubla bərabər idi. Bu rəqəm Şəkidə ipəyə olan tələbatın yüksək səviyyədə inkişaf etdiyini göstərirdi. Beləliklə təkcə yerli əhalidən malcəhət olaraq toplanan 200 batman ipək, onun bir batmanın qiyməti 170 rubl olduğunu nəzərə alsaq, 34 min rubl edir .

Ticarətin aparılması və inkişafında ölkə daxilindəki körpülər, karvansaralar və ovdanlar da əhəmiyyətli rol oynayırdı. Körpülər, adətən, çayların dar keçidlərində tikilirdi. Çoxlu qazanc götürmək və ticarəti inkişaf etdirmək məqsədi güdən yerli hakimlər karvansaraları özləri üçün münasib yerlərdə, əsasən də karvan yollarında tikdirirdilər. Karvan yollarındakı karvansaralar icarət yolunun ağzında olan körpülərin yaxınlığında yerləşirdirilirdi. Dövrün müasirlərindən P. Zubov Azərbaycanda yolboyu çoxlu karvansaraların, yaxud onların qalıqların olduğunu yazırdı ki, bu da bəhs olunan ərazilərdə ticarətin inkişaf etdiyini sübut edir [4, s. 77].

Karvansaralar başlıca olaraq gəlmə tacirlərə xidmət edir və nəinki sığınacaq və müdafiə üçün, həm də anbar, yaşayış yeri, malların satış yeri və tövlə kimi istifadə olunurdu. Karvansaralar xanlığın təkcə ticarət yollarda deyil, şəhərdə də inşa edilirdi. Şəki şəhərində Gəncə, Təbriz, Şamaxı, Ləzgi, Erməni karvansaraları var idi. [5, s. 66]. Bu karvansaralar qarət və qətillərin qarşısının alınması üçün qala kimi tikilirdi. Aşağı mərtəbələrdən anbar kimi istifadə olunur, yuxarı mərtəbələrdə tacirlər qalırdılar. Gecələr karvansaraların darvazaları bağlanırdı. [6, s. 15]. Karvansaralar xanlar və xüsusi şəxslər tərəfindən inşa olunur və icarəyə verilirdi. Karvansaraları icarəyə götürən icarədarlar öz qazanclarının beşdə bir hissəsini xəzinəyə vergi verməli idilər. [ 5, s. 67 ].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Şəki

xanlarından Məhəmmədhəsən xan eyni zamanda Şəkidə ən varlı tacir idi. 1826-cı ildə vaxtilə Məhəmmədhəsən xana məxsus olmuş mülklərin siyahısı tərtib olunmuşdu. Siyahıya Məhəmmədhəsən xanın varislərinin istifadəsində olan və xəzinəyə verilən mülklər daxil edilmişdir. Bu siyahıya görə Məhəmmədhəsən xana atasından Şəki şəhərində 264 dükan, 11 üzüm bağı, 222 tut bağı, 135 tağar düyü (1 tağar düyü = 10 pud düyü) əkin yeri, 591 tağar buğda və arpa (1 tağar arpa = 45 pud arpa) əkin yeri, 11 dəyirman miras qalmışdı [7, s. 117].

Şəhərdə bazarlara darğalar nəzarət edirdilər. Darğa bunun müqabilində bazardan toplanmış darğalıq pulu alırdı. Bazarda çox qələbəlik olduğundan, oradan dövlət, ictimai, dini və başqa tədbirlər üçün də istifadə olunur, xanın fərmanları və başqa elanlar oxunurdu. Carçılar xanın əhalinin xan üçün ictimai işlərə çıxması, düşmən basqını olan zaman baş verə biləcək təhlükə haqqında məlumatını da bazarda car çəkməklə bildirirdilər [5, s. 67].

XVIII əsrin sonu XIX əsrin əvvəllərində şəhərdə fəaliyyət göstərən 417 dükan və sənətkar emalatxanasından 103-ü karvansaralarda, qalanları isə dalan bazarlarda və digər yerlərdə satılırdı [8, s. 46].

Şəkidə həm xanlıq dövründə və həm də işğaldan sonrakı illərdə xanlığın özündə zərb olunan metal pullarla yanaşı Şirvan abası, Qarabağ pənahbaşı, Qacar sahibkarını, Rusiya gümüş və mis pulları, habelə holland və hind rulları dövriyyədə idi. Şəkidə pul kəsmək üçün zərbxana var idi. Burada gümüş abbasılar və fulus adlanan mis pullar kəsilirdi [9, s. 53]. İstifadədə olan xan gümüş pulları çürük və 20 qəpiklik abasi idi. Bundan başqa xan qarapulu və yaxud beşqəpiklikdən də istifadə olunurdu. Bir çürük Rusiya 8 gümüş qəpiyinə bərabər idi. Şəki şəhərində, habelə Şəki və Ərəş mahallarında Hüseyn Məhəmmədhəsən xanın və İsmayıl xanın bir abası Rusiya 11,5 gümüş qəpiyinə, 36 mis qəpiyinə, bir çürük isə Rusiya 30 mis qəpiyinə bərabər tutulurdu. Şirvan bir abası Rusiya 12 qəpiyinə, Qarabağ pənahbaşı Rusiya 20 qəpiyinə, Qacar sahibkirən isə Rusiya 40 qəpiyinə, mis qarapul Rusiya 2 qəpiyinə, Hollandiya bir çervonu 3 rubl 11,5 qəpiyə, 8 rubl 10 qəpik çürüyə, bir rus gümüş rublu 2 rubl 60 qəpik çürüyə bərabər tutulurdu və xəzinəyə qəbul edilirdi. Şəki bazarlarına alverə gələn dağıstanlılar buradan Rusiya gümüş rublları və onşahılıq (əlli qəpiklik) poltinnikləri özləri ilə Dağıstana aparırdılar. Çervon pullar həm şəhərin özündə və vilayətin mahallarında mübadilə vasitəsi idi [10, s. 392].

Şəki şəhərində çəki vahidləri müxtəlif idi və Rusiya, Qacar və yerli Şəki çəki daşlarından istifadə olunurdu. Rusiya çəki daşları ilə Rusiyadan və Tiflisdən gətirilən dəmir, Avropa şəkəri, qurğuşun, naşatır və sair mallar çəkilirdi.[10, s. 389].

Saadda adlanan Qacar tərəzisi mis tərəzi gözləri və tərəzi daşlarından ibarət balaca tərəzidir. Tərəzi daşlarının ən irisi 10 Qacar, yaxud 109 Rusiya zolotniki (1 zolotnik = 4,3 qr) ağırlığındadır. Çəki daşlarının ən xırdasının ağırlığı 1 zolotniyə bərabərdir. Bundan əlavə bir zolotniyin 1/2, 1/4 və 1/5 ağırlığında balaca lövhəciklərə bənzər çəki daşları olur. Bir Rusiya funtu 88 Qacar zolotniyinə bərabərdir. Şəki şəhər bazarında saada tərəzisi ilə çervonlar, gümüş, ipək sapları, boya maddəsi və sair mallar çəkilirdi. [10, s. 389].

Şəki çəki daşları maydan, mizan və 48 stillik sakat batmanlarından ibarətdir. Maydan stili Qacar 75 zolotniyi və yaxud Rusiya 81,5 zolotniyi ağırlığındadır. Mizan stili Qacar 45 zolotniyinə, Rusiya 49 zolotniyinə, sakat isə Qacar 25 zolotniyinə və yaxud Rusiya 38 zolotniyinə bərabərdir [10, s. 389].

Kənd bazarlarındakı çəki vahidləri də Şəki şəhər çəki vahidləri ilə uyğun gəlmirdi. Belə ki, Qutqaşen batmanı ½ maydan batmanına bərabər idi. Mizan çəkisi də Şəkinin mahallarında eyni deyildi. Ağdaş mizan batmanı maydan batmanından 6 stil, Qutqaşen mizan batmanı maydan batmanından 16 stil, Ərəş mizan batmanı maydan batmanından 20 stil ağır idi. Maydan çəki daşları ilə adətən ət, buğda, yağ, pambıq, yun, xırda dəmir parçaları və sair mallar satılırdı, mizanla ipək, Avropa şəkəri, polad, barıt, qalay, bütün maye halındakı mallar, sakatla isə Qacar şəkəri, ədviyyat və boya satılırdı. [10, s. 389].

Qeyd olunmalıdır ki, yerli çəki daşları ciddi inam doğurmurdu. Belə ki, hərəsi çəki daşları özləri istədiyi kimi düzəldirdi. Çəki daşları əvəzinə çay daşlarından, dəmir qırıntılarından, mahal bazarlarında isə qurudulmuş sümüklərdən istifadə edlirdi. Taxıl tağar, hais və çanaxla ölçülürdü. Bunlar da Şəki və Ağdaşda müxtəlif idi. Şəki tağarı 6 böyük çanağa, yaxud 10 hais və yaxud da 20 çanağa, Ağdaş tağarı isə 10 hais və yaxud 30 çanaxa bərabər çəki vahidi idi. Şəki tağarı Rusiya çəki ilə 18 pud buğda, 15 pud arpa, 21 pud düyü, 13 pud 11 fund yulaf, 13 pud 35 fund çəltik, Ağdaş tağarı isə 12 pud buğda, 10 pud arpa, 9 pud 9 fund çəltik çəkisinə bərabər hesab olunurdu. [10, s. 390].

Şəkidə istifadə olunan arşın Rusiya arşınının (1 arşın = 1/3 sajen = 4 çetvert = 28 dyum = 71,12 sm.) 4/5 hissəsi uzunluğunda (56,89 sm) idi. Sajen uzunluğundakı (1 sajen = 2, 1336 m) kulaçdan nadir hallarda istifadə edilirdi.

Qafqazda, o cümlədən Şəkidə 1832-ci ilin avqustun 2-də imperiya çəki və ölçü vahidlərinə keçilməsi haqqında qanun qəbul edildi [11, s. 538-539 ]. XIX əsrin 40-cı illərində həddindən artıq müxtəlif olan ölçü və çəki sistemlərinin vahid imperiya ölçüləri ilə əvəz olunmasına başlandı.

Ticarət pərakəndə və topdansatış qaydada aparılırdı. Qacar dövlətindən buraya özünün yerli malları ilə yanaşı həm də Qərbi Avropa malları gətirilirdi. Qərbi Avropada istehsal olunmuş parçalar və metal məmulatın Hörmüz körfəzi vasitəsilə gətirilərək yerli və Cənubi Azərbaycanın sənətkarlıq məhsulları ilə birlikdə Xəzərin cənubi limanlarından, dəniz vasitəsilə Bakıdan, Salyandan keçirilərək Muğan düzü ilə Azərbaycanın şəhərlərinə aparılırdı. Bunun çox hissəsi Şəki bazarına aparılır, oradan isə Dağıstana göndərilirdi. Osmanlı dövlətindən gətirilən yerli və Fransa malları Naxçıvan və Tiflisdən Şəkiyə çatdırılırdı [5, s. 69].

XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəlləri Rusiyanın Cənubi Qafqazda bərqərar olduğu dövr rus toxuculuq sənayesinin xammala güclü ehtiyac olduğu vaxta düşürdü. Rusiya-Qacar və Rusiya-Osmanlı müharibələrinin Rusiya üçün uğurla başa çatması rus tacirləri və sahibkarları içərisində ticarət-iqtisadi müdaxilə obyekti kimi Cənubi Qafqaza güclü maraq oyadırdı. 1819-cu ildə polkovnik rütbəsində istefa verdikdən sonra ticarətlə məşğul olmağa çalışan tanınmış rus sahibkarı knyaz A.B. Qolitsın 1829-cu ildə ipəkçilik sahəsində səhmdar cəmiyyəti təsis etmək layihəsi ilə çıxış etdi. Layihədə Cənubi Qafqazda ticarət tədbirlərinin etibarlılığının və böyük sərmayələrin faydalı şəkildə sərf edilməsinin təmin edilməsi göstərilirdi [12, s. 59].

1827-ci ildə Xanabadda, Cənubi Qafqazda ilk dəfə olaraq ipək sarıma müəssisəsi açıldı. Bu müəssisədə ipək sapın əldə edilməsi prosesi kustar şəkildə yerinə yetirilirdi [13, s. 72].

İtalyan əsilli Kastellonun ipək sarıma usülunun Cənubi Qafqazda, o cümlədən Şəkidə öyrədilməsinə başlandı [14, s. 60]. Lakin Cənubi Qafqaza gəlmiş xarici mütəxəsislərinin təqdim etdiyi ipəksarıma üsulun tətbiqinə baxmayaraq, yerli kümdarlar adət etdiyi köhnə qaydalara biganə qalmırdı.

Rusiyada ipək toxuculuğunun inkişafı ilə əlaqədar olaraq, Şimali Azərbaycanda xam ipək hasilatının və ipək ticarətinin sürətlə artması nəzərə çarpırdı. 1833-cü ilin kameral siyahıya almaya görə Nuxa şəhəri də daxil olmaqla 21 624 ailənin sakin olduğu əyalətdə illik ipək hasilatı 6 000 puddan çox olmuşdur. [15, s. 161-165]. XIX əsrin ortalarına dair məlumata görə Şəki əhalinin ipəkçiliklə məşğul olduğu 16 344 nəfərin istifadəsindəki 225 desyatin torpaq sahəsində 10 300 000 tut ağacı var idi. Şəhər kümxanalarında ildə 250-300 pud ipək istehsal olunurdu. [13, s. 71].

1836-cı ildə Peterburqda Şəki əyalətində ipəyin becərilməsi üçün cəmiyyət yaradıldı. Hökumət tərəfindən Şəki əyalətində 585 ailəyə məxsus boş torpaq sahələri və habelə onların istifadəsindəki tut bağları 30 illiyə həmin cəmiyyətə verildi. Xalis kommersiya məqsədilə fəaliyyət göstərən cəmiyyət ipəkçiliyin inkişafı üçün nümunə olmalı idi. 1843-cü ildə cəmiyyətin Şəkidə 4 illik ipəkçilik məktəbi açıldı. Bu məktəbə həmin 585 ailənin uşaqları götürülürdü və onlara birincisi boş torpaq sahələrində tut bağlarının salınması, ikincisi ağaclar düzgün qulluq göstərməyi, barama qurdlarının bəslənməsi, cinslərin İtaliya və Çin cinsləri ilə yenilənməsi və nəhayət baramalardan ipəyin düzgün sarınması öyrədilirdi. [16].

1824-cü ildə əsasən kənd təsərrüfatı və sənətkarlıq məhsullarının satıldığı Şəkidə 400-dən çox dükan və həftə bazarları fəaliyyət göstərirdi. Şəhərdə 503 nəfər birinci, 389 nəfər ikinci, 138 nəfər üçüncü dərəcəli tacir, 4 141 nəfər xırda alverçi və sənətkar çalışırdı [2, s. 48].

XIX əsrin 20-ci illərin sonuna yaxın Cənubi Qafqazda 17 rəhdar vergisi və sənətkarlıq məmulatları üzərində qoyulan 120 müxtəlif rüsumlar alınmaqda davam edirdi [12, s. 63]. "Belə rüsumlardan çar xəzinəsinə Şəki əyalətindən 10 min gümüş rubl daxil olmuşdu". Bu sətirlərin müəllifi rəhdar vergisinin hələ ki, tamamilə ləğv olunmasının yaxın gələcəkdə qeyri-mümkün olduğunu göstərirdi [14, s. 60].

1827-ci ildə ildə Şəkidə Şirvandan gətirilən 36 min rublluq ipək parça, qumaş, arşınmalı, dəsmal, yaylıq və örpək, 13 min rublluq mis qablar, 600 rublluq dəmir bel, yaba və sair mallar, Qarabağdan gətirilən 400 rublluq pambıq parça, Yelizavetpoldan gətirilən 2 min rublluq ipək arşınmalı, 8 min rublluq zəy, Qubadan gətirilən 500 rublluq xalçalar, 300 rublluq qaysaq kəndiri, 1 500 rublluq qızılboya (marena) (qızılboya Tiflisdə satılmaq üçün

gətirilmişdi), Bakıdan gətirilən 8 min rublluq neft, 10 min rublluq duz, 1 700 rublluq dəmir, Tiflisdən gətirilən 20 min rublluq Rusiya və Avropada istehsal olunan pambıq və ipək arşınmalı, metal əşyalar, daş və şüşə qablar və sair mallar satılmışdı. [10, s. 386].

1827-ci ildə Dağıstandan Şəkiyə 100 min rubl dəyərinə yapıncı, keçə ayaqqabı, mahud, tüfəng, tapança, xəncər, barıt, qalay, mis, yun gətirilmiş, Şəkidən isə 150 min rubl dəyərində mal aparılmışdı [17, s. 101]

Məlumata görə Şəkidə 1827-ci ildə 166 tacir fəaliyyət göstərirdi. Onların dövriyyədəki kapitalı min rubldan 20 min rubla çatırdı. 10 nəfər tacirin dövriyyədəki kapitalı daha çox idi. Şəkililər faizə pul götürərək ticarətlə məşğul olmağa üstünlük vermirdilər. Az-az adam tapılardı ki, faizlə pul götürərək ticarətlə məşğul olsun. Faiz 10-dən yuxarı qalxmırdı və ilin axırı ödənilirdi [10, s. 386].

XIX əsrin əvvəllərində Şəkinin böyük kapitala malik olan 46 taciri Təbriz və Həştərxan şəhərləri ilə sıx ticarət əlaqələri saxlayırdı [8, s. 46]. Şəki tacirlərindən 15 nəfəri yalnız Təbrizlə ticarət edirdi. Təbrizdən gətirilən Qacar və Avropa malları Şəki bazarlarında yaxşı satılırdı və yaxşı gəlir verirdi. Şəkililərdən ipək ticarəti ilə məşğul olan üç nəfəri Tiflisdən keçərək Moskva və Nijeqorod yarmarkalarına gedir və yalnız nağd pulla qayıdırdılar. Şəkidə ticarətə girişən ermənilərdən 5-i Həştərxandan, 6-sı isə Tiflisdən mal alaraq Şəkidə satırdı. Şəkidə həmçinin Vartaşen yəhudiləri də ticarətlə məşğul olurdular. Vartaşen yəhudiləri yalnız kənd bazarlarında xırda ticarətlə məşğul olurdular. Onlar malları Şəki şəhərindən, Şirvandan və hətta Bakıdan gətirirdilər. Xanlıq dövründə Şəkiyə ticarətə gələnlər öz mallarını pərakəndə və topdan satış şəklində sata bilərdi. [10, s. 387].

Şəkinin ipək ticarətinin mərkəzinə çevrilməyə başlanması həm də buraya gələn çoxsaylı tacirlərin fəaliyyəti hesabına baş verirdi. Bu həmçinin Şəkidə ipək istehsalının ötən illərə nisbətən daha da çoxalması ilə izah olunurdu. Şəki şəhərinin yalnız özündə 1830-cu ilin məlumatına görə 40 tacir ipək ticarəti ilə məşğul olurdu [18, s. 36].

Şəkidə olmuş fransız səyyahı Düma yazırdı: "Şəhərdə küçənin hər iki tərəfində yan-yana düzülmüş sadə, lakin Şərq üslubunun zəngin cizgilərinə malik dük anlarda alver edən və demək olar ki, bir-birindən heç nəylə fərqlənməyə, üstün olmağa can atmayan tacirlər yalnız bir növ mal satırdılar, iki növdə mal satana heç rast gəlmədik – bir dükanda qılınc, xəncər, tapança və Quba istehsalı olan tüfənglər, başqa birində Şamaxı xalçaları, o birində isə dağ kəndlərindən gətirilən barama və yaxud əyrilmiş ipək sap kələfləri satılırdı". [19, s. 257].

Kənardan gələn tacirlərin Şəki şəhərində özlərinin müştəriləri olurdu. İpək almaq üçün Şəkiyə əsasən Tiflisdən, İrəvandan, Naxçıvandan, Ordubadın Əylis kəndindən tacirlər gəlirdilər. Tiflis, Naxçıvan və İrəvandan gələn tacirlər Şəkidən aldıqları ipəyi Türkiyədə satmağa aparırdılar. 1830-cu ildə Şəkidən 1 150 rubldan çox qiymətinə həmin tacirlər tərəfindən yalnız ipək satın alınmışdı [18, s. 36].

Şimali Azərbaycanın işğalından sonra müəyyən sabitlik bərqərar olmasına baxmayaraq xanlıqların yerini əyalətlərin tutduğu komendant üsulu-idarəsi dövründə əyalətlər arasında rəhdar rüsumları qalmaqda davam edirdi. Rəhdar deyilən vergilərin qalması ticarətin inkişafına əngəl törədirdi. Lakin bu əngəllər ticarət əlaqələrin və əməliyyatların genişlənməsinə güclü təsir göstərmirdi. Şimali Azərbaycanın ayrı-ayrı bölgələrində, o cümlədən Şəkidə yeni-yeni ticarət məntəqələri yaranır, ticarət müəssisələrinin sayı və dövriyyəsi çoxalır, ayrı-ayrı rayonlar arasında əmtəə mübadiləsi genişlənir, əmtəə-pul münasibətləri inkişaf edirdi [18, s. 32].

**Açar sözlər:** *Şəki, tarix, ticarət, xanlıq, ipək, istehsal, təsərrüfat*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan tarixi. Azərbaycanın Rusiyaya birləşdirilməsindən 1917-ci ilin fevral burjua-demokratik inqilabına qədər. 2-ci cild. – Bakı: Azərbaycan SSR EA, 1964, 1001 s.*

*2. İsmayılov M. Şəki. Tarixi oçerk. Bakı: Azərnəşr, 1982, 117 s.*

*3. Броневский С.Б. Новейшие географические и исторические о Кавказе. Часть 2. Москва: Типография С. Селивановского, 1823, 465 с. / s. 441*

*4. Зубов П. Картина Кавказского края, принадлежавщего России и сопредельных оному земель. В историческом, статистическом, этнографическом, финансовом и торговом отношениях. В 4-х частях. Часть четвертая. СПб.: Типография Конрада Вингебера, 1835, 308 с.*

*5. İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı: Azərnəşr, 1997, 76 s.*

*6. Əfəndizadə R. Şəki torpağında ipəkçilik tarixi haqqında materiallar // Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi, f. 1, iş 1993,*

*7. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI — начале XIX вв. Ленинград: Издательство Ленинградского государственного ордена Ленина университета имени А. А. Жданова, 1949, 380 с.*

*8. Mustafayev C. Şəki şəhəri xanlıqlar dövründə // "Azərbaycan xalçaları" jurnalı, cild 6, № 19, 2016, s. 39-49*

*9. Зейналова М. Материалы Шекинского ханства в коллекции Музея национальной истории Азербайджана // Azərbaycan xalçaları, cild 6, № 19, 2016, s. 50-55*

*10. Обозрение Российских владении за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовым отношениях. Часть 3. СПб.: Типография департамента внешней торговли, 1836, 397 с.*

*11. О введении в Грузии и Закавказском крае российских мер и весов // Полное собрание законов Российской империи. Собрание 2-е, Том 7-е, 1832 год. СПб.: Типография 2-й отделении собственной его императорского величества канцелярии, 1833, закон 5 535,*

*12. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: Elm, 2007, 504 s. + 48 s. illüstrasiya*

*13. Краткий очерк некоторых городов Кавказского и Закавказского края // Кавказский календарь на 1850. Отделение 3. Тифлис: Типография канцелярии наместника Кавказского, 1849. s. 70-72*

*14. Евецкий О. Статистическое описание Закавказского края. СПб.: Печатано в типографии штаба отдельного корпуса внутренней стражи, 1835, 306 с.*

*15. Шавров Н. Н. Очерк шелководства в Закавказьи // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. T.IV. Тифлис, 1888, 892 с.*

*16. Шелководство на Кавказе и за Кавказом // "Qafqaz" qəzeti, 13 iyul 1851-ci il, № 53*

*17. Магомедов Н.А., Магарамов Ш.А., Абдусаламов М.Б. Развитие торговли Дагестана с Азербайджаном через Дербент (XVIII – первая половина XIX в) // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2015, №11 (61). В трех частьях, часть 3, с. 96-103*

*18. Сулейманов Дж. Р. Торговые связи Азербайджана с центральной Россией в первой половине XIX в. Автореферат кандидатской диссертации. Баку: 1975, с. 36*

*19. Düma A. Qafqaz. Bakı: Qafqaz, 2010, 496 s. +58 s. illüstrasiyalar*

## THE INTERNAL TRADE OF THE CITY OF SHAKI THE END OF THE XVIII- ON IN THE EARLY XX CENTURY

**Summary**

The article considers the domestic trade of Sheki in the late 18th and early 20th centuries. The consistnt development of domestic trade in Sheki has has huge impact of the high quality silk production. After the flood of 1772, the city of Sheki, which was almost rebuilt, became one of the largest trade centers in the South Caucasus as a result of immediate proactive trade operations.

**Keywords:** *Sheki, history, trade, khanate, silk, production*

## О ВНУТРЕННЕЙ ТОРГОВЛЕ ШЕКИ КОНЕЦ XVIII - В НАЧАЛЕ XX ВЕКА

**Аннотация**

В статье рассматривается внутренняя торговля Шеки в конце 18 - начале 20 вв. Постоянное развитие внутренней торговли в Шеки сыграло важную роль в производстве высококачественного шелка.Город Шеки, который был практически заново построен после наводнения 1772 года, стал одним из крупнейших торговых центров Южного Кавказа в результате быстро осуществлённых торговых операций.

**Ключевые слова:** *Шеки, история, торговля, ханство, шелк, производство*

UOT 1:2; 141.45

# Fəlsəfə

## XIX ƏSRİN SONU XX ƏSRIN ƏVVƏLLƏRİNDƏ PANİSLAMİZM VƏ ONUN QAFQAZDA YAYILMASI

**RƏŞAD CABAROV**
*Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müəllimi. Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının doktorantı*
*E-mail oguz.azercell@mail.ru*

Panislamizm dedikdə ilk ağla gələn isim Seyid Cəmaləddin Əfqani və onun fikirləridir. O, XIX əsr İslam dünyasının mühüm simalarından biridir. Camal əl-Din Əfqani jurnalist və tənqidçi olmaqla yanaşı, hər şeydən öncə böyük bir islamçı və siyasətçidir. Əfqaninin islam ölkələrində baş verən siyasi hərəkatlara böyük təsiri olmuşdur (2). Əfqani, Qərb və onun tərəfdarlarının, ümmətə verdikləri zərərlərdən xəbərdar idi və o, bu prosesin uzanacağına inanırdı. O, Qərb islam dünyasına ekspansiyasının çox vüsət aldığı bir dövrdə yaşamışdır. XIX əsrin sonunda Şərq və Avropa xalqları arasında imperializmə qarşı mübarizə mühüm bir məsələyə çevrildi. İmperializm beynəlxalq bir qüvvə olduğundan şərq xalqları da beynəlxalq qüvvə kimi çıxış etməli idilər. Onun elmi, praktiki, fəlsəfi, ideoloji və siyasi prinsiplərini yaratmaq lazım idi. Şərqdəki bu tarixi missiya, azadlıq və müstəqillik ideologiyasını qurmaq Şeyx Cəmaləddin Əfqaninin üzərinə düşdü. Cəmaləddin Əfqani, İslam aləminin zəifləməsi və parçalanmasının səbəbləri və bu vəziyyətdən çıxış yolu axtarmağı həyatının mənası olaraq görürdü. Gələcək üçün faydalı olan ideyaları canlandırmaq, qüsurları aradan qaldırmaq və millətləri imperializmə qarşı mübarizədə birləşdirməyə çağırmaq zəruri idi. Onun fikirlərindən biri İslam xalqlarının birliyi (panislamçılıq) ideyası idi və o Azərbaycan dövlətinin görkəmli xadimi, hərbiçi və mütəfəkkir Nadir Şah Afşar tərəfindən tətbiq olunan İslam birliyinin ideyasını genişləndirərək, Avropa hökmranlığına qarşı mübarizəyə çağırdı. Əfqani "İslam birliyi milli bir birlik olaraq qəbul edilməməli, siyasi bir birlik, ittifaq olaraq qəbul edilməlidir (10, 195) fikrini irəli sürürdü. Şərqdə milli inkişaf ideyasının müəllifinə çevrilən Əfqani "Milli Birliyin Fəlsəfəsi və Dil Birliyinin Həqiqi mənası" adlı məşhur işində yazırdı ki, xalqının rifahına nail olmaq istəyən hər kəs ilk növbədə özünü bilməli, atalarını bilməli, dilinə və dininə bağlı olmalıdır (6, 186). Əfqani eyni zamanda bir islahatçı idi. O, deyirdi: "insanları yüksəltmək üçün iki yol var:" milli zəka və ideologiya " (4, 24).

Əfqani "Ziyazi-Qafqaz" qəzetində tez-tez çıxış edir və 1898-ci ildə Bakıda mühazirələr söyləyirdi. Bu səbəbdən Əfqaninin fikirlərinin Azərbaycan alimlərinin ideyalarına birbaşa təsiri olmuşdur. Şeyx Cəmaləddin müsəlman xalqlarının imperialist dövlətlərə qarşı mexaniki birləşməsini müdafiə etmir, müsəlman xalqlarının bütün milli kimlik şüuruna sahib olmasını zəruri hesab edirdi" (15, 55). Bu dövrdə Misirdə şeyxin ideyaları üçün məhsuldar bir siyasi mühit var idi. Ərəb millətçiliyinin formalaşmasında mühüm rol oynayan Şeyx Cəmaləddin ingilislərə qarşı təbliğatını möhkəmləndirir, Misirdə İngilis müstəmləkə siyasətini sərt şəkildə tənqid edirdi. Şeyxin hərəkətlərindən ehtiyatlanan ingilis komissarı, onu 1879-cu ildə Misirdən çıxarmaq qərarına gəldi.

Cəmaləddin Əfqaninin fikirləri bütün şərqdə yayıldı və siyasi panislamizmin təşkilatlanmasına təkan oldu. Panislamist siyasi partiyalarının yaranması XIX əsrin sonlarına - XX əsrin əvvəllərinə aiddir. Bu dövrdə onlar böyük müsəlman dövlətlərinin ərazisində fəaliyyət göstərirdilər. Bununla yanaşı Fransa və Britaniya koloniyaları Rusiyada müsəlman əhalisi sıx olan bölgələrdə fəaliyyət göstərirdilər. Rusiyada panislamçıların siyasi fəaliyyətinin müxtəlif tərəfləri Daxili İşlər Nazirliyi, polis bölmələri və qeyri-pravoslav konfessiyalarının mənəvi işləri ilə bağlı qurumlar tərəfindən araşdırılırdı.

Araşdırma orqanlarının arxivlərində bu məsələ ilə bağlı bir sıra sənədlər analitik qeydlər, islamçı nəşrlərin tərcüməsi, gizli agentlərin hesabatları, kəşfiyyat hesabatları var idi.

Çar xüsusi xidmət orqanları hesab edirdi ki, Rusiya İmperiyasında Panislamizm bir neçə mənbəyə malikdir. Hökumətə qarşı olan sosial-siyasi fikirlərin

tendensiyasının bir hissəsi olaraq ortaya çıxdıqdan sonra, Panislamizm xaricdən təsirlənərək, siyasi İslam ideologiyasına çevrilməsi istiqamətində qlobal prosesin bir hissəsi oldu. Müsəlman ziyalılarının müsəlman ölkələrində dövlət və siyasi quruluş təcrübələrini öyrənmək arzusu onları Osmanlı İmperiyası, İran, Əfqanıstan və Misirdəki fikir insanları ilə təmas qurmağa yönəldirdi. Rusiyalı panislamçıların məqsədləri bir xəlifənin hakimiyyəti altında tək bir İslam dövləti qurmaq idi. 1897-ci ildə ən az 14 milyon olan Rusiya müsəlmanları maddi cəhətdən daha yaxşı vəziyyətdə idi və xaricdən maliyyə dəstəyi almırdılar. Əksinə, onlar XX əsrin əvvəllərində müntəzəm olaraq hərbi məğlubiyyətə məruz qalan Osmanlıya kömək edirdilər. Beləliklə, Rusiya Polis İdarəsinin Konstantinopolis Bürosunu məlumatına görə, yalnız 1912-ci ildə Rusiya müsəlmanları 4 milyondan artıq qızılı Osmanlı ordusunun ehtiyacları üçün köçürmüşdülər (8, 83).

XX əsrin əvvəllərində siyasi islamın inkişafında iki ciddi irəliləyiş baş verdi. Birincisi, 1905-1907-ci illərdə bir çox müsəlman imperiyanın siyasi proseslərinə cəlb edildi. Rusiya müxalifəti 1917-ci il inqilabına qədər Panislamçılar ilə əlaqə saxlayırdı. İmperiyada bu hərəkatın tanınmış liderlərindən biri, müxtəlif dövrlərdə Sankt-Peterburq Panislamçılar Komitəsinə rəhbərlik edən və sonra İstanbul Panislamçılar Mərkəzi Komitəsi inqilabçı sosialistlərdən Əbdürrəşid İbrahimov idi. O, sosializm və islamçılığın birləşməsi imkanlarını ciddi şəkildə araşdırırdı. Rusiya Müsəlmanları siyasi mübarizə təcrübəsini təkcə imperiyada deyil, həm də İran və Türkiyədəki inqilabi partiyalarla əlaqə saxlamaqla artırırdılar.

Panislamçılığın intensivləşməsində ikinci amil müharibələrdə, 1911-1912-ci illərdə İtalyan-Türk və 1912-1913-cü illər Birinci Balkan müharibələrində Sultan ordusunun məğlubiyyətləri idi. 1913-cü ildə "Müsəlmanlıq" jurnalının rusiyalı naşiri Məhəmməd bəy Hacətlaşe, polis bölməsi müdiri Stepan Beletskiyə yazırdı ki, panislamçı fikirlərin radikallaşdırılması 1912-ci ildə Türkiyənin məğlubiyyətinə və Avropalıların bir sıra yerləri ələ keçirilməsinə bir dini, siyasi və ideoloji cavabdır (4).

İtalyan-türk müharibəsi müsəlmanların dini həyəcanını oyandırmış, Tunis, Əlcəzair, Misir və hətta Hindistanda panislamçıları narahat etmişdir. Rusiyanın İstanbuldakı səfiri Peter Çarikov "İtaliya hökumətinin Tripolidə xüsusi maraqlarını təmin etmək qərarının müsəlman subyektlərində, xüsusilə də Fransa, İngiltərə və Rusiyaya malik olan ərazilərdə gözlənilməz, siyasi və inzibati çətinlik yaradır" (4, səh?).

Romada olan Rusiya səfiri Osmanlıya qarşı Ərəb üsyanının Afrika və Asiyadakı panislamçılıqla mübarizə aparmaq üçün İngiltərə tərəfindən dəstəkləndiyinə inanırdı. 1911-ci ildə Rusiyada və Fransada eyni vaxtda panislamizmlə mübarizə üzrə idarələrarası komitələr yaradılmışdı.

Daxili İşlər Nazirliyinin Təhlükəsizlik Müdirliyi Nil Zuevin rəhbərliyi altında, panislamçı təhdidləri ətrafında aktiv şəkildə araşdırma fəaliyyətini inkişaf etdirməyə başlayır. Bölmənin 18 dekabr 1910-cu il tarixli gizli sirkulyasiyasında regional siyasi kəşfiyyat orqanlarının rəhbərləri qarşısında (təhlükəsizlik şöbələri və jandarma ofisləri) aşağıdakı vəzifələr qoyulur; 1) müsəlman əhalisinin əhval-ruhiyyəsini izləmək üçün, xüsusilə müsəlman əhalisi ilə sıx təmasda olan həm məktəb müəllimlərinin və həm də mollaların fəaliyyətinə diqqət yetirmək; 2) panislamçı nəşrlərin fəaliyyətini, həmçinin panislamizm ədəbiyyatının bütün formaları ilə davamlı tanış olmaq (11, 132).

Hər il, imperiyanın polis departamentində 74 saylı "Panislamizmə dair" xüsusi bir iş hazırlanırdı. Birinci Dünya müharibəsi dövründə, bir sıra ümumiləşdirici analitik qeydlər ortaya çıxmışdı ki, burada bütövlükdə Panislamizmin inkişaf tendensiyalarını və təhdidlərini qiymətləndirməyə çalışılırdı. Daxili rus inqilabçı hərəkatının bir hissəsi olaraq panislamçılıq haqqında düzgün nəticənin əldə edilməsi üçün Rusiya xarici kəşfiyyat xidmətlərinin rolunu müəyyən etməyə çalışırdı (9, 169-172).

Panislamizmə qarşı mübarizənin iki istiqaməti inkişaf etmişdir: iqtisadi və mədəni-təhsil. Birinci şöbə müdiri Yevgeni Klimoviçin 9 may 1916-cı il tarixli gizli sirkulyarı əsasında işlənilib hazırlanmışdı. Burada jandarmalardan tələb edilirdi ki, Dövlət Dumasının Müsəlman fraksiyasına maliyyələşdirmə mənbələri dərhal kəsilsin və panislamistlərin əhalidən pul toplamaq imkanları aradan qaldırılsın. İkinci istiqamət bu Hacətlaşe tərəfindən təqdim edilən aşağıdakı tədbirlərdən ibarət idi: 1) ərəb, azərbaycan, fars, türk, tatar və rus dillərində müsəlman ədəbiyyatının yayılması üçün yaxşı təchiz olunmuş nəşriyyat qurmaq; 2) müsəlmanlar üçün həftəlik bir qəzet hazırlamaq, bu, Rusiya ideyalarının və hökumətin niyyətlərinin təbliğçisi olacaqdı. Belə bir nəşr ilə Panislamçıları Alman və Türkiyə kəşfiyyatının agentləri kimi göstərmək və onların planlarını ləğv etmək təklif edildi. Rusiyanı müsəlmanların Osmanlı İmperatorluğuna alternativ

kimi göstərilməsi nəzərdə tutulurdu (3, 146-147) .

Cəmaləddin əl-Əfqani (1839-1897) 1890-1900-cü illərdə beynəlxalq panislamçılığın ilk böyük fikir atası idi. Onun fikiləri Misir, Sudan, Somali, Mərakeş, Əlcəzair və Liviya, Hindistan və Sumatra, İran, Türkiyə və ərəb torpaqları, Əfqanıstan, Avropalıların müstəmləkəçilik siyasətindən təzyiq altında, eyni zamanda, müxtəlif bölgələrə yayılmışdı. Nəhayət, bu fikirlər Rusiya imperiyasına da çatmışdı. 1904-1905 illərində liberal müxalifətin iştirakı ilə görkəmli tatar və müsəlman ictimai xadimləri Əbdürrəşid İbrahimov, İsmayıl bəy Gasprinskiy, Yusuf Akçurin, Əli Mərdan bəy Topçubaşov və Abdullah və Gubeydullah Bobinski qardaşlarının rəhbərliyi altında müsəlman ziyalılar müsəlmanları konsolidasiya etməyə çalışırdılar. Panislamizmin siyasi qüvvə kimi formalaşmasının mərkəzi hadisəsi 1905-ci il avqustun 15-də Gustav Struve gəmisində Nijni Novqorod şəhərində baş tutan ilk müsəlman konqresidir. Konqresin qətnaməsi iştirakçıların aşağıdakı arzularını əks etdirdi: Rusiyanın müsəlmanları siyasi və mədəni məsələlərdə birləşdirilməlidirlər ki, müsəlmanlar ruslarla siyasi, dini və mülkiyyət hüquqları baxımından bərabər olmalıdırlar, parlament mübarizəsində aktiv iştirak etməlidirlər. Konqresin nümayəndələri müsəlman məktəblərinin açılması, ölkədə kitab, qəzet və jurnalların yayımlanmasının məqsədəuyğun olduğunu bildirirdilər. Fəaliyyətlərin əlaqələndirilməsi müəyyən dövrdə görüşmək üçün yerli iclasların həyata keçirilməsi ilə nəzərdə tutulmuşdu. 1906-cı ilin yanvarında Sankt-Peterburqda keçirilmiş ikinci müsəlman qurultayı yeni "İttifaqi müslimin" siyasi partiyasının nizamnaməsini qəbul etdi və tolerantlıq ideologiyasını qəbul edən Konstitusiya-demokratik Xalq Azadlığı Partiyası ilə əməkdaşlıq qurmağı münasib hesab etdi. Bundan başqa fəaliyyət istiqamətləri konkretləşdirildi (14, 32-37).

İkinci konqresin nəticələri aşağıdakı kimi idi: müsəlmanların və pravoslavların bərabər hüquqlu olması, ruslardan alınmaqla qırğızlara torpaq ayrılması, müsəlman bayramlarında qeyri-iş günlərinin tətbiqi, Türkistanda yaşayanların hüquqlarının genişlənməsi və bütün Rusiya müsəlmanlarının mənəvi rəhbərinin seçilməsi. Partiyanın əsas nəşr orqanı 1906-cı ildə nəşr olunmuş "Millet" qəzeti idi. Onun redaktoru İsmayıl bəy Qasprinski idi, o, Baxçasarayda ən böyük Panislamçı "Tərcüman" qəzetini nəşr etdi. İsmayıl bəy Gasprinskiy fikir və fəaliyyətləriylə Türk dünyasında mühüm izlər buraxmış bir Türk intellektualıdır. XX əsrin əvvəllərində heç bir kommunikasiya və nəqliyyat vasitəsi olmadığı zaman, "Tərcüman" qəzeti ilə təkcə Rusiyanın deyil, bütün türk dünyasının səsi olmağı bacardı. Türk dünyasında maariflədirmə hərəkatının mühüm şəxslərindən biri olan İsmayıl Gasprinskiy, Türk milli fikrinin inkişafında və bütün Türk cəmiyyətlərinə müstəqillik axtarışının yayılmasında mühüm rol oynadı. "Tərcüman" qəzeti İstanbuldan Qafqaza və Mərkəzi Asiyaya yenilikçi ideyalar daşıyırdı. Onun fikirləri və "Tərcüman" qəzetinin təcrübəsi, bir çoxu XXI əsrdə müstəqillik əldə edən Türk dövlətləri arasında əlaqələrin inkişaf etdirilməsi üçün mühüm bir modeldir (7, 224-235).

Panislamçılar imperiyanın dörd dövlət dumasına seçkilərdə iştirak etdilər. İlk dəfə 25 və ikinci dəfə 37 millət vəkili ilə yer tutmağı bacardılar. Üçüncü və dördüncü Duma seçkilərində müsəlmanlar səs itirdi (sırasıyla 10 və 6 deputat). Müsəlman fraksiyası yalnız bir təmsilçilik funksiyasını yerinə yetirməmiş, müsəlman komitələrinin bu sahədəki hökumət əleyhinə fəaliyyətlərini əhatə etmək üçün tez-tez müsəlmanların fəaliyyətini əlaqələndirmişdir.

Rusiya imperiyasının müsəlmanlarının əksəriyyəti türkdilli xalqlara məxsus idi, lakin Şimali Qafqaz xalqları arasında Qafqazdillilər və İrandilillilər də var idi. 1905-1907-ci il inqilabı yalnız ictimai-siyasi, milli ziddiyyətlərlə deyil, milli azadlıq hərəkatının böyüməsi ilə səciyyələnir. Bu, imperiyanın müsəlman dünyasında qaçılmaz daxili münaqişələrə gətirib çıxardı. Müsəlman xalqlar arasında Pantürkizmə qarşı Panislamçılıq, Regional millətçiliyə qarşı Pantürkizm, sünniliyə qarşı şiəlik qarşı qoyulurdu. Beynəlxalq Panislamizm daxilində də problem vardı.

Ümumi hədəflər və məqsədlər ilə birgə, Rusiya İmperiyasının hər bölgəsində siyasi mübarizə üsulları ilə birlikdə, panislamçılıq ilk növbədə əhalinin milli tərkibinə, imperiyaya bitişik müsəlman dövlətlərinə, təhsil səviyyəsinə, siyasi və ictimai qurumlara aid xüsusiyyətlərə malik idi. 1911-ci ilin noyabr ayında Təhlükəsizlik Müdirliyinin şəhadətnaməsi ilə Panislamizm ideyalarının təbliğatının intensivliyinə görə ölkənin regionlarının təxmini reytinqi hazırlanmışdı (5,) : 1 - Qafqaz, 2 - Türkistan, 3 - Vyatka vilayəti, 4 - Orenburq vilayəti, 5 - Kazan , 6 - Ufimskaya, 7 - Permskaya, 8 - Astraxanskaya, 9 - Tavricheskaya (Krım), 10 - Nijni Novqorod, 11 - Samara, 12 - Simbirskaya, 13 - İrkutskaya, 14 - Sankt-Peterburq şəhəri.

Qafqazda Panislamizmin formalaşmasının xüsusiyyətləri ermənilər və azərbaycanlılar arasında

baş verən milli münaqişənin təsiri ilə müəyyənləşirdi. 1904-1905-ci illərdə silahlı toqquşmalar Qafqazın müsəlman cəmiyyətinə birləşmə təkanı verdi.

Dağıstanda bir neçə panislamçı qrup var idi. Ən təsirli olan "aristokratik" qrup idi. 6 dekabr 1912-ci ildə Bakı quberniyası Jandarma şöbəsinin müdiri yazırdı: "Dağıstanda Panislamçılıq intellektualdır, itirilmiş imtiyazlara qayıtmağı arzulayır və fəaliyyətini təbliğat yolu ilə inzibati vəzifələrin ələ keçirilməsi ilə həyata keçirilir. Bölgədə Panislamizmin təbliğatını Dağıstan Dövlət Dumasının Dərbənddən millət vəkili İbrahim bəy Heydərov aparırdı. O, milliyyətcə azərbaycanlı idi. İbrahim bəy, Dərbənddə anadan olmuş yerli siyasi elitanın təmsilçisidir. İbrahim bəy ziyalı, enerjili bir adam idi və özünü xalqının inkişafı və maarifləndirməsinə yönəltmək istəyirdi. Eyni ildə onu Bakı "Nəşri-maarif" Cəmiyyətinin liderləri arasında görmək olur. 1907-ci il oktyabrın 14-də, 28 yaşlı İ.Heydərov təsirli şəxs kimi Dağıstan və Zaqataladan Rusiya İmperiyasının III Dövlət Dumasına (1907-1912) deputat seçilir və Sankt-Peterburqa gedir. Qeyd edək ki, o, ilk öncə Sosial Demokrat idi. Dağıstanda sosialist düşüncəsinin tarixini öyrənən tədqiqatçılar RSDFP (B) Dərbənd təşkilatının İbrahim bəy və Müslim İsrafilov tərəfindən yaradıldığını qeyd edirlər. Lakin tezliklə Rus Bolşeviklərinin milli azlıqların maraqlarına əhəmiyyət vermədiyini görüb, bu partiyanı tərk etdi və 3-cü sessiyada müsəlman fraksiyasına qoşuldu.

Şimali Qafqazda panislamizm hərəkatının digər nümayəndəsi Nəcməddin Qotsinski idi. 1917-ci ilin avqustunda Dağıstanın Andi aulunda keçirilən dağlı xalqlarının II qurultayında Qotsinski Şimali Qafqaz İmamı elan edilmişdi. Seçkidən sonra Qafqaz xalqlarına müraciət edərək bildirirdi: "Allahın qadağan etdiyi cinayətlərdən çəkinin, cinayət, oğurluq, quldurluq etməyin. Alimlərinizə itaət edin, azadlıqları və şəriəti qoruyan qoşunlar toplayın. Bütün xristianlara və digər qeyri-müsəlmanlara ibadət azadlığı verin və bizə bu azadlığı verən Rusiya qoşunlarına zərər verməyin. " (12). Buradan görünür ki, panislamizm Şimali Qafqazda siyasi yol tutmaq istəyirdi və insanları mərkəzi hakimiyyətə qarşı hərbi üsyana çağırmırdı. Bu həm də həmin Nəcməddin Qotsinski idi ki, 1918-ci il mart soyqırımı zamanı Azərbaycandakı dindaşlarının köməyinə gəlmişdi. Bakının müsəlman əhalisini qorumaq üçün Şimali Qafqaz dağlılarının nümayəndələri Azərbaycana gəlməyə başladılar. İmam Nəcməddin Qotsinski, knyazlar Tarkovski və Kaplanov Mart ayının sonunda Xasavyurtda birləşərək kənd ictimaiyyətinin nümayəndələri ilə bir araya gəlib Bakı müsəlmanlarına yardım səfərinə hazırlaşdılar (1, 61).

Azərbaycanda panislamizm düşüncələrindən təsirlənmiş olan ziyalı isə Əhməd bəy Hüseynzadə idi. Ona aşağıdakı məşhur kəlmələr məxsusdur: "Mən türkəm, qafqazlı bir türkəm, türk bir müsəlmanam, müsəlman bir insanam, demək ki, mən bu dörd sifətlə dünyaya gəldim, bu dörd sifətlə yaşamaq məcburiyyətindəyəm..." (13, 3). Əli bəy Hüseynzadə "Füyuzat" jurnalında nəşr olunan məqalələrinin birində yazırdı: "Bizə fədai lazımdır! Türk hissiyyatlı, İslam etiqadlı, müasir qiyafəli fədai!" Bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və "Tazə həyat," "İrşad," "Tərəqqi," "İqbal," "Açıq söz," "Qurtuluş," "Azərbaycan" və digər mətbuat orqanları tərəfindən "Türkləşmək, islamlaşmaq, müasirləşmək" - azərbaycançılıq şəklində formulə edilərək təbliğ olundu. Əli bəy Hüseynzadə İslam-Türk millətinin yüksəlməsi və müasirləşməsində üç düstura görə hərəkət edilməsini və bu düsturun türkləşmək, islamlaşmaq və avropalaşmaq olduğunu bildirirdi. Əli bəy Hüseynzadənin təklifi tam zamanındaydı. Əli bəy Hüseynzadənin Türkçülüyə dair baxışlarının Ziya Gökalpa təsiri ilə əlaqədar məsələlər Hilmi Ziya Ülkənin yaradıcılığında parlaq şəkildə öz əksini tapıb: 1905-ci ildə Tiflisdə Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən türkləşmək, islamlaşmaq və avropalaşmaq fikri 1911-ci ildə hərarətli tərəfdarlar tapdı. Ziya Gökalp "Türkləşmək, islamlaşmaq, müasirləşmək" adlı məqalələr yazdı və 1918-ci ildə bu məqalələrdən ibarət kitabını nəşr etdirdi.

Birinci Dünya müharibəsi illərində Panislamçılar Rusiya və Türkiyə arasındakı çətin bir seçim qarşısında qaldılar. Bir bölünmə baş verdi: İslamçıların mötədil hissəsi rus-müsəlman əsgərləri üçün yardım komitələri qurmağa başladı, 1912-ci ildə isə onlara qarşı olanlar Osmanlı padşahına kömək etmək üçün pul toplamağa başladılar.

1917-20-ci illərdə isə Azərbaycanda panislamizmi təmsil edən bir partiya fəaliyyət göstərirdi. O da, Qafqaz İttihad Firqəsi idi. İdeoloji əsasını o dövrün ittihadi-islam, islam modernizmi, islam reformizmi kimi populyar nəzəriyyələr təşkil edirdi. Partiya Fevral inqilabından (1917) sonra Azərbaycan ərazisində formalaşmağa başlamış islamçı təşkilatların birləşməsi nəticəsində meydana gəlmişdi. Birləşmə prosesinin əsasında 1917-ci ilin yayında Bakıda yaradılmış "Rusiyada müsəlmanlıq" firqəsi və həmin ilin payızında Gəncədə təsis olunmuş "İttihad

mədəni-ictimai cəmiyyəti dururdu. Birləşmədən sol partiya bir müddət "Rusiyada müsəlmanlıq" adlanmışdır.

İttihadçılıq ideologiyasının ana xətti ideal islama, Məhəmməd Peyğəmbər dövrünün mövhumat və xurafatdan uzaq ənənələrinə qayıdış prinsipi idi. Özü də bu zaman İslam qanunlarının bu dövr üçün populyar olan demokratiya, azadlıq, bərabərlik kimi prinsiplərinin açıqlanmasına xüsusi fikir verilirdi. İttihadçı ideoloqlar islam dünyasınm ümumi tənəzzülünü, mədəni, iqtisadi-siyasi geriliyini, müsəlman ölkələrinin Avropa dövlətlərinin müstəmləkələrinə çevrilməsinin səbəblərini də, klassik ittihadda olduğu kimi, Məhəmməd dövründən sonra islamın "ehkami-nəzəriyyə, məna və ruhinin büsbütün dəyişdirilməsi, zülm və müstəbidliyin hökm fərma olması" ilə əlaqələndirirdilər.

"Qafqaz İttihad Firqəsi"nin tərkibinə qatılmış "Rusiyada müsəlmanlıq" partiyası 1917 ildə həm Bakı şəhər dumasına, həm də Rusiya Müəssislər məclisinə keçirilən seçkilərdə müstəqil şəkildə iştirak etmişdi. Birinci seçkilərdə 8 min səs toplayaraq, şəhər dumasmda 12 deputatla (qlasnı) təmsil olunmuş, Müəssislər məclisinə seçkilərdə 60 mindən çox səs toplayraq 1 deputat yeri qazanmışdı.

Partiyanın nümayəndələri 1918-ci ilin 28 mayında Azərbaycan istiqlaliyyətini elan edən Azərbaycan Milli Şurasının üzvləri olmuşlar. 1918-ci il dekabrın 7-də açılmış Azərbaycan Parlmentinə "Qafqaz İttihad Firqəsi" sayca ikinci böyük fraksiya (əvvəl 11, sonra isə 13 deputatla) idi. Parlamentdə fraksiyaya 1918 ilin sentyabrından Qara bəy Qarabəyli rəhbərlik etmişdir.

1920-ci ilin ikinci yarısında partiya sədrinin birinci müavini Sultanməcid Qənizadə Azərbaycan Parlamenti sədrinin müavini vəzifəsinə seçilmişdi. Cümhuriyyət dövründə "Qafqaz İttihad Firqəs", əsasən, apancı müxalifət partiyası kimi tanınsa da, 1919 ilin sonlarında təşkil olunmuş 5-ci milli Hökümətdə təmsil edilmişdi.

Beləliklə, görürük ki, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində istər Şimali, istərsə də Cənubi Qafqazda və onun tərkib hissəsi olan Azərbaycanda panislamizm ideyaları yayıldı. Bu ideyaların milli özünüdərk və milli dəyərlərin qorunmasında böyük rolu oldu. Belə hesab etmək olar ki, XIX əsrin sonu XX əsrin əvvəllərində panislamizm ideyaları Qafqazdakı bütün partiyaların fikirlərinə təsir etmişdi. Panislamizm ideologiyası müsəlman cəmiyyətinin zamanın modernləşdirilməsi çağırışlarına reaksiyası idi. Sovet tarixçiləri panislamizmi feodal din adamlarının bir ideologiyası kimi təqdim edirdi. Halbuki panislamizmin feodalizmlə əlaqəsi yox idi, çünki bu ideologiyanın təsisçisi feodal aristokratiya deyildi, XIX əsrin ikinci yarısında doğulmuş yeni müsəlman ziyalılar idi. Bu mənada, panislamizm yeni ictimai proseslərdə və XIX əsrin axırlarında müsəlman xalqının özünüdərk prosesində tarixi kontekstə malik idi. Panislamizm müsəlman xalqlarının qarşılaşdıqları bir sıra xüsusi problemləri həll etməyə çalışırdı: mədəni inkişafa nail olmaq, təhsildə uzun müddətli islahatları həyata keçirmək, ənənəvi həyat tərzini modernləşdirmək, müstəmləkə boyunduruğundan qurtarmaq onun əsas ideyaları sırasına daxil idi. Bu mənada, panislamizm, müsəlman dünyasında milli özünüdərkin erkən oyanmasının nəticəsində müsəlman cəmiyyətini yeniləmək və modernləşdirmək arzusudur. Müsəlman cəmiyyətində ictimai və siyasi əlaqələr şəraitində yalnız islam bir ideoloji inteqrasiya ideologiyasına çevrilə bilərdi. Müsəlman təlimlərində, bütün dünyada müsəlmanların yalnız bir tək millət olduğu qeyd edilirdi. Bu baxımdan İslam təlimlərində din və millət anlayışları demək olar ki, eynidır.

Ancaq daha sonralar məhəlli millətçilik ideyaları və regional muxtariyyət ideyaları panislamizm ideyalarını üstələdi. Həmin ideyalar üzərində dövlətlər quruldu.

**Açar sözlər:** *Qafqaz, islam, panislamizm, panislamizm ideyaları, müsəlman, ideologiya.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. АЛИЕВА Севиндж. Армянский фактор в истории азербайджано – северокавказских взаимоотношений. // İsr, № 3 (57), 2012, c.61*

*2.Cemaleddin Afgani ve Mücadelesi. https://serd-argunes.files.wordpress.com/2012/06/cemaleddin-afgani-ve-mc3bccadelesi.pdf*

*3. ГА РФ. Ф.102. Оп.ОО-1913. Д.74. Л.9*

*4. ГА РФ. Ф.4888. Оп.1. Д.545. Л.149*

*5. ГА РФ. Ф.102. Оп.ОО-1916. Д.74. Лл.36–36 об.*

*6. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı 1996., s.186*

*7. Haluk ÖLÇEKÇİ. Gaspıralı İsmail'in Tercüman Gazetesi'ndeki İletişim Modeli ve Türk Dünyasında İşbirliğinin Geliştirilmesinde Medyanın Rolü. // Researcher: SocialScienceStudies (2018) Cilt 6, Sayı 1,s. 224-235, s.224*

*8. Хутарев-Гарнишевский Владимир*

*Владимирович. ПАНИСЛАМИЗМ В РОССИИ В НАЧАЛЕ XX в. ПО МАТЕРИАЛАМ ИМПЕРСКИХ СПЕЦСЛУЖБ. // Поиск / Альтернативы / Выбор / №2 (2) / Апрель 2016 г., с.82-97, с.83*

*9. Хутарев-Гарнишевский В. В. Российские спецслужбы, политический исламизм и сепаратизм на Северном Кавказе в начале XX и XXI веков. Историческая компаративистика. Общественно-политический фон // Большой Кавказ двадцать лет спустя: ресурсы и стратегии политики и идентичности / Сб. ст.; предисл., сост., подг. текста и коммент. Г.Ч. Гусейнов. М.: Новое литературное обозрение, 2014. С.169–172.*

*10. МАМЕДОВ АЛИ. ОБ ИДЕЙНЫХ ИСТОЧНИКАХ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНОГО ДВИЖЕНИЯ. // Тарих вя онун проблемляри, №3 2010, s.195*

*11. Мусульманское движение в Средней Азии в 1910 г. // Сборник Русского исторического общества. Т. 5(153)/ Под. ред. Арапова Д. Ю. М.: Русская панорама, 2002. С.132*

*12. Российский государственный архив социально-политической истории (РГАСПИ), ф. 65, оп. 1, Д. 142, л. 4.*

*13 "Türk dünyasının böyük ideoloqu" (metodiki vəsait) B A K I – 2014, s.3*

*14. Усманова Д. Мусульманская фракция и проблемы «свободы совести» в Государственной думе России (1906–1917). Казань,1999. С.32–37.*

*15. Yusuf Akçura. Yeni Türk Devletinin Öncülleri. Ankara: Kültür Bakanlığı, 1981, s. 55.*

**Рашад Джабаров**
**РЕЗЮМЕ**

Возникновение панисламистских политических партий относится к концу девятнадцатого и началу двадцатого веков. Идеология панисламизма была реакцией мусульманского общества на вызовы модернизации: достижение культурного развития, проведение долгосрочных реформ в образовании, модернизация традиционного образа жизни, избавление от колониального ига были среди его основных идей. В этом смысле панисламизм - это стремление обновить и модернизировать мусульманское общество в результате раннего пробуждения национального самосознания в мусульманском мире. Одним из взглядов Джамала ад-Дина Афгани, журналиста, критика и политика, который был одной из фигур исламского мира в XIX веке, была идея единства исламских народов (панисламизм). Идеи Джамаладдина Афгани распространились по Востоку и дали толчок организации политического панисламизма. Таким образом, в конце XIX - начале XX вв. идеи панисламизма распространились как на Северном и Южном Кавказе, так и в Азербайджане, входящем в его состав. Эти идеи сыграли важную роль в защите национального самосознания и национальных ценностей.

**Ключевые слова:** *Кавказ, Ислам, панисламизм, панисламистские идеи, мусульманин, идеология*

**Rashad Cabarov**
**Summary**

The emergence of panislamist political parties dates back to the late nineteenth and early twentieth centuries. The ideology of Pan-Islamism was a reaction of the Muslim society to the challenges of modernization: to achieve cultural development, to carry out long-term reforms in education, to modernize the traditional way of life, to get rid of the colonial yoke were among its main ideas. In this sense, pan-islamism is the desire to renew and modernize the Muslim society as a result of the early awakening of national consciousness in the Muslim world. One of the views of Jamal al-Din Afghani, a journalist, critic, and politician who was one of the figures of the Islamic world in the 19th century, was the idea of the unity of Islamic peoples (pan-islamism). Jamaladdin Afghani's ideas spread throughout the East and gave impetus to the organization of political pan-Islamism. Thus, in the late 19th and early 20th centuries, the ideas of pan-Islamism spread both in the North and South Caucasus and in Azerbaijan, which is part of it. These ideas played an important role in the protection of national self-awareness and national values.

**Keywords:** *Islam, Caucasus, Pan-islamizm, Pan-Islamism ideologies, muslim, ideology*

UOT 165.0

**ŞƏMS BÜNYATOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: quliyeva.shems@gmail.com*

# B. BLANŞARD, N. REŞER VƏ K. LERER HƏQİQƏTİN KOQERENT NƏZƏRİYYƏSİNİN FORMULATORLARI

Karl Yaspersin qeyd etdiyi kimi, fəlsəfəni fəlsəfə edən şey onun həqiqət arayışında olmasıdır, ona sahib olması yox. Doğrudan da filosoflar ən qədim zamanlardan bu günə kimi həqiqəti axtarır, lakin ona çata bilmirlər. Çünki fəlsəfə həqiqəti tapmaq çabasıdır. Əsrlərlə durmadan davam edən bu çabanın nəticəsi kimi həqiqətlə bağlı bir-birindən fərqli nəzəriyyələr, konsepsiyalar irəli sürülmüşdür. Xüsusilə, XIX əsrin sonları XX əsrin əvvəllərindən etibarən həmin dövrə qədər öz dominantlığını qorumuş korrespondent nəzəriyyəyə rəqib konsepsiyalar formalaşdırılmışdır. Artıq həqiqətin uyğunluq, tutarlılıq, yoxsa rəy birliyinə əsaslanan idea olması ilə bağlı suallar daha çox verilməyə başlanmışdır. Ümumiyyətlə, fəlsəfə tarixində klassik həqiqət konsepsiyaları dedikdə, korrespandent nəzəriyyə, koqerent nəzəriyyə və praqmatik nəzəriyyə nəzərdə tutulur. Bu konsepsiyalardan ən qədimi və əksəriyyət tərəfindən qəbul olunanı korrespandent-uyğunluq nəzəriyyəsidir. Adı çəkilən nəzəriyyə müəyyən mənada digərləri üçün çıxış nöqtəsi olmuşdur. Uyğunluq nəzəriyyəsinin mahiyyəti Akvinalı Fomanın məşhur "Veritas est adaequatio intellectus et rei" ifadəsində açıqlanmışdır. Yəni fikir reallığa uyğun olduğu halda həqiqətdir. Bu mənada "həqiqət=correspondentia" kimi formulə edilir. Yəni "X" ancaq və ancaq real obyektə mütabiqdirsə, həqiqi bilikdir. Fikrin həqiqiliyi onun gerçəkliyə nə dərəcədə uyğun olmasındadır. Həqiqət subyektin gerçəklik haqqında irəli sürdüyü doğru bilik olduğu halda, gerçəklik həqiqətdən asılı olmadan var olandır, onun təminatçısıdır [1,s 61]. Uyğunluq nəzəriyyəsinin köklərinə ilk öncə Platonun fəlsəfəsində rast gəlinir. Onun baxışlarına əsasən həqiqi biliyin mənbəyi proses halındakı dəyişənlər dünyası deyil, dəyişməz, mütləq var olanların dünyası olmalıdır. Platona görə həqiqət insandan asılı olmayaraq var olan "dəyişməzlər şəbəkəsi" kimi təsəvvür edilən idealar dünyasıdır. Uyğunluq nəzəriyyəsinin sistemləşdirilməsində əhəmiyyətli rolu olan Aristotelin fikrincə zehnimizdəki təsvir ilə xarici obyekt arasında tam bənzərlik var. Aristotel xarici dünyadakı şeyin zehindəki obrazını "phantasm" adlandırır. Phantasm mövcud olan obyekti onun forması vasitəsilə beynimizdə əks etdirir. Digər həqiqət nəzəriyyəsinin tərəfdarlarına görə, bir fikrin həqiqət olması üçün onun istifadəyə yararlı olması mütləqdir. Praqmatistlərə görə, hər hansı bilik həyatımız üçün əlverişli olduğu müddətcə həqiqidir. Bu baxımdan praqmatik nəzəriyyə plüralist həqiqət ideyasını əsas götürür.Yəni mütləq həqiqət yoxdur, əksinə dəyişən, dövrün ehtiyaclarına uyğunlaşan həqiqətlər çoxluğu mövcuddur. Əsl məqsəd bu çoxluqdan ən faydalı olanı seçməkdir. Məqalənin əsas mövzusu olan koqerent nəzəriyyəyə əsasən bir fikrin formalaşdığı biliklər sistemi içərisində digər fikirlərlə məntiqi cəhətdən uyuşması, onların bir-birini məntiqi cəhətdən dəstəkləməsi ("hangs together") həqiqətin ölçüsü kimi götürülür. Yəni iki və daha çox biliklər çoxluğunun hər bir elementinin digərləri ilə üst-üstə düşməsi, öz növbəsində bu çoxluqları tərkibində birləşdirən daha böyük sistemin bütünlük kəsb etməsi koqerent nəzəriyyə tərəfdarları üçün həqiqi biliyin ən önəmli faktorlarındandır. Bu mənada deyə bilərik ki, konsepsiyanın əsasında sistemdaxili koqerentlik (məntiqi ziddiyyətsizlik) dayanır. Koqerent nəzəriyyədə sistemin bütünlüyü xüsusiyyəti bilik üçün mənayaradıcı faktor kimi anlaşılır. Həqiqət bir-birilə vəhdətdə olan və hər elementin öz funksiyasını

yerinə yetirdiyi bu bütünlükdən hasil olur [4, s.137]. Adı çəkilən nəzəriyyədə uyğunluq nəzəriyyəsindən fərqli olaraq həqiqət subyektin ağlındakı təsəvvürün xarici aləmdəki obyektlə identik olması, yəni gerçəkliyin ideal şəkildə kopyalanması deyil, yeni biliyin mövcud olan digər biliklərə müvafiq, adekvat olmasıdır. Yəni, X yalnızca əsaslandırılmış biliklər çoxluğunun bir elementi və ya alt çoxluğu olduğu halda həqiqidir. Koqerent nəzəriyyə üçün həqiqətin nə olması deyil, onun meyarının tapılması daha çox vacibiyyət kəsb edir. Koqerent nəzəriyyə təmsilçiləri fundamental (təməl) inancların, o cümlədən digərlərindən üstün mövqedə dayanan dominant inancların olması haqqında mühakiməni qəbul etmirlər. Bu mövqeyə görə, bir inancın (belief) epistemoloji əsaslandırılması və bilik statusunu qazanması üçün o, bütövlükdə subyektin inanc sistemi ilə harmoniya təşkil etməlidir [6, s. 26]. Koqerent nəzəriyyənin tərəfdarları həqiqi biliyin müəyyən edici kriteriyaları kimi sistem daxili əlaqə (internal relationship) və həqiqilik dərəcələrini (degrees of truth) əsas götürürlər. Sistemdaxili əlaqə yuxarıda da qeyd etdiyim kimi irəli sürülən mülahizənin mənalılığı və həqiqiliyini təmin edən bazisdir. Hər hansı fikir özlüyündə, tək başına həqiqi ola bilməz. O yalnızca qəbul olunmuş elmi biliklərlə və faktlarla daxilən əlaqədə olduğu təqdirdə doğrudur. Yəni yeni bilik elmi dövriyyədə qəbul olunmuş biliklərlə paralellik təşkil edirsə, həqiqətdir, əks halda isə o, yanlışdır. Həqiqilik dərəcələri isə bir fikrin mövcud bilik sisteminə olan yaxınlığı və uzaqlığını ifadə edir. Belə ki, hər hansı fikir ayrılıqda (sistem xarici) qismən doğru, qismən yanlış ola bilər; onun nə dərəcədə həqiqət və ya yanlış olması sistemlə məntiqi cəhətdən "uzlaşma məsafəsinə" bağlıdır [6.s. 27-28]. Koqerent nəzəriyyənin internalist qolunun nümayəndəsi H.Patnem "İdrak, həqiqət və tarix" adlı kitabında həqiqətin idealizə edilmiş, rasional məqbulluq olduğunu bildirir. Həqiqət biliyin dəyişməz, itirilməz keyfiyyətidir. Patnemə görə, fikirlərimizi qarşılaşdıraraq onları yalanlayacaq və ya doğrulayacaq epistemik ideal şərtlər yoxdur, onu axtarmaq mənasızdır. Əsl həqiqət bizim üçün əlçatmazdır. Həqiqətin koqerent nəzəriyyəsi Moritz Şlikin fundamentalizmlə bağlı baxışlarına əks reaksiya kimi XX əsrin 30-cu illərində məntiqi pozitivizmin nümayəndələri arasında geniş yayılmışdır. Bu konsepsiyanın tərəfdarları qismində F.Bredli, B. Bosanquet. V.Quine, O. Neurath, B.Blanşard, C.Hempelin, L. Bonjur, N. Reşer və K.Lererin adlarını sadalamaq olar. XX əsrin başlanğıcında koqerent nəzəriyyədən ilk bəhs edən F. Bredli olmuşdur. Bredlinin koqerent nəzəriyyə ilə bağlı baxışları daha çox metafizik xarakter kəsb edir. İlk yazılarında, nümunə kimi 1893-cü ildə nəşr olunan "Apperance and Reality" adlı əsərində koqerent nəzəriyyə ilə bağlı heç bir fikrə rast gəlinmir, əksinə Bredli uyğunluq nəzəriyyəsinin dəstəkləyicisi kimi çıxış edir: "Həqiqət fikrin obyektidir. Həqiqətin məqsədi isə varlığı ideal şəkildə səciyyələndirməkdir" [7, s. 121] . 1909 və 1911-ci illərdən etibarən çap olunan məqalələrində Bredlini uyğunluq nəzəriyyəsinin tənqidçisi kimi görmək mümkündür. O xüsusilə mütləq şəkildə, bütün hallarda həqiqət sayıla biləcək şeylərin olmadığı düşüncəsini irəli sürür: "Hər vəziyyətdə dəyişməz qalan, statik həqiqətlər yoxdur. Hər həqiqət özündən sonrakına qədər keçərlidir". Ümumiyyətlə, Bredlinin fikirləri təhlil olunduqda onun adı keçən nəzəriyyələrin heç birinin qəti tərəfdarı olmadığını görmək mümkündür. Bu mənada onun yazılarında hər iki nəzəriyyənin təsirini izləmək olar: "Həqiqət universal (comprehensive), eyni zamanda ziddiyyətsiz (coherent) kainatın ideal ifadəsidir. Həqiqət daxilən təzadlı olmamalı, əksinə hər şeyin izahını özündə ehtiva etməlidir. Mütləq həqiqət ideal bütövlük obrazı yaratmalıdır. Bu cür bütövlük iki xüsusiyyəti özündə cəmləşdirir- universallıq (hər tərəflilik) və ziddiyyətsizlik" [7, s. 123-124] .

**Koqerent nəzəriyyənin dirçəldicisi-B.Blanşard**

Brand Blanşarda görə, "bir sistem daxilindəki mühakimələrin tutarlılığı hər növ həqiqəti və ya faktı yoxlamaq üçün yeganə vasitəmizdir" [2,s.126]. Blanşard bu ifadədə tutarlılığın (coherence) yeganəliyini özəlliklə vurğulayır. Filosof burada universal yoxlama üsulu kimi tutarlılığa alternativ heç bir variantın olmadığını deyil, bəzi hallarda həqiqəti məhz ondan başqa təhlil etmək yolumuzun olmadığını bildirir [5,s.108-110]. Lakin digər həqiqət konsepsiyalarına nəzər saldıqda tutarlılıqla yanaşı müxtəlif yoxlama variantları mövcuddur: 1) fakta uyğunluq, 2) özündə aşkarlıq (self-evidency), 3) tutarlılıq, 4) praqmatistlərin irəli sürdüyü "işə yararlılıq" və ya praktiklik, 5) mistik intuisiya, 6) hakim qüvvələrlə razılaşma. Blanşarda görə,

uyğunluq və özündə aşkarlığın iki fərqli sahədə tətbiq olunması məqsədə uyğundur. Birincisi faktlarla iş prosesində, ikinci isə məntiq elmləri və mücərrəd əməliyyatlar (məsələn, riyazi məsələlər) aparılarkən istinad olunan anlayışlardır. Blanşard bunu "2+2=4" misalı ilə izah edir. İlk baxışda bu mülahizənin həqiqiliyinin onun özündə aşkar olduğu görünür. Verilən riyazi əməliyyatın doğruluğunu təsdiqləmək üçün əlavə sübuta, dəlilə ehtiyac yoxdur. Dəlillərin mülahizənin özündən daha az etibarlı olduğu halda, bu mülahizəni isbatlamağa çalışmaq ağılsızlıqdır [2, s.126-127]. Blanşardın fikrincə, yuxarıda göstərilən yolların özlərinin də son istinad nöqtəsi tutarlılıqdır. O bu fikrini "Burr Hamiltonu dueldə öldürüb" tarixi faktı vasitəsilə aydınlaşdırır. İlk baxışda verilən misalın faktlara əsaslanaraq doğrulanacağını fikirləşmək olar. Bu halda həqiqətin yoxlanılması uyğunluq vasitəsilə aparılırsa, yəni həqiqət baş vermiş hadisəylə irəli sürülən fikrin üst-üstə düşməsidirsə, yoxlamanın özü də uyğunluq vasitəsilə yenidən yoxlanmalıdır. Lakin bunun qeyri-mümkünlüyü açıq-aydın görünür. Çünki təkrar yoxlanmanı mümkün edəcək tərəflər artıq mövcud deyil (bu duelə şahidlik etmiş şəxslərin heç biri həyatda yoxdur). Məhz bu mərhələdə uyğunluq tutarlılıq ilə (koqerentlik) əvəzlənir. İrəli sürülən fikir həqiqidirsə, onu təsdiqləyə biləcək bir-birilə ziddiyyət kəsb etməyən faktlar çoxluğu ilə qarşılaşacağıq. Blanşarda görə, bir mühakiməni yoxlayan vasitə, onunla bağlı olan "dünyadır". Əgər bu dünya dağılarsa, həmin mühakimə də dünyayla birgə məhv olacaqdır. Məhz bu yoxlama vasitəsi tutarlılıqdır [2,s.127-128].

**Koqerent nəzəriyyənin təkmilləşdirilməsi- Nikolas Reşer**

Həqiqətin koqerent nəzəriyyəsindən danışıldığında adı çəkiləcək ən önəmli filosoflardan biri də Nikolas Reşerdir. Reşerin 1973-cü ildə nəşr olunmuş "The Coherence Theory of Truth" adlı kitabında nəzəriyyə ətraflı şəkildə təhlil olunmuş, özündən əvvəlki fikirləri birləşdirərək bu konsepsiyaya qarşı edilən tənqidlərə cavab verə biləcək həqiqətin koqerent nəzəriyyəsini formalaşdırmağa çalışmışdır. Müəllif bu kitabında koqerentlik anlayışını dar mənada götürmüş, onu həqiqətin yalnızca meyarı kimi məhdudlaşdırmışdır. Lakin sonrakı fəaliyyəti dövründə onun bu fikirdən uzaqlaşdığı müşahidə olunur. Reşerin baxışlarına əsasən mülahizələrin həqiqiliyini açıqlamaq üçün iki yol mövcuddur. Onlardan birincisi həqiqi mülahizəyə tərif verməк, həqiqət və ya doğru olanın mənasını açıqlamaq; ikincisi mülahizənin həqiqiliyini analiz etmək məqsədilə müraciət etdiyimiz yoxlama şərtlərini müəyyənləşdirməkdir. Lakmus vasitəsilə mayenin turşu olub olmadığını öyrənə bilərik, ancaq apardığımız bu təcrübə ilə turşunun nə olması haqqında bir məlumat əldə edə bilmərik. Bu baxımdan hansısa bir şeyin varlığı və ya yoxluğunu müəyyənləşdirməklə onun nə olduğunu müəyyənləşdirmək fərqli anlayışlardır. Təriflə meyar arasındakı bu fərq Reşerin nəzəriyyəsinin vacib komponentlərindəndir. Çünki Reşerə görə, koqerentlik- tutarlılıq həqiqətin mənası deyil, ölçüsüdür; Bredlinin ifadəsilə desək, onun hakimi, mühakimə edicisidir. Reşerə görə, koqerent nəzəriyyənin işə yararlı həqiqət nəzəriyyəsi statusunu qazana bilməsi üçün yerinə yetirməli olduğu vacib şərtlər var. Yalnızca bu şərtlər təmin olunduğu halda o həqiqətin meyarı ola bilər. Bu şərtlər özlüyündə ümumi və xüsusi olmaqla iki kateqoriyaya bölünür. Ümumi şərtləri Reşer aşağıdakı kimi müəyyənləşdirir:

1. Bir mülahizə həm doğru,həm də yanlış ola bilməz (ziddiyyətsizlik prinsipi).
2. Bir mülahizə ümumi hallarda yox, yalnızca konkret hallarda ya yanlışdır, ya da doğrudur (zəif ikili dəyər prinsipi).
3. Mülahizə və ya onun inkarından hər hansı biri doğrudursa, onlardan digəri yanlışdır (inkar prinsipi).
4. Bütün standart hallarda bir mülahizənin ya özü, ya da inkarı doğrudur, digəri yanlışdır (üçüncü halın imkansızlığı prinsipi). Sadalanan ümumi şərtlərdən əlavə koqerent nəzəriyyənin xüsusi şərtləri mövcuddur. Reşer bu xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmışdır:

1. Bir fikrin doğruluğu onun digər mülahizələrlə məntiqi ziddiyyətsizliyi ilə müəyyənləşir.
2. Bir təklifin doğruluğunu yoxlanılması zamanı kontekstual şərt mütləq nəzərə alınmalıdır, çünki onun həqiqliyi yalnızca digər təkliflərlə birlikdə olduğu halda təyin oluna bilər.
3. Müvafiq olaraq mülahizələr yeni sistem yaradan digər elementlərlə məntiqi ardıcıllığa əsasən nizamlanmalıdır.
4. Bu mənada doğruluğun əldə olunması üçün

elementlər bir-birilə tutarlı, zəncirvari əlaqəyə girməli və bu əlaqə vahid sistem formalaşana qədər davam etməlidir.

5. Sistem gerçək hadisə və faktları əhatə edəcək qədər geniş olmalıdır. Bu baxımdan həqiqətin əhatə dairəsi fikirlərin qarşıdurması və uyğunluğuna dair kontekstual biliklərlə müəyyənləşir [2, s 136-139].

Koqerent nəzəriyyə həqiqətin ölçüsü kimi götürdüyü "circulus vitiosus" (şeytan çarxı və ya sonsuz dövrələmə; həqiqəti əldə etmək məqsədilə biri digərinin əsası olan sonsuz mülahizələr çarxında dövrələmək mənasında) probleminə görə tənqidlərə məruz qalmışdır. Bu məqsədlə Reşer həqiqətin ölçüsünü faktik doğrularla (factual truths) məhdudlaşdırmışdır. Reşerin baxışlarına əsasən məntiqi qənaətlər həqiqətin əldə olunması prosesindən kənarda qalmalıdır, əks halda "şeytan çarxından" qurtulmaq mümkünsüzdür. Reşerin təkmilləşdirdiyi koqerent nəzəriyyədə həqiqəti müəyyənləşdirmək üçün "datum" (verilmiş fakt) açar anlayış rolunu oynayır. Mülahizələr iki formada özlərini göstərir: həqiqət və potensial həqiqət kimi. Verilmiş hər fakt potensial doğruluq namizədidir. Əgər bir mülahizənin həqiqət kimi dəyərləndirilməsində heç bir çətinlik yoxdursa, o datumdur. Lakin doğru olduğu düşünülən hər mülahizə datum hesab olunmamalıdır. Ona datum deyilə bilməsi üçün konkret xüsusiyyətlərə sahib olmalı, digər faktlar sistemi ilə tutarlı olmalıdır. Bu mənada datum ayrılıqda tək bir mülahizənin malik olduğu keyfiyyət deyil. Qeyd olunan məsələ ilə bağlı qarşımıza sual çıxır: "bir mülahizənin datum olduğu necə müəyyyənləşdirilə bilər?". Reşer təyinedici faktor kimi praqmatik əsaslandırmanı qəbul edir. Ona görə, praqmatik uğur (metodoloji mənada) həqiqətin meta kriteryasıdır (metacriterion). Reşer koqerentlik anlayışının açıqlamasına da xüsusi önəm vermiş, özündən əvvəlki idealist koqerent nəzəriyyəçilərin fikirlərini tənqid etmişdir. Reşerin fikrincə, koqerentlik yalnızca ziddiyyətsizlik və ya zəncirvari məntiqi əlaqə demək deyil. Koqerentlik özündə üç tərəfi birləşdirməlidir: 1) hərtərəflilik, kompleks yanaşma (comprehensivness), 2) tutarlılıq (consistency), 3) birlik və ya vəhdətlilik (cohesiveness-unity). Hərtərəfliliyin özünün də aşağıdakı xüsusiyyətlərini sadalamaq gərəkdir: a) nəticəvi qapalılıq (inferantial closure)- doğruluğunun məntiqi əsaslarını özündə daşıyan mülahizələrdən çoxluğun əlavə məntiqi nəticəyə ehtiyacı yoxdur. b) məntiqi inkluzivlik (logical inclusivness)- həqiqi biliklər çoxluğunun daxilən məntiqi müddəaları ehtiva etməsidir. c) məhdud tamlıq (restricted comletness). Əgər bir mülahizələr çoxluğunda ona əks olan mülahizələr yer almırsa, bu çoxluq tutarlıdır. Bu mənada tutarlılıq ziddiyyətsizlik üçün təminat rolunu oynayır. Vəhdətlilik tərəfi isə adından göründüyü kimi çoxluğun bütün elementlərinin vahis sitemdə toplanaraq qarşılıqlı əlaqə və təsirdə olmasını ifadə edir. K. Lererin fəlsəfəsində koqerentlik anlayışı. Kit Lerer "Knowledge: Undefeated True Belief" adlı məqaləsində əsaslandırılmış həqiqi biliyin təkzibedilməz olmasının vacibliyini vurğulamışdır. Lererin fikrincə, bəzi inanclar təkzib edilməzdir (əks mövqeyin mümkünsüzlüyü) və fundamental bilik statusuna malikdirlər. Bu növ inancların fundamental xarakterli olma səbəbi onun əlavə sübuta ehtiyac olmadan həqiqiliyinin qəbul olunmasıdır. Lakin sonrakı fəaliyyəti dövründə Lererin bu fikirdən uzaqlaşdığı görünür. "Theory of Knowledge" ("Bilik nəzəriyyəsi") adlı kitabında Lerer koqerentliyə yalnızca daxilən qarşılıqlı uyum içərisində olan həqiqi bilik sistemi kimi yanaşmamışdır. Bu sistemin daxili elementləri bir-birini dəstəkləməli, müəyyən mənada biri digəri üçün səbəb və elmi dayaq rolunu oynamalıdır [3, s. 90-91]. Sistemin əsasının komponentlər arası məntiqi ziddiyyətsizliyə əsaslanmasının mühüm tərəfi bizim həmin sistem daxilində yanlış biliklə rastlaşmaq ehtimalını sıfıra endirir. Çünki elmi cəhətdən əsaslandırılmamış bilik, sistemin digər elementləri ilə əks mövqedə dayanır, onlarla uyuşmur, son nəticədə sistemdən təcrid olunaraq kənarda qalır. Koqerentlik anlayışı Lererin fəlsəfəsində "izahedici", "açıqlayıcı" (coherence as explanation) mənada işlədilir. Yəni hər hansı "Z" bilik sistemindəki "f" inancı ya izah edici, ya da izah olunan statusa malikdir. İrəli sürülən fikrə əsasən həm izah edici, həm də izah olunan mövqedə dayanan inanclar əsaslandırılmış hesab olunur. Məhz bu nöqtədə baxışlarının fundamentalizmlə eyniləşməsinə görə Lerer tənqid olunur. Fundamentalizmə görə, digər inanclar üçün təməl rolunu oynayan fundamental inanclar izahedici pozisyada olduğu üçün özlüyündə əsaslandırılmış, isbatlanmış həqiqət hesab olunur. Lakin fərqi göstərmək məqsədilə bir daha vurğulamaq vacibdir ki, Lererə görə, həqiqi bilik sistemi üçün inanclar

arasında uzlaşma olmalı və heç bir inanc fundamental deyil. Hər hansı biliyin izah edici xüsusiyyətə malik olması onun apriori inanc olmasına səbəbiyyət verməməlidir. Bu cür inanclar yalnızca daha böyük inanc sisteminin tərkib hissəsi olduğu halda izah edən və ya izah olunandır; onların əsaslandırılmış bilik keyfiyyəti qazanması üçün isə digərləri tərəfindən dəstəklənməlidir [3, s. 92-93] . Koqerent nəzəriyyənin ziddiyyətli məsələlərindən biri başqası tərəfindən irəli sürülən fikir və ya informasiya digər şəxslər tərəfindən necə əsaslandırılmış bilik kimi qəbul olunur? Lerer bu problemi aydınlaşdırmaq məqsədilə "qəbullanma sistemi" ("acceptance system") və ya "razılıq aparatı" anlayışından istifadə etmişdir. Təklif olunan yeni informasiyanın qəbul olunub olunmaması mərhələsində bu sistem dövriyyəyə keçərək, onun həqiqət və ya yalan olmasını analiz edərək bizim qarşımıza qoyur. Müəyyən mənada subyektin mövcud olan bilikləri ilə yeni biliklər arasında "məntiqi filtr" rolunu oynayır. Ancaq bəzən müəyyən informasiyalar açıqlama və sübut tələb olunmadan subyekt tərəfindən həqiqət kimi qəbul edilir. Bunlara veriləcək ən yaxşı örnək elmi biliklərdir. Bu halda informasyanın verildiyi mənbəyə olan inam əsas götürülür və qəbullanma sistemi əldə olunan biliyin həqiqiliyinin məntiqi cəhətdən təsdiqlənmiş olduğunu inandırır [7, s.29-30].

## ƏDƏBİYYAT SİYAHISI

*1. Allen B, Truth in Philosophy, London: Harvard University Press,1995, 230 p.*

*2. Harun T. Platon'dan Habermas'a Felsefede Doğruluk ya da Hakikat. Ankara: BilgeSu Yayıncılık, 2016, 224 s.*

*3. Lehrer K. Theory Of Knowledge. USA: Westview Press, 1990, 212 p.*

*4. Лукацкий М. Педагогическая наука: История и современность. Москва: ГЭОТАР-Медиа, 2012, 448 с.*

*5. Lynch M. The Nature of Truth: Classic and Contemporary Perspectives. London: The MİT Press, 2001, 792 p.*

*6. Pascal E, Truth, Canada: Mc-Gill Queens University Press, 2002, 177 p.*

*7. Tepeli E. Çağdaş Epistemolojide Bağdaşımcılık Teorisi. Antalya, 2016, 58 s.*

## Формуляторы когерентной теории истины. Б. Бланшард, Н. Решер и К. Лерер

### РЕЗЮМЕ

Проблема истины в силу своей познавательной значимости занимает особое место в системе философских проблем. В современной философской литературе для понятия истины были даны определения такие как соответствие знаний реальности; знания, подтвержденные эмпирическими методами; прагматически важные, полезные знания; отсутствие противоречий (согласие) между новыми и уже существующими знаниями и, соответственно, были сформированы соответствующие, прагматичные, когерентные концепции истины. В статье представлены современные интерпретации понятия истины, особенно взгляды Б.Бланшарда,Н. Решера и К. Лерера на когерентные свойства истины.

## Formulators of a Coherence theory of truth - B. Blanchard, N. Rescher and K. Lehrer

### SUMMARY

The problem of truth, by virtue of its cognitive significance, occupies a special place in the system of philosophical problems. In modern philosophical literature, the concept of truth has been given such definitions as the correspondence of knowledge to reality; the knowledge proved by empirical evidences, the useful knowledge; the absence of contradictions (agreement) between new and existing knowledge, and, accordingly, the corresponding, pragmatic, coherent concepts of truth have been formed. The article presents modern interpretations of the concept of truth, especially reflects the views of B. Blanchard, N. Rescher and K. Lehrer on the coherent properties of truth.

UOT 101.1::316

# ELM VƏ TƏHSİLDƏ GENDER PROBLEMİ

**AFAQ İMANOVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, kiçik elmi işçi*

*E-mail: afaqimanova@gmail.com*

Müasir dövrdə gender təhsili, gender elmi tədqiqi vacibdir və zəruridir. Bu zərurilik cəmiyyətdə Gender mədəniyyətinin cinslər – kişi və qadınlar arasında sosial ədaləti, tarazlığı, sabitliyi və əməkdaşlığı qorumaq üçün lazımdır.

SSRİ-nin dağılmasından sonra yaşanan keçid dövrü sovet respublikaları üçün asan olmadı. Keçid dövrü hər şeydən əvvəl bu ölkələrin sosial, iqtisadi, siyasi, mədəni həyatında miqyaslı və dərin dəyişmələr gərəkdirdi. İnsan potensialını düzgün inkişaf etdirmənin ən səmərəli yollarından biri bu region əhalisinin yarısından çoxunu təşkil edən qadınların hüquq və imkanlarını reallaşdırmaq olardı. XX əsrin ən vacib dərslərindən biri də cəmiyyətdə Qadın və kişi qarşılıqlı münasibətləridir. Qadınlar öz maraqlarını özləri daha yaxşı ifadə edir, cəmiyyətdə baş verən dəyişmələr və qərarvermədə bütün vətəndaşlar təmsil olunarsa, bu, daha ədalətli olar.

Sosializm dövründə qadın və kişilərin bərabərliyi sözdə elan olunsa da, real həyatda onların səsi eşidilmirdi. Bütün yenilik və dəyişmələrin ötürücüsü partiya və dövlət idi. Milli parlamentlər qurulan kimi bütün region boyunda parlamentdə təmsil olunan qadın sayı yuxarıdan kvota ilə müəyyənləşmiş 30%-dən 4-14% arasına düşdü. Bu cür aşağı göstəriciyə baxmayaraq sovet zamanı kvota təmsilçiliyindən fərqli olaraq hal-hazırda parlamentdə təmsil olunan qadınlar öz seçicilərinin gerçək siyasi təmsilçiləridir. Qadınlar yerli idarəetmə orqanlarına seçkilərdə əhəmiyyətli uğur qazanırlar ki, bu da əhalinin maraqlarına uyğun dəyişmələrin iştirakçısı olmaq və imkanlar əldə etmək deməkdir.

Azərbaycanda yaranan sosial mühit qadın sosiumu qarşısında da yeni tələblər qoyur. Bu, ilk növbədə qadınlarla bağlı əsrlərlə, illərlə oturuşmuş stereotiplərin dağılması, cəmiyyətdə qadının sosial rolları diapazonunun genişlənməsi ilə bağlıdır. Azərbaycanda qadınların siyasət, biznes və elm kimi ənənəvi kişi sahələrində təmsil payı artmaqdadır. Qadınlar ictimai həyatın bütün sahələrini fəal şəkildə mənimsəyirlər. Bu sahələrdən biri də təhsil fəaliyyət sferasıdır. Sosial-iqtisadi mühitin dəyişməsi ilə “təhsildə qadın” məsələsi də yeni xüsusiyyətlər əldə edibdir. Məsələn, Azərbaycanda fəlsəfə doktorlarının, təhsilin sonrakı pillələrində qızların sayının artması faktdır.

Qadınların hakimiyyət strukturlarına inteqrasiyası həm sosial ədalətin təmini, həm də iqtisadi baxımdan səmərəli ola bilər. Qərar qəbuletmədə qadınların bərabər iştirakı əhatə olunan isan resursunu əhəmiyyətli dərəcədə artırır. Bu adamlar isə iqtisadiyyatın fundamentini təşkil edirlər. Qadınlar özəl sektorda, böyük müəssisələrin özəlləşməsində hələ də zəif təmsil olunsalar da ölkəmizdə artıq formalaşmış ənənələr də var. Bu regionun, o cümlədən, Azərbaycan qadınları təhsillidir və yeni iqtisadiyyatın qurulmasında bu potensialdan istifadə edilir. Kiçik müəssisələr iqtisadi artım və tərəqqinin hərəkətverici qüvvələridir və bu sahədə qadınların təşəbbüsləri artmaqda davam edir.

Ölkəmizdə dövlət və iş dairələri güclü vətəndaş institutlarının formalaşmasında maraqlıdır. Belə institutlar ictimai həyatın bütün səviyyələrində partnyor kimi fəaliyyət göstərə bilər. Ölkəmizdə fəaliyyət göstərən qadın-QHT-lərin Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi ətrafında birləşərək birgə işi bu sahədə işin səmərəsini artırmış olur. Beynəlxalq təşkilatların bu sahədəki fəaliyyəti də bu işə dəstək verir. Ölkəmizdə qadın-QHT-lərin sayı ilbəil artmaqda davam edir. Bu birliklər siyasi və hüquqi problemlərin həllində, qadınların iş və peşə fəaliyyətinin genişlənməsində, təhsil və səhiyyə sahəsində sosial xidmətlərin göstərilməsində göstərdikləri səy ilə ilə həm də qadın hüquqları və bərabərliyinin təsdiq formasına çevrilirlər.

Qadınların qərar qəbuletmə prosesinə qatılmasına yol açacaq vəzifə yüksəlişini siyasi və iqtisadi reformalarla mümkün hesab etmək sadəlövhlük olardı. Bunun üçün elə mühit formalaşmalıdır ki, qadınların cəhdləri alqışlansın və dəstəklənsin, onların resurs və

imkanlara çıxışı təmin olunsun. Dövlət, iş dairələri, ictimai institutlar bu işi dəstəkləyən siyasət və strategiya yürütməlidirlər. Amma bunun üçün yerli idarəetmə orqanlarındakı qadın təmsilçilərdən tutmuş parlament təmsilçisi qadınlaradək hər kəs bu işə kömək etməlidir. Ölkəmizdə qadının parlament sədri seçilməsi bu proseslərə yardım edəcəkdir.

Ümumiyyətlə, qeyd etməliyik ki, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının (BMT) üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşularaq bəzi öhdəliklər götürmüşdür. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni məqsədlər Minilliyin İnkişaf Məqsədlərinin əldə etdiyi nəticələrə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. DİM-lərin 5-ci məqsədi gender bərabərliyinə nail olmaq, bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunmuşdur (1).

DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Şura tərəfindən təsdiq edilmiş Azərbaycan üçün prioritet hesab edilən məqsəd, hədəf və onlara uyğun göstəricilərin layihəsinə əsasən genderlə bağlı 5-ci məqsədə aid bütün hədəflər prioritet olaraq seçilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında (2) ölkədə gender bərabərliyinin təmin olunmasının diqqət mərkəzində saxlanılması və onun həlli istiqamətində gender əsaslı zorakılıq hallarının qarşısının alınması, məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzlərinin və sığınacaqların yaradılması, orta təhsildən yayınma və erkən nikahlarla mübarizə, eləcə də zorakılıq üzrə monitorinq sisteminin tətbiqi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların təmin edilməsi, qadınların işdə irəli çəkilməsi, qadınların rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi, ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi, uşaq bağçalarının sayının artırılması, ailə planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi, işləyən valideynlər üçün uşağa baxmanın asanlaşdırılması (BƏT-in ratifikasiya olunmuş "Ailə öhdəlikləri olan işçilər haqqında Konvensiya"sına uyğun olaraq) tədbirlərinin görülməsi nəzərdə tutulmuşdur.

**Gender fəlsəfi anlayışı haqqında**

"Gender" sözünün elmdə müxtəlif mənaları var. Genderin insanın cinsi mənsubiyyəti, onun insan mövcudluğunun ən müxtəlif sahələrində aşkarlığıdır. Bu məsələni ən müxtəlif tərəflərdən, o cümlədən gender fəlsəfi baxımdan da araşdırmada məhz gender təhsili nöqteyi nəzərindən öyrənməyə cəhd edəcəyik.

"Gender" anlayışı aktualdırmı? Ən geniş mənada "yox" demək mümkün deyil, axı insanın cinsi mənsubiyyəti necə aktual olmaya bilər

Gender təhsili, elmi, mədəniyyəti və gender düşüncəsi özünüdərkə gedən yoldadır, cinslərin sosiumda roludur. Özünü dərk etmək – hər cinsin nəyə qabil olduğunu və nəyə cəhd etdiyini anlamağındadır. Başqa sözlə desək, özünüdərk – həyatdakı müvəffəqiyyətin başlıca şərtidir. Hər bir cinsin özünüdərki, cəmiyyətdə yeri və rolu onun bacarığı ilə ölçülür.

Fəlsəfi ədəbiyyatda tədqiqatçılar göstərir ki. ümumi heç vaxt tək mövcud olmur. Yəni, normal dilə və gender problemlərinə nisbətdə aydınlaşdırsaq: ümumiyyətlə cəmiyyətdə insanlar yox, kişilər və qadınlar vardır. İnsan - nə etsə, nə hiss etsə və nə desə də bu – onun cinsi mənsubiyyətindən keçir. Buna görə də insan – kişi və qadın nə etsə, nə desə yaxud nə hiss etsə, hamısı gender probleminin aspektləridir. Yəni, gender probleminə sosioloji, psixoloji, iqtisadi, fəlsəfi, siyasi, bioloji, tibbi və digər aspektlər daxildir. Gender sosial münasibət fəlsəfəsidir.

Lakin, bu aspektlərdən hər biri öz növbəsində insanın sırf gender fəaliyyəti və ilk baxışda gender fərqinə aidiyyatı olmayan, əslində isə həmin fərqin təsirini öz üzərində hiss edən sahələrin təhlilinə bölünür. Bu isə məhz gender təhsili ilə gender şüuru, gender yanaşma tərzi ilə müəyyənləşməsidir.

Gender anlayışı fəlsəfədə də məhz təhsil, elm və mədəniyyətlə bağlıdır. Gender – kişi və qadınların cəmiyyətdə qarşılıqlı münasibət, sosial roludur.

Gender təhsilini fəlsəfi nöqteyi-nəzərdən araşdırmaq, həm də elmdə – gender sosiologiyasının və psixologiyanın, iqtisadiyyatın və siyasətin, biologiyanın və səhiyyənin məlumatlarını sistemləşdirmək və həmin sistemdə butun bu məlumatların qarşılıqlı əlaqəsini hərtərəfli aşkar etmək, sanki yekun çıxarmaq deməkdir – bununla da gələcək gender tədqiqatlarının perspektivini müəyyənləşdirməkdir. Genderi təhsildə və elmdə

fəlsəfi baxımdan öyrənmək – gender araşdırmalarının sosiologiyada və psixologiyada, iqtisadiyyatda və siyasətdə, biologiyada və tibb elmində tətbiq olunan universal təhsil və tədqiq metodologiyasını işləmək, yəni əvvəl suallara, sonra da onlara verilən cavablara ən qısa və rahat yolun tapılması deməkdir.

Ancaq hər şeydən qabaq əsas fəlsəfi mətndə araşdırmaq, gender təhsili və elmi problemlərinin təhlilində tətbiq edilə bilən anlayış və prinsipləri öyrənmək lazımdır.

Hər hansı fəlsəfi təhlilin, o cümlədən gender təhsilinin də daha bir vacib hissəsi var: fəlsəfənin, gender elmi tədqiqinin tarixən keçdiyi yola nəzər yönəltmək.

Biz fəlsəfənin gender elmi və təhsili və bağlı bütövlükdə varlıq barədə mühakimələr olan təyinindən çıxış edəciyik. Varlıq – obyektdən və onun səviyyə-sindən asılı olmayaraq hər hansı bir mühakimə zamanı əsaslandığımız şəksiz xarakteristikasıdır. Varlıq problemini, yəni insani – kişi və qadın gendr mətnində, həm də təhsil yönündə araşdırarkən təcrübə deyil, istisna olaraq məntiqə əsaslanmaq gərəkdir, çünki hər hansı təcrübə məhduddur, varlıq isə ümumidir. Mühakimənin sırf məntiqi əsası anlayışdır, yəni ilk nöqtə olaraq təcrübə deyil, insan təfəkkürünün ümumi fundamental anlayışlarından gender təhsilindədə istifadə nəzərdə tutulur.

Gender təhsilində və elmində Obyektin hər hansı, hətta abstrakt xarakteristikası belə, özü obyektdir, buna görə də ona xas olan xarakteristikaya malikdir. Bu səbəbdən də nəzərdən keçirəcəyimiz növbəti problem əvvəlki mühakimənin nəticəsi olaraq meydana çıxır. Əks halda, bu sərbəst kişi və qadın varlığının abstrakt anlayışından deyil, mühakimə obyektinin emperik seçimi deməkdir.

Biz gender və təhsillə bağlı məntiqin və təcrübənin belə müqayisəsinin gender elmi tədqiqatlarda nə dərəcə düzgün olmasını və onu necə dərk etməyin lazım olduğunu müəyyənləşdirməliyik.

Kişi və qadın varlığının ümumiliyi onun daxili birliyi deməkdir. Bir tərəfdən, insan kişi və qadın üçün varlıq iki yerə bölünür: insani və qeyri-insaniyə, "mən" və "bu" ya, dərk edən və dərk olunana, yəni subyekt və obyektə. Bu əsaslar tamlıq təşkil edir və eyni zamanda bir-birindən köklü şəkildə fərqlənir ki, bu da məhz gender və təhsilin təzahürüdür.

Özünə qarşı istiqamətlənmiş dərk edən (subyekt) özünü obyekt olaraq, yəni, "bu"nun, qeyri-insaninin bir hissəsi kimi nəzərdən keçirir.

Buna görə də, gender elmi və gender təhsili aspektində varlığa bir tam kimi münasibət, birincisi, onun daxili birliyinin, ikincisi, ondan insan, yəni kişi və qadın subyekt statusunun araşdırılmasını nəzərdə tutur.

Genderdə məntiqi-anlayış təhlilini ümumi prinsiplər verə bilər, onların konkret aşkarlığı isə - təcrübi sahəyə aiddir. Buna görə də, belə bir təhlil konkret hadisələrə aid bəzi fərziyyələrlə tamamlanacaqdır.

Fəlsəfənin genderlə spesefikliyi onu insan, yəni kişi və qadın biliyinin belə desək genderin vacib tərkib hissəsi edir, çünki əks halda, insan onun dünya haqqında, varlıq barəsindəki təsəvvürlərini dar çərçivəyə yerləşdirən konkret təcrübənin içində qalar. Hər bir insan kişi və qadınla professional şəkildə gender fəlsəfəsi ilə məşğul ola bilməz, ancaq bir çoxları gender, gender təhsili barəsində və özünün oradakı yeri haqqında düzgün təsəvvürə malik olmağa qabildir.

**Gender təhsili və gender tədqiqatları**

Gender təhsili və gender tədqiqatları şüurun, dünyagörünüşünün, davranışın, münasibətin, əxlaqın dəyişməsidir. Mənəvi aşınmalar olan yerdə gender təhsili zərurətə çevrilir. Bu İnkişafın, Sülhün və Tərəqqinin əsas meyarıdır. Gender təhsilinə cəmiyyətdə o zaman nail olmaq mümkün olacaqdır ki, milli adət-ənənələrin pozitiv cəhətlərini qoruyaraq, müasir dünya mədəniyyətlərində olan yeniliklər – qlobal problemlər kişi və qadınlar tərəfindən aydın dərk edilsin. Baş verən yeniləşmələrin dəyişilməsində həm kişi, həm qadınlar konstruktiv bacarıqlara malik olsun və vətəndaş cəmiyyəti, hüquqi dövlət, insan hüquqları, bərabərlik haqqında beynəlxalq standartlardan məlumatlı olaraq gender təhsili mədəniyyətinin müxtəlifliyini və eləcə də birinin digərinə ötürülməsini qiymətləndirsinlər. Gender biliklərini və gender təhsilini məqsədyönlü və sistematik olaraq, milliçiliyi qorumaqla tədris etmək gərəkdir.

Gender təhsili haqqında YUNESKO-nun 9 oktyabr 1998-ci il tarixində Fransada keçirilmiş "XXI əsr üçün ali təhsil haqqında Ümumdünya Deklarasiyası: yanaşmalar və praktiki tədbirlər" tədris Konfransında da qeyd edilmişdir. Ali təhsilin son məqsədi yeni cəmiyyətin yaradılması, bu cəmiyyətdə zorakılıq və ayrıseçkiliyə yer olmaması məsələləri müzakirə obyekti olmuşdur.

Bu nöqteyi nəzərdən, bizim də yanaşmamız belədir: bu məqsədlərin həyata keçirilməsi üçün məhz davamlı inkişaf konsepsiyasının 7-ci bəndində qoyulan tələblər, o cümlədən müasir metodların tətbiqi,

yeni gender tədris proqramlarının olması da vacibdir.

Yeniləşmiş metodik tədris proqramlarında cinslər arasında bərabərhüquqluluq məsələsi qabardılmalıdır: gender strategiyasının bütün fənlərdə diqqətə alınması nəzərə yetirilməlidir.

Bu baxımdan da təhsildə olan belə yeniləşmə nəinki tədris proqramlarının, həmçinin istifadə ediləcək metodik vasitələrin də olması ehtiyacını yaradır:

Burada isə şifahi danışıq üsulu olması ehtiyacını yaradır və şifahi danışıq üsulu ilə birlikdə qavrama dərəcəsi, anlama qabiliyyəti, praktika ilə nəzəriyyəni birləşdirə bilmək bacarığını meydana çıxarır:

Yeni mini anket sorğu, diskussiya, testləşdirmə, blits sorğu və s. kimi metodların da gender təhsili və tədrisində inteqrasiya olunması vacibdir.

Bu nöqteyi-nəzərdən də XXI əsr Azərbaycanda da gender təhsili və tədqiqatları qarşısında prinsipial olaraq yeni məqsədlərə yetmək üçün yeni tələblər qoyur. Artıq vacib olan cəhət kişi və qadınların, belə desək genderyönlü təhsilinin inkişafları ilə bərabər, yeni metod və bacarıqlara, internet mədəniyyətinə, kompüterləşməyə, bir sözlə müasir informasiya və telekommunikasiya texnologiyalarına uyğunlaşan yeni intellekt – yeni innovativ bilikli modelinin yeni təfəkkürlə düşünən yeni nəslin formalaşdırılması zərurəti cinsi ayrıseçkilik münasibətlərinin təhsilin bütün sahələrində aradan qaldırılmasıdır.

**Azərbaycanda gender təhsili və gender elmi mühiti**

Azərbaycan cografi-siyasi və geostrateji mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş, istər Şərq, istərsə də Qərb mədəniyyətinin təsiri nəticəsində özünə məxsus zəngin mədəniyyət yaratmış unikal ölkələrdən biri kimi dünyada tanınmışdır. Bəşər sivilizasiyasına bənzərsiz töhfələr vermiş Azərbaycan xalqı, həm də zəngin təhsil, maarifçilik ənənələri ilə seçilmiş milli mentalitetində qadına, qadınlığa yüksək, bəşəri münasibətilə fərqlənmişdir. Azərbaycanın elm, təhsil, mədəniyyət sahəsində ötən XX əsr müstəsna yer tutmuş, bu əsrdə xalqımız köhnə dünyadan surətlə uzaqlaşmış, elm, təhsil, mədəniyyət, bir sözlə milli intibah yoluna qədəm qoymuşdur. Nəticədə qısa müddət ərzində Azərbaycan xalqı kütləvi savadsızlığa son qoymuş, ölkəmizin bütün vətəndaşları – kişi və qadınları oxuyub yazmağı bacaran, sivil cəmiyyətə çevrilmiş, elliklə maariflənmə prosesi uğurla başa çatmışdır. Ötən əsr Azərbaycan qadınının həyatında da çox əlamətdar bir mərhələ olmuş, Azərbaycanda baş verən ictimai-siyasi proseslər, neft sənayesinin sürətli inkişafı qadınların da maariflənməsinə, onların ictimai həyata fəal qoşulmalarına şərait yaratmışdır. Əsası 1918-20-ci illərdə Azərbaycanın Xalq Cümhuriyyəti tərəfindən qoyulan və sonradan da Azərbaycan SSR (1920-1991-ci illər) dövründə davam və inkişaf etdirilən insan-ların təhsillənməsi nəticəsində qadınların da hərtərəfli inkişafı üçün geniş üfüqlər açıldı. Qısa zaman kəsiyində Azərbaycan qadınları arasında savadsızlıq ləğv edildi, onların təhsillənmə səviyyəsi ölçüyəgəlməz dərəcədə yüksəldi. Ölkənin sosial-siyasi və mədəni həyatında qadınların rolu artdı.

Yeni əsrdə müasir dünyaya inteqrasiya olunan demokratik Azərbaycan dövlətində təhsil siyasəti, o cümlədən əhalinin yarıdan çoxunu təşkil edən qadınların təhsili, bütövlükdə ölkədə gender təhsili prioritet istiqamətlərdən sayılır.

Azərbaycanın təhsil siyasətinin əsasları Konstitusiya, "Təhsil haqqında" Qanunu və "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı, eləcə də digər normativ hüquqi aktlarla tənzimlənir. Azərbaycan dövləti konstitusiya ilə (42-ci maddə) heç bir məhdudiyyət (cinsi, dini, dili və s.) qoymadan hər bir vətəndaşının təhsil almasına hüquqi təminat verir, hamının dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir, maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə zəmanət verir (4;16). Bunlar onu göstərir ki, müstəqil Azərbaycanda qadınlara münasibətdə gender bərabərliyinin qorunması, ölkənin sosial-siyasi və mədəni həyatda gender sahəsində balanslaşdırılmanın təmin olunması dövlət siyasətində mühüm yer tutur. Bununla bağlı Azərbaycan dövləti BMT-nin "Qadınların siyasi hüquqları haqqında", "Uşaqların hüquqları haqqında" "Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğvi haqqında" Konvensiyalarına, eləcə də, qadın hüquq və azadlıqları ilə əlaqədar 10-dan artıq beynəlxalq sazişə qoşulmuşdur.

Azərbaycanın müstəqilliyə qovuşması nəticəsində Azərbaycan qadını beynəlxalq arenaya çıxmış, qadın məsələləri üzrə 1995-ci ildə keçirilən və sayca 4-cü Ümumdünya Pekin Konfransında iştirak etmiş, Azərbaycanda qadın problemləri üzrə Milli Məruzə təqdim olunmuşdur.

Qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda gender problemləri, gender təhsili, gender elmi, genderşünaslığın beynəlxalq məsələləri xüsusi aktuallıq kəsb etmiş, bu sahədə respublikamızda böyük canlanma baş vermiş, ayrıca elmi istiqamət

formalaşmışdır.

Bu araşdırmada məqsəd ölkədə gender bərabərliyi, gender təhsili və elmi, təhsildə gender məsələsi və s. bu kimi qlobal məsələləri nəzərə yetirməklə, müstəqil Azərbaycanda təhsil sistemində qadınların rolu, qadın təhsili və gender bərabərliyi, qadın təhsilində mövcud problemlər və onların aradan qaldırılması yollarına dair fikir və düşüncələrini də diqqətə yetirməkdir.

Aydın məsələdir ki, Azərbaycanda təhsilin qarşısında duran başlıca məqsəd öz soykökünə, milli ənənələrinə bağlı, ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, vətənini, dövlətini, millətini sevən və torpağını qorumağa hazır olan vətənpərvər, hərtərəfli inkişaf etmiş, əqli və fiziki cəhətdən kamil şəxsiyyət yetişdirməkdən ibarətdir. Dövlətimizin təhsil siyasətinin ana xətti olan bu strateji məqsəd heç bir cins, din, dil, əqisə fərqi qoyulmadan bütün Azərbaycan vətəndaşlarına şamil edilir. Başqa sözlə, müstəqil Azərbaycanın təhsil siyasətində gender bərabərliyi, qadın və kişilərin təhsildə hüquq bərabərliyi tam təmin edilir. Ümumiyyətlə Azərbaycan qadını təhsil və intellektual təhsil səviyyəsinə görə dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə edilir. Bu tarixi reallıqdır ki, Azərbaycanda qadın təhsili, xüsusən qadınların dünyəvi təhsil tarixi qədim və zənginliyi ilə seçilir.

Müstəqil Azərbaycan əhalisinin 51%-ni təşkil edən qadınların təhsillənmə səviyyəsi zəngin maarifçilik ənənələrinə, çoxşaxəli təhsil müəssisələri şəbəkəsinə söykənir. Ədalət naminə deməliyik ki, sovet hakimiyyəti illərində Azərbaycanda qadınların təhsili, təhsildə gender disbalansının aradan qaldırılması, elm və təhsildə gender tarazlığının gözlənilməsi sahəsində böyük nailiyyətlər qazanılmışdır. Təhsil prosesində hər iki cinsin mütləq iştirakı üçün real imkanların təmin olunması, dövlət səviyyəsində sistematik və ardıcıl olaraq təhsilin, maarifin inkişaf proqramının həyata keçirilməsi nəticəsində respublikada savadsızlığı aradan qaldırdı. Təhsilin bütün pillələrində və formalarında təhsilin pulsuz olması maddi və mənəvi baxımdan həvəsləndirmə, icbari təhsilin dövlət təminatında olması Azərbaycanı həm təhsil sahəsində, həm də elmdə gender göstəricilərinin dünyanın inkişaf etmiş ölkələri sırasına çıxmasına imkan verdi. Bu da həqiqətdir ki, sovet dövründə təhsil və elm sahəsində əldə olunmuş böyük potensial sayəsində müstəqil Azərbaycanda milli təhsil və milli elm quruculuğu yolunda islahatlar aparır,dünya təhsil sisteminə inteqrasiya istiqamətində beynəlxalq standartlara uyğun təhsil sisteminin qurulmasına çalışır. Təbiidir ki, bu prosesdə bu gün dünyanın qlobal problemlərindən olan təhsil və elm gender bərabərliyinin təmin olunması üçün beynəlxalq təcrübə və Konvensiyaların prinsipləri, milli və ümumbəşəri ənənələr əsasında Azərbaycan təhsilində və elmində də müvafiq tədbirlər həyata keçirilir.

Hazırda təhsil sahəsində, eləcə də elmdə gender balansının təmin olunması Azərbaycan dövlətinin diqqət mərkəzində olmaqla əlaqədar beynəlxalq qurumlar tərəfində də dəstəklənir və bu istiqamətdə uzunmüddətli, perspektiv layihələr həyata keçirilir. Azərbaycan Respublikasının beynəlxalq demokratik, mədəni, sivil məkana ardıcıl inteqrasiyası, ölkə qanunvericiliyində gender bərabərliyinə təminat verən hüquqi normativ bazanın yaradılması Azərbaycan qadınlarının təhsil sahəsində gender balansının normal inkişafının əsasını, təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyası və "Təhsil haqqında" qanununa görə bütün uşaqların 6 yaşından başlayaraq 11 illik ümumi icbari orta təhsil almaq hüququ vardır və dövlət buna təminat verir. Bundan əlavə dövlət I-VII siniflər üçün şagirdlərin dərsliklərlə pulsuz təminatını təşkil etmiş, qarşıdakı illərdə bütün siniflər üzrə dərsliklərin pulsuz təminatına keçiriləcəkdir. Bununla yanaşı, Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş məktəblilərə bütün siniflər üzrə dərsliklər (I-XI) pulsuz verilir. Bütün bunlar, heç şübhəsiz qızların təhsillə tam əhatə olunmasına kömək göstərir.

Müstəqil Azərbaycanda təhsil və elm siyasətində gender yanaşmaları cinsindən asılı olmayaraq təhsil alan qızların (qadınların) əqli və intellektual inkişafına əsaslanan bərabərlik konsepsiyasının formalaşmasına yönəlmişdir ki, bu da bütövlükdə Azərbaycanın dövlət siyasətində gender yanaşmaları və prinsiplərinin tərkib hissəsidir. Bu problemləri həll etmək üçün Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizə, milli mədəniyyətimizə uyğun olaraq qadınlara münasibətdə həm öz tarixi ənənələrimizdən, həm də qabaqcıl beynəlxalq təcrübədən yararlanır. Qadınlara münasibətdə Azərbaycanın dövlət siyasətinin tarixi ötən əsrin əvvəllərinə gedib çıxır. Belə ki, Azərbaycan qadınlarına 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə kişilərlə bərabər seçmək və seçilmək hüququ verilmiş, 1918-20-ci illərdə Azərbaycanda vətəndaşlara, o cümlədən qadınlara da ana dilində təhsil almağa imkan verən orta ümumtəhsil, orta ixtisas, ali təhsil müəssisələri şəbəkəsi yaradılmış, Azərbaycan qadını da cəmiyyətdə fəaliyyətə aktiv cəlb edilmişdir. Müqayisə üçün demək lazımdır ki, XX əsrdə qadınlaran ilk

dəfə seçkilərdə iştirak etmək hüququnun verilməsi tarixinin təhlili göstərir ki, Azərbaycan dövləti bu sahəsində dünyada öncüllərdən biridir. Belə ki, XX əsrdə qadınlara seçmək və seçilmək hüququ verən 73 dövlət arasında Azərbaycan 8-ci yerdə durur. İftixar etməli haldır ki, bu baxımdan dünyanın inkişaf etmiş ABŞ, Almaniya, Fransa kimi dövlətlərindən, eləcə də Şərq ölkələrinin hamısından əvvəl Azərbaycanda qadınlara seçmək-seçilmək hüququ verilib.

Müasir cəmiyyət daha da çox biliklərə əsaslanır, çünki hal-hazırda ali təhsil və elmi tədqiqatlar insanın, cəmiyyətlərin və milliyətlərin mədəni, sosial-iqtisadi və ekoloji cəhətdən dayanıqlı inkişafının ən mühüm komponentləri kimi cərəyan edir. Sovet dövlətinin süqutundan sonra postsovet məkanına yeni kapitalist dəyərləri ayaq açdı. Bazar iqtisadiyyatı, demokratiya və digər liberal dəyərlər sistemi ənənəvi elm-təhsil sistemini və istehsalı tədricən ortadan qaldırdı. Bu gün təhsil sahəsində əldə olunan uğurlarla yanaşı, bir çox problemlər də vardır. Azərbaycan dövləti bu gün özünü inkişaf etmiş ölkələrlə müqayisə etdiyinə görə, təhsil sahəsində də problemlərin ortadan qaldırılmasına diqqət yetirir. Ölkədə yaranan sosial-iqtisadi və sosial-mədəni dəyişikliklərlə əlaqədar olaraq təhsil sahəsində bir çox problemlər ortaya çıxmışdır. Bu təhsil problemləri arasında təhsildə gender problemləri xüsusi yer tutur.

Müstəqil Azərbaycanın 1995-ci ildə qəbul edilmiş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu - gender bərabərliyini bir daha təsdiq etdi, demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını təmin etdi. Müstəqil Respublikanın qarşısında duran problemlərin həllində yaxından iştirak edən Azərbaycan qadını demokratik, hüquqi dövlətimizin, vətəndaş cəmiyyətimizin bərabərhüquqlu, fəal üzvü kimi çıxış edir. Azərbaycanın təhsil siyasətinin əsasları Konstitusiya, “Təhsil haqqında Qanun” və “Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı”, eləcə də digər normativ-hüquqi aktlarla tənzimlənir. Azərbaycan dövləti Konstitusiya ilə (42-ci maddə) heç bir məhdudiyyət (cinsi, dini, dili və s.) qoymadan hər bir vətəndaşının təhsil almasına hüquqi təminat verir, hamının dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir, maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə zəmanət verir. Bütün bu faktlar onu göstərir ki, müstəqil Azərbaycanda qadınlara qarşı münasibətdə gender bərabərliyinin qorunması, ölkənin sosial-siyasi və mədəni həyatda gender sahəsində balanslaşdırmanın təmin olunması dövlət siyasətində mühüm yer tutur. Bununla bağlı Azərbaycan dövləti BMT-nin: “Qadınların siyasi hüquqları haqqında”, “Uşaqların hüquqları haqqında”, “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında” Konvensiyalarına, eləcə də, qadın hüquq və azadlıqları ilə əlaqədar 10-dan artıq beynəlxalq Sazişə qoşulmuşdur. (Məs. “Bərabər əməyə görə kişi və qadınların bərabər mükafatlandırılması haqqında” 1951-ci il tarixli 100 №-li Saziş, “Əmək və sənət sahəsində” 1958-ci ildə qəbul edilmiş 111 №-li Saziş, “Anaların mühafizəsi haqqında” 1952-ci ildə qəbul edil-miş 103 №-li Saziş və b.) (9;52).

Azərbaycanın müstəqilliyini əldə etdikdən sonra Azərbaycan qadını beynəlxalq arenaya çıxmış, qadın məsələləri üzrə 1995-ci ildə keçirilən və sayca 4-cü Ümumdünya Pekin Konfransında (I konfrans 1975-ci ildə Mexikoda, ikincisi 1980-ci ildə Kopenhagendə, üçüncüsü 1986-cı ildə Nayrobidə keçirimişdir) iştirak etmişdir. Etiraf etməliyik ki, bu dövrdən etibarən Azərbaycanda gender problemləri və gender təhsili, genderşünaslığın beynəlxalq məsələləri xüsusi aktuallıq kəsb etməyə başladı.

Gender probleminə elmi yanaşma, gender münasibətləri haqqında aparılan elmi araşdırmalar respublikamızda genişləndirilməsi vacibdir. Ali və orta təhsil məktəblərində bu problemə laqeyid münasibət həmin məsələ ilə bağlı bir çoxlarının fəallaşmasına, problemi istədikləri istiqamətə yönəltməsinə imkan yaradır. Ölkədə fəaliyyət göstərən təhsil ocaqlarımızda fəal xidmət göstərən gender mərkəzləri demək olar ki, yox səviyyəsindədir. İstər orta ixtisas məktəblərində və universitetlərdə bu problem tədris olunmur.Təhsil məsələləri ilə məşğul olanların bu problemi yaxşı bilməmələri, bu problemin həlli məsələsinə mane olur.

Dövlət və qeyri-dövlət sektorunda problemlərin aradan qaldırılması istiqamətində bir çox işlər görülmüşdür. Azərbaycanda Qadın Şəbəkəsi Proqramı (QŞP), və dövlət tərəfindən təhsilin inkişafı etdirilməsi ilə bağlı bir çox layihələr – “Səlahiyyətli təhsil” (2000-2005-ci illər), “Şifahi tarixçələr”, “Üçüncü sektorda gender təhsili”, “Gender təhsili üçün informasiya resursları” və başqa layihələr, həmçinin gender təhsili ilə bağlı elmi praktiki konfranslar – “Ali təhsil sistemində gender təhsili problemlərinin nəzəri-metodoloji aspektləri” (2002), “Gender, təhsil və dünya mədəniyyəti” (2005), “Genderin sosial və humanitar fənlərə inteqrasiyası” (2001), “Səlahiyyətli təhsil orta məktəb islahatına köməkdə: Avropa təcrübəsi” (2005), “Uşaq hüququ

və onun tədrisi" (2005) və başqa tədbirlər həyata keçirmişlər. Sovet dövründə dövlət himayəsi altında bir çox Azərbaycan qadını müxtəlif elm sahələrində fəallaşdı. Onlar arasında görkəmli akademiklər, professorlar, dosentlər vardır. Lakin 90-cı illərdə keçid dövrü ilə əlaqədar yaranan sosial-iqtisadi böhran əksər alimlərin başqa ölkələrə axınına və ya müxtəlif gəlirli sahələrə getməsinə, bir qrup alimlərin həm elmi tədqiqat, həm də əlavə işlərlə məşğul olmasına, digər bir qisminin də QHT-nın layihələrinə cəlb olunaraq öz maddi ehtiyaclarını təmin etməsinə səbəb oldu. Bütün bu proseslər Azərbaycanda elmin inkişafına mənfi təsir göstərdi. Elmdə kişilərin sayı azaldı və ya onların iş səmərəliliyi aşağı düşdü. Qadınlar isə kişilərə nisbətən kiçik məvaciblə yetinərək öz iş yerlərini tərk etmədilər. Lakin buna baxmayaraq elmin idarə olunması sahəsində üstünlük təşkil edən yenə də kişilərdir (9;25).

Təhsildə bərabərlik, təcrübəçilər və siyasətçilər arasında ümumi qəbul edilmiş beynəlxalq tərifə malik olan həlledici terminlərdən biridir. "Təhsildə bərabərlik, fərdlərin stereotiplər, əvvəlcədən düşünülmüş gözləmələr və diskriminasiya əsasında deyil, onların qabiliyyətlərinə və istedadlarına uyğun olaraq, seçim imkanlarını nəzərdən keçirdiyi və seçim etdiyi təhsil mühit deməkdir. Təhsildə bərabərlik, bütün irq və etnik mənsubiyyətli qadın və kişilər məhsuldar işləyən, səlahiyyətli vətəndaşlar olmaq üçün lazım olan vərdişlər qazanmağa imkan verir. O, gender, etnik və ya ictimai statusdan asılı olmayaraq, iqtisadi və ictimai imkanlar açır"(6).

Bütün ölkələrdə olduğu kimi Azərbaycanda da təhsil sahəsində gender problemləri az da olsa mövcuddur. Bu problemlərin aradan qaldırılması üçün gender təhsilinin tətbiqi zəruridir. Lakin bu təhsil sistemini tətbiq etmək üçün onun fəlsəfəsini dərk etmək və bu sahədə mütəxəssislərin hazırlaması lazımdır. Təhsil ilə bağlı sovet məkanında baş verən böyük ictimai dəyişikliklər nəticəsində cəmiyyət miqyasında gender münasibətlərinin dəyişməsi təhsil mühitində də özünə məxsus təkamül xarakterli dəyişiklərə gətirib çıxartdı. Daha konkret desək, cəmiyyətdə ictimai dəyərlər sistemində baş verən problemli dəyişmələr bazar münasibətlərinə xas olan uğur dəyərlərini ön plana çəkərək, onları instrumental dəyərlər sırasından terminal dəyərlərin önünə yerləşdirdi. Bunun əksi olaraq, savad, ailə, dostluq, xalqa xidmət kimi terminal dəyərlər bazar, biznes və yeni xarakterli dəyərlərə çevrildi. Bu cür dəyərlər sisteminin yeniləşməsi nəticəsində, ali təhsil ocaqlarında "müəllim-müəllim", "müəllim-tələbə-müəllim" və "tələbə-tələbə" münasibətlərində və gender aspectlərində də dəyişiklər törətdi.

Bu səbəbdən təhsil almaq, müəllim və tələbə yoldaşları ilə ünsiyyətdə olmaq, biliyin təkmilləşməsi sevincini yaşamaq, yetişdirməsinin nailiyyətlərinə sevinmək kimi proseslərin dəyərliliyini yüksəltmək, diplom əldə etmək deyil, gender təhsilli, mədəniyyətli gənclər yetişdirilməsi zəruridir.

Bu baxımdan da XXI əsrdə artıq təhsildə gender problemi postneoklassik tədqiqat sahəsi kimi müxtəlif elmləri (pedaqogika, psixologiya, fəlsəfə, sosiologiya) və onların metodologiyasını gender təhsili müstəvisində bir araya gətirərək, ənənəvi təhsilin gender stereotiplərini ortadan qaldırmaq vəzifəsini qarşıya qoyur. Postmodern pedaqogika və gender təhsili demək olar ki, modernist ənənədə formalaşan strukturları dekonstruksiya etmək və tədrisin forma və məzmununu tamamilə dəyişmək əzmindədir. Çünki bu düşüncə istənilən bilik sahəsində ictimai-ideoloji konstruksiyanın mövcudluğunu qəbul edərək, biliyi bu konstruksiyalardan azad etmək məqsədini daşıyır.

Təhsil sahəsində innovasiyalara və yeni alternativ ideyalara həmişə ehtiyac olmuş və olmaqdadır. Cəmiyyətin inkişaf dialektikası daima təfəkkürdə və cəmiyyətdə yenilənməni zəruri edir. Bu baxımdan biz ənənəvi təhsilin tamamilə konstruksiyasına ehtiyatla yanaşmalı və təhsildə gender bərabərliyinin alternativ yollarını axtarmalıyıq.

Məktəb dərsliklərində ehtiva olunan biliklərin çoxunda (xüsusilə, humanitar elmlərdə) mövcud olan, androsentrizm kimi ideoloji konstruksiyalar az da olsa nəzərə çarpır. Onlar sosial-mədəni, cinsi və siyasi ayrıseçkiliyə şərait yaradır. Gender təhsili təhsil sistemində olan bütün dominantlıq formalarını və ya mərkəzlərini dağıdır və təhsildə bütün tərəflərə, həmçinin cinslərə plüralizm, multikulturalizm imkanları yaradır (7;61).

Bu məsələləri sadalamaqla cəmiyyətdəki problemləri diqqətə yetiririksə, o zaman tək məktəb səviyyəsində olan nəticələri araşdırmaq doğru deyil. Biz ümumi təhsil nəticələrində də gender təhsilinə önəm verməliyik. Təhsil və elm üzrə ümumi nəticələrə baxsaq, təhsilin kişi və qadınların yaşadıqları cəmiyyətdə inkişafı üçün bərabər imkanları təmin edilməsini görürük. Təhsildə gender bərabərliyinin daha da inkişafına nail olmaq üçün nə edə bilərik?

Elmdə və təhsildə hər ixtisasın nüfuzunu yüksəltmək;

- Tədrisi yaxşılaşdırdıqdan sonra, daha çox

qadınların üstünlük təşkil etdiyi dissertant və müəllimlik ixtisasının nüfuzunu yüksəltməsi də genderdə pozitivlikdir.

Təhsil və elm qurumlarında gendərə həssas mühitə çevirmək;

- Tək dərsliklər deyil, tədqiqatçı və müəllimlər də davamlı olaraq qız və oğlanlara gender tədrisini tətbiq etməlidir. Dərsliklərdə, tədqiqat mövzu və dissertasiyalarda əsasən kişi və qadınlar müxtəlif gender rollarında təqdim edilir. Bu onların karyera seçiminə təsir göstərir. Təhsil və elm müəssisələrində təhsil işçiləri üçün gender haqqında savadlarını artırmaq;

- Biz təhsil və elm sistemində dəyişmək istəyiriksə, ilk növbədə gender problemlərinin əsaslarını, gender tədqiqatlarını, kişi və qadınların inkişaf və problemlərinin unikal xüsusiyyətlərini anlaması üçün təhsil və elm işçilərinə də maarifləndirici dərslər təşkil etməliyik.

- Elmi-tədqiqat işçilərinin gender araşdırmaları sahəsində beynəlxalq konfranslarda və layihələrdə iştirakını stimullaşdırmaq və dəstəkləmək lazımdır.

Gender tədqiqatları sahəsindəki tədqiqatçı alimlər ən azından gender milliyyət və mədəniyyətlərin çoxsaylılığı, münaqişə və post-münaqişə ərazilərində qadınlar və çox mühüm olan müsəlman cəmiyyətlərdə gender məsələləri haqqında olan araşdırmaları vasitəsilə beynəlxalq konfranslarda maarifləndirməni gücləndirə bilərlər (8;53).

Bəzi fikirlərə görə, güya təhsil yalnız məktəblə və ya məktəbə getməklə bağlı olmalıdır və yaxud elm elmi idarədə işləməklə meydana çıxır. Bu yolla təhsil və elm sistemi özünü guya qoruyur. Postmodernizmin gəlişi ilə bir sıra alimlər artıq təhsilin sona çatdığını bildirirlər. Son dövrlərdə gənc nəslin real həyatdan daha çox internetin virtual aləminə qapılması, onların fiziopsixoloji transformasiyasını sürətləndirir. Çünki internet məkanında onlar ənənəvi gender obrazından qurtularaq (avatar kimi) müxtəlif obrazlara transformasiya olunurlar.

-Hal-hazırda, industrial cəmiyyətdən informasiya cəmiyyətinə keçid mühəndis-texniki yönümlü ixtisaslardan menecer-inzibatçı, maliyyəçi və s. ixtisaslara doğru təlabatın yüksəlməsi meylini yaradıb. Şübhəsiz ki, Azərbaycanda da bu qlobal tendensiya faktik mövcuddur. Rəsmi statistik məlumatlarda bu meyl özünü biruzə verməsə də, real proseslərdən

- Ticarətin, ictimai iaşənin, xidmətin yüksək artım tempindən aydındır ki, mühasib, menecer, inzibatçı və s. peşələrə təlabat yüksəlib. Əsasən, yüksək səviyyədə nailiyyət əldə etmək üçün hansı addımları atmaq lazımdır? İlk növbədə:

- Ali təhsil və elm müəssisələrində gender münasibətləri haqqında silsilə tədqiqat proqramını hazırlamaq və tətbiq etmək;

- Ali təhsil sistemində gender faktorlarına uyğun problemlərin araşdırılması və müzakirəsi üçün elmi tədbirlər təşkil etmək;

- Tədqiqatın nəticələri kimi gənclər üçün münasib ola bilən broşüra və ya sosial şəbəkələrdə yayılmasını təşkil etmək;

- Təhsildə gender poblemləri və elmi tədqiqatlarının nəticələrini tədris proqramları və kurslar, habelə dərs vəsaitlərinə tətbiq edilməsini təmin etmək;

- Dəqiq və təbiət elmlərini əhatə edən ali təhsil ocaqlarında gender problem-lərinin praktika və nəzəriyyəsinin elmi-pedaqoji fəaliyyətə daxil edilməsini təmin etmək;

- Dövlətin bu sahədə inkişaf etdirdiyi proqramlar üzrə nəzərdə tutulmuş tədbirlərdə bu tədqiqatlardan irəli gələn qənaətlərin nəzərə alınmasına çalışmaq;

- Bundan başqa, müvafiq dövlət qurumları, gender problemləri ilə məşğul olan QHT-lər (qeyri-hökumət təşkilatları) tərəfindən orta məktəblərin yuxarı siniflərində zəruri maarifləndirilmə aparılması;

- Uyğun ixtisaslar üzrə təhsil almağa təşviq edilməsi bu məsələnin həllində əhəmiyyətli rol oynaya bilər. Bu problem isə təkcə hər hansı stimullaşdırma və güzəşt tədbirlərilə öz həllini tapa bilməz. Problemin həlli həm də etik münasibətlərdə, sosial baxışlarda gender şüurlu, gender təhsilli köklü yeniləşmələri tələb olunur.

**Gender təhsili və gender tədqiqatları**

Belə ki, gender təhsili və elmi ilə bağlı statistika belədir:

- 2020-ci ilin yanvarın 1-i vəziyyətinə Azərbaycan əhalisinin ümumi sayından 50,1%-i və ya 4 milyon 999,1 nəfəri qadınlardır. Dövlət Statistika Komitəsinin mə-lumatına görə, ötən il doğulan 139 min körpənin 46,6%-ni qız uşaqları təşkil edib. Qadınların 53,4%-i nəsilvermə qabiliyyətinə malikdir.

- Qadınların sağlamlığının qorunması daim Azərabaycan dövlətinin diqqət mərkəzindədir. Ölkədə 17 doğum evi, 130 qadın məsləhətxanası, 248 uşaq poliklinikası və ambulatoriyası xidmət göstərir. İlkin məlumatlara görə, Azərbaycanda qadınlar məşğul əhalinin 48,2%-ni təşkil edir.

- Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 80, 1%-i, orta ixtisas təhsili müəssisələrində 78,9%-i, ali təhsil müəssisələrində 52%-i, həkimlərin isə 62%-i qadınlardır. Ümumi

təhsil müəssisələrində şagirdlərin 46,9%-i, orta ixtisas təhsili müəssisələrində oxuyanların 65,7%-i, ali təhsil müəssisələrinin tələbələrinin 48,2%-i qızlardır.

- Qadınların elm sahəsində xüsusi çəkisi artmaqda davam edir. Elmi işçilərin 58, 1%-ini qadınlar təşkil edir. Son 5 ildə həm elmlər doktorları, həm də fəlsəfə doktorlarının sayı 1,3 dəfə artmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqiq üzvlərindən 9-u qadın, müxbir üzvlərdən 12-si qadındır.
- Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi ilkin məlumatlara görə, 28,6%, sahibkarlar arasında isə 21,5% qadınlardır. Bədən tərbiyəsi və idmanla məşğul olanların 42%-i qadınlardır.
- Məşğul əhalinin ümumi sayında məşğul qadınların xüsusi çəkisi 48,2% təşkil edir, onlardan 78,1%-i özəl sektorda, 21,9%-i isə dövlət sektorunda çalışır. Sahibkarlar arasında qadınların xüsusi çəkisi artaraq 2011-ci ildə 16,2 % -dən, 2018-ci ildə 21,5 %-dək yüksəlmişdir.
- Hazırda təhsil və səhiyyə sahəsində çalışanların 70%-i, bədən tərbiyəsi və idmanla məşğul olanların 42 %-i qadınlardır (11).
- Bu vaxta qədər həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda orta və ali təhsil sahəsində gender bərabərliyinə nail olunmuşdur (15-24 yaşlı qadınlar və kişilər üzrə savadlılıq səviyyəsi 100% təşkil edir). Bu bərabərliyin ölkədə baş verən çevik sosial-iqtisadi inkişaf zamanı qorunub saxlanılması Azərbaycan hökumətinin əsas prioritetlərindən biridir. Azərbaycanda bütün təhsil pillələri üzrə gender bərabərsizliyinin aradan qaldırılması üzrə əsaslı nailiyyətlər əldə olunmuşdur. Orta-ixtisas təhsili müəssisələrində isə qızlar tələbələrin 65,7%-ni təşkil edir.
- Ölkədə aparılan gender siyasətinin nəticəsi olaraq ictimai-siyasi həyatın bütün sahələrində xüsusilə qərarqəbuletmədə qadınların iştirakı artmışdır. Belə ki, 2005-ci ildə ölkədə keçirilən parlament seçkilərində qadın deputatlar 14 nəfər (11%), 2010-cu ildə 20 nəfər (16%)-ə, 2015-ci ildə 21 nəfər (16,8%), 2020-ci ildə yenə 21nəfər təşkil edib.
- Yerli özünüidarəetmə orqanlarında da qadınların təmsilçiliyi artmaqdadır. 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində bələdiyyə üzvü olan qadınlar 4% idisə, 2009-cu ildə 26.5% , 2014-cü ildə isə 35 % olmuşdur. 2019-cu ildə keçirilmiş son seçkilərdə də bu nəticə qorunmuşdur.

**Nəticə**

Gender bərabərliyi sosial ədalət, insan hüquqları, demokratiyanın təbiətinin keyfiyyəti ilə bağlı əsas anlayışlardandır. Dünya birliyinin bir hissəsi olan Azərbaycan üçün də gender balansı demokratiyanın vazkeçilməz şərtlərindən hesab olunur. Ümumiyyətlə, Azərbaycanda müasir gender durumu daha geniş regional və qlobal tendensiyaları əks etdirir. Bu vəziyyətin ən xarakterik əlaməti təhsil və səhiyyə sahəsindəki yüksək qadın təmsilçiliyi ilə yanaşı biznes liderləri və qərarvermədə təmsilçiliyin daha da inkişafına ehtiyac duyulmasıdır.

Gender amili təhsilinin və elmində ümumi siyasətə daxil edilməsi dövlətin öz strategiyaları və proqramlarının təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Gender elmi və təhsili yoxsulluğun azaldılması, davamlı inkişafın təmin olunması və səmərəli idarəçiliyin qurulması üçün zəruri olan şərtlərdən biridir. Yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı, məşğulluğun artırılması və milli iqtisadiyyatın inkişafı üzrə qəbul edilmiş strateji sənədlərdə qadınların inkişafı, gender bərabərliyinin təmin edilməsi üzrə xüsusi tədbirlər nəzərdə tutulmuşdur.

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında insan kapitalının inkişafı xüsusi olaraq diqqət mərkəzindədir. Gender bərabərliyi və təhsil sahəsində problemlərin həlli "dövlət siyasətinin əsas istiqamətlərində gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbrlərin görülməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanlar yaradılması, qadınların işdə irəli çəkilməsi, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi kimi məsələlər" prioritet olaraq göstərilir.

Perspektivdə gözlənilən işlər.

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2020-2024-cü illər üçün Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planı üzərində işləyir. Layihənin Milli Məclisin gündəminə çıxarılması gözlənir. Gender bərabərliyi üzrə Milli fəaliyyət planının hədəfləri:

* gender siyasətinin səmərəliliyinin artırılması, institusional mexanizmlərin təkmil-ləşdirilməsi;
*gender amilinin bütün siyasət və tədbrlərə daxil edilməsi;
* qadınların kişilərlə bərabər qərarqəbuletmənin bütün səviyyələrində bərabər iştirakının artırılması;
* əmək bazarında qadınlarlın kişilərlə bərabər rəqabət qabiliyyətliliyinin artırılması;
* təhsil materiallarının gender ekspertizasının keçirilməsi;
* qızlar arasında təhsildən yayınma və erkən nikah hallarının azaldılması;
* ictimai həyatın bütün sahələrində gender stereotiplərinin və cinsi ayrıceçkiliyin aradan

qaldırılması;

* əhalinin qadın hüquqları və gender bərabərliyi sahəsində biliklərinin artırılması;

* kütləvi informasiya vasitələrində gender bərabərliyinin təbliğinin gücləndirilməsi;

* gender məsələlərinə məsul şəxslərin işinin təkmilləşdirilməsi; Gender məsələləri üzrə məsul şəxslərdən ibarət Koordinasiya qrupunun yaradılması;

* qadınların iqtisadi imkanlarının genişləndirilməsi;

* əlverişsiz şəraitdə yaşayan və qadın və kişi qruplarına, o cümlədən, kənd qadınları, əlilliyi olan qadınların, məcburi köçkün, qaçqın və ahıl qadınların əsas ehtiyaclarının öyrənilməsi;

* qadınların rəqəmsal bacarıqlarının inkişafı, yeni texnologiyaların və innovativ həllərin yaradılmasında rolunun artırılması.

Bu hədəflərə çatmaq üçün qanunvericiliyin təkmilləşdirilməsi, institusional mexanizmlərin gücləndirilməsi, məlumatlandırma və maarifləndirmə, gender əsaslı zorakılıqla mübarizə, təhsil və gender stereotipləri ilə mübarizə, ,ətin həyat şəraitində yaşayan qadın və qızlar; Sülh və təhlükəsizliklə bağlı proseslərdə qadınların iştirakı, Siyasi və ictimai həyatda qadın və kişilərin bərabər iştirakı, kənd qadınları ilə xüsusi iş, təhlil və qiymətləndirmə nəzərdə tutulur. Eləcə də "Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair 2019-2024-cü illər üçün Milli Fəaliyyət Planı" layihələri üzərində iş gedir.

**Açar sözlər:** *gender analyışı, gender təhsili və gender tədqiqatları, gender elmi mühiti, Azərbaycanda gender problemləri, gender balansı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. unazerbaijan.org/az/buklet-dayaniqli-inkisaf-məqsədləri/*

*2. https://president.az>future_az PDF*

*3. "Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında" Konvensiyanın Azərbaycanda həyata keçirilməsinin monitorinqi. Bakı, (ACİ) ,*

*4. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2006-ci il, səh.16/72 səh)*

*5.Qadınların vəziyyətinə həsr olunmuş IV Ümumdünya Konfransında Azərbaycan qadınlarının fəaliyyəti. Pekin, 4-15 sentyabr, 1995-ci il. Bakı, 1998.*

*6. Gender və jurnalistika. Dərs vəsaiti / Müəllif-tərtibatçı: Babayev Z.K. - Bakı, 2005,*

*7. Gender və qadın tədqiqatları üzrə məlumat kitabçası. Bakı "Səda" 2099- 61s.*

*8. Gender təhsili və gender təhsili üzrə direktoriya. Bakı, "Səadət" , 2010 - 53 s Gunay Arif Hasanli*

*9. "Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv edilməsi Haqqında" Konvensiyanın Azərbaycanda həyata keçirilməsinin monitorinqi. Bakı, bərabərliyinin təmin olunması və ailənin inkişafı, s.30*

*10. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, 7.4 Gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, s.30. (10;30)*

*11. stat.gov.az/sour*

*12. Gender və qadın tədqiqatları üzrə məlumat kitabçası. Bakı "Səda" 2000*

## РЕЗЮМЕ

Изучение гендерного образования с философской точки зрения и всестороннее раскрытие взаимодействия этих данных определяет перспектив будущих гендерных исследований. В образовательной политике независимого Азербайджана полностью обеспечивается гендерное равенство и реализуются долгосрочные, перспективные проекты по обеспечению гендерного баланса.

**Ключевые слова:** *гендерный анализ, гендерное образование и гендерные исследования, гендерная научная среда, гендерные проблемы в Азербайджане, гендерный баланс.*

## SUMMARY

The study of gender education from a philosophical point of view and the comprehensive disclosure of the interaction of these data determines the prospects for future gender research. The educational policy of independent Azerbaijan fully ensures gender equality and implements long-term, promising projects to ensure gender balance.

**Keywords:** *gender analysis, gender education and research, gender science environment, gender issues in Azerbaijan, gender balance.*

UOT 159.99

# UŞAQ İNKİŞAFINDA BÖHRAN PROBLEMİ

**MƏTANƏT ƏLİYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

Psixologiya elmi üçün maraqlı məsələlərdən biri psixoloji böhran problemidir. XIX əsrin sonundan etibarən psixoloji böhran problemi psixoloqların və əlaqəli sahələrin mütəxəssislərinin diqqətini özünə cəlb etmiş və psixoloji böhran problemi ilə bağlı bir sıra nəzəriyyələr irəli sürülmüşdür. Bununla yanaşı psixoloji böhran anlayışının ədəbiyyatda və praktikada geniş istifadə olunmasına baxmayaraq, bu anlayışın şəxsiyyətin inkişafı ilə bağlı məsələləri nəzəri baxımdan kifayət qədər işlənməmişdir. Bu baxımdan müasir dövrdə psixoloji böhran hallarının şəxsiyyətin inkişafının yaş, cins və s. xüsusiyyətləri ilə bağlı araşdırılmalar davam etməkdədir.

Gündəlik həyat təcrübələrimizdən və nəzarətimizdən kənarda inkişaf edən, daha çox qəflətən gələn və şiddətli bir təsirə sahib olan, öhdəsindən gəlmə qabiliyyətimizi aşan və müəyyən bir gərginlik, narahatlıq və ya münaqişə yaradan hadisələr və vəziyyətlər ümumi mənada "böhran" adı altında qruplaşdırılır.

Travma böhran yaradan hadisələrdən sonra həyatın normal axışını və fəaliyyətini əngəlləyən şiddətli qorxu, dəhşət və çarəsizlik hisslərinə səbəb olan sarsıdıcı təcrübələrdir.

Hal-hazırda "Böhran vəziyyəti" anlayışı şəxsiyyətin fəaliyyət imkanlarına son dərəcə yüksək tələblər qoyan reaksiya kimi başa düşülür. Bu reaksiyalar sırasına sağlamlığı pozan, həyati təhlükə yaradan problemlər: ailə quruluşunda, yaxud statusunda dəyişikliklər yarada bilən amillər, şəxsin yaşadığı qrupda rolunun dəyişməsi millətə və ya mədəniyyətə təhlükə və s. aiddir. Stressin və təhrikedici hadisənin intensivliyi insanın uyğunlaşma imkanlarından üstün olur. Beləliklə, böhran vəziyyətləri sosial və ya bioloji tələbat və onu qənaətləndirmək imkanı arasında yaranmış parçalanma nəticəsində meydana çıxır.

Böhranın vəziyyəti intellektual və emosional sahələrdə baş verən özünüdərk işinin gələcək inkişafını təmin edir, münaqişənin həlli isə şəxsiyyətin inkişafının göstəricisi kimi çıxış edir. Lakin, digər tərəfdən, böhran əsəb pozğunluqlarına səbəb ola bilər. Beləliklə, çətinlik meydana gəlir, problem əvvəlki fəaliyyət üsullarının pozulmasına səbəb olur, gərginlik yaranır, problemin həllinin köhnə üsullarının yoxlanılması gedir, əgər onlar adaptiv deyilsə, gərginlik güclənir. Sonrakı mərhələdə problemin dərki üçün xarici və daxili resursların cəlb edilməsi baş verir ki, bunun da nəticəsi aşağıdakılar olur: problemin yenidən nəzərdən keçirilməsi və vəziyyətdən çıxış; vəziyyətin mümkün yollarla həllinin qeyri-mümkün olması və sistemin növbəti pozuntusu, problemin həllindən uzaqlaşma və ya destruktiv çıxış. Bu zaman klinik problemlər meydana gələ bilir.

Böhran vəziyyətlərinin klinik aspektləri. Böhran vəziyyətlərinin klinik aspektlərinə nəzər saldıqda bir faktı nəzərə almaq lazımdır ki, əksər hallarda böhranın müəyyən mərhələsində yardıma ehtiyacı olan və böhranın müəyyən fazalarından keçərək əvvəlki vəziyyətinə qayıdan adaptasiya olunmuş şəxsdən söhbət gedir. Belə hallarda insanı "xəstə" hesab etmək, yəni tibbi diaqnozun qoyulması və ənənəvi müalicəsinin təyin olunması məqsədə müvafiq hesab olunmur. Böhran vəziyyətində rast gəlinən pozuntulara aşağıdakıları aid etmək olar.

1. Kəskin stresə reaksiya (F43.0) - güclü psixoloji və ya fiziki stressorun bilavasitə təsirindən 1 saata qədər vaxt keçdikdən sonra meydana çıxır. Bu vəziyyət nəzərə çarpan vegetativ

simptomlarla: taxikardiya, əzələlərin tremoru, tənginəfəslik, ürəkbulanma, abdominal diskomfort, başgicəllənmə, reallıq hissinin itirilməsi, ölüm qorxusu və digər pozuntularla xarakterizə olunur. Bu əlamətlər diqqətin zəifləməsi, dezorentasiya, təşviş və ümidsizlik hissi ilə müşayiət olunur. Bir çox hallarda stress keçirmiş adamlar oyanıq və həddən artıq fəal olurlar. Yaxud emosiyaların biruzə verilməsini kultural standartlarına uyğun olmayan formada ifadə edirlər. Stressorun təsiri kəsildikdən 8 saat sonra sadalanan əlamətlər getdikcə azalır. Lakin stressorun təsiri keçməsə belə əlamətlər 48 saatdan gec olmayaraq azalacaq. İfadəolunma dərəcəsinə görə kəskin stressdə reaksiya yüngül, orta və ağır dərəcələrə bölünür.

2. Travmadan sonrakı stress pozuntusu (TSSP) (F43.1) istənilən adamda böhran vəziyyəti yarada bilən son dərəcə təhlükəli xarakterli vəziyyətdə yaşadıqda və ya onu artıq keçirdikdən sonra meydana çıxır. Bu halda təkcə stress faktorunun xarakteri deyil, həmçinin onun davametmə müddəti insanın xarakteri ilə sərtləşdirilmiş şəxsiyyətin bu stressə qarşı zəif olub-olmaması mühüm əhəmiyyət kəsb edir. TSSP-nin əlamətləri rəngarəng sarışın xatırlamalarla (flash back) xarakterizə olunur ki, bunlar da yuxugörmələrdə və ya psixotravma ilə assosiasiya olunan şərait təsir göstərdikdə, tez-tez təkrar olunur. İnsan var qüvvəsi ilə keçirmiş olduğu vəziyyəti xatırladan şeylərdən uzaqlaşmağa çalışır. Eyni zamanda yuxusuzluq aqressiyanın artması, diqqəti cəmləşdirməyin çətinləşməsi, bütün reflekslərin güclənməsi, hipersteriya qeyd olunur. Psixi travma ilə əlaqədar hadisələrin psixogen amneziyası xarakterik əlamət kimi nəzərə çarpır. TSSP-nin əlamətləri stressogen situasiyadan 6 ay müddətində və ya stressin sonunda meydana çıxır.

3. Fəlakətli hadisədən sonra xroniki şəxsiyyət dəyişməsi (F62.0). Şəxsiyyətin strukturunda dəyişikliklər şəklində özünü göstərən uzunmüddətli gedişli böhran vəziyyətləri insanın ətraf mühiti və özünü qavramasını, əhval-ruhiyyəsini, davranışını, xüsusilə onun ətrafdakılarla münasibətlərini əhatə edir. İnsanlara qarşı düşmənçilik və inamsızlıq, sosial izolyasiya, o cümlədən, boşluq və ümidsizlik hissi əmələ gəlir. Bu hiss uzunmüddətli depressiv əhval-ruhiyyə ətrafdakıların dəyişilmiş və fərqli olması duyğusu ilə müşayiət olunan yaxın və doğmalardan yüksək asılılığa gətirib çıxarır. Daimi daxili gərginlik və xaricdən təhlükə hissi çox vaxt alkoqol və digər psixoaktiv maddələrdən sui-istifadəyə səbəb olur.

Fəlakətli hadisədən sonra xroniki şəxsiyyət dəyişməsi diaqnozu 2 ildən az olmayaraq davam etdikdə müəyyən oluna bilər. Travmadan sonrakı stress pozuntusu diaqnozu qoyularkən simptomların ümumilikdə 4 ildən az olmayan müddətdə davam etməsi nəzərdə tutulur.

Anoloji dəyişikliklər fiziki və psixi xəstəliyin bir və ya bir neçə epizodundan sonra da müşahidə edilə bilər.

4. Uyğunlaşmanın pozuntusu (F43.2). Gündəlik praktikada rast gəlinən böhran vəziyyətləri fəlakətlərlə bağlı olmur. Daha çox hallarda böyük əhali kütlələrinə deyil, ayrı-ayrı şəxslərə aid olan psixososial stressorlar mühüm əhəmiyyət kəsb edir. Bunlara ailədə və işdə olan münaqişələr, qeyri-qənaətbəxş mənzil-məişət şəraiti, maddi çətinliklər və s. aiddir. Nəticədə müddəti 1 aya qədər olan qısa depressiv reaksiya (F43.20) , müddəti 2 ilə qədər olan depressiv reaksiya (F43.21), qarışıq təşviş depressiya reaksiyası (F43.22) və yaşdan və sosial situasiyadan asılı olaraq aqressiv və antisosial hərəkətlər şəklində təzahür edən davranış pozuntusu (F43.24) meydana çıxır [8;1156].

Yuxarıda təsvir olunan pozuntulardan başqa böhran vəziyyətləri təşvişli-fobik, depressiv, somatoform, dissosiativ və kəskin psixotik pozuntu şəklində də özünü göstərə bilər.

Yeniyetməlik böhranının məzmuna müxtəlif nəzəri yanaşmaların təhlili ehtimal etməyə imkan verir ki, ümumi, qlobal məsələ inkişafın şəxsi istiqamətinin axtarışı və gələcək fərdi obrazın müəyyən olunmasıdır: "Mən kiməm və mən hara gedirəm?" Bu gələcək məktəbəqədər uşaq və kiçik yaşlı məktəbli üçün kifayət qədər dəqiq və praqmatik təsvir olunub, lakin yeniyetmə üçün bu gələcək çoxvariantlı və çətin müəyyən olunan olur. Yetişən koqnitiv strukturlarının, təkminləşən çoxölçülü təhlil bacarığının, məntiqi əlaqələrin, refleksiya və sərbəstliyin fonunda bu məsələ dərinlik və əhatəlik qazanır [1].

Dəyişən müvəqqəti perspektiv, uzaq gələcəyə

yönəlmə və özü haqqında açıq təsəvvürlər yaş böhranını gücləndirir. Böhran vəziyyətinin yaranmasına və inkişafına təsir edən əsas amil yeniyetmədə baş verən fiziki və koqnitiv dəyişikliklərdir. Beləliklə, biz kiçik yeniyetməlik yaşında baş verən böhran vəziyyətinin gedişatına təsir edən ümumi dəyişiklikləri aşağıdakı kimi göstərə bilərik:

1. Psixikanın struktur dəyişiklikləri. Mədəni-tarixi yanaşma mövqeyindən yeni yaşa keçid psixikanın struktur dəyişiklərini nəzərdə tutur. Bu dəyişikliklər psixikada əvvəlki yaş dövründə yaranan yeniyaranmaların baş verməsi nəticəsində mümkün olmuşdurlar. Dəyişikliklər inkişafın vacib məsələləri, şəxsiyyət və şüur sahəsində gələcək yeniyaranmaların formalaşması üçün yaranan şəraitlər ilə bağlı olan psixikanın struktur komponentlərində baş verirlər. Kiçik yaşlı yeniyetmələr üçün şüurun inkişafı və ya E.Eriksonun terminologiyada uyğunluğun qurulması belə sahədir[3;40].

2. Əvvəlki rollardan imtina, özü barədə təsəvvürlər, onların yenidən nəzərdən keçirilməsi və yeni səviyyədə mənimsənilməsi vasitəsi ilə uyğunluğun formalaşması. Dərk edilmiş "Mən"in strukturunun qurulması refleksiya, differensasiya olunmuş özünüqiymətləndirmə, psixi proseslərin sərbəstliyinə əsaslanır və özünü təyinat, özünün axtarışı, şəxsiyyətin keyfiyyətlərinin və bacarıqlarının dərk olunmasını özündə cəmləşdirir.

3. Yeni cismiliyin mənimsənilməsi, cinsi yetişmənin qəbul olunması və yeni cinsi uyğunluğa keçid (qadın/kişi), seksual və gender rolların qəbul olunması və mənimsənilməsi.

4. Böhran halları köhnə, adət edilmiş münasibətlərindən imtina neqativizm, davranışda, özünə və ətrafdakılara qarşı münasibətdə mənfi meyilləri ehtimal edir.

Kiçik yaşlı yeniyetmələrin neqativizmi, ilk növbədə, ətrafda olanlar tərəfindən "Mən"in adət edilmiş formada qəbul olunmasından imtinada, özü və valideyn təsiri barədəsində fikrinin mənfi dəyişdirilməsində təzahür olunur.

5. Valideynlərdən ayrılma, emosional, koqnitiv, davranış differensiasiyasının intensivliyinin artması. Kiçik yaşlı yeniyetmənin nailiyyətlər baxımından valideynlərdən ayrılması həmyaşıdlarla münasibətlərin üstünlüyün olması və bu münasibətlərin əhəmiyyətli, mənalı kimi qəbul olunması, eyni zamanda böyüklərin, ilk növbədə, valideynlərin təsirindən və nəzarətindən azad olunma və özünün sərbəstliyinin, müstəqilliyinin, böyüklüyünün yaşaması yeniyetmənin inkişafında sosial şəraitin dəyişməsinə gətirib çıxarır.

6. Həmyaşıdlarla ünsiyyət yeniyetmənin çoxsaylı təlabatlarının təmin olunma mənbəyi (təhlükəsizlik, qəbul olunma, affiliasiya, hörmət, özünüdərk etmə və özünüreallaşdırma təlabatı) və şəxsiyyətin (bütöv uyğunlyuq, şəxsi desentrallıq, müstəqillik, mənəviyyat, böyüklük hissi) formalaşma mənbəi kimi çıxış edir.

7. İctimai münasibətlərə daxil olma, eyni zamanda baş verən sosiallaşma və individuallaşma, peşəyönümlülük, peşəseşmə arasında olan ziddiyətlərin öhdəsindən gəlmək.

8. Dəyərlər sisteminin dəyişdirilməsi, dünyaya və münasibətlərə qarşı şəxsi qiymətləndirici baxışın formalaşması, formal məntiq əsasında dünyagörüşü əsaslarının və fərdi mövqein yaradılması.

9. Yeniyetmənin şəxsiyyətinin müvəqqəti perspektivinin dəyişməsi, keçmişin və gələcəyin sərhədlərinin genişlənməsi, nəsil ilə uyğunlaşma, inkişaf perspektivinin modelləşdirilməsi [2].

Böhran vəziyyəti ilə üzləşmiş insanlarla psixokorreksiya işinin aparılması şəxsin psixoloji vəziyyətinin ağırlıq dərəcəsinə müvafiq olaraq dəyişir. Ümumilikdə yaşanan böhran vəziyyətinin nəticəsində yaranmış problemlərin korreksiyasında psixoloji, nevroloji və psixiatrik müdaxilələr lazım olur. Psixosomatik pozuntularla müşahidə olunan nevroloji vəziyyətlərdə farmokoloji müdaxilələr vacib hesab olunur. Bununla yanaşı bu tip problemlərdə psixoloji konsultasiya və terapiyalar yüksək nəticə əldə etməyə imkan verir.

Böhran konsepsiyası həm təhlükəni, təhdidi, riski və itkini amma eyni zamanda fürsəti, yeniliyi, inkişafı və davamlılığı özündə ehtiva edir. Böhran yaşandığı anda əvvəl hiss və düşüncələrdə nizamsızlığa, xaosa və tarazlığın pozulmasına səbəb olur; gündəlik həyatı pozur və ümumi funksionallıq səviyyəsini aşağı salır. Ancaq fərdin necə öhdəsindən gəlməyindən asılı olaraq

böhranın istiqaməti formalaşacaqdır. Effektiv bir böhran müdaxiləsi və təsirli mübarizə üsulları ilə fərd əvvəlkindən daha yüksək bir funksionallıq səviyyəsinə çata bilər; böhran vəziyyətindən yenidən formalaşaraq, güclənərək çıxa bilər.

Travmatik bir təcrübədən sonra baş verən dəyişiklik travma sonrası stress reaksiyalarına və travmaya məruz qalan insanda travmatik hadisə ilə əlaqəli bəzi narahatlıqlara əlavə olaraq “travma sonrası böyümə” anlayışıyla ifadə olunan bəzi inkişaflara da gətirə bilər. Travma sonrası inkişaf yüksək səviyyəli stresi özündə ehtiva edən və ciddi mübarizə tələb edən həyat böhranları ilə mübarizə nəticəsində fərdlərin yaşadığı müsbət dəyişiklikləri izah etmək üçün istifadə edilən bir termindir.

Sonda qeyd edək ki, Psixoloji böhran yaşayan şəxs bu vəziyyətdən çıxmağı bacarmazsa, bu hal onda digər psixoloji problemlərin yarananmasına gətirib çıxara bilər. Bu baxımdan şəxs bu vəziyyətdən çıxa bilmirsə psixoloji yardımdan yararlanmalı və bu halın ona edə biləcəyi mənfi təsirlərindən qorunmalıdır. Böhranların uğurla aradan qaldırılması sistemə çevrilərək, tədricən müəyyən şəxsi keyfiyyətlərin formalaşmasına, insanın xüsusi həyat ideologiyasının meydana çıxmasına, bir növ qalib ssenarisinin yaranmasına gətirib çıxarır. Böhranlardan uğurlu çıxış təcrübəsini toplayaraq, insan özünə və şəraitə qalib gələrək yaşamağı öyrənir. Əgər insan şəraiti idarə edirsə, böhranı doğuran problemdən azad olur və bu problemin yaşanması onu daha mükəmməl, psixoloji cəhətdən adekvat və inteqral edir.

**Açar sözlər:** *böhran vəziyyəti, travma, böhranın səbəbləri, korreksiya üsulları*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Qədirov. Ə.Yaş psixologiyası. Bakı, Maarif, 2003*

*2. İcma Əsaslı Reablitasiya -Mərkəzləri Şəbəkəsinin mütəxəssisləri, Uşaq inkişafı metodikası, Bakı, Qanun nəşriyyatı 2011*

*3. Вахромов Е.Е. Психологические концепции развития человека: теория самоактуализации. – М.: Международная педагогическая академия, 2001*

*4. Маслоу А. Новые рубежи человеческой природы под общ. ред. Г. А. Балла, А.Н. Киричука, Д.А. Леонтьева. – М.: Смысл, 2006. – 424 с.*

*5. Выготский Л.С., Психология развития человека. — М.: Изд-во Смысл; Эксмо, 2005.*

*6. Шакуров Р.Х. Психология смыслов: теория преодоления //Вопросы психологии.- 2003.- № 5.-С.18-33*

*7. Психология. словарь \Под общ. Ред. А.В. Петровского, М.Г. Ярошевского. -2 –е изд., -М.,1990. -494с.*

*8. Kaplan&Sadock, Davranış bilimleri/ Klinik Psikiyatri, XI baskı,Güneş tıp kitabevleri, 2006,4856 s.*

*9. Connor DF, Mclaughlin TJ, Jeffers-Terry M, O’Brien WH, Stille CJ, Young LM, Antonelli RC, Targeted child psychiatric services: A new model of pediatric primary clinician-child psychiatry collaborative care. Clin Pediatr (Phila). 2006;45:423.*

*10. Romano E, Zocжcolillo M, Paquette D.Histories of child maltreatment and psychiatric disorder in pregnant adolescents J Am Acad Child Adolesc Psychiatry 2006;45:329.*

*11. http://www.psychologos.ru/articles/view/psihologicheskiy-krizis*

## ПРОБЛЕМ КРИЗИСА В РАЗВИТИЯ РЕБЕНКА

**Матанат Алиева**

### РЕЗЮМЕ

Кризисные ситуации, возникающие на разных этапах развития человека, - дело непростое и отличаются друг от друга сложной психологической структурой и проявлениями. Кризис нарушает нормальное течение жизни, влияет на повседневную жизнь человека и выводит его из системы. Кризисы человеческого века требуют переосмысления ценностей, которые по-прежнему важны для него и составляют основу его жизни, а также побуждают его изменить свой образ жизни и отношения с окружающими. Успешное разрешение кризиса и успешное решение этой проблемы - жизненно важный вопрос для

человека. В этом случае этот фактор приводит к появлению у человека новых, положительных качеств. Таким образом, кризис жизни означает восприятие жизни человека в более высокой, более актуальной форме, глубочайший внутренний конфликт и выход из этого конфликта, который требует концентрации всех физических, умственных, интеллектуальных и духовных сил. Это, в свою очередь, закладывает основу для нового этапа в человеческом развитии. В статье мы обсудили характеристики и типы психологических кризисов, клинические проблемы, вызванные кризисами, и вопросы коррекции.

**Ключевые слова:** *кризисная ситуация, травма, причины кризиса, способы коррекции*

## CRISIS PROBLEM IN CHILD DEVELOPMENT

**Matanat Aliyeva**

## SUMMARY

Crisis situations that occur at different stages of human development are not a simple matter and differ from each other due to their complex psychological structure and manifestations. The crisis disrupts the normal flow of life, affects a person's daily life and takes him out of the system. The crises of the human age require a re-interpretation of the values that are still important to him and the core of his life, and motivate him to change his relationship with those around him. Successful resolution of the crisis and successful coping with this problem is a vital issue for man. In this case, this factor leads to the emergence of new, positive qualities for a person. Thus, the crisis of life means the perception of a person's life in a higher, more relevant form, the deepest conflict within, and the way out of this conflict, which requires the concentration of all physical, mental, intellectual and spiritual strength. This, in turn, lays the foundation for a new stage in human development. In the article, we discussed the characteristics and types of psychological crises, the clinical problems caused by crises and issues of correction.

**Keywords:** *crisis situation, trauma, causes of crisis, methods of correction*

UOT 316.33

# Sosiologiya

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN İDEOLOJİ ƏSASLARININ İNKİŞAF İSTİQAMƏTİ

**ƏLİYAR ORUCOV**
*FHN Akademiyasının Tədris şöbəsinin böyük metodisti, mayor, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmlər doktorluğu üzrə doktorantı*

*E-mail: orucov.aliyar@mail.ru*

**Giriş**. Milli təhlükəsizlik ölkədə mövcud konstitusiya quruluşunun, sosial-siyasi sabitliyin saxlanılmasında, daxildən və xaricdən ola biləcək təhlükənin aradan qaldırılmasında, ölkənin iqtisadi qüdrətinin artırılmasında, konstruktiv daxili və xarici siyasətin yeridilməsində, demokratik dəyərlərin qorunmasında, siyasi məqsədlərin həyata keçirilməsi naminə dinc və qeyri-dinc vasitələrdən istifadə edə bilməsində, qloballaşma prosesinin genişləndirilməsi və sivilizasiyalararası dialoqun aparılmasında əsas rol oynayan amildir.

Milli ideologiya milli maraqlara xidmət edir, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təşəkkülü və təkamülündə həlledici rol oynayır. Milli təhlükəsizlik şəxsiyyətin və cəmiyyətin mövcudluğu və inkişafı üçün optimal şəraitin təmin edilməsi üçün səmərəli fəaliyyəti həyata keçirən ictimai institutların və münasibətlərin durumunu səciyyələndirən kateqoriya olmaqla, milli maraqlar anlayışı ilə sıx dialektik qarşılıqlı əlaqədədir. Çünki formalaşan milli təhlükəsizlik elə həmin milli maraqları müdafiə edir. Milli təhlükəsizlik milli maraqları müxtəlif qəbildən olan təhlükələrdən: real və potensial, təbii, geosiyasi, etnik, dini, texnogen və sosial, daxili və xarici, qlobal, regional və məhəlli təhlükələrdən, təhdidlərdən və risklərdən müdafiə olunmasını nəzərdə tutur [1, s.84-85].

Qərb nəzəriyyəçilərinin fikrincə, milli təhlükəsizliyin ideoloji aspektdən müdafiə olunmasına ehtiyac yoxdur. Onlar bunu Qərbdə açıq cəmiyyətlərin mövcudluğu ilə izah edirlər. Şərqdə isə dövlətin ideoloji cəhətdən müdafiə olunmasına üstünlük verirlər. İdeoloji müdafiə bir çox dövlətlərin milli təhlükəsizliyinin tərkib hissəsinə çevrilib. Şərqlə Qərbin sintezi olan Azərbaycanda milli dövlət quruculuğu gedişində milli təhlükəsizlik üçün təhlükələri aradan qaldırmaq və ideoloji müdafiə sistemləri yaratmış Azərbaycan güclü dövlət olaraq vətəndaşlarının maraqlarını nəzərə alır.

Azərbaycanın milli təhlükəsizliyinin ideoloji əsası ölkə ərazisində yaşayan bütün millətlərin və xalqların vahid bioloji orqanizm kimi birləşdirməyə qadir olan ideologiyanın inkişaf etdirilməsini nəzərdə tutur. Bu ideologiya ölkə əhalisinin xarakterinə, həyat tərzinə, adət-ənənələrinə və tarixi-coğrafi şəraitə uyğun olub, onun tələbatını əks etdirir. Hazırda Azərbaycan əha-lisi üçün konsolidasiya rolunu oynayan əsas ideologiya "azərbaycançılıq"dır. Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülən və Azərbaycan xalqı tərəfindən dəstəklənən "azərbaycançılıq" ideologiyası ölkə ərazisində yaşayan əksər xalqların məcmusunu ehtiva edir. Heydər Əliyev uzaqgörənliyinin nəticəsi olaraq növbəti illərdə Azərbaycanda əldə edilmiş ideoloji sabitlik "azərbaycançılıq" ideyasının böyük tarixi-siyasi əhəmiyyətə və zamanın tələ-binə uyğun olduğunu təsdiq etdi. Azərbaycançılıq idelogiyası milli təhlükəsizliyimizin ideoloji əsası kimi ölkə başçısı İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Bütün bunlar mövzunun aktuallığını sübut edir.

**Milli təhlükəsizlik anlayışı**

Milli təhlükəsizlik anlayışının tədqiqi XX əsrin 40-60-cı illərində daha da sürətlənmişdir. Bunu bəzi tədqiqatçılar (S.Uolt) kütləvi qırğın silahının, o cümlədən nüvə silahı texnologiyasının inkişafı ilə əlaqələndirir. Azərbaycan tədqiqatçısı Cənnətxan Eyvazovun fikrincə, konseptual və metodoloji

aspektdən tədqiqi sahəsində uğurlara baxmayaraq, milli təhlükəsizliyin vahid və ümumi konsepsiyası formalaşmamışdır [10, s.15].

Qərb tədqiqatçısı D.Bolduin "soyuq müharibə" dövründə milli təhlükəsizlikdə üstünlüyü hərbi qüvvəyə verirdi [11, s.291].

XX əsrin sonlarına yaxın milli təhlükəsizliyin strukturunda hərbi, siyasi, iqtisadi, sosial və ekoloji komponentlər qarşılıqlı əlaqədə götürülməyə başlandı, milli, regional və beynəlxalq təhlükəsizliyin qarşılıqlı asılılığı diqqət mərkəzinə qoyuldu. Qərbdə milli təhlükəsizlik dövlətin müdafiə qabiliyyətilə sinonim kimi işlənərək, əsasən siyasi və hərbi təhlükəsizliyi nəzərdə tuturdu. "Milli təhlükəsizlik" anlayışı ilk dəfə 1904–cü ildə ABŞ Prezidenti T.Ruzveltin konqresə göndərdiyi məktubda işlənmişdir. 1947-ci ildə ABŞ Konqresi tərəfindən "Milli təhlükəsizlik haqqında" qanun qəbul edilmişdir [4, s.36].

Milli təhlükəsizlik şəxsiyyət, cəmiyyət, dövlət, regional və dünyanın təhlükəsizliyilə sıx bağlı fenomendir.

Hər bir dövlət özünün milli təhlükəsizlik konsepsiyası, doktrinası və strategiyasını hazırlayır, milli təhlükəsizlik siyasəti yürüdür.

Türkiyə tədqiqatçıları milli təhlükəsizliyin strukturuna milli və hərbi gücü də daxil edirlər. T.Dəyərli milli gücü aşağıdakı kimi təsnif edir: siyasi güc, iqtisadi güc, hərbi güc, sosial-psixoloji, elmi-mədəni güc və coğrafi güc [7, s.25].

Fikrimizcə, milli təhlükəsizliyin strukturunda milli güc öz təsirinə, çəkisinə görə xüsusi seçilən fenomendir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında göstərilir ki, milli maraqlar xalqımızın fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin təhlükəsizliyinin ideoloji əsaslarını təmin edən amillər aşağıdakılardan ibarətdir: dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi; Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının aşılanması; vətəndaş cəmiyyətinin formalaşdırılması, əsas insan hüquq və azadlıqlarının təmin olunması; demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmin edilməsi yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi və əhalinin təhlükəsizliyinin qorunması [12].

Qeyd olunmalıdır ki, müasir dövrdə bu və ya digər dövlətin və regionun səciyyəvi geosiyasi amilləri sistemli təhlil edilmədən və digər dövlətlər və region-lar üçün səciyyəvi olan geosiyasi amillərlə müqayisə olunmadan təhlükəsizlik problemlərinin tədqiqi də kifayət qədər obyektiv ola bilməz.

**Milli təhlükəsizliyin ideoloji əsasları**

Dövlət öz təhlükəsizliyinin milli və beynəlxalq səviyyədə prioritetlərini müəyyən edərək bunları təmin edə bilər. Milli təhlükəsizlik ideoloji aspektdə dörd səviyyədə - ictimai, fərdi, dövlət və beynəlxalq səviyyələrdə həyata keçirilir. Prof. İ.Məmmədzadə milli təhlükəsizliyin ideoloji aspektini araşdırarkən milli təhlükəsizliyin modeli probleminin izahına keçir. Bu məsələ ilə əlaqədar imperativlər üzərində dayanan tədqiqatçı alim imperativlərin milli təhlükəsizlik modelinin bütün dörd səviyyəsini (fərdi, ictimai, dövlət və beynəlxalq) özündə birləşdirdiyini göstərir. Vətəndaşlar arasında əsas məsələlərdə qarşılıqlı anlaşmanın olmamasından, siyasi qüvvələrin, qonşu ölkənin təcavüzü və dözümsüzlüyünün mənfi nəticələrini açıqlayan müəllif dörd səviyyəni özündə birləşdirən imperativlərin ahəngdarlığı zərurətini diqqətə çatdırır: "İmperativ – dövlətin vətəndaşlar arasında, onların qrupları və birlikləri arasında ahəngdar qarşılıqlı anlaşma üçün zəmin yaratmasıdır. İdealda dövlətin heç bir qərarı əhali arasında düşmənçilik yaratmamalı, hakimiyyətin müxtəlif qolları və dövlətlər arasında ahəngdar qarşılıqlı münasibətlər pozulmamalıdır" [8, s.48]. Adi dildə "ideologiya" anlayışı (ideya və loqos - söz, anlayış) reallığa baxış sistemini, onun mənimsənilməsini, dərk edilməsini, fikri, məqsədi, dəyərləri, idealları, sosial-mədəni həyatın müxtəlif subyektləri tərəfindən qəbul edilmiş normalar mövqeyindən transformasiya üsullarını həm fərdi, həm də qrup şəklində ifadə edir. Müasir elmi dildə, ənənəvi olaraq, "ideologiya" anlayışı ilə baxışların, ideyaların, miflərin, əfsanələrin, siyasi şüarların, partiyaların proqram sənədlərinin, fəlsəfi konsepsiyaların məcmusu və ya sistemi göstərilir. İdeologiya müəyyən dərəcədə dərk edilmiş, daha dəqiq desək, özünəməxsus "konstruksiya edilmiş" reallıqdan irəli gəlir ki, bu da ictimai varlığın ən yaxşı formalarına nisbətən ideala

nail olmağa və bir sıra ideyaların təcəssümünə istiqamətlənmişdir. Dövlət ideyası və ya “dövlət” anlayışı dövlətin mövcudluğunun məqsədinin əsaslandırılması, onun bəşər tarixində və ayrı-ayrı insanın taleyində, ideal, mükəmməl bir dövlətin müəyyən edilməsi ilə sarsılmazdır. İdeal, nümunə, dəyər və məqsəd dövlətin ideyasının əsasını təşkil edir. Dövlət ideologiyası dedikdə, bu və ya digər ölkədə ali hakimiyyətin təşkilini legitimləşdirən dəyərlər və normalar məcmusu başa düşülür. Dövlət ideologiyasının əsasını həmçinin dövlət və sosial quruluşun optimal modelinin qurulması, milli təhlükəsizliyin təmin edilməsi və müəyyən ictimai və siyasi qüvvələrin əldə edilməsi, bu dövlətin vətəndaşlarının davranış motivasiyasının asılı olduğu sosial ideal təşkil edir. Milli ideologiya dövlət yaradan xalqın təhlükəsizliyinin qorunmasını nəzərdə tutur. Hər bir dövlət, hər bir millət, hər bir mədəniyyət bir-birindən fərqli bir dəyər qaydası ilə fərqlənir. Deməli, bir mədəniyyətə, bir millətə mənsub olan insanlar arasında qarşılıqlı anlaşma daha uğurla əldə edilir. Ümumi şəkildə, demək olar ki, dövlət ideologiyası məsələsində ən mühüm məqam hər bir siyasi-hüquqi institutun, hər bir dövlətin xalqın, millətin mədəni inkişafının məhsulu olduğunu nəzərə almaqdır. Ona görə də ümummilli, dövlət ideologiyası insanları ali, mənəvi dəyərlər əsasında birləşdirmək üçündür. İdeologiya həmişə dövlət inkişafı, dövlətin məqsədləri, dəyərlər sistemi və iyerarxiyası, onların üstünlükləri barədə ideyalar kompleksidir. İdeologiya olmadan milli təhlükəsizliyi, dövlət idarəçiliyini səmərəli şəkildə təmin etmək mümkün deyildir. Milli təhlükəsizliyin səmərəli şəkildə təmin edilməsi üçün dövlətin təkcə şəxsiyyət və onun təhlükəsizliyi deyil, həm də ailə, etnos, xalq, millətdən ibarət baza dəyərlərinin olması və tanınması zəruridir. Əks təqdirdə, şəxsiyyət və milli maraqların mənafeyinin münaqişəsi yaranarsa, milli təhlükəsizliyə ziyan dəyə bilər. Buna görə də cəmiyyətimizin baza dəyərlərindən birinin milli təhlükəsizliyini təmin etmək üçün dövlət hakimiyyətinin mənəvi-əxlaqi ideallara və dəyərlərə, baza dəyərlərinə münasibətdə dəqiq və aydın mövqeyi olmalıdır. Bu dəyəri istədiyiniz kimi adlandıra bilərsiniz: milli fikir, dövlət idealı, təməl dövlət prinsipi və s. Dünya siyasətində gedən müasir proseslərdən, qəbul edilən qərarlardan belə nəticə çıxarmaq olar ki, Azərbaycanın müasir milli ideyası dünya fövqəldövləti statusunu bərpa etməkdir ki, bu da onun bütövlüyü üçün həyati əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji əsaslarının mahiyyəti

1991-ci ilin fevralında dövlətimizin adından “sovet” və “sosialist” sözləri çıxarılaraq o, Azərbaycan Respublikası adlandırıldı. Həmin ilin oktyabr ayının 18-də Azərbaycan Ali Sovetinin ikinci sessiyası Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bununla da Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intelektual potensialından və keçmiş sovetlər birliyinin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək, 1991-ci ildə öz milli iradəsini ortaya qoydu və yenidən istiqlaliyyətinə qovuşaraq müstəqil dövlətçiliyini bərpa etdi. Nəhayət, 1991-ci ilin dekabrında keçmiş sovetlər birliyinin süquta yetməsindən sonra yenidən siyasi varlığa çevrilən Azərbaycan Respublikası dünyada öz layiqli yerini tutmağa başladı və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. Bununla da xalqımız sovetlər birliyinin dağılmasından sonra keçmiş SSRİ-nin bütün millət və xalqları kimi azadlıq şəraitində milli ideyanın, milli şüurunun və milli özünüdərk ideyalarının inkişafı üçün geniş imkanlar əldə etdi. Həmçinin bu zaman totalitar Sovet sisteminin iflasından və kommunist rejiminin süqutundan sonra formalaşan milli dövlətçiliyimiz artıq yeni inkişaf yoluna çıxmaq üçün geniş imkanlar qazandı. Lakin məlumdur ki, “milli mənlik ideyalarını həyata keçirmək üçün yeganə vasitə Azərbaycan milli ideologiyası və onun konsepsiyası ola bilər” [6, s.31]. Belə ki, milli ideya, milli özünüdərketmə xalqı və hakimiyyəti birləşdirən bir zəmin olaraq müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan Respublikasına öz tarixi milli özünüdərk ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirmək imkanı verdi. “Milli ideyanın” gücü dövlətdirsə, dövlətin gücü isə milli ideyaya, milli şüurun inkişafına xidmət etməkdədir.

Ölkəmizin milli təhlükəsizliyinin ideoloji əsası Azərbaycan Respublikası konstitusiyasında təsbit olumuşdur. Onun normaları konstitusiya müddəalarının həyata keçirilməsi, konstitusiya normalarında qoyulmuş məqsədlərə (dəyərlərin həyata keçirilməsinə) nail olmaq üçün vasitə kimi nəzərdən keçirilə bilən hüquq sisteminin bütün

başqa normalarına dair münasibətdəki məqsəddir. Azərbaycan Respublikası konstitusiyasında hansı məqsəd və dəyərlərin təsbit olunduğunu əsas götürərək, mövcud dövlət-hüquq ideologiyasını liberal-demokratik ideologiya kimi müəyyən edə bilərik. Liberal ideologiyanın mühüm seqmenti olan hüquqi ideologiya təbii hüququn rasionalist versiyası prinsiplərinə əsaslana bilər. Azərbaycan konstitusiyası ideoloji proqram sənədi olmaqla ideoloji müxtəlifliyi və ya ideoloji azadlığı qəbul edir. Bundan əlavə, liberal ideologiya, şəxsiyyətin mənafelərinin və təhlükəsizliyinin dövlət, cəmiyyət, millət, dini dəyərləri aşan mütləq bir dəyər kimi qəbul edilmədiyi hər hansı bir ideologiyanı əvvəlcədən ya totalitar ya da arxaik olaraq elan edir.

Azərbaycanın milli təhlükəsizliyi üçün təhlükə qonşu Ermənistanla ərazi tələblərinə əsaslanan etnik-siyasi münaqişənin "ideoloji" münaqişəyə çevrilməsidir. Belə etnosiyasi münaqişələr zamanı iqtisadi-maddi maraqlarla yanaşı tərəflərə məxsus mənəvi-etik baxışların toqquşması da baş verir.

Azərbaycanın milli təhlükəsizliyinin əsası kimi milli dövlət ideologiyası vətəndaşları birləşdirən millətin çiçəklənməsinə və milli-ideoloji təhlükəsizliyinə xidmət edən dövlət üçün vasitə rolunda çıxış edir. Milli ideologiya – dövlətçilik ideologiyası Azərbaycanın bütün vətəndaşları tərəfindən qəbul edilən dəyər və məqsədləri özündə əks etdirən, xalqın düşüncə tərzinə çevrilən ideologiya oldu. Həmçinin dövlət mənafeləri, ümumxalq dəyərləri qruplararası maraqları üstələdi, onların fövqündə durdu. Azərbaycanın milli maraqları hər şeydən üstün tutuldu. Bu maraqları təsnifləşdirərkən onları əsas maraqlara ayırmaq olar. Ərazinin, vətəndaşların və dövlət təşkilatlarının xarici təhlükədən qorunması milli-ideoloji təhlükəsizlikdə əsas yerlərdən birini tutur. S. Xəlilovun "Lider, dövlət, cəmiyyət" adlı əsərində ümummilli lider Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsi öyrənilmişdir. Əsərdə müstəqillik illərində həyata keçirilən böyük siyasi, iqtisadi, sosial və mədəni-mənəvi quruculuq proseslərinin ümumi aspektləri tədqiq olunur, Heydər Əliyevin rəhbərliyi ilə reallaşdırılan dövlət siyasətinin əsasında dayanan başlıca prinsiplər milli-mənəvi təhlükəsizlik və milli ideologiyaya dair irsi öyrənilir. Əsərdə həm də Heydər Əliyevin milli dövlətçilik və milli ideologiya məsələlərinə dair baxışları elmi-nəzəri tədqiq edilir [3].

Azərbaycanda milli təhlükəsizliyin ideoloji əsasını azərbaycançılıq təşkil edir. Azərbaycançılıq müstəqil dövlətin təhlükəsizliyinin ideoloji əsası kimi 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış və inkişaf etdirilmişdir.

Azərbaycançılıq bir ideoloji sütun kimi ölkəmizin milli təhlükəsizliyini təmin etmək potensiyalına malikdir. Yeni dünya nizamının qərarlaşması və beynəlxalq təhlükəsizliyin daha etibarlı şəkildə möhkəmləndirilməsi dövlətlərin və xalqların yeni təhlükəsizlik qaydalarına uyğunlaşmasını tələb edir. İstər regional, istərsə də geosiyasi ölçülərinə görə ölkəmiz məhz azərbaycançılıq vasitəsi ilə həm yüksək xətlə inkişafa nail ola, təhlükəsizliyimizə təminat yarada bilər.

"Milli mənafelərimizin başlıca tərkib hissəsi olan qüdrətli və güclü Azərbaycan ideyası milli təhlükəsizlik strategiyasının əsas hədəflərindən biridir" [2, s.146-147].

Milli dövlətçilik ideologiyası Azərbaycanın daxili və xarici təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır.

Milli dövlətçilik ideologiyasının əsas ideyaları milli təhlükəsizlik konsepsiyası ilə üst-üstə düşür. C. Xəlilov azərbaycançılıq ideologiyasının milli təhlükəsizliyin dayağı olduğunu belə əsaslandırır: "Azərbaycançılıq ideyası bu gün bizim milli təhlükəsizlik konsepsiyamızın əsas açarıdır. Nəzəri baxımdan yanaşsaq azərbaycançılıq özündə fundamental prinsipləri (vətənçilik), kateqoriyaları (milli şüur və milli mənlik), mənafeləri (güclü və qüdrətli Azərbaycan), ümumi müddəaları (iqtisadi, siyasi inkişaf, hərbi güc) və perspektivli strategiyanı əhatə edir. Başqa etnosun, xalqın və dövlətin mənafelərindən törəmə olmayan, öz daxili milli ənənələrimizdən doğan ideya kimi azərbaycançılıq məhz vətən təəssübkeşliyi baxımından dövlətə sevginin və sayqının, vətəndaş kimi konstitusiyaya görə daşıdığı məsuliyyəti bütövlükdə dərkinin əsasında durur" [2, s.148]. Müəllif milli inkişaf ideologiyası olan azərbaycançılığı Azərbaycan dövlətçiliyinin, vətəndaşların, cəmiyyətin təhlükəsizliyini təmin edən sosial qüvvə kimi səciyyələndirir. Azərbaycançılıq yalnız milli identikliyi müdafiə etmir, həm də onu qoruyub saxlayan dövlət – cəmiyyət – şəxsiyyət maraqlarının vəhdətini yaradır.

İndi isə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin formalaşdığı tarixi şəraiti, onların formalaşmasına təsir edən amilləri, ümumiyyətlə bu təhlü-kəsizliyin təsnifatını verməyə cəhd edək.

Coğrafi mövqeyi, təbii ehtiyatları, demoqrafik amilləri, tarixi- mədəni ənənələri, inkişaf dinamikası və s. nəzərə alınaraq Azərbaycan Respublikasının milli təhlükəsizliyini aşağıdakı kimi müəyyən etmək olar:

Dövlət müstəqilliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının təmin olunması.

Qeyd etdiyimiz kimi Azərbaycan Respublikası öz suverenliyini 1991-ci ildə elan etmiş və onun qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində bir çox təhlükələri dəf edə bilmişdir. Bu təhlükələri daxili və xarici qrupa bölmək olar. Birinciyə daxili sistemlərdən gələn təhlükəni aid etmək olar. 1993 və 1995-ci illərdə hakimiyyət çevrilişinə edilən cəhdlər məhz bu qəbildəndir. Bu cür fəaliyyət hansı motivlərlə əsaslandırılmasından asılı olmayaraq qeyri-konstitusion xarakter daşıyır və cəmiyyətdə qeyri-sabitliyin yaranmasına səbəb olur. Nəhayət, bu cür fəaliyyət ölkəni real və potensial düşmən qarşısında zəiflədir və ictimai qüvvələrin birliyinə ciddi zərbə vurur. "Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanununda" göstərilir: "Azərbaycan Respublikası vətəndaşlarının ölkənin daxilində və xaricində hüquqlarının müdafiəsi məqsədilə müvafiq hüquqi mexanizmlərin inkişaf etdirilməsi; vətənpərvərliyə və millətlərarası həmrəyliyə əsaslanan ümummilli psixologiyanın formalaşdırılması, xalqın vahidliyinin möhkəmləndirilməsi" [13].

Xarici təhlükə isə Azərbaycanın müstəqilliyi və onun gələcəkdə güclü dövlətə çevrilmək imkanlarından narahat olan bir sıra dövlətlərdən gəlir. Onlar hər vəchlə respublikamızı müharibəyə sövq etməyə və onun suverenliyini təhlükə altında qoymağa çalışırlar. Lakin Azərbaycanın milli təhlükəsizlik siyasətinin əsas məqsədlərindən biri də respublikanı hər hansı bir münaqişəyə cəlb etmək siyasətinin və Azərbaycana qarşı hər hansı bir işğalın qarşısını almaqdır. Bildiyimiz kimi, Azərbaycanın müstəqilliyi dünyanın 130-dan artıq ölkəsi tərəfindən de-fakto və de-yure tanınmışdır [5, s.3]. Lakin onun suverenliyinə qarşı hərbi-siyasi, diplomatik, iqtisadi, ideoloji və informasiya-psixoloji tədbirlər bu gün də davam etməkdədir. Bütün bunları dəf etmək üçün isə ilk növbədə ictimai orqanizmin daxili birliyi və möhkəmliyi tələb olunur.

Dövlətin sabit inkişafı və milli maraqların müdafiəsinə yönəldilmiş ictimai həmrəyliyə yalnız demokratiya və təmin olunmuş insan hüquqları şəraitində nail olmaq olar. Son dövrlər respublikada insan hüquqlarının müdafiəsi və demokratiyanın inkişafı istiqamətində ciddi irəliləyişlərə nail olunmuş, demokratik seçkilər keçirilmiş, siyasi plüralizm, söz və mətbuat azadlığı təmin olunmuş, bu sahədə bir sıra xarici qüvvələrin qərəzli mövqeyinə baxmayaraq, respublika beynəlxalq təşkilatlarda layiqli yerini tutmuşdur.

Ölkədə milli həmrəylik, siyasi və sosial sabitliyin əldə edilməsi, Azərbaycan xalqının və Azərbaycanda yaşayan etnik azlıqların hüquqlarının təmin olunmasına şərait yaratmışdı.

Milli təhlükəsizliyin təmin edilməsinin mühüm tərkib hissələrindən biri milli maraqlara qarşı mümkün təhdidlərin vaxtında müəyyən edilməsi və qarşısının alınmasıdır. Azərbaycançılıq ideologiyası milli təhlükəsizliyin bir növü olan mənəvi təhlükəsizliyimizi təmin edir. Məlum olduğu kimi, mənəvi təhlükəsizliyə "mədəni, ideoloji, informasiya-psixoloji, elm, təhsil və dini təhlükəsizlik daxildir" [9,s.13] . Mənəvi təhlükəsizlik unikal və universal, ən ümumi fenomen kimi səciyyələndirilərək ənənəvi mənəvi dəyərləri-intellektual, mənəvi və estetik sərvətlərə olan daxili və xarici təhdidləri aradan qaldırır.

**Nəticə**

Beləliklə, milli təhlükəsizliyin ideoloji əsası olan dövlət ideologiyası ictimai-siyasi inkişafın hərəkətverici qüvvəsidir, cəmiyyətin siyasi birliyinin və möhkəmlənməsinin siyasi texnologiyasıdır. Bu baxımdan Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında həlledici amil olan azərbaycançılıq ideologiyası şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarını birləşdirən ən güclü vasitə kimi çıxış edir. Azərbaycançılıq mədəni və informasiya təhlükəsizliyi ilə yanaşı ideoloji təhlükəsizlik olaraq mənəvi təhlükəsizlik sahəsinə aiddir.

**Açar sözlər:** *milli təhlükəsizlik, milli ideologiya, təhdidlər, azərbaycançılıq ideologiyası, dövlət təhlükəsizliyi, mənəvi təhlükəsizlik, ideoloji təhlükəsizlik, milli maraq.*

**ƏDƏBİYYAT SİYAHISI**

*1.Həsənov A. Milli ideologiya və milli-mənəvi dəyərlər.Bakı:Təknur,2013, 176s.*

*2.Xəlilov C. Milli və təhlükəsizlik və milli mənlik şüuru. Bakı: Vətən, 2006, 220 s.*

*3.Xəlilov. S. Lider, dövlət, cəmiyyət. Bakı: Azərbaycan Universiteti nəşr., 2001,373 s.*

*4. Qasımov C., Nağıyev N. Milli təhlükəsizliyin əsasları. Dərslik, Bakı: MTN NPM, 2015, 408 s.*

*5. Məmmədov A. Osmanlının çöküşünə Rusiyadan baxış. Bakı: Elgün, 2012, 288s.*

*6. Tağıyev Ə. Milli ideya və milli ideologiya: Problemlər və onların şərhi. Bakı: Təbib, 2000, 188 s.*

*7. Deyerli T. Milli güvenlik siyaseti və strateji. İstanbul: 1996, 226 s.*

*8.Мамедзаде И. Гражданское общество и национальная идеология. Баку: Təhsil,1995, 86 с.*

*9.Тонконогов А.В.Духовная безопасность российского общества в условиях современного геополитического соперничества (социально-философский анализ)Автореферат диссертации на соискание учёной степени доктора философских наук. Москва: 2011, 44 с.*

*10.Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайд-жанской Республики. Баку: Нурлан, 2004, 352 с.*

*11. Baldwin A. David. Security studies and the End of tar cold War // World Politics volume, 48, 1996, №1, p.201-291.*

*12.Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası/ /www.mdi. gov.az › downloa 21.06.2016.*

*13.”Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikası qanununda” //www.mdi.gov.az › downloa 21.06.2016.*

**Алияр Оруджев**

**Развитие идеологических основ национальной безопасности Азербайджанской Республики**

**РЕЗЮМЕ**

В статье исследуются понятие национальной безопасности, взаимосвязь данного явления с идеологией, особенности формирования и развития идеологических основ национальной безопасности Азербайджанской Республики в социально-политическом аспекте. Автор характеризует азербайджанство как национальную идеологию как социальную силу, обеспечивающую безопасность азербайджанской государственности, граждан и общества. Азербайджанство не только защищает национальную идентичность, но и создает единство интересов государства - общества - личности, которое ее сохраняет. Азербайджанство считается средством идеологической безопасности, обеспечивающей национальную и моральную безопасность.

**Ключевые слова:** *национальная безопасность, национальная идеология, угрозы, азербайджанская идеология, государственная безопасность, моральная безопасность, идеологическая безопасность, национальный интерес.*

**Aliyar Orujov**

**Development direction of ideological fundamentals of national security of the Azerbaijan Republic**

**SUMMARY**

At the article analyzed the concept of national security, the relationship of this phenomenon with ideology, the peculiarities of the formation and development of the ideological foundations of national security of the Republic Azerbaijan from a socio-political aspect. The author characterizes Azerbaijanism as a national ideology as a social force that ensures the security of the Azerbaijani statehood, citizens and society. Azerbaijanism not only protects national identity, but also creates a unity of interests of the state - society - individual, which preserves it. Azerbaijanism is considered a means of ideological security that ensures national and moral security.

Keywords: national security, national ideology, threats, Azerbaijani ideology, state security, moral security, ideological security, national interest

UOT 316

# AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏTİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**RASİM QULİYEV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı*

*E-mail: rasim.quliyev@yahoo.com*

Azərbaycan müstəqillik əldə etdikdən sonra hüquqi, demokratik dövlət quruculuğu yolu ilə getdiyini bəyan etdi. Yeni Konstitusiyanın qəbuluna qədərki dövrdə sosialist dövlət sistemindən hüquqi dövlət quruculuğuna keçid zamanı səriştəsiz kadrların hakimiyyətə keçməsi sayəsində özbaşınalıq, qanunsuzluq hökm sürməyə başladı. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra milli hüquqi dövlət quruculuğu sahəsində əsl inqilabi çevriliş baş verdi. Ölkədə azad seçkilər əsasında yerli özünüidarəetmə və yeni hakimiyyət orqanları təşəkkül tapmağa başladı, insanların hüquq və azadlıqlarının reallaşması təmin edildi, sərbəst fikir ifadəsi, söz azadlığı, sərbəst ictimai birliklərin və qeyri-hökumət təşkilatların yaradılması və fəaliyyətinə dövlət təminat verdi, ədalətli və müstəqil məhkəmələr mövcud oldu, qanunvericilik sistemi sabitləşdi, qeyri-siyasi hüquq tətbiq etmə gerçəkləşdi, müxtəlif demokratik mexanizm vasitələrindən fəal və ardıcıl istifadə edilməklə real xalq hakimiyyəti formalaşdı.

Azərbaycanda bütün orqanların, dövlətin, vəzifəli şəxslərin fəaliyyəti hüquqa, qanuna əsaslanmağa başladı, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin bölgüsü prinsipi, parlamentarizm tətbiq olundu. Bu dövrdə dövlətin və onun vəzifəli şəxslərinin fəaliyyətinə nəzarət edən ictimai institutlar - müstəqil kütləvi informasiya vasitələri, siyasi partiyalar, ictimai təşkilatlar və azad həmkarlar ittifaqları meydana gəldi. Azərbaycanın hüquqi dövlət sisteminin, milli təcrübəsi tədricən Avropa standartlarına uyğunlaşdırır. Bu dövrdə insan hüquqları və azadlıqlarının təmini, azad və ədalətli seçkilərin keçirilməsi demokratik dəyərlər kimi ön plana çəkilir, ombudsman, ictimai televiziya kimi yeni institutlar fəaliyyətə başlayır, qanunvericilik sistemində ciddi dəyişikliklər edilir.

Azərbaycan Respublikası ikinci dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra hüquqi dövlət, vətəndaş cəmiyyəti, demokratik dünyəvi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılması istiqamətini götürmüşdür. Azərbaycanda belə bir sistemin formalaşdırılması müstəqil dövlətimiz qarşısında dayanan ən mühüm vəzifələrdən biri idi. Azərbaycanda hüquqi, demokratik dövlətin formalaşması bir neçə mərhələdən keçdi. Azərbaycan filosofu S.Xəlilov bu mərhələləri belə səciyyələndirmişdir: “Dövlətsizləşmə və dağılma (1992-1993), böhran dövrü (1993), sabitləşmə (1993-1996), yeni dirçəliş üçün potensial toplanması (1996-cı ildən sonra)”[8,s.30].

Akademik R.Mehdiyev “1991-ci ili transformasiyanın üçüncü mərhələsi kimi səciyyələndirərək, 1992-1993-cü illərdə dövlətçiliyin səmərəli inkişafı və cəmiyyətin modernləşməsi imkanının tamamilə aradan qalxdığını” [5] qeyd edir. Müəllif 1993-cü ildə H.Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə səciyyələnən transformasiyanın dördüncü mərhələsində əsil demokratik dəyişikliklər mərhələsinin və hüquqi dövlətin formalaşmasının başlanğıc mərhələsinin başlandığını göstərir: “Yeni demokratik dövlətin əsas prinsiplərinin, vətəndaş cəmiyyəti ünsürlərinin, yeni iqtisadi sistemə, yeni xarici siyasətə istiqamətlənmiş dünyəvi, hüquqi dövlətin prioritetlərinin təşəkkülünün, yeni demokratik təşkilatların qurulması, yeni siyasi

birliklərin yaradılması, siyasi plüralizmin inkişafı və milli ideologiyanın əsas ünsürlərinin formalaşması prosesinin ağlasığmaz dərəcədə mürəkkəb şəraitdə getməsinə baxmayaraq Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamları məhz həmin dövrdə formalaşmışdır" [5,s.41].

Azərbaycan vətəndaşları aparıcı sosial tənzimləyici kimi hüququn dəyərini dərk etdilər, öz subyektiv hüquqlarından fəal istifadə etdilər, hüquq normalarına riayət etdilər, öz hüquqlarını qorumağı bacardılar. Ölkədə xüsusi mülkiyyət, bazar iqtisadiyyatı yarandı, milli-mənəvi və dini dəyərlərə qayıdış, həqiqi vicdan azadlığı, çoxpartiyalıq, söz, fikir azadlığı bərqərar oldu.

Ulu Öndər Heydər Əliyev hüquqi dövlət quruculuğunun formalaşması yollarını belə müəyyənləşdirmişdi: "Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanunun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat və bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır" [1,s.101].

Azərbaycan əhalisinin siyasi mədəniyyəti yüksəldi, dövlət beynəlxalq və milli hüquq çərçivəsində öz səlahiyyətlərini yerinə yetirir, vəzifələrinə ciddi riayət edir. Azərbaycanda dövlət başçısının nəzarəti altında olan demokratik sistem formalaşmışdır. Milli, hüquqi dövlətin formalaşmasını bir neçə mərhələyə: 1988-1992-ci illər, 1992-1993-cü illər, 1993-1995-ci illər, 1995-2003-cü illər mərhələsinə bölən R.Mehdiyev "ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi – 1993-1995-ci illəri "müstəqillik ideyaları və dövlətçilik uğrunda gərgin, amansız mübarizələr, müstəqillik və dövlətçilik şüurunun qələbəsi mərhələsi" kimi səciyyələndirmiş, 1995-2003-cü illəri isə "tammiqyaslı hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu mərhələsi" hesab edir [6,s.254].

Azərbaycanda hüquqi dövlətin formalaşması prosesində hakimiyyət və hüququn vəhdəti problemi prioritet hesab olunur. Ölkədəki hüquqi dövlət qanunun siyasi, iqtisadi məqsədəuyğunluq qarşısında üstünlüyünü, hamının hüquq qarşısında bərabərliyini, xalqın, vətəndaşların və hakimiyyət orqanlarının qeyd-şərtsiz tabe olmasını təmin edir, rəqabətli siyasi sistemə keçid, hüquqi müdafiə təsisatları, hətta məhkəmə, polis, nəzarətçi, xüsusi xidmət orqanları sahəsində islahatlar, təkmilləşdirmələr, konseptual dəyişikliklər baş verdi. Azərbaycanda yeni yaranmış hüquqi dövlət demokratik təsisatların səmərəli, dinamik fəaliyyəti üçün şərait meydana çıxırdı.

Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas təməl prinsipləri müəyyən edildi. Bu: "tarixi varisliyin qorunması; demokratiyanın inkişafı; siyasi plüralizm; qanunçuluq; iqtisadiyyatda sərbəstlik (mülkiyyətin müxtəlif formalarına əsaslanan bazar iqtisadiyyatının inkişafı); azadlıq; insan hüquq və azadlıqlarının qorunması və s. idi" [9,s.325].

Digər bir müəllif, Z.Əsgərov müasir Azərbaycanın hüquqi dövlət quruculuğunun formalaşması və inkişaf prosesini aşağıdakı dövrlərə bölür: "1) Birinci dövr (1991-1993-cü illər); 2) İkinci dövr (1993-cü il iyun-1995-ci illər); 3) Üçüncü dövr (1995-ci ildən bu günə qədər)"[10,s.355].

Hüquqi dövlətin əsas elementi olan hüquq sivilizasiyanın ən böyük nailiyyətlərindən biri olub yüksək ictimai dəyərə malikdir. Vətəndaşların, dövlət və onun orqanlarının qulluqçuların dəqiq ifadə olunan davranış qaydalarının məcmusu olan hüquq ictimai və dövlət quruluşunun əsas kodeksini özündə əks etdirir. Hüquq Azərbaycan cəmiyyətinin sabitliyinə, onun inkişafına xidmət edərək xalqın ləyaqətli həyatı üçün əlverişli şəraiti təmin etdi. Məlum olduğu kimi, qədim dövrlərdən hüquq xeyirxahlıq və ədalətlilik mücəssəməsi kimi formalaşmış və dəyərləndirilmişdir. Cəmiyyətdə insanların davranış və şüurlarına özünün tənzimləyici təsirində o, əxlaq normalarına, dini və mənəviyyat dəyərlərinə əsaslanır.

Göründüyü kimi, hüquq milli-mənəvi dəyərlər sistemilə vəhdət şəklində hüquqi dövlətin əsas nüvəsini təşkil edir. Hüquqi dövlət mülki hüquq və ədalət məhkəməsilə qarşılıqlı əlaqədə inkişaf edir.

Azərbaycan Respublikasında hüquq vasitəsilə ictimai münasibətlər tənzim olunmağa başlandı. Tədricən dövlətçilik bərpa olundu, yeni hüquqi

sistem yaradıldı, yeni mülki məcəllə qəbul edildi. Bununla da hüquqi dövlətin fəaliyyəti üçün qanunvericilik bazası təşəkkül tapdı. Ölkəmizdə hüquqi islahatların özünəməxsus strategiyası və taktikası meydana gəldi. Hüquqi islahatların strategiyası - dəyişikliklər və yenidənqurma yolu ilə demokratik, hüquqi dövləti formalaşdırma oldu.

"Xalq hakimiyyəti", "xalq üsul idarəsi" mənasını daşıyan demokratiya hüquqi dövlətin əsas prinsipidir. ABŞ tədqiqatçısı M.Parenti hüquqi dövlətin əsas prinsiplərindən olan demokratiyaya dövlət idarəetmə sistemi kimi yanaşır, forma və məzmununa görə xalqın, əhalinin geniş təbəqələrinin maraqlarını ifadə etdiyini diqqətə çatdırır: "Dövlət qərarları qəbul edən şəxslər imtiyazlı azlığın mənafeyi üçün deyil, əhalinin əksəriyyətinin maraqları üçün idarə etməlidirlər" [12,s.69]. Tədqiqatçı düzgün olaraq hüquqi dövlətin və demokratik dövlət başçısının xalqın mənafeyinə xidmət etməsini ilkin şərt hesab edir.

Aparılan hüquqi islahatlar üç sahəni: siyasi, iqtisadi və məhkəmə sahələrinin hüquqi təminatını nəzərdə tuturdu. Bütün bunların həyata keçməsi hüquqi dövlət ideyasının nəzəriyyədən təcrübəyə çevrilməsinə gətirib çıxardı. Bununla da Azərbaycan dünyanın qabaqcıl, demokratik ölkələri səviyyəsində hüquqi dövlət quruculuğuna başladı.

Demokratik cəmiyyətdə xalqın milli ləyaqətinin qorunub saxlanılması hüquqi dövlətin inkişafında mühüm əhəmiyyət kəsb edir. "Əvvəla, milli ləyaqət, bir tərəfdən millətin ləyaqətli həyatını, digər tərəfdən isə onun hər bir nümayəndəsinin şüurunda və psixologiyasında öz millətinin və keçmişi, bu günü və gələcəyi barədə hərtərəfli və dərindən mənimsədiyi, dərk etdiyi... təsəvvürlərin mövcudluğu olduğundan, bu hissin fərdi və milli şüura nə dərəcədə möhkəm daxil olmasına diqqət yetirilir [13, s.35-39].

Bütün bunlar Azərbaycan gerçəkliyində hüquqi şüurda və dərketmədə transformasiyalardan xəbər verir. Buna görə də xalqın ruhu ilə hüququn məzmununu, ənənə və müasirliyi düzgün birləşdirmək zərurətə çevrilmişdir. Azərbaycanda qanunçuluq rejimi konkret tarixi kontekstdə inkişaf edir. Burada Azərbaycanın özünəməxsus xalq hakimiyyəti forması yaradılmışdır. "Demokratiyanın təntənəsi altında əhalinin bütün dövlət işlərində həqiqətən bərabərhüquqlu və həqiqətən ümumi iştirakı nəzərdə tutulur" [14,s.229].

Demokratik, hüquqi dövlətin gerçəkləşməsi hamar, sadə proses deyil, olduqca mürəkkəb, ziddiyyətli prosesdir. Ümümmilli Lider Heydər Əliyev ona görə yaradıcı dövlət başçısı hesab edilir ki, o, hətta ən mükəmməl demokratiya modellərinin belə qondarma transplantasiyasını inkar edərək, Azərbaycanın milli mentalitetinə və dövlətçilik ənənələrinə söykənən canlı demokratik rejim qurmaq yolu seçmişdir.

Azərbaycan xalqını idealı hüquqi əsasında hakimiyyət və azadlığın birləşməsini təmin edən demokratiyaya nail olmaqdır.

Azərbaycan hüquqi dövlət modelinin spesifik cəhəti odur ki, burada liberal-demokratik dəyərlər güclü hakimiyyətlə vəhdət təşkil edir. Bunu bəzən konservativ-hüquqi modernləşmənin ifadəsi hesab edirlər. Mühafizəkar liberalizm və liberal mühafizəkarlıq arasında fərqlərə nəzər yetirərək, insan və dövlətin birliyini diqqətə çatdıran akademik R.Mehdiyev Azərbaycanda bir-birini tamamlayan, vahid tam kimi çıxış edən neokonservatizm və azərbaycançılığı Azərbaycanı sivil dövlətlər cərgəsinə çıxaran möhkəm zəmin kimi səciyyələndirir. "Neokonservatizm güclü dövlət və hakimiyyəti, qanunçuluq və ciddi nizam-intizamı, ənənələri və milliliyin qorunub saxlanmasını tələb edir. Bütün müasir siyasi nəzəriyyələr və ideologiyalar öz-özlüyündə həm mühafizəkar, həm də öz-özlüyündə liberaldır. Prezident Heydər Əliyevin müstəqil Azərbaycanı idarə edərkən üstün siyasəti liberal ideologiya oldu" [7, c.127].

Göründüyü kimi, Azərbaycanda hüquqi dövlət quruculuğu mühafiəkarlıqla liberallığın vəhdəti olub əsas vəzifə olaraq insanı, onun tələbatlarını, maraqlarını, hüquq və azadlıqlarını ictimai həyatın mərkəzinə qoyur. Belə yanaşma zamanı dövlətin fəaliyyətində özünüidarəetmə, demokratiya bərqərar olur, cəmiyyətdə insan ali varlıq kimi qəbul edilir. Hüquqi islahatların gedişində ölkədə qanunçuluq və qayda-qanun möhkəmlənir.

Fundamental siyasi, iqtisadi, mədəni-mənəvi potensialına əsaslanaraq Azərbaycan ədalətli, səmərəli hüquqi sistem formalaşdıra bildi. Cəmiyyətdə fəal möhkəm mənəvi dəyərlərə malik, azad yaradıcı potensiala malik insanlardan

ibarət sosial baza yetişdi, güclü, demokratik dövlət hakimiyyəti yarandı ki, bu da ədalətli hüquqi tətbiqetməni təmin etdi. Bir sözlə, cəmiyyətdə şəxsiyyət və vətəndaşların müstəqil fəaliyyətinə şərait yaradan, onların hüquq və azadlıqlarını qoruyan liberal meyarlar və güclü, demokratik hakimiyyət yarandı.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesində qanunun aliliyi ictimai həyatın bütün sahələrinə nüfuz etdi, azadlıq, bərabərlik, plüralizm, çoxpartiyalılıq gerçəkləşdi milli-mənəvi dəyərlərə qayıdış baş verdi, azərbaycançılıq ideologiyası – ümummilli, dövlətçilik ideologiyasına çevrildi. “Azərbaycanın müstəqilliyini müdafiə etmək və möhkəmləndirmək Heydər Əliyevin hakimiyyət fəlsəfəsinin strategiyası və metodologiyası idisə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu isə onun siyasət fəlsəfəsinin başlıca ideyası” oldu [2,s.179].

Beləliklə, Azərbaycanda milli və ümumbəşəriliyin vəhdəti olan spesifik hüquqi dövlət modeli təşəkkül tapdı. Bu modeldə liberal meyarlarla güclü hakimiyyət vəhdət təşkil edir, ictimai həyatın müxtəlif sahələrində azadlıqlar genişlənir, ictimai qayda-qanun yaradan hakimiyyət reallaşır.

Ərazisinin 20%-ni itirmiş, mürəkkəb geosiyasi vəziyyətə malik Azərbaycan üçün güclü prezident hakimiyyəti olduqcu zəruridir. Müstəqil parlament və məhkəmələrin, səmərəli fəaliyyət göstərən icra hakimiyyətləri və hüquq mühafizə orqanlarının mövcud olduğu hüquqi dövlətdə güclü prezident hakimiyyəti mühüm amillərdən biridir. Yalnız belə bir şəraitdə Azərbaycan uğurlu modernləşmə layihələrini və hüquqi dövlət quruculuğunu həyata keçirə bilər. Çünki güclü demokratik hakimiyyət geniş xalq kütlələrinə arxalanır. Qərbin görkəmli siyasi mütəfəkkiri Y.Xabermas siyasi həyatda və hüquq yaradıcılığı prosesində geniş təbəqələrin iştirakına və güclü hakimiyyət, maliyyə və informasiya resurslarına malik olan inzibati və iqtisadi sistem tərəfindən təzyiqlərə vətəndaşların öz maraqlarını qorumalarına üstünlük verir [15,c.25]. Bununla da Y.Xabermas belə bir liberal-demokratik ideyanı inkişaf etdirir ki, qanun onun yaradılmasına iştirak edən və ona tabe olan insanlar üçün mövcuddur.

Ölkə Prezidenti İ.Əliyev hüquqi dövlətin formalaşması və inkişafa başladığı dövrü belə səciyyələndirir: “1993-2003-cü illər Azərbaycan tarixində sabitlik və inkişaf illəri kimi qalacaqdır. Məhz o illərdə Azərbaycanda dövlətçiliyin əsasları qoyuldu, hüquqi dövlət quruculuğu işində çox əhəmiyyətli addımlar atıldı. Siyasi sistem yaradıldı. İqtisadi islahatlar aparılmağa başlandı, Azərbaycan məhz o illərdə dünya birliyinə sürətlə inteqrasiya etməyə başlamışdır və bir sıra beynəlxalq təşkilatların üzvü olmuşdur. Azərbaycanın dünya miqyasında tanınması işində o illər həlledici illər olmuşdur” [3,s.2].

Əslində, hamının qanun qarşısında bərabərliyi prinsipi insanlar arasında üfüqi münasibətləri rasionallaşdıran yeni homogen cəmiyyət yaradır, vətəndaşların qanuna yeni münasibətlərini formalaşdırır. Artıq Azərbaycan Respublikasında insanların deyil, qanunun idarə etdiyi vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesi reallaşmışdır. Azərbaycanda qanunun aliliyi başlıca şərtdir. Bir hüquqi dövlət qururuq və qanun hamı üçün qanun olmalıdır. İstər o, adi vətəndaş olsun, nazir olsun, yaxud da siyasətçi olsun. Ona görə bütün bu məsələlərə həmin prizmadan yanaşmaq lazımdır. Gələcəkdə də əgər kimsə Azərbaycanda qanunazidd hərəkətlər edərsə, şübhəsiz ki, bunun da qarşısı alınacaqdır. Qanun hamı üçün eyni olmalıdır.

Beləliklə, hüquqi dövlətin Azərbaycan modelinin təşəkkülü və formalaşması hər şeydən əvvəl milli gerçəkliyin tələbatından irəli gəlmişdir. Bu prosesə əngəl olan amillərdən ölkə ərazisinin 20 faizdən çoxunu itirməsilə yanaşı, sovet dövrünə xas olan hüquqi şüurun siyasi və iqtisadi dəyişikliklərə manne olması idi. Lakin Azərbaycanın dünya geosiyasi sisteminə inteqrasiyası, siyasət, iqtisadiyyat, hüquq sahələrində dünya standartlarını qəbul etməsi, özünəməxsus milli hüquqi dövlət modelini yaratması onu beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb oldu. Ölkəmizin hüquqi dövlət modeli müəyyən fəlsəfi-hüquqi nəzəriyyə və konstruktiv siyasi hakimiyyətin təşkilinin müvafiq təcrübəsi kimi ümumbəşəri sivilizasiyanın əsaslı nailiyyətlərindən biridir. Azərbaycanın hüquqi dövlət modeli yeni ictimai münasibətlərin məcmuusundan əmələ gəlmiş və dövlət, cəmiyyət, şəxsiyyət arasında hüquqi münasibətlərin xarakterinin prinsipial dəyişikliklərin nəticəsi olaraq

formalaşmışdır. Ölkəmizdə demokratiya ilə qanunçuluq vəhdət təşkil edir, bütün hüquqi qaydalar şəffaflıq standartlarına uyğun gəlir, sabitliyi təmin edir, hüquq yaradıcılığı ardıcıldır.

**Açar sözlər:** *hüquqi dövlət, demokratik dəyərlər, cəmiyyət, vətəndaş cəmiyyəti, qanun*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Əliyev, H. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab -Bakı: Azərnəşr, -1997*

*2. Əliyev, İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, məruzələr, fərmanlar. Avqust 2003-oktyabr 2003/ -Bakı: Azərnəşr, I kitab. -2008*

*3.Əliyev, İ. Azərbaycan müstəqil ölkə kimi böyük uğurla inkişaf edir //Xalq qəzeti. -2010,28 may*

*4. Əliyev, İ.H. Azərbaycanda qanunun aliliyi başlıca şərtdir //-Bakı: Dirçəliş-XXI əsr, -2005*

*5. Mehdiyev, R. XXI əsrdə milli dövlətçilik/R. Mehdiyev. -Bakı: XXI YNE, -2003*

*6. Mehdiyev, R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. –Bakı: YNE, -2000*

*7. Мехтиев, Р. Азербайджан: вызовы глобализации -Баку: "XXI YNE", -2004*

*8. Xəlilov, S. Lider. Dövlət. Cəmiyyət. -Bakı: AUN, -2001*

*9.Əliyev, Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. -Bakı: Qismət, -2003*

*10. Əsgərov, Z. Heydər Əliyev və hüquqi dövlət quruculuğunun əsas prinsipləri // H.Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı: Azərbaycan, -2008. –s.351-362*

*11. Яковлев, В.Ф. Правовое государство: вопросы формирования -Москва: Статут, -2012*

*12. Parenti, M. Seçilmişlər üçün demokratiya. -Bakı: Çaşıoğlu, -2008*

*13. İsayev, H. Azərbaycan ideyası: yaranışı və təkamülü/ H.İsayev,Ə. İbrahimov //Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. -Bakı: Səda,-2006. s. 32-49*

*14. Demokratiya nə deməkdir?//Dirçəliş – xüsusi buraxılış. -Bakı,-2005. s.227-241.*

*15. Кутафин, О.Е. Избранные труды. В 7 томах/ О.Е.Кутафин. -Москва: Проект, -2011. -350 с.*

**Расим Гулиев**

### Особенности становления правового государства в Азербайджане

### РЕЗЮМЕ

Статья посвящена истории правового государства в Азербайджане. Анализируются основные черты правового государства, высказываются разные точки зрения. Утверждается, что в условиях верховенства закона в стране установилась частная собственность, рыночная экономика, возврат к национально-нравственным и религиозным ценностям, истинная свобода совести, многопартийность, свобода слова и убеждений. Изучается необходимость демократических ценностей, делаются обобщения, выдвигаются предложения.

**Ключевые слова:** *правовое государство, закон, демократические ценности, общество, гражданское общество, право.*

**Rasim Quliev**

### Features of the formation of the legal state in Azerbaijan

### SUMMARY

The article is devoted to the history of the legal state in Azerbaijan. The main features of the legal state are analyzed; different points of view are expressed. It is argued that under the rule of law, private property, a market economy, a return to national moral and religious values, true freedom of conscience, a multi-party system, freedom of speech and belief have been established in the country. The necessity of democratic values is studied, generalizations are made, proposals are put forward.

**Keywords:** *legal state, law, democratic values, society, civil society*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

ELDAR ƏMİROV: İRAN-İRAQ MÜHARIBƏSİ (1980-1988)
HƏRBİ-SİYASİ VƏ İDEOLOJİ NƏTİCƏLƏR........................................................................ 5

ЭЛЬВИН ТАЛЫШИНСКИЙ: ИНФОРМАЦИОННОЕ ОРУЖИЕ КАК НОВОЕ
СРЕДСТВО ВООРУЖЕННОЙ БОРЬБЫ....................................................................... 9

NURƏDDİN MEHDİYEV: QƏRBİN AZƏRBAYCANA QARŞI
İNFORMASİYA MÜHARİBƏSİ.................................................................................... 14

## İQTİSADİYYAT

ƏVƏZ BAYRAMOV: RƏQƏMSAL İQTİSADİYYAT: TƏHLÜKƏSİZLİK
PROBLEMİ VƏ ÖLÇÜ METODİKASI.................................................................................. 21

VÜQAR BAYRAMOV: İQTİSADİ İNKİŞAFA NƏZƏRİ YANAŞMALARIN TƏKAMÜLÜ.... 33

KAMRAN ABBASOV: İQTİSADİYYATDA ŞƏFFAFLIĞIN ARTIRILMASINDA VƏ
HESABATLILIĞIN DÜRÜSTLÜYÜNÜN TƏMİN EDİLMƏSİNDƏ AUDİT
FUNKSİYALARININ ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ............................................... 41

RƏŞAD QARAYEV: AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFI VƏ BİZNESİN
STİMULLAŞDIRILMASINDA DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN
SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ.................................................................... 46

ELNURƏ MƏMMƏDOVA: AZƏRBAYCANDA İNVESTİSİYA POTENSİALININ
GÜCLƏNDİRİLMƏSİ VƏ İNFRASTRUKTURUN YARADILMASI PROBLEMLƏRİ......... 51

GÜLSÜM BƏDİRZADƏ: AZƏRBAYCANDA AQRAR SAHƏDƏ İNFORMASİYA-
KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN QANUNVERİCİLİK
BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ.............................................................................. 56

HEYDƏR AĞAYEV: AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ
SIĞORTA SİSTEMİNİN TƏNZİMLƏNMƏSİ VƏ GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ... 62

KƏNAN VƏKİLOV: POSTPANDEMİYA ŞƏRAİTİNDƏ İNNOVATİK
SAHİBKARLIĞIN BİLİK RESURSLARI ƏSASINDA İNKİŞAFININ
STRATEJİ ASPEKTLƏRİ.................................................................................................. 67

VÜQAR KƏRİMLİ: AQRAR SAHƏDƏ İQTİSADİ İDARƏETMƏ
MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARININ ARAŞDIRILMASI,
TƏDBİQİ VƏ ÖYRƏNİLMƏSİ.......................................................................................... 72

## TARİX

HÜSEYN HÜSEYNLİ, FƏRHAD AYDINLI: TÜRKİYƏ-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNDƏ RUSİYA AMİLİ (etnosiyasi proseslər kontekstində)..................... 78

NURANƏ MAZANOVA: XVIII ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏKİ ŞƏHƏRİNİN DAXİLİ TİCARƏTİ HAQQINDA....................................................... 83

## FƏLSƏFƏ

RƏŞAD CABAROV: XIX ƏSRİN SONU XX ƏSRIN ƏVVƏLLƏRİNDƏ PANİSLAMİZM VƏ ONUN QAFQAZDA YAYILMASI........................................................................... 88

ŞƏMS BÜNYATOVA: B. BLANŞARD, N. REŞER VƏ K. LERER HƏQİQƏTİN KOQERENT NƏZƏRİYYƏSİNİN FORMULATORLARI....................................................... 94

AFAQ İMANOVA: ELM VƏ TƏHSİLDƏ GENDER PROBLEMİ.......................................... 99

MƏTANƏT ƏLİYEVA: UŞAQ İNKİŞAFINDA BÖHRAN PROBLEMİ................................. 109

## SOSİOLOGİYA

ƏLİYAR ORUCOV: AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN İDEOLOJİ ƏSASLARININ İNKİŞAF İSTİQAMƏTİ................ 114

RASİM QULİYEV: AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏTİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ................................................................................ 120

**Təsisiçi:**
**“Kaspi MY” MMC**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 500**
**Sifariş № 508**

**“Elm və təhsil” nəşriyyat-poliqrafiya**
**müəssisəsində çap olunub**

**Founder:**
**“Kaspi PD” MMC**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 500**
**Order № 508**

**Published by**
**“Science and Education” publishing house**